AZƏRBAYCAN MILLI ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

ZÜMRÜD MƏNSİMOVA

# ZAQATALA AŞIQ MÜHİTİ

BAKI – 2014

**Elmi redaktoru:** **Qalib SAYILOV**
filologiya üzrə fəlsəfə doktoru

**Rəyçilər:** **Hüseyn İSMAYILOV**
filologiya üzrə elmlər doktoru,
professor
**Əziz ƏLƏKBƏRLİ**
filologiya üzrə fəlsəfə doktoru,
dosent
**Ləman SÜLEYMANOVA**
filologiya üzrə fəlsəfə doktoru

**Zümrüd İbrahim qızı Mənsimova. Zaqatala aşıq mühiti,** Bakı, 2014, 216 səh.

Monoqrafiyada Zaqatala aşıqlarının həyat və yaradıcılıqları tədqiq olunmuş, burada tarixən mövcud olan tənbur və saz paralelliyi araşdırılmışdır. Əsərdə bu mühitdə yaranmış dastanlardan da bəhs olunmuşdur.

folklorinstitutu.com

Ə 4603000000 Qrifli nəşr
098 – 2014

© Folklor İnstitutu, 2014

## BAŞLIQLAR

**Azərbaycan aşıq sənətinə dəyərli töhfə (Qalib Sayılov)**....................................................4
**Giriş** ..........................................................................................9

**I Fəsil. Zaqatala aşıq mühitinin tarixi**
Zaqatalanın coğrafiyası, etnik-mədəni tərkibi və aşıq mühitinin formalaşma tarixi.....................................13
Zaqatala aşıq mühitində saz-tənbur ifaçılıq əlaqələri.......19
Zaqatala aşıqları (XVIII əsrin sonu – XX əsrin ortaları)....35
Qaçaq aşıqlar ....................................................................71

**II Fəsil. Çağdaş Zaqatala aşıq mühiti**
Çağdaş Zaqatala aşıqları...................................................81
El şairləri .........................................................................155

**III Fəsil. Zaqatala aşıq mühitində dastançılıq ənənəsi**
Ənənəvi dastanların Zaqatala variantları..........................172
Regional dastanlar ...........................................................179

**Nəticə** ............................................................................192
**Ədəbiyyat** .....................................................................196
**Zaqatala aşıq mühitinə mənsub sənətkarların elmi katalqou**...................................................................205
**Söyləyicilər haqqında məlumat**....................................213

## AZƏRBAYCAN AŞIQ SƏNƏTİNƏ DƏYƏRLİ TÖHFƏ

Azərbaycan aşıq sənətinin uzaq keçmişlərdən soraq verən qədim tarixi vardır. Lakin uzun zaman bu sənətin öyrənilmə və öyrətmə metodu öz məhvərindən uzaq olmuşdur. Əlimdəki monoqrafiyanı oxuduqca və bu sətirləri yazdıqca yadıma M.Ə.Rəsulzadənin “Körpü çaydan uzaq düşüb” məqaləsi düşdü. Uzun zamanlar, yəni çar rusiyası işğalından, fars basqısından və sovet imperiyasının əzici müdaxiləsindən başlayaraq tariximiz, mədəniyyətimiz və s. öz mahiyyətindən çox-çox kənarda “öyrənilmişdir”. Şükürlər olsun ki, elə bir xoşbəxt anlar yetişdi ki, ölkəmiz və ölkədaşlarımız hürr qazandı. Anamızın laylasını, atamızın cəsarətini olduğu kimi yazıb-yaratmaq nəsibimiz oldu. Mədəniyyətimizin, sənətimizin təbii özəlliklərini xas olaraq araşdırıb dünya oxucusuna çatdırılması problemi dəf olunmuşdur. Zaman-zaman tariximiz, sənətimiz, folklorumuz və etnoqrafiyamız sifarişli “bülbül”lərlə yanaşı qeyrətli, vicdanlı, elcanlı, əsl vətəndaş aydınlar tərəfindən də yazılıb günümüzə əmanət olaraq gəlib çatmışdır. Beləlləri çox zaman repressiyaya uğramış, lakin qanı və həyatı bahasına da olsa əsl həqiqəti yazıb, haqqı söyləməyi bacarmışlar.

Elmi ictimaiyyətə təqdim olunan bu dəyərli monoqrafiya filologiya üzrə fəlsəfə doktoru Zümrüd İbrahim qızı Mənsimovanın tələbəlikdən bəri zəngin və məhsuldar axtarışlarının bəhrəsidir. Zümrüdün qələmə aldığı əsər sıradan bir tədqiqat deyil, Azərbaycan aşıq sənətinin zənginləşməsinə həsr olunmuş dəyərli bir kitabdır. Zümrüd xanımla xeyli vaxt bir şöbədə çalışmışıq. O, zəhmətkeş alimdir. Problemi dərindən çözərək predmeti tam əhatə edə bilmək üçün Zümrüd yazdığı mühitin coğrafiyasını birər-birər gəzmiş, hər ocaqdan götürdüyü sıcaq-sıcaq “hənirti”ni öz nəfəsinə qatmış, xalq çeşməsindən süzülüb gələn inciləri zərrə-zərrə, qətrə-qətrə, damla-damla qəlbindən, könlündən keçirərək kitaba köçürmüşdür. Aşıq ədəbiyyatına, folklora olan dərin sevgisi mövzunu tam aprobasiya etməsinə imkan vermişdir. Alimin təqdim etdiyi kitab “Zaqatala aşıq mühiti” adlanır. Zümrüd özü də əslən zaqatalalıdır. Bir araşdırıcı olaraq onu bu problem düşündürmüşdür. Düşüncələ-

rinin izi ilə çox dəyərli bir mövzunu çözmüş və öz ampluasında filoloji düşüncədə bəm bir rezonans yarada bilmişdir. İndiyə qədər Zaqatala aşıq sənəti əlahiddə öyrənilməmişdir. Gah Şirvan aşıq məktəbinin bir mühiti kimi, gah da digər məktəblərin "yedəyində" təqdim olunmuşdur. Gərgin zəhməti, arı kimi incə və zövqlü axtarışları sayəsində Zaqatala aşıqlığının müstəqil mühit olduğunu elmi və praktiki sübut edə bildi. 40-dan çox aşığın, özəl olaraq bölgəyə xas dastanların heç bir məktəb və mühitdə nəzərə çarpmayan aşıq vücudnamələrinin (Anadolu və Şirvan aşıq məktəbləri istisna olmaqla) yalnız burada təşəkkül tapdığını inamla araşdırıb sonuçladı. Eləcə də "Qaçaq Aşıqlar" termininin işlədilməsi ilkin və özəl olaraq Zümrüd İbrahim qızına məxsus olmuşdur. Xalq ədəbiyyatında və folklorşünaslıq elmində aşığın müxtəlif önəmli xarakteri təhlil edilib sürəkli şəkildə təqdim olunma mexanizminin mövcudluğu bu və digər alimlərin araşdırmalarında qeyd olunmuşdur. Lakin aşığın vətəndaş statusu, işğala və işğalçılara qarşı cihadı alimin yeni monoqrafiyasında əks olunmuşdur. Döyüşçü aşıq statusu "Misri" və "Cəngi" havalarından bəllidir, lakin bir obraz, ədəbi qəhrəman olaraq təqdim olunmamışdır. Bütün zamanlarda zülmə, haqsızlığa qarşı aşıq sazı və sözüylə çıxmışdır. Belə ünlü sənətkarlardan biri də Mirzə Bilal Şirvanlı olmuşdur ki, o da 1937-ci ildə repressiya olunaraq güllələnmişdir. Zaqatala aşıq mühitindən isə bir neçə qaçaq aşıq çıxmışdır ki, bu da mühitin fərqli özəlliklərindən ibarət olan bəlli bir çeşiddir. Zümrüdün bu təqdimatı təkcə tematik orijinallığı ilə fərqlənmir, həm də düşüncə olaraq, fikir olaraq təkamül modeli səviyyəsində gələcək nəsillərə ötürülür.

Əsəri izlədikcə müəllifin bir vətəndaş alim olması bəlli olur. Zaqatala aşıqlarından bəlkə onlarla tədqiqat işi yazılıb, lakin Zümrüd xanım mövzuya qlobal rakursdan yanaşıb, bütün xas özəllikləri uğurla incələyə bilib. Bu onun araşdırıcı məharətindən irəli gəlir. O, böyüdüyü, boya-başa çatdığı bölgəni sevərək, vətəndaş-alim prizmasından yanaşaraq tarixə "qovuşdurdu". Doğru deyirlər ki, hər kəs yaşadığı bölgədən maddi və mənəvi status ölçüsündə sorumludur. Yola düşmüş bir daşı, bir çöpü belə götürüb kənara atmaq özü xidmətdir. Yurdunun, obasının ulusunun inkişafına, xoş-

bəxtliyinə, rifahına xidmət etmək “mən insanam” deyən hər kəsin insanlıq borcudur. Bu “borcu” Zümrüd artıq ödəmişdir. Onun “Zaqatala aşıq mühiti” əsəri alim-vətəndaş həqiqətini düşünüb-daşınmaq qavramını yaşadan ənənələrdəndir. Bu əsər qısa zaman kəsiyində hasil ola bilməz, nə qədər sürətli düşüncəyə, iti hafizəyə malik olsan belə bir mühiti öyrənməyə uzun zaman lazımdır. O, xeyli araşdırmalar aparıb, mövzuya təkrar-təkrar dönüb. Bəlkə hər bir aşığın evinə, ocağına on dəfələrlə gedib-gəlib. Bir sözün, ibarənin, ifanın iziylə kilometrlərlə yol gedib. Tutduğu yolun ərkan yolu, ədəb yolu olduğunu anlayıb, daha sidqilə bağlanıb. O yol onu çox qədimlərə aparıb. Əcdad mədəniyyətinə, törə prinsiplərinə yönəlik kültürün alt qatlarına vaqif edib. Yükünü mərifətdən və irfandan tutub, ona görə də qayım bir iş ortaya qoya bilib. Gənc olmasına baxmayaraq, bu yolda mətin və iradəli olub. Yolun çətinliyindən qorxmayıb, illərlə səbrlə, səhmanla işinin peşindən çəkilməyib, suyunu içdiyi, ormanlarında gəzdiyi bölgənin sənət xarizmasını illərlə öz duyğularından yaratmış, elə “həmin səbəbdən də doğma saz-söz məktəbinin sanballı lövhəsini təqdim etməyi bacarmışdır”. O, “Zaqatala aşıq mühiti” əsəri üzərində işlərkən folklorşünaslığın nəzəri problemlərini də dərindən mənimsəmişdir. Kitabı oxuduqca müəllifin milli folklorşünaslığı və dünya folklorunun nəzəri fikrini öyrəndiyi hiss olunur. Araşdırmalarının yetərli olması üçün Zümrüd qədim türk mifologiyası, onun özəl prinsip və xüsusiyyətlərini – meydana gəlmə və törəmə istiqamətlərini, neolit panteonunu, əcdad kultu və ilkin mədəniyyətləri öyrənmişdir. Folklorşünaslıqda diqqəti çəkən, onu inkişafa aparan meyl və olayları, sözün struktur-semiotik vahidinin yaranması özəlliklərini, nitqə qədərki ünsiyyət vasitələrini, mərasim, ritual, rudimentlə bağlı yaranan kiçik janrları, xalq oyun və tamaşalarını, lirik, epik və dramatik üslubları və onların törəmə prinsiplərini dərindən öyrənməsi yazdığı kitabın daha dəyərli olmasına səbəb olmuşdur. Bütün bunlara rəğmən araşdırıcı çətin bir elmi vəzifənin öhdəsindən gəlmişdir. Zaqatala aşıq mühitini zəngin tarixi postulatları və möhtəşəmliyi ilə işıqlandırmışdır. Kitab giriş və üç fəsildən ibarətdir. Birinci fəsildə Zaqatala aşıq mühitinin tarixi zəngin-

liyi öz əksini tapır, burada tədqiqatın probleminin həllinin ümumnəzəri səviyyəsini hədəf götürür. Bu yöndən müəllif Zaqatala aşığının tarixi özünəməxsusluğunu ifaçılıqla bağlı şərh edir. Mühiti fərqləndirən əsas cəhət saz və tənbur ifaçılığıdır. Bu iki ifaçı tipinin Zaqatala aşığında birləşməsi buranın özəl mühit olmasını dəyərləndirir. Kitabın ikinci fəsli "Çağdaş Zaqatala aşıq mühiti" adlanır. Müəllif araşdırdığı tarixi dönəmin yaradıcılıq arsenalını analiz edərək qeyd edir ki, çağdaş Zaqatala aşıq mühiti Varxiyanlı Məhəmmədlə başlanır. O, həm də Zaqatala aşıqlarının ustadı hesab olunur. Zümrüd xanım dövrü xronoloji ardıcıllıqla təhlil edir.

Tədqiqat zamanı o da aşkarlanmışdır ki, Zaqatala aşıqları ənənədən gələn dastanlarımızı hafizələrində yaşatmış və xalqa çatdırmaqla yanaşı, həm də yeni dastanlar yaratmışlar. Bu dastanlar həm tarixi keçmişimizdə, həm də bu günümüzdə baş verən ictimai-siyasi və məişət hadisələrilə bağlı yaranmışdır. Məsələn, bu gün el arasında Qaçaq Hüseyn kimi tanınan Aşıq Hüseyn barəsində söylənilən rəvayətlər əsasında sonralar Zaqatala aşıqları arasında "Aşıq Hüseynin dastanı" adı ilə ifa olunan dastana da rast gəlirik. Aşıq Mədətin zaqatalalıların sosial həyat tərzini, məişətini, dünyagörüşlərini əks etdirən "Aşıq Mədət və Güleyşə" və həyatı haqqında tam avtobioqrafik məlumat verən "Aşıq Mədət və Tale", "Aşıq Mədət və Bəhrinaz" və s. adlı el arasında sevilən dastanları da mövcuddur. Aşıq Valehin isə Qarabağ uğrunda gedən savaşı əks etdirən məhəbbət və qəhrəmanlıq motivləri üzərində yazdığı "Mətin və Riyalə" dastanı vardır. Adları çəkilən bu dastanlar butavermə, regional çalarları əks etdirmə, zaman və məkan xronotopu baxımdan maraq doğurur. Aşıq Mədətin "Aşıq Mədət və Tale" dastanında əvvəldən sona kimi simvolik obrazın bir çox funksiyalarda çıxış etməsi dastan kompozisiyası, obrazlar sistemi və dastan poetikası baxımından Azərbaycan dastançılığında orijinal hadisədir.

Təqdirəlayiq haldır ki, müəllif tədqiq etdiyi dövrün aşıqlarından danışarkən təkcə onların həyat və yaradıcılığını təsvir etməmişdir, həmçinin tədqiq etdiyi dönəmi dinamik, inkişafda olan proses kimi bir çox vacib özəllikləriylə təqdim edə bilmişdir.

Bütün növ xalq yaradıcılığının əsas kriteriyasını nəsildən-nəsilə ötürülən ənənəvi normaların sabitliyi, dəyişməzliyi təşkil edir. Buna görə də xalq nəğməkarı özünün bütün improvizasiya imkanlarını və ustalığını ənənənin qəbul olunmuş normaları çərçivəsində reallaşdırmaq məcburiyyətindədir. P.A.Qrintserin qeyd etdiyi kimi, epik söyləyicinin əsas vəzifəsi də dinləyici üçün tanış, ənənəvi olan hekayəti ona tanış, ənənəvi yolla nəql etməkdir və uğurlu, fasiləsiz ifa üçün ifaçı şifahi yaradıcılıq texnikasına, başqa sözlə, ənənəvi dil, ənənəvi tematika, ənənəvi kompozisiya fəndlərinə tam yiyələnməlidir.

Diqqətəlayiqdir ki, epos poetikasının bu universal qanunauyğunluğu Zaqatala folklor mühiti üçün də səciyyəvidir. Zaqatala folklor mühitində dastançılıq ənənələri yeni deyildir. Bölgədə dastançılığın "ənənəvi dili", "ənənəvi tematikası və ənənəvi kompozisiya fəndləri" formalaşmış və bölgədəki digər mühitlərə də öz təsirini göstərmişdir.

Səbr və təmkinlə yazdığı monoqrafiyada aşıq poeziyasının, aşıq irsinin çağdaş dönəmdə toplanma və nəşri problemlərinə diqqət yetirən Zümrüd xanım Zaqatala aşıq mühitinin öyrənilməsində son dövrün nəşr prinsiplərinə də əsaslandığı hiss olunur. Zümrüd İbrahim qızı qarşısına qoyduğu məsuliyyətli işin öhdəsindən layiqincə gəlmiş, Azərbaycan aşıq sənətində yeni bir səhifə açmışdır. Bu onun gənc yaşlarından folklor elminə verdiyi dəyərli töhfədir.

**Qalib SAYILOV**
*AMEA Folklor İnstitutunun böyük elmi işçisi,*
*filologiya üzrə fəlsəfə doktoru*

# GİRİŞ

Azərbaycan aşıq sənətinin tam şəkildə öyrənilməsi üçün ayrı-ayrı mühitlərin araşdırılması və tədqiqata cəlb olunması məqsədəuyğundur. Bu günə kimi bəzi mənbələrdə Zaqatalada yaşayıb-yaradan bir sıra yaradıcı və ifaçı aşıqların şeirlərindən nümunələr verilsə də, ayrılıqda Zaqatala aşıq mühiti tədqiqata cəlb olunmamışdır. Bu xüsusiyyət etnik-mədəni tərkibinin rəngarəngliyi ilə seçilən Zaqatala aşıq mühitinə, onun regional çalarlarına kompleks yanaşma zərurətini yaradır. Azərbaycan aşıq sənətinin mühitlər üzrə öyrənilməsi orada baş verən tarixi, etnik-mədəni prosesləri izləmək, el sənətkarlarının yaradıcılığını müqayisəli şəkildə araşdırmaq, konkret mühitin digər aşıq mühitləri ilə fərqli və oxşar xüsusiyyətlərini ortaya çıxartmaq imkanı verir. Aşıq sənətinin ayrı-ayrı mühitlər üzrə öyrənilməsi gələcəkdə ümumazərbaycan aşıqlarının elmi kataloqunun yaranmasına, sənət şəcərələrinin doğru-düzgün araşdırılıb sıralanmasına da kömək edəcəkdir.

Monoqrafiyanın obyekti Zaqatala aşıqlarının poetik irsini bütövlükdə əhatə edir. Buraya Zaqatala aşıqlarının müxtəlif dövrlərdə çap olunmuş şeirləri və rayon ərazisindən topladığımız folklor nümunələri daxildir.

Tədqiqatın predmeti Zaqatala aşıq mühitidir. Bu mühitə aid sənətkarların digər aşıq mühitləri ilə münasibətləri, ideya-məzmun özəllikləri, dastan yaradıcılığı və sənətkarlıq xüsusiyyətləri tədqiqatın predmeti olaraq götürülmüşdür.

Tədqiqatın başlıca məqsəd Zaqatala aşıq mühitinin bütöv halda araşdırılmasıdır. Eyni zamanda mühitin tarixi-mədəni səviyyəsini araşdırmaq, onun regional xüsusiyyətlərini öyrənmək də əsas məsələlərdəndir. Bu məqsədlə qarşıya, əsasən, aşağıdakı vəzifələr qoyulmuşdur:

– Zaqatala aşıq mühitinin tarixi-mədəni səviyyəsini, regional çalarlarını müəyyən etmək;

– Zaqatala aşıq mühitinin müasir vəziyyətini araşdırmaq;

– Zaqatala aşıq mühitinin özünəməxsus xüsusiyyətlərini araşdırmaq, yeri gəldikcə bu mühitin digər mühitlərlə oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək;

– Regionun coğrafi, etnik-mədəni tərkibini, eləcə də burada məskunlaşan azsaylı xalqların Zaqatala aşıq mühitindən hansı səviyyədə bəhrələnməsini və onların bu mühitdəki iştirak dərəcəsini araşdırmaq;

– Bu mühitdə əsrlərcə mövcud olan tənbur musiqi alətinin yerini, sazla paralel inkişaf prosesi keçirməsini, tənburla söylənilən haylaları və havaları tədqiqata cəlb etmək;

– Ayrı-ayrı ustad aşıqların, el şairlərinin (Aşıq Camalın, Aşıq Əlinin, Çobankollu Kazımın, Aşıq Mədətin, Aşıq Dalğının, el şairi Ramazanın, Xəstə Əhmədin və başqalarının) yaradıcılıqlarını üzə çıxartmaq, el arasında bu sənətkarlar barəsində dolaşan aşıq rəvayətlərini, onların yaratdıqları dastanları araşdırmaq;

– Zaqatala aşıq mühitinin qaçaqçılıq dövrü aşıqlarının həyat və yaradıcılıqlarını yaşadıqları dövrdə ictimai-siyasi hadisələrlə əlaqələrini müəyyənləşdirmək;

– Aşıq şeiri üslubunda yazıb-yaradan zaqatalalı el şairlərinin yaradıcılıqlaını tədqiq etmək;

– Klassik dastanlarımızın Zaqatala variantlarını və Zaqatala aşıqlarının düzüb-qoşduqları dastanları araşdırmaq və s.

Zaqatala aşıq mühitinə aid nümunələrin indiyədək toplanmasına çox az təsadüf edilir. Bu mühitdə yaşayıb-yaradan bəzi aşıqların adları SMOMPK dərgisində, varxiyanlı Aşıq Məhəmmədin, Aşıq Dibronun bəzi şeirləri müxtəlif vaxtlarda çıxan «Aşıqlar», «El şairləri», (15,153-155; 80, 249; 40, 38-39) və bir çox başqa kitablarda verilmişdir. Mühiti ətraflı tədqiqata cəlb edən prof. - P.Əfəndiye-vin Şəki, Qax, Zaqatala rayonlarının folklorunun toplanmasında böyük xidməti olmuşdur. Zaqatala bölgəsində folklorun toplanılıb nəşr edilməsində AMEA Folklor İnstitutunun da rolu böyükdür. 2006-cı ildə AFA silsiləsinin XIII kitabında Şəki-Zaqatala ərazisində qeydə alınmış folklor mətnləri ilə yanaşı, ayrı-ayrı aşıqların şeirlərindən də nümunələr əks olunmuşdur (21, 45-49). Zaqatalalı Q.Şabanov və H.İsmayılovun birgə hazırladıqları

«Zaqatala aşıqları» kitabı da ayrıca qeyd olunmalıdır. Bütün bunlarla yanaşı, biz 2000-2009-cu illər ərzində Zaqatala ərazisində ezamiyyətdə olduğumuz zaman xeyli sayda folklor materialları, o cümlədən aşıq yaradıcılığına dair nümunələr toplamışıq. Araşdırmada həm indiyə qədər çap olunmuş, həm də tərəfimizdən qeydə alınmış aşıqların həyat və yaradıcılıq irsləri tədqiqata cəlb olunmuşdur.

Mövcud elmi-nəzəri ədəbiyyatda mövzunun bəzi məqamlarına toxunulmuşdur. Bu baxımdan S.Paşayevin «Tənbur və Tala mahnıları» məqaləsini, A.Nəbiyevin «Azərbaycan xalq ədəbiyyatı», «Azərbaycan aşıq məktəbləri» kitablarında Zaqatala aşıq mühiti ilə bağlı verilmiş yığcam məlumatları qeyd etmək olar. Lakin deməliyik ki, Zaqatala aşıq mühitinin regional xüsusiyyətlərinin kompleks halda öyrənilməsinə, ayrı-ayrı aşıqların həyat və yaradıcılıq irsinə, tənbur-saz əlaqələrinin inkişaf paralelliyinə həsr olunmuş monoqrafik araşdırma mövcud deyildir. İlk dəfə bu tədqiqatda sadaladığımız məsələlər ətraflı şəkildə araşdırmaya cəlb olunmuşdur.

İlk dəfə olaraq bu əsərdə Zaqatala aşıq mühiti tədqiqata cəlb olunmuşdur ki buda əsərin başlıca elmi yeniliyidir. Zaqatala aşıqlarının, el şairlərinin həyat və yaradıcılıq irsinin, onların yaşadıqları dövrün ayrılıqda araşdırılmasına, etnik, etnoqrafik münasibətlərin öyrənilməsinə, aşıq sənəti müstəvisindəki təzahürünün aşkarlanmasına ilk dəfə bu tədqiqatda rast gəlinir. Monoqrafiyanın başlıca elmi yeniliyi də ilk növbədə bu tədqiqatın monoqrafik araşdırma olması ilə bağlıdır. Tədqiqatın elmi yenilikləri aşağıdıkı məsələləri əhatə edir:

– Zaqatala aşıq mühiti olaraq müəyyənləşmişdir.

– Aşıq Hüseyn, Aşıq Valeh və s. ustadların əsərləri, eləcə də tənbur ifaçıları, tənburda söylənilən haylalar ilkin olaraq sistemli şəkildə araşdırılaraq tədqiqata cəlb olunmuşdur;

– İlk dəfə bu araşdırmada Zaqatala aşıq mühitinin regional xüsusiyyətlərinə kompleks halında yanaşılmışdır;

– Aşıq Mədətin simvolik obrazlarla deyişərək dastan yaratması, Aşıq Cahangir Dalğının çox təxəllüslülüyə meyli, məclislə-

rin əvvəldən sonadək iki aşığın bir-birilərini əvəzləyərək aparmaları, qaçaqçılıq hərəkatının ustad sənətkarların həyat və yaradıcılıqlarına təsiri araşdırılmışdır;

– Zaqatala aşıq mühitində tənburla sazın paralel inkişafı, oxşar və fərqli xüsusiyyətləri tədqiq olunmuşdur;

–Əsərdə Zaqatala aşıqları tərəfindən yaranmış bədii folklor mətnləri (dastan, rəvayət, şeirlər və s.) aşıq ifaçılığı mədəniyyəti ilə əlaqəli şəkildə öyrənilmişdir;

– Zaqatala aşıq mühitində yaşayıb-yaradan el sənətkarlarının hər birinin ayrılıqda müraciət etdiyi mövzular yaşadıqları zamanın gerçəklikləri fonunda araşdırılmışdır;

– Ayrı-ayrı el sənətkarlarının dastan yaradıcılıqları tədqiq edilmiş və bu əsasda epik ənənəyə yaradıcı münasibətin səviyyəsi müəyyənləşmişdir.

Zaqatala aşıq mühitindən toplanmış, istər tarixən yaşamış, istərsə də bu gün yaşamaqda olan el sənətkarlarının elmi kataloqunun verilməsi də monoqrafiyanın elmi yeniliklərindən biridir. Burada araşdırılan aşıq şeiri nümunələri, aşıq rəvayətləri, dastanlar və bir sıra folklor materialları ilk dəfə olaraq elmi-nəzəri təhlilə cəlb edilmişdir.

Tədqiqatın metodoloji əsasında aşıq sənətinin öyrənilməsi sahəsində Azərbaycanda və türk dünyasında əldə edilmiş nəzəri və təcrübi biliklər durur.

Bütün bu tədqiqatların nəzəri-metodoloji təcrübəsi və öz nəzəri fikirlərimiz əsərdə tətbiq olunmuş və yeni nəticələr əldə edilmişdir.

Zaqatala aşıq mühitinə həsr olunmuş bu tədqiqatın nəticələri özünə uyğun nəzəri və praktik tətqiqolunma imkanlarına malikdir. Bu monoqrafiya nəzəri əhəmiyyəti ilk növbədə onun nəzəri-metodoloji təcrübəsindən ayrı-ayrı aşıq mühitlərinə dair aparılacaq tədqiqatlarda istifadə imkanları ilə şərtlənir.

# I FƏSİL

# ZAQATALA AŞIQ MÜHİTİNİN TARİXİ

## Zaqatalanın coğrafiyası, etnik-mədəni tərkibi və aşıq mühitinin formalaşma tarixi

Şifahi xalq ədəbiyyatının janr özünəməxsusluğunu, milli adət-ənənələrini bu gün də qoruyub saxlayan, xalq sənətini zaman-zaman yaşadan, formalaşdıran mühitlərdən biri də Zaqataladır. Bu mühitin tarixən müəyyən ənənələrə malik olması, ustad və ifaçı aşıqları ilə seçilməsi Zaqatala aşıq mühitindən kifayət qədər söz açmağa imkan verir. Zaqatala aşıqları xalqın şad günündə (el bayramları, toy məclisləri), həmişə xalq arasında olmuş, xoş avazları, şən havaları ilə elin-obanın ruhunu oxşamış, xeyir-dualarını xalqdan əsirgəməmişlər. Folklorşünas alim E.Məmmədli aşıq sənətinə aid araşdırmalarında qeyd edir ki, bu sənət formalaşdığı dövrdən, insan aləmini, onun istək və arzularını, ağrısını, acısını, sevincini, kədərini, sevgi və iztirablarını tərənnüm edir (73, 10-30). Zaqatala aşıqlarından bəzilərinin şeirlərinə ayrı-ayrı dərgilərdə təsadüf edirik. Bu mühitdə yaşayıb-yaradan aşıqların şeirlərinin mətbuatda az çap olunması, kifayət qədər tanınmaması, bu günə kimi elmi tədqiqatın aparılmaması, tam şəkildə araşdırılmaması ilə əlaqədar olmuşdur. Zaqatala aşıq mühitinin hələlik bizə məlum olan, əsərləri zəmanəmizə qədər gəlib çatan ilk aşığı XVIII əsrin sonu, XIX əsrin 60-70-ci illərinə kimi yaşamış varxiyanlı (indiki Bəhmədli) Aşıq Məhəmməddir. Şübhəsiz ki, varxiyanlı Məhəmmədin bir sənətkar kimi yetişməsi heç də təsadüfi deyildi. Ola bilsin ki, burada Aşıq Məhəmmədə qədər çox aşıqlar yaşayıb-yaratmışlar. Onların yaradıcılıq irsləri günümüzə gəlib çatmadığı üçün tədqiqata cəlb olunmamışdır. Aşıq Məhəmmədin dövründə onunla yanaşı, varxiyanlı Aşıq Həsən, şagirdləri Aşıq Qurban və Aşıq Təmaz da yaşayıb-yaratmışlar. Sonrakı dövrlərdə isə Aşıq Arabın, Kamal təxəllüsü ilə yazan talalı Aşıq Dibronun, Aşıq Bəkirin, yengiyanlı Aşıq Əlixanın, Aşıq Sarətin, suvagilli Kor Nəzirin, carlı Aşıq Könlünün, əliabadlı Aşıq Hüseynin, Aşıq

Həsənin, Aşıq Camalın, zaqatalalı Aşıq Camalın, Aşıq Yusifin, varxiyanlı (indiki Bəhmədli) Həsənin, Cumanın, Cahangir Dalğının, Aşıq Mədətin və başqalarının adlarını çəkmək olar. Zaqatala aşıqlarının fəaliyyəti yalnız boya-başa çatdıqları ərazi ilə məhdudlaşmayıb, eyni zamanda vətənimizin ayrı-ayrı bölgələri və ondan kənarda – Gürcüstan, Rusiya, Dağıstan ərazisində də məşhurlaşmışdır. Zaqatala aşıq mühitinin bəzi nümayəndələrinin adlarına ara-sıra mənbələrdə də rast gəlirik. 1930-cu illərin mənbələrində Zaqatala aşıqlarından mosullu İbrahimin, talalı Hacı Muradın, qandaxlı Molla Orucun, kəpənəkçili Murtuza Əlinin, Aşıq Ərəbin, zəyəmli Aşıq Bayramın adları çəkilir (80, 54).

Əgər biz bu mühitdə istər tarixən, istərsə də çağdaş dövrümüzdə yaşayıb-yaratmış, yüksək sənətkarlıq xüsusiyyətləri ilə tanınmış, yaddaşlara həkk olunmuş, ustad, ifaçı aşıqların həyat və yaradıcılıq irslərindən söz açacağıqsa, əvvəlcə, bu sənətkarların yaşadığı ərazinin etnik-coğrafi, mədəni xüsusiyyətlərindən danışmalıyıq. 1930-cu ildə yaranmış Zaqatala inzibati rayonu Azərbaycan Respublikasının şimal-qərbində, Böyük Qafqaz sıra dağlarının cənub ətəklərində, Alazan-Əyriçay vadisində yerləşir. Ərazisi 1348 $km^2$ olan Zaqatala rayonu cənubdan Gürcüstanla, şimaldan Dağıstanla, qərbdən Balakən, şərqdən Qax rayonu ilə həmsərhəddir. 68 kənddən ibarət olan rayonun ən iri yaşayış məntəqələri Zaqatala şəhəri, Əliabad qəsəbəsi, Muxax, Yuxarı Tala, Danaçı kəndləridir. 49%-ni meşəliklər təşkil edən əsrarəngiz təbiətə malik olan rayon ərazisindən 7 çay axır. Alazan çayı, Katex çayı, Tala çayı, Təndir çayı, Qara çay və s. Rayonda 110 minə yaxın əhali yaşayır. Əhalisinin böyük əksəriyyəti Azərbaycan türkləridir. Lakin Zaqatalada azsaylı xalqlar da yaşayır. Bura avarlar, yengiloylar, saxurlar və s. daxildir. Rayonun etnik tərkibinə gəlincə, etnoqraf alim Məhəbbət Paşayeva öz tədqiqatlarında burada skif, sak, hun, xəzər, bulqar, savir, eyni zamanda gel, leq, uti və s. kimi qədim alban tayfalarının izlərinə rast gəlindiyi bildirilir (89, 14). Bu ərazidə yaşayan avarlar, əsasən, dağlıq yerlərdə Car, Masex, Maqov, Cimcımax və Paşanda, saxurlar isə Sabunçu, Suvagil,

Gözbarax, Lahıc, Yengiloylor Mosul, Yenqiyan, Əliabad kəndlərində azəri türkləri ilə qarışıq məskunlaşıblar.

Respublikamızın ərazisində yaşayan azsaylı xalqlar xalqımızın musiqi folklorundan təsirlənmiş və bu, ayrı-ayrı hallarda onların şeir və musiqisində ikidillik hadisəsini meydana gətirmişdir. Bu xalqların hər biri Azərbaycan türkləri ilə qaynayıb-qarışmış, ortaq bir mədəniyyətə malik olmuşlar. Folklorşünas alim A.Əhmədliyə görə, «Azərbaycanın müxtəlif bölgələrində məskunlaşmış azsaylı xalqlar yerli əhaliyə qarışmış şəkildə rahat güzəran sürməkdədirlər» (37, 9). Bu faktın özü heç də təsadüfi deyil. Türkə məxsus olan ənənəni lazımınca öyrənmək və onu qoruyub saxlamaq bacarığına malik olan azsaylı xalqlar (xüsusən avarlar, saxurlar, yenqiloylar) türkə məxsus sazı, tənburu da (el arasında buna danbur deyilir) sevərək mənimsəmişlər. Bu gün də onların arasında sazda və danburda Azərbaycan türkcəsində çalıb-oxuyanlara təsadüf etmək mümkündür. Çox təbii ki, onlarda olan bu həvəs mühitdə yaşayan yerli türklərin təsiri ilə əlaqədar yaranmışdır.

Zaqatala aşıq mühiti bu və ya digər xüsusiyyətləri baxımından maraq doğurur.

Prof. Azad Nəbiyev «Azərbaycan aşıq məktəbləri» kitabında xalqın geniş əraziyə səpələnmiş, milli-etnik mədəniyyətləri, folklorunu, onun inkişafının başlıca istiqamətlərini öyrənmək baxımından belə mühitlərin araşdırılmasının çox önəmli bir məsələ olduğunu qeyd etmişdir (85, 54). Prof. Hüseyn İsmayılova görə, Azərbaycan tarixinin ən mürəkkəb mübahisə doğuran problemlərindən biri etnogenez problemidir (20, 10). Müəllif eyni zamanda etnik azlıqların sıx-sıx məskunlaşdığı ərazilərin folklorunun, aşıq sənətinin araşdırılıb tədqiq edilməsini zəruri hesab etmişdir. Aşıq mühitlərinin regional, lokal, mədəni sisteminin hadisəsi kimi vahid bir tamın ümumtürk mədəniyyəti konteksində yerinin araşdırılmasında özünəməxsus əhəmiyyəti olduğunu bildirmişdir. Prof. H.İsmayılov, digər tərəfdən, milli musiqimizin, xalq sənətinin etniklərin mədəniyyətinə, yaşamına təsirini araşdırmağın, qədim adətlərimizin bu bölgələrdə hansı şəkildə qorunub-saxlanılmasının müəyyənləşdirməyin diqqət çəkən məsələlərdən biri

olduğunu qeyd etmişdir (55, 143-144). Etnik-mədəni təsirlərin güclənməsi Zaqatalada mövcud olan, bu gün də yaşamaqda olan aşıq sənətinə heç bir qeyri-təsir göstərməyib. Bunun əsas səbəbi Azərbaycan dilinin hakim mövqedə olması ilə əlaqədardır. Buna nümunə olaraq suvagilli Kor Nəzirin, carlı Vəlinin və başqalarının adlarını çəkmək olar. Onlar el şənliklərini Azərbaycan dilində aparırdılar. Zaqatala da məhz belə bölgələrimiz sırasındadır ki, burada yaşayan saz-söz sənətkarlarının (istər türklər, istərsə də azsaylı xalqların nümayəndələri olsun) bir-birilərinə qaynayıb-qarışmaları sayəsində mədəniyyətləri, adət-ənənələri hər zaman rəngarənglik təşkil etmişdir. Burada yaşayan ləzgilər, saxurlar, avarlar, inqiloylar və s. etnik qrupların nümayəndələri inteqrasiyaya və differensasiyaya daha çox meyilli olduğundan türk mədəniyyətini lazımınca mənimsəyə bilmişlər. Maraqlı cəhətlərdən biri də budur ki, azsaylı xalqlar bizim mədəniyyətimizi, musiqimizi, adət-ənənələrimizi mənimsəyərək bu gün də yaşadırlar. Bu da həqiqətdir ki, ucqar dağ kəndlərində türklərdən mənimsənilən ənənə daha yaxşı qorunmuşdur. Bu məsələnin mövzumuzla birbaşa əlaqəsi olmadığından üzərində dayanmaq istəmirik. Belə ki, məqsədimiz Zaqatala aşıq mühitinin ümumi mənzərəsini yaratmaq, ustad və ifaçı aşıqlarımızın həyat və yaradıcılıqlarını tədqiqata cəlb etməkdir.

Fikrimizcə, Zaqatala aşıq mühitini «tarixi və çağdaş» dövrlərə ayırmaq daha düzgün olar. Zaqatala aşıq mühitinin tarixi XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə kimi olan dövrü, çağdaş mühit isə XX əsrin əvvəllərindən bu günümüzə kimi olan dövrü əhatə edir. Ayrı-ayrı zamanlarda yaşayan el sənətkarlarının hər biri ayrılıqda özünəməxsus fərdi ifa tərzləri, yaratdıqları saz havaları, zəngin repertuarları ilə yadda qalmış və el-obada, hafizələrdə yaşamaqdadırlar.

O zaman Zaqatalada keçirilən toylar, el bayramları aşıqsız keçməzdi. Məclis aparan ustad aşığın yanında bəzi hallarda balabançısı da olmalı idi. Akademik H.Araslı aşığı haqlı olaraq, xalqın sevimlisi, onun şad və qəmgin günlərində ən yaxın sirdaşı hesab etmişdir (9, 3). Zaqatalada XX əsrin 60-cı illərinə kimi aşıqlar

məclisi ya tək, yaxud da iki aşıq bir-birini əvəzləyərək apardılar. Aşıqlar məclisdə, xüsusən, dastan, nağıl və rəvayət danışardılar. Bir qayda olaraq, «Baş divani» ilə başlayar, sonra təcnis oxuyar, nəhayət, müxəmməslə bitərərdilər. Çox zaman buna duvaqqapma deyilir. Deyilən ənənələr zaman keçdikcə öz formasını müəyyən qədər dəyişmişdir. İndi məclisləri aşıq tək, balabansız aparır. Maraqlı hal budur ki, tarixi Zaqatala aşıq mühitinin aparıcı nümayəndələrinin ifaçılığında bəzi hallarda saz-balaban müştərəkliyinin mövcud olması bu mühit haqqında müəyyən yanlış mülahizələrə gətirib çıxarmışdır. Prof. M.Qasımlı «Aşıq sənəti» kitabında Zaqatalanı tarixi mühit hesab etdiyi Dərbənd aşıq mühitinə aid etmişdir. Prof. A.Nəbiyev isə «Azərbaycan aşıq məktəbləri» kitabında Zaqatalanı Şirvan aşıq məktəbi daxilində ayrıca mühit kimi təqdim etmişdir (86, 131). Prof. M.Qasımlı Dərbənd aşıq mühitinə Quba, Qusar, Zaqatala, Qax, Balakəni – azsaylı millətlər yaşayan sərhəd əraziləri aid edir. Müəllif milli-mədəni siyasətin düzgün qurulmaması və yad, etnik-mədəni təsirlərin güclənməsi nəticəsində Zaqatala, Qax, Balakən rayonlarını da daxil etdiyi Dərbənd aşıq mühitinin tənəzzül mərhələsi keçirdiyi qənaətinə gəlmişdir (66, 165). Digər tərəfdən, müəllif bunun bir səbəbini də sənətin birindən digərinə ötürülməsi ənənəsinin aradan çıxmasında görmüşdür. İstər qədimdə, istərsə də bu gün tənburla sazın paralel şəkildə mövcud olduğu Zaqatala aşıq mühitinin tarixi və çağdaş mənzərəsi yuxarıda deyilən fikri qətiyyətlə təkzib edir.

Prof. S.Paşayev qədim musiqi alətlərindən olan tənburun bu gün də qorunub saxlandığı əsas bölgələrdən biri məhz Zaqatala olduğunu qeyd etmişdir (93, 3).

Tarixə nəzər salanda bir sıra bölgələrimiz kimi, 1813-cü ildə Gülüstan sülh müqaviləsinə görə, Dərbəndin rəsmi şəkildə Dağıstana verilməsi məlumdur. Məsələyə o dövrün prizmasından yanaşdıqda müəllifin tarixə «mühit» adı altında yanaşması müəyyən qədər həqiqətə uyğun görünür. Amma XVIII əsrin sonlarından üzü bəri yaşayıb-yaradan Zaqatala aşıqlarının hər birinin ayrılıqda xüsusi ifa tərzləri, saz havacatları, ustad-şagird ənənələri olmuşdur. Yuxarıda qeyd olunduğu kimi, Zaqatala aşıqları hazırda ya

tək sazla, yaxud da iki aşıq bir-birini əvəzləyərək məclis aparırlar. Bir qayda olaraq, aşıq məclisi «Baş divani» ilə açır, arxasınca «Təcnis» havası üzərində bir təcnis deyir. Onların ifa etdikləri yerli havaların əksəriyyəti məclisin şəninə uyğun şəkildə qurulur. Sonda isə duvaqqapma, yaxud da müxəmməslə bitirir. Bu xüsusiyyət bütün mühitlərdə olduğu kimidir. Bildiyimiz kimi, Şirvan aşıqları toy məclislərini, bir qayda olaraq, musiqi ansamblının (qoşa nağaranın, balabanın, zurnanın və s.) müşayiəti ilə çalıb-çağırırlar. Şirvanda tarixən aşığın yanında xanəndə olub. Onlar bir-birini əvəzləyərək məclisi keçiriblər. İfa zamanı Şirvan aşıqları rəqs etməyə, şuxluq göstərməyə də meyillidirlər. Zaqatala aşıqlarında bu xüsusiyyətə təsadüf edilmir. Digər tərəfdən, Şirvan aşıqları, bir qayda olaraq, məclisi «peşrov»la başlayırlar. Amma bu xüsusiyyətə də Zaqatala aşıqlarında təsadüf edilmir. Tək sazla ifa etmək Zaqatala aşıqlarını Borçalı aşıqlarına da yaxınlaşdırır. Lakin bu, o demək deyil ki, hər iki mühitin aşıqlarının repertuarları, ifa tərzləri tamamilə eynidir. Hər iki mühitin sənətkarlarının özünəməxsus ifaçılıq ənənəsi olduğu üçün müxtəlif adlarla adlanmışdır. Prof. S.Paşayev doğru olaraq ayrı-ayrı mühitlərdə aşıq sənətinin musiqinin, dastan yaradıcılığının və ifaçılığın əlaqəli şəkildə öyrənilməsini məqsədəuyğun hesab etmişdir (92, 167).

Prof. Azad Nəbiyev Şirvan aşıq məktəbi daxilində verdiyi Zaqatala aşıq mühiti adı altında İsmayıllı, Qax, Şəki, Balakən bölgələrinin adlarını çəkmişdir. Bu fikrə əsaslanan folklorşünas alim Ağalar Mirzə "Şirvan Aşıq yaradıcılığı: təşəkkülü və inkişaf tarixindən" adlı kitabında qeyd etmişdir ki, ritm, sürət, lakoniklik kimi keyfiyyətlərin üstünlüyü ilə seçilən Şirvan ifaçılığı Şəki-Zaqatalada özünə daim pərəstişkar tapır və onun yerli ifaçıları yetişib peşəkarlıq səviyyəsinə yüksələ bilirdilər (5, 151-153). Bu fikri dəstəkləyən Qalib Sayılov da öz tədqiqat işində qeyd edir ki, «Dərbənd, Salyan-Muğan, Şəki-Zaqatala, aşıq mühitləri ilə qarşılıqlı təsir, faydalanma şəklində bu gündə Molla Qasımla başlanan Şirvan aşıq ənənəsi yaşayıb davam etməkdədir (103, 94). Zaqatalada yaşayıb yaradan ustad, ifaçı sənətkarların sənətkarlıq irsləri, tənbur və saz ifaçılığının paralel inkişafı Zaqatalanı ayrıca bir

mühit kimi təqdim etməyimizə əsas verir. Digər tərəfdən, burada yaşayıb-yaradan çağdaş dövr sənətkarlarının bəzilərinin ifasında Şirvandan daha çox qərb ifasına yaxınlıq duyulur. Bu da çox təbii ki, burada Göyçədən gələn sənətkarların (Aşıq Əlinin, Aşıq Valehin) qarşılıqlı təsiri ilə əlaqədar olmuşdur. Deməli, bu mühit bir sıra yuxarıda göstərdiyimiz xüsusiyyətləri ilə daha çox qərb aşıq mühitinə yaxınlaşsa da, burada tarixən mövcud olan ənənə Zaqatalanı ayrıca bir mühit kimi təqdim etməyimizə əsas verir. Bu spesfik xüsusiyyətlər Zaqatala aşıqlarının yaradıcılıqlarında yeri gəldikcə izləniləcək.

## Zaqatala aşıq mühitində tənbur-saz ifaçılıq əlaqələri

Zaqatala Azərbaycanın qədim tarixə, mədəniyyətə, folklora malik olan mühitlərindən biridir. Etnik-mədəni tərkibin sıxlığı ilə seçilən bu mühitdə ayrı-ayrı folklor örnəklərinin zənginliyi ilə yanaşı, müxtəlif xalq sənətləri də yaşamaqdadır. Zaqatalada yaşayan tənbur ifaçılarına, onların yaratdıqları tənbur havalarına, tənburla deyilən haylalara keçməzdən öncə bu alətin özü haqqında məlumat vermək daha düzgündür. Tənbur 2-3 simli qədim musiqi alətidir. Tənburun yaranma tarixi və inkişafı, dövrü barəsində, çox təəssüf ki, konkret olaraq araşdırma aparılmamışdır. Tənbur türklərə məxsus olan bir musiqi alətidir. Bu alət Azərbaycanın əsasən, şimal bölgəsində qorunduğu kimi, Şərqdə, Orta Asiyada, türk xalqlarında, qazaxlarda «dombra», qırğızlarda «dombura», özbəklərdə «dombrak», türkmənlərdə «danbura», osmanlı türklərinə yaxın olan türklərdə «tanbura» kimi, eləcə də bir çox Qərb xalqları arasında «dombra» adı ilə tanınıb inkişaf etmişdir. Bəzi mənbələrdə tənbur növləri kimi «Bağdad», «Şirvan» tənburu ilə yanaşı, dütar, setar, pənctar, şeştar və s. adları çəkilmişdir (60, 6). Azərbaycanda tarixən «tənbur» adı ilə çox məşhur olan bu alət mizrab, baş və orta barmaqların hərəkəti ilə çalınır. Bəzi mənbələrdə bu alətin adı çəkilir və onun XIX əsrin sonlarına kimi daha çox istifadə olunduğu bildirilir. Eyni zamanda bu musiqi aləti hazırda daha çox Zaqatala və Balakən mühitində yaşamaqdadır. XIV–XV əsrlərdə yaşamış Azərbaycan musiqişünası Əbdülqadir Marağayi

bir sıra musiqi alətləri ilə yanaşı, Şirvan tənburu haqqında da ətraflı məlumat vermişdir. O, «Məqasidül əl-əlhan» əsərində yazmışdır: «Şirvanlılar tənburu o sazdır ki, təbrizlilər ondan çox istifadə edir. Onun quruluşu armud şəklində olur. Səthi uzundur. Ona iki tək sim bağlanır. Qollarında pərdələri olur. Elə köklənir ki, onun aşağı simində çalınan nəğmə yuxarı simində çalınan nəğmənin 8/9-nə bərabər olur (11, 250).

Görkəmli bəstəkar Ü.Hacıbəyov isə məqalələrinin birində tənbur musiqi alətini «telli saz» sazın bir növü adlandırmış və qeyd etmişdir ki, «telli sazlardan biri tənburdur ki, bu da çox qədim tarixə malikdir». Eyni zamanda müəllif Fərabinin tənbur haqqında, xüsusən, Xorasan və Bağdad tənburlarının müxtəlifliyi barəsində qeydlərini də olduğu kimi vermişdir (45, 33). Prof. S.Paşayev bir bir sıra tədqiqatlarında qədim musiqi alətlərindən olan qopuz, setarla yanaşı, tənburun da adını çəkmişdir. Bu alətin tək tel və cüt tel kökləri olduğunu bildirmişdir. Müəllif onu da qeyd etmişdir ki, tənbur daha çox Zaqatala-Balakən mühitində yaşamaqdadır (95, 171). Digər mənbələrdə isə tənburun yaranma tarixi haqqında müxtəlif qeydlər vardır. Prof. M.Kərimov isə qədim musiqi aləti kimi tənburun tarixi ilə bağlı mövcud olan mənbələrə müraciət etmişdir: «Yaxın Şərqdə qazıntılar zamanı tapılmış XI əsrə aid bir sini boşqab üzərində iki simli tənbur çalan varsağın təsviri verilmişdir. Bundan başqa, XII-XIII əsrlərə aid edilən bir çox saxsı qablar üzərində tənburun təsviri verilmişdir». Sonra müəllif orta əsr rəssamlarının o cümlədən, orta əsr miniatür sənəti əsərlərində bir sıra musiqi alətləri ilə yanaşı, tənburun da geniş təsvirinin verildiyini bildirmişdir (61, 4).

Müəllif digər məqaləsində qeyd edir ki, «Tənbur ifaçılıq sənəti Azərbaycanda XIX əsrin ikinci yarısından etibarən, tədricən azalmağa başlamışdır» (60, 8). Lakin Şimali Qafqazda, Dağıstanda tənburun başqa növləri yaşamaqdadır. Tənbur mizrabla çalınan ən qədim musiqi alətlərindəndir. Bəzi mənbələrdə bu alətin müxtəlif növləri olduğu qeyd olunur. Digər mənbələrdə isə məsələn, Ə.Fərabi «Kitab ül-musiqiyi-kəbir» kitabında tənburun yunan filosofu Pifaqor tərəfindən eramızdan əvvəl VI əsrdə icad

edildiyini göstərmişdir. Sənətşünaslıq namizədi Aslan Məmmədov isə Cənubi Azərbaycanın Cığamış şəhərindən tapılmış saxsı qaba istinadən bu alətdən eramızdan əvvəl VI minillikdə Urmiya bölgəsində istifadə edildiyini bildirmişdir (72, 74). Fikrimizcə, bu daha doğru variantdır. Orta əsrlərin musiqişünas alimi Dərviş Əli tənburu «bütün musiqi alətlərinin müəllimi» hesab etmişdir. Füzuli «Yeddi cam» poemasında «Sitar ilə söhbət» bölməsində tənburun adını çəkmişdir». Hazırda tənbur Orta Asiya xalqları tərəfindən geniş istifadə olunur. Orta əsrlərdə saray və folklor musiqisində geniş istifadə olunan tənbur alətinin adına klassiklərimizin yaradıcılığında, xüsusən Nizaminin, Füzulinin, Nəsiminin yaradıcılıqlarında da rast gəlmək mümkündür. Prof. S.P.Pirsultanlıya görə, Nəsiminin tənbur musiqi aləti ilə yaxınlığının olması onun poeziyasına musiqilik, oynaqlıq və axıcılıq gətirmişdir (94, 156). Nizaminin əsərlərində isə bu alətin görünüşü, düzəlmə texnologiyası haqqında məlumatın verilməsi, tənburun yaranmasının daha əvvəlki dövrlərə bağlı olduğuna işarə edir. Prof. S.P.Pirsultanlı haqlı olaraq tənburu setarın, sazın və tarın, ümumiyyətlə, simli alətlərin ulu əcdadı hesab etmişdir (98, 6). Tənbur o dövrlərdə saray məclislərində də özünə geniş yer tapmışdır. Belə ki, bir sıra miniatürlərdə cənnətdəki qanadlı huri-mələklər belə tənbur çalan yerdə təsvir olunub. Nizaminin «Sirlər xəzinəsi» əsərinə çəkilmiş rəsmlərdə cənnətdəki huri-mələklər padşahı Bilqeyisin taxtı tənbur çalan mələklər ilə əhatə olunmuşdur. Füzulinin «Yeddi Cam» əsərində tənbur musiqi aləti barəsində belə deyilir:

Rəğbət elə tənbura, müğənni, gəl ürəkdən,
Rəğbət açarı ilə ona da bir qapı aç sən (43, 127).

Tənbur musiqi alətinin adına Yunis İmrənin, Məhdimqulunun şeirlərində və «Abbas və Gülgəz» dastanında da təsadüf edirik. Bu, tənburun qədim musiqi aləti olduğuna işarə edir. Eyni zamanda XIII əsr abidələrində «Dastani-Əhməd Harəmi» də də öz əksini tapmışdır: «Şu kimsələr çalardı udi tənbur» (30, 67).

Müasir tənbur armudvari olub, kiçik çanaqdan və uzun qoldan ibarətdir. Bu qola 16-dək pərdə bağlanır. Simlərin sayı beşdən çox olmur. Cökə, armud, gər, tut, ərik ağaclarından hazırlanan iki-

üç simli Zaqatala tənburunun armuda bənzər gövdəsi olur. Nisbətən qısa qola beş pərdə bərkidilir. Əvvəllər tənburun simləri ipəkdən və bağırsaqdan hazırlanardı, hazırda isə metaldan hazırlanır, həm mizrabla, həm də əl barmaqlarının köməyi ilə çalınır.

Bu alətin tarixi sırf türk xalqları ilə bağlı olsa da, sonralar Zaqatalada yaşayan azsaylı xalqlar da tənbur musiqi alətini öz mədəniyyətlərinə daxil etmiş və bu gün də onun ən kamil qoruyucularına çevrilmişlər. İki-üç simli alət kimi tanıdığımız tənburda tək tel kökü ilə mahnılar, cüt tel kökü ilə isə əsasən, oyun havaları ifa edilir.

Qədim musiqi alətlərini tədqiq edən Məcnun Kərimov «Unudulmuş musiqi alətlərimiz» adlı məqaləsində Şirvan tənburu haqqında belə qeyd edir: «Şirvan tənburu saz tipli alətdir, simləri ipək sapdan hazırlanır (62, 110). Şirvan tənburunda ifa olunan havaların əksəriyyəti Şirvan saz havaları kimi ritmik və oynaqdır. Amma Zaqatala tənbur havaları məclisin ab-havasına uyğun tərzdə qurulurdu. Tənbur vaxtı ilə daha çox xınayaxdı və toy mərasimlərində ifa olunardı. Yuxarıda qeyd etdiyimiz kimi, vaxtı ilə burada toy mərasimləri əvvəldən sonadək tənbur musiqi aləti ilə aparılmışdır. Eyni zamanda mövsüm mərasimlərinin əksəriyyətində bu musiqi aləti ifa olunmuşdur ki, bu da əsasən, əmək prosesini sürətləndirməyə xidmət edirdi. Tənburla əsasən, ürfani havalar çalınar, hamının iştirakı ilə ilahilər deyilərdi. XX əsrin 70-80-ci illərinə kimi tütün düzmə, tay basma, barama təmizləmə iməciliklərində tənbur çalınar, mahnılar oxunar, haylalar deyilərdi. Bu alət vaxtı ilə ayrı-ayrı evlərdə təşkil olunan Novruz bayramı şənliklərində də çalınardı. Qurban bayramı mərasimində ərəfəsində, mövlud günlərində ilahilərin oxunmasında da istifadə olunmuşdur. Bu ilahilər, əsasən, Yunis İmrədən, Mövlanə Cəlaləddin Rumidən oxunar və məclisin əhval-ruhiyyəsinə uyğun tərzdə dəyişərdi. Belə adətlərin bu gün də yaşaması onu göstərir ki, tənbur əskidən dərvişlərin toplandığı ürfan məclislərində, təkkə ocaqlarında ilahilərin səslənməsində daha çox istifadə olunmuşdur. Fikrimizcə, tənburun sazla oxşarlığı və daha dəqiq desək, bu alətləri birləşdirən cəhət də məhz hər ikisinin təkkə ocağına bağlılığı faktıdır.

Zaqatalada tənbur sazla paralel inkişaf prosesi keçirib ki, bu da mühiti səciyyələndirən və maraq doğuran xüsusiyyətlərdəndir. Bu mühitdə yaşayan ustad və ifaçı aşıqların bir çoxu öncə tənbur ifaçılığı ilə məşğul olmuş, sonra saz ifaçılığına keçmişlər. Tənburla əsasən, ürfani havalar çalınar, hamının iştirakı ilə ilahilər deyilərdi.

F.Baxşəliyev «Saz və təsəvvüf» adlı məqaləsində çoğur, tənbur kimi qədim musiqi alətlərinin saza keçid üçün bir stimul olduğunu bildirmişdir. Eyni zamanda müəllif Ş.İ.Xətainin də sazdan öncə təkkə ocaqlarında tənbur ifa etdiyini qeyd etmişdir (26, 72-79).

Zaqatalanın Qımır kəndində yeddi qədim ziyarətgah var. Bu ziyarətgahların hər biri burada yaşayan övliyaların adıyla bağlıdır. Bu gün Hacı Murad Əfəndi, Hacı Mikayıl Əfəndi, Qudbi babanın adlarıyla bağlı olan bu ziyarətgahlarda böyük hücrələrin, təkkə ocaqlarının qalıqları mövcuddur. Kəndin ağsaqqallarının söylədiklərinə görə, bura əvvəllər dərvişlərin, övliyaların toplandığı iqamətgah olmuşdur. Onlar burada öz dini, ürfani biliklərini verər, zikr edər, tənburda ilahilər deyərdilər (78). Bütün bunlar onu göstərir ki, tənbur öncə ürfan məclislərinin əsasını təşkil etmiş, hal əhlinin Allaha yetişməsi üçün bir növ vasitə olmuşdur. Ramiz Fasehə görə, «Hal adamları üçün Allahdan başqa heç bir varlıq mütləq və vacib deyildir (42, 59). Yuxarıda qeyd etdiyimiz kimi, tənbur musiqi aləti təkkə ocaqlarında, Qurban bayramında da ifa olunardı. Tənburun müşayiəti ilə Qurban bayramında deyilən bir nümunəyə diqqət edək:

Eləmi, Qudbiyə gəl,
Qurbanda qudbiyə gəl.
Şərbət iç, gözün tutsun,
Qiyqac sal, Qudbiyə gəl (78).

Bu nümunədə mühitə məxsus olan adət-ənənə öz əksini tapmışdır.

Digər tərəfdən Zaqatalanın qədim pirlər, övliyalar məskəni olması, təriqətçiliyin (xüsusən, nəqşibəndiliyin) yayıldığı ərazi olması baxımından, tənbur musiqi alətinin də bu məclislərdə ifa olunması məqsədəuyğundur. Qurban bayramında Yunis İmrədən ilahilərin oxunması da təbii qarşılanır. Çünki el arasında dolaşan

rəvayətlərə görə, Yunis İmrənin və onun mürşidi Hacı Tapdığın qəbirləri də Qax rayonunun Oncalı kəndindədir. Folklorşünas alim Əziz Ələkbərli bu barədə yazmışdır: «Oncalı kəndi yaxınlığındakı Oğuz qəbiristanlığı Yunis baba və Tapdıq babanın məzar-ziyarətgahlarıdır» (39, 6). El arasında Yunis İmrə barəsində bu gün də müxtəlif rəvayətlər yaşamaqdadır. Əslində Yunis İmrənin harada dəfn olunduğu bəlli deyil. Bu səbəbdən Yunis İmrəni sevən, adını əbədiləşdirən xalq onun üçün hər yerdə bir məzar yaratmışdır. Görkəmli tarixçi-etnoqraf alim Məşədixanım Nemətin burada olan övliyaların Şeyx Məhəmməd Əfəndinin, Mustafa Əfəndinin və başqa övliyaların sırf nəqşibəndi olmasını, bu ideyaların təbliğatçısına çevrilməsi qənaətinə gəlmişdir (87, 82-93). Vaxtilə Nəsib Əfəndi baba, Hacı Murad Əfəndi baba və başqa övliyaların təşkilatçılığı ilə keçən mövlud mərasimləri tənbursuz keçməzdi. Söyləyicilərin verdiyi məlumata görə, adı çəkilən şəxslər nəqşibəndi təriqətinin nümayəndələri olmuşlar (78). Azadlıq və müstəqillik uğrunda mübarizə aparan bir çox belə şəxslər Çar Rusiyası tərəfindən XX əsrin 20-30 illərində sürgün edilir və bununla xalqın maariflənməsinin qarşısı alınırdı.

Bu gün isə tənbur daha çox toylarda, el şənliklərində istifadə olunan çalğı alətinə çevrilmiş, onun əvvəlki funksiyası isə dövrün tələbi ilə aradan çıxmışdır. Balakən-Zaqatala bölgəsinin tarixi etnoqrafiyasından yazan A.Məmmədli qeyd etmişdir ki, 2-3 simli, 6 pərdəli çalğı aləti olan «danbur» həm zaqatalalıların, həm də balakənlilərin dərdli və sevincli anlarında ən yaxın dostu və sirdaşı olmuşdur. Eyni zamanda tənbur burada el adəti olan iməciliklərin yaraşığı, iç dünyamızın aynası, sevgisi, ağrısı və hayqırtısıdır (75, 28, 29). Zaqatalalı tənburçuların, xüsusən suvagilli Musanın və muxaxlı Camalın dediklərinə əsasən, tənbur musiqi aləti cökə, gər və armud ağacından düzəldilir.

İyirmiyə yaxın etnik qrupun (saxur, avar, ləzgi, lak, dargin, inqiloy, fars və s.) və azsaylı xalqların çoxluğu ilə seçilən Zaqatala folklor mühiti bu gün mədəniyyətlərin bir-birinə qovuşması, çulğalaşması ilə səciyyələnir. Məhz bu baxımdan Zaqatalada yaşamaqda olan tənburu, onun ifaçılarını, tənburda ifa olunan haylaları, unu-

dulmaqda olan mahnılarımızı, ümumilikdə, Zaqatala folklor mühitini araşdırmaq məqsədəuyğundur. Maraqlı haldır ki, tənbur zaqatalalıların yalnız xoş günlərində, toylarında, el şənliklərində deyil, eyni zamanda onların ən çətin, ən ağır günlərində də gərəkləri olmuşdur. Tənburda bəzi saz havaları ilə yanaşı, sırf tənbur havaları da ifa olunur. Bu havalar əsasən, mühitin ab-havasına, elin-obanın arzu-istəyinə uyğun tərzdə ifa edilir. Tanınmış tənbur ifaçıları tənburda həm qəmli havalar, ilahilər, həm də məclisin ab-havasına uyğun, oynaq havalar ifa edər, dastanlar söyləyərdilər. Tənbur gecələrində tənburçular sübhəcən dastan danışardılar. Zaqatalada məşhur tənbur ifaçılarından olan 76 yaşlı Turacov Musa Qazıməhəmməd oğlunun və rayonun bir çox ağsaqqallarının dediklərinə görə, XIX əsrin sonlarından XX əsrin ortalarına kimi tənbur gecələri keçirilirdi. Tənbur gecələrində klassik dastanlarımızdan olan «Novruz və Qəndab», «Aşıq Qərib» və s. dastanlar söylənilirdi. Burada qara nağıllar söylənilər, bardaş qurub oturan məclis əhli isə böyük həvəslə tənburçuları dinləyirdilər. Təbii ki, havaların əksəriyyəti məclisin ab-havasına, iştirakçıların arzu-istəyinə uyğun şəkildə dəyişərdi. Tənburla mahnılar, haylalar (başqa bölgələrimiz buna bayatılarda deyilir) oxunur. Buna zaqatalalılar arasında «yerli havalar» da deyilir. Tənbur havalarından daha çox maraq doğuranları «Sarıbaş», «Məhərrəmkəndidir» (buna el arasında «Gəlin ağladan» hava da deyilir). Zaqatala oyun havalarından «Ox gülüm», «Ala gözlüm», «Leylam», «Ceyranım», el mahnılarından «Ay maral xanım», «Salamməlik» və s. daxildir. Tənburda məclisin şəninə uyğun qəmli və şən havalarla yanaşı, ilahilər də ifa olunur.

Göründüyü kimi, tənbur iki-üç simli musiqi aləti olmasına baxmayaraq, imkanları çox genişdir. Burada tənbur ifaçıları haqqında da məlumat vermək yerinə düşər. Tənbur ifaçılarına Zaqatalanın Tala, Muxax, Car, Əliabad, Suvagil, Çardaxlı, Muğanlı və s. kəndlərində daha çox rast gəlinir. Bunlardan **Muxaxlı Camal oğlunun, Talalı Aişə Süleymanovanın, Məmmədov Səəddinin, Əlinin, Ramazanov Mikayılın, İsmayılın, Əliabadlı Eyvazın** və başqalarının adlarını çəkmək olar. Bu sənətkarlar dövrünün tanınmış sənətkarları olmuşlar. Qeyd edək ki, bu sənətkarların ək-

səriyyəti uzun müddət tənburla məclislər aparmış, dastanlar bağlamış, sonralar isə saz ifaçılığına keçmişlər. Adı çəkilən bu şəxslər yaşadıqları zamanın tanınmış tənbur ifaçıları olublar. Maraqlı xüsusiyyətlərdən biri də budur ki, tənbur ifaçılarının əksəriyyətində sənətin atadan-oğula ötürülməsi müşahidə olunur. Bu halı bəzən indi də müşahidə edirik. Məsələn, suvagilli Musa Qazı Məhəmməd oğlu tənbur havalarının ən gözəl ifaçısıdır. Oğlu Turac isə onun sənətinin ən layiqli davamçısı hesab oluna bilər. Turac nəinki tənburda, eyni zamanda digər musiqi alətlərində – sazda, sintizatorda, qarmonda, qoşa nağarada və s. alətlərdə böyük məharətlə ifa etməyi bacarır. Maraqlı xüsusiyyətlərdən biri də budur ki, tənburçu Musa tənburda ifa edərkən, şəraitdən asılı olaraq bəzən ömür-gün yoldaşı ilə birgə hayla deyir. Yəni biri tənburda çalır, digəri hayla deyir. Bu prosesdə onlar tez-tez bir-birini əvəzləyirlər. Muxaxlı Məmmədov Səəddinin oğlu Şaban da atasının layiqli davamçısı hesab oluna bilər.

Bu gün də Zaqatalada sazla yanaşı, tənbur ifaçılığı da yaşamaqdadır. Hazırda bu sənəti layiqincə yaşadanlardan Məmmədov Şaban, Turacov Musa və başqalarının adlarını çəkmək olar ki, onlar hələlik öz ifa tərzlərini dəyişməmişlər. Mühit üçün səciyyəvi olan xüsusiyyətlərdəndir ki, Zaqatala aşıqlarının bəziləri ömürlərinin çox hissəsini tənbur ifa etmiş, sonra isə saz ifaçılığına keçmişlər. Belələrindən Əliabadlı Camalın və Əlinin adlarını çəkmək olar.

Tənbur ifaçılarının zaman ötdükcə saz ifaçılığına keçmələrinin səbəbini yalnız dövrün, zamanın tələbi ilə əlaqələndirmək doğru olmazdı. Qeyd edək ki, quruluşuna, yaranma tarixinə görə tənbur saza nisbətən daha qədim və sadə çalğı alətidir. Qeyd etdiyimiz kimi, bu mühitdə yaşayan əksər yerli sənətkarlar saza keçməzdən öncə tənburda ifa etməyi öyrənir, sonra saz ifaçılığına keçirlər. Ancaq digər bir qrup tənbur ifaçıları da vardır ki, onlar ömürlərinin sonunadək elə tənbur ifaçıları kimi tanınmışlar.

Tənburun qədim musiqi aləti kimi türkə məxsus olduğu məlumdur. Ancaq maraqlı haldır ki, bu gün Zaqatalada yaşayan azsaylı xalqların nümayəndələrindən olan ingiloylar, saxurlar, avarlar türkəməxsus tənbur ifaçılığı ənənəsini sevərək mənimsəmiş və

qorumağı bacarmışdırlar. Buna münasibət bildirən folklorşünas alim Ağalar Mirzə «Şirvan Aşıq yaradıcılığı, təşəkkülü və inkişaf tarixindən» adlı kitabında qeyd etmişdir ki, «Azərbaycanın Şimal bölgəsi etnik baxımdan xüsusi keyfiyyətləri ilə seçilən, dillərin, etnik özəlliklərin qovuşaraq ortaq mədəniyyət yaratması baxımından daha incə və qayğılı yanaşma tələb edir» (5, 153). Bu gün ingiloyların orta təhsil ocaqlarında tənbur xüsusi bir musiqi aləti kimi tədris olunur. Amma çox təəssüf ki, buna yerli türklərin yaşadığı kəndlərin orta ümumtəhsil məktəblərində təsadüf etmirik. Zaqatala folklor mühitində tənbur musiqi alətinin yeri, tarixi kökləri, qurban bayramına, ürfan məclislərinə təsirindən yuxarıda söz açmışıq. Maraqlı xüsusiyyətlərdən biri də budur ki, bu mühitdə tənbur musiqi aləti ilə yerli havaları avazla çalıb-oxuyurlar. İfaçıların daha çox ər-arvad olması halı müşahidə olunur. Zaqatala aşıq mühitində tənburla oxunan mahnılara «hayla» deyilir. Öncə bu sözün etimologiyasına diqqət edək. Fikrimizcə, «hayla» sözünü «haylamaq», «haraylamaq», «səsləmək» və s. kimi mənaları ifadə edir. Maraqlıdır ki, xakaslarda, altaylarda, şorlarda, tuvalarda, başqırdlarda dastana «kay», «kayla», yaxud «hay», «hayla», dastan söyləyənə isə «kayçı», yaxud «hayçı» deyilir. Bu sözün bir mənası da «boğazda oxuyan», yaxud «boğaz oxuması» anlamını verir. Prof. Metin Ergin Hakas hayçıları və hayçılık sanatı» tədqiqatında qeyd edir ki, «Hakaslar arasında nimax, ya da alıptıx nimaxlar söyləməyə hayla deyilir (130, 71-76). Qeyd edək ki, bu haylaların ifası və haylaların yeddilik şeir şəklində olması Zaqatala haylaları ilə müəyyən bir oxşarlıq yaradır. Digər tərəfdən, bu haylalar yuxarıda adı çəkilən xalqlar arasında həm qədim musiqi alətlərində – tənburda, setarda, çoğurda ifa olunur, həm də musiqi alətindən istifadə etmədən oxunurdu. Ehtimal etmək olar ki, Zaqatalada tənburla söylənilən haylalar öz ilkin formasını itirməsinə baxmayaraq, bu gün də öz arxaik izlərini qorumaqdadır. Zaqatala haylalarının Ağbaba aşıq mühitində xüsusi mərasimlərdə deyilən nanaylara, tırınqılara da müəyyən qədər oxşarlığı var. Ağbaba nanayları Novruz, toy mərasimlərində payız və qış gecələrində keçirilən yığnaxlarda deyilərdi (70, 70). Bu yığnaqlar Zaqatalada vaxtilə tənbur ifası

üçün də təşkil olunardı. Ağbaba mühitində keçirilən nanay məclisləri qara zurna ilə müşayiət olunardı. Tənbur gecələrində hayla ilə iki nəfər qabaq-qabağa deyişərdilər. Bu xüsusiyyətə biz nanay gecələrində də təsadüf edirik. Digər bir oxşarlıq həm nanayın həm də haylanın bayatılar üzərində avazla oxumasıdır. Fərq ondadır ki, nanaylar əsasən, qara zurna ilə oxunur və misrada sözlərin təkrarı isə əsas rol oynayır. Bir nümunəyə diqqət edək:

Kisə aldın olmadı
Ay şaqqılar, ay şaqqılar, kəmərin.
Suya saldın olmadı,
Varmı yardan, varmı yardan xəbərin (105

Haylaların nanaylardan fərqli mövzu əlvanlığı və tənbur gecələrində mövludlarda ifa olunmasıdır. Hayla əsasən, tənburun adı ilə başlayır. Bunlar bəzən iməciliklərdə el şənliklərində söylənmə məqamları ilə oxşarlıq təşkil etsələr də, mahiyyət etibarilə başqadırlar. Hayla birbaşa təkkə ocaqlarından qidalanır.

Zaqatala tənburunda deyilən haylaların məzmununda qədim inanclar, əski bəşəri dünyagörüş, təriqətçiliyin elementləri əks olunur. XIX əsrin 70-80-cı illərində bu alətlə müxtəlif ürfan məclislərində, təkkə ocaqlarında, dərvişlərin, övliyaların toplaşdıqları dini mərasimlərdə ilahilər oxunardı. Tənburda ifa olunan havalar, mahnılar istənilən mərasimin ab-havasına, insanların istəyinə uyğun tərzdə olur. Onu da qeyd edək ki, əvvəllər yuxarıda adları çəkilən ürfan məclislərində, Qurban bayramı ilə bağlı mərasimlərdə, mövludlarda istifadə olunmuş tənbur musiqi aləti, zaman keçdikcə öz auditoriyasını da dəyişmiş, daha çox mövsüm mərasimlərinin və el şənliklərinin aparıcı musiqi alətinə çevrilmişdir.

Tənbur musiqi alətindən danışarkən onun musiqi imkanlarından, xüsusi tənbur havalarından da bəhs etmək lazımdır. «Tənburda ifa olunan «yerli hava» şən-şux və oynaq havadır. «Ayaqtərpətmə», «ayaqsirkələmə», «ayaqçəkmə» və yaxud «əloynatma» havaları oyunçudan cəldlik, çeviklik tələb edir. Bu havalar xüsusən, toy mərasimlərində, el bayramlarında və iməciliklərdə çalınıb-çağrılardı» (75, 27). Cütlərin və yaxud təklərin rəqsi vardır ki, burada əsasən, tənburda çalınan oynaq havaların xüsusi rolu olur. Cütlərin

rəqsində bir qız, bir oğlan qarşı-qarşıya oynayırlar. Təklərin rəqsində isə bir qız, yaxud da tək bir oğlan oynayır. Tənbur havalarında eyni zamanda insanın qəmi, kədəri də əks olunur. «Məhərrəmkəndi» havası gəlini ata evindən çıxaranda ifa edilərdi. Qeyd edək ki, vaxtilə bu mühitdə toylar sazla yanaşı, tənburla da keçirilərdi. El arasında tənbur havası kimi tanınan «Məhərrəmkəndi»nə, adətən «Gəlinağladan» havası da deyilir. Bu hava indiki «Vağzalı»ya oxşar bir havadır. «Süsəni», «Sarıbaşdı» havaları da el arasında sevilən tənbur havalarından olmuşdur. Saz havalarından olan «Narıncı», «Ballı» havası da tənburda böyük məharətlə ifa edilir. Tənbur musiqi alətində bu gün unudulmaqda olan köhnə mahnılarımız da ifa olunur. Bunlardan «Ay Maral xanım», «Ceyranım» (bəzən bu mahnıya «Ay lilay, lilay» da deyilir), «Salamməlik», «Ox gülüm», «Ala gözlüm» «Zaqatala» və s. mahnıların adlarını çəkə bilərik. Bütün bunlar, tənburun imkanlarından xəbər verir. Tənbur ifaçılarının tənburla çox zaman bədahətən dedikləri haylalar insanlara xüsusi zövq verir. Tənburda deyilən haylaların əksəriyyəti tənbur aləti haqqında deyilən xoş sözlər, onun tanıtımı ilə əlaqəli yaramışdır. Bu haylalarda insanların hiss-həyəcanı, sevgisi, kini-qəzəbi, nifrəti əks olunur. Bu haylalarda eyni zamanda unudulmaqda olan adət-ənənələrimiz də boy verir. Yeri gəlmişkən qeyd edək ki, hayla deyimini əsasən, Zaqatalanın Tala kəndinin sakinləri işlətmişlər. Haylalar bayatı formasında olub, mövzusu əsasən, tənburun adı ilə başlayır. Əsas fərq isə haylanın yalnız tənbur musiqi aləti ilə deyilməyi və bu alətin musiqi tempinə uyğun gəlməyidir. Müxtəlif məzmunlu haylalarda isə bu forma qorunmur. Eynən bayatı formasında olur. Bu haylaların əksəriyyəti xüsusi keçirilən tənbur gecələrində bədahətən deyilərdi. Əsas etibarilə bu gecələrdə ya tək tənburçu öz tənburunda ifa edir, yaxud da ifaçılar bir kişi, bir qadın olur. Onlardan biri tənbur çalar, digəri isə mahnı oxuyardı. Bu cütlüklər çox zaman qohum şəxslər, xüsusən ər-arvad olardı. Onu da qeyd edək ki, tənburda insanların qədim məşğuliyyət tərzini əks etdirən haylalar da var. Bu haylalar vaxtında toplanılmadığı üçün konkret nümunə göstərə bilmirik. Aşağıdakı nümunələr yaxın zamanların məhsuludur. Bir neçə haylaya diqqət edək:

Danbur çalan beş barmax,
Beşi də qızıl qarmax.
Hər kəsin işi deyil,
Danbur çalıf oxumax.

Danburun üç telinə,
Yar gəlifdi elinə.
Əziz can qurvan olsun,
Bir həyalı gəlinə (107, 155-164).

Bu tip haylalarda müasir dövrün hadisələri öz əksini tapmışdır.

Danburun simi nazih,
Qolumda var bilərzih.
Elə bir yar sevmişəm
Barmaxdan beli nazih (78).

Bu haylalar məhəbbət, dini, ürfani və s. mövzuları əhatə edir. Haylaların böyük əksəriyyəti deyişmələr şəklində də yaranardı. Artıq bu tip haylaların əksəriyyətində tənburun adına təsadüf etmirik. Yalnız iki şəxsin iştirakı ilə deyilir. Burada insanların hiss-həyəcanı, sevinc və kədəri ifadə edilir:

Sarı tütün bükümü,
Söylə könlündəkini.
Mənim könlüm nə bilir
Sənin könlündəkini (78).

Tənburda deyilən haylaların əksəriyyəti öyüd-nəsihət xarekteri daşıyır.

Canımı qana bular
Qan könlüm qana bular.
Qanlıya yoldaş olma,
Səni də qana bular (78).

Tənburda deyilən haylaların mövzusu çoxşaxəli və rəngarəngdir. Bu haylaların hər biri öz hikməti, atalar məsəlinin, alqış və qarğışların, bədii ifadə vasitələrinin zənginliyi ilə seçilir:

Danburun yaşa dolsun,
Sürmə çək, qaşa dolsun.

Səni məndən ayıran
Nə gülsün, nə şad olsun (78).

Və yaxud:

Mixəh əkdim tasıynan,
Dərmədim həvəsiynən,
Yarı-yardan edənin
Günü çıxsın yasıynan (78).

Tənburçular əvvəlki dövrlərdə, konkret desək, XX əsrin 80-ci illərinə kimi mövsüm mərasimlərini bir-birindən rəngarəng və maraqlı olan tənbur havaları, haylalar ilə bəzəyərdilər. Bu haylalar daha çox əkinçilik, maldarlıqla bağlı yaranardı:

Dağ başında iz olmaz,
İz olsa da, düz olmaz.
Dəvə adamsız otlar,
Sürü çobansız olmaz (78).

Bu tip haylaların əksəriyyəti tütün düzümü, tay basımı (Tütün quruduqdan sonra onun yarpaqlarını dəstələyib xüsusi hazırlanmış yeşiklərə düzülür və sonra qalın iplə hər tərəfdən bağlanılır), fındıq, barama təmizləmə iməciliklərində yaranardı. Maraqlı haldır ki, burada tənbur ifası zamanı qızlardan ibarət olan dəstələrin qarşı-qarşıya deyişmələri olardı. Bir nümunəyə diqqət edək:

**I dəstə**

Mahnı mahnının başı,
Mahnı bilməyən naşı.
Mahnı bir elə şeydi,
Qəriflərin yoldaşı.

**II dəstə**

Gəl bacı, mahnı diyax,
Limon salıf çay içax,
Bizə hamısı birdi,
Sizə hansından diyax (78).

Sonda qarşı-qarşıya deyişən tərəflər cəm halda deyirlər:

Çöllər bütün tütündü,
Kimin qəlbi bütündü?
Gəl dostlar, halallaşax,
Dünya ölüm, itimdi (78).

Bu tip haylaların əksəriyyətində xalqımızın yüksək əxlaqi keyfiyyətlərindən, qonaqpərvərliyindən, böyüyə, kiçiyə olan hörmətlərindən söz açılır:

Zaqatalanın çayı var,
Qonaxlara payı var.
Qocaya soyux baxma,
Onun da haqq-sayı var (78).

Bu haylada mühitin qonaqpərvərliyindən və böyüyə hörmət qoyulmasından söz açılır. Digər qisim haylalarda isə insanların sevgisi, sevinci-nisgili boy verir:

Tut dedim, tutdun məni,
Tut tək qurutdun məni,
Mənim vəfasız yarım,
Nə tez unutdun məni (78).

İş prosesində də xüsusən, tay basma, tütün düzmə, barama təmizləmə və bir çox başqa də haylalar yaranmağa başlamışdır. Bu haylalarda sevənlərin hiss-həyəcan və həsrətləri də əks olunur:

Danburun ustasıyam,
Bir gülün dəstəsiyəm.
Sevən yarın dərdindən,
İllərin xəstəsiyəm (78).

Eyni zamanda bu tip haylalarda son dövrlərin hadisələri öz əksini tapmışdır. Bütün bölgələrimizdə olduğu kimi Zaqatala camaatı da Vətənimizin bir hissəsi olan Qarabağın işğalına etirazını bildirmişdir. Zaqatalalıların etirafı folklor müstəvisində də öz təzahürünü tapmışdır. Təbii ki, haylalarda da bu mövzudan kənarda qala bilməzdi:

Danbur çala bilmirəm,
Əldən qoya bilmirəm,
Şuşam, Laçınım getdi,
Hayla deyə bilmirəm (78).

Göründüyü kimi, haylalarda elə-obaya bağlılıq duyulur, vətənə məhəbbət hissləri əks olunur.

Payız qışdan əzəldi,
Yarpaq tökən xəzəldi.
Vətən viran olsa da,
O, cənnətdən gözəldi (78).

Bu haylaların əksəriyyətində düşmənə hədsiz nifrət, elindən-obasından ayrı düşən həmyerlilərimizin dərdinə şərik çıxmaq, qəriblik və s. kimi bir sıra başqa insani, vətənpərvər hisslər boy verir:

Laçınımda qalan var,
Qol-boynuma salan var.
Qoy mən gedim vətənə,
Gözü yolda qalan var.

Və yaxud:

Aşığam, əri, dağlar,
Hanı yurd yeri, dağlar,
Yel vursun, su aparsın,
Yağ kimi əri, dağlar (78).

Tənbur mövludlarda, Qurban bayramından bir gün öncə də ifa olunardı. Dini mərasimlərdə tənburla ilahilər oxunardı. Bu ilahilər məclisin ab-havasına uyğun tərzdə olardı. Bir nümunəyə diqqət edək:

Qulfidə oldum, Allah,
Oxudum Qulfi-Allah.
Mən kiçi, qardaş kiçi,
Saxlasın əziz Allah (78).

Göründüyü kimi, əvvəllər dini mərasimlərin bəzəyi olmuş tənbur musiqi aləti sonralar yerini mövsüm mərasimləri ilə bağlı iməciliklərə vermişdir. Nümunənin birinci misrasında «qulfi çıxartmaq» ifadəsi işlənir. Mərhumun yaxınlarının qırx gün qəbr üstə gedib «Quran» oxutmaları el arasında «qulfi çıxarmaq» adlanardı. Qulfi çıxaranlara hər gün yemək-içmək verilərdi. Qeyd edək ki, hazırda iqtisadi durumla bağlı bu adət öz əvvəlki mahiyyətini itirməkdədir.

Tənburun ayrı-ayrı mərasimlərdə ifa edilməsi bir neçə baxımdan əhəmiyyətlidir.

Zaqatalada bu gün də təkkə ocaqlarının izlərini qoruyub saxlayan bir sıra ziyarətgahlarda vaxtı ilə dərvişlərin tənburda ilahilər demələri, bu alətin bir başa təkkə ocaqlarına, əski dünyagörüşə bağlılığına işarə edir. Eləcə də tənbur musiqi aləti görünüşünə görə hər bir türk xalqında müxtəlif formada olur ki, bu da onu digər qədim alətlərdən ayırır və ifa xüsusiyyətlərinə görə fərqli yanaşma tələb edir. Müxtəlif mərasimlərdə, iməciliklərdə tənburun ifa olunması ilk öncə insanları bir araya gətirmək, onları bir-birlərinə daha sıx bağlamaq, bir-birlərinin qədrini bilmək kimi yüksək əxlaqi keyfiyyətlər aşılamağa xidmət edir. İməcilik zamanı (xüsusən, yun, barama, xırman, tütün düzümü, tay basma) ora toplaşan qohum-əqrəbanın işə maraq dairəsini artırmaq məqsədi baxımından da gərəkli olmuşdur. Qurban bayramından bir gün öncə tənburda ilahilərin oxunması, insanları bir araya gətirmək, onlara ruh yüksəkliyi verməkdə xüsusi əhəmiyyətə malik olmuşdur. Qurban və Mövlud dini mərasimlərində tənbur ifa olunması, ilahilərin deyilməsi faktı Qurban və Mövlud mərasimlərinin daha əski dünyagörüşlə bağlılığına işarə edir. Yuxarıda qeyd etdiyimiz kimi, Qurban bayramından bir gün öncə «Yığnaq» olardı. Burada tənbur çalınar, yüksək tonla ilahilər oxunardı. Digər tərəfdən isə gecə gənclərin dəstələr halında səslərini dəyişib, özlərini tanınmaz görkəmə salaraq, əllərinə çomaq alıb evləri gəzmələri, dəmir əşyaları döymələri bu mərasimin əski dünyagörüşlə bağlılığına birbaşa işarədir. «Amma bu gün vəziyyət başqadır. Tənbur mövcud şərait və inkişafla əlaqədar olaraq öz əvvəlki audutoriyasını, tələbatını itirmişdir» (107, 150-151). Tənburla bağlı araşdırmamızdan belə nəticəyə gəlmək olur ki, bu musiqi aləti bu gün öz spesifik xüsusiyyətləri ilə Zaqatala aşıq mühitində yaşamaqda davam edir. Başqa aşıq mühitlərində təsadüf edilməyən haylalar xas olaraq Zaqatala aşıq mühitində tənbur ifaçıları tərəfindən yaradılmışdır. Və tənburla sazı bir-birinə yaxınlaşdıran xüsusiyyət hər iki alətin təkkə ocağına bağlılığıdır.

Prof. Hüseyn İsmayılov məqalələrinin birində doğru olaraq qeyd etmişdir ki, bir xalqın folklorunun qorunması o xalqın özünün, milli yaddaşının, vətən torpaqlarının, vətəndaşının qorunması deməkdir (19, 5). Bütün bunlar onu göstərir ki, ayrı-ayrı mühitlərimizdə yaşamaqda olan xalq sənətinin eyni zamanda Zaqatala tənburunun tam şəkildə araşdırılıb tədqiq edilməsi folklorumuz üçün, ümumilikdə ümumtürk folkloru üçün böyük fayda verə bilər.

## Zaqatala aşıqları (XVIII əsrin sonu – XX əsrin ortaları)

Zaqatala aşıq mühitində yaşayıb-yaradan aşıqların yaradıcılıq irsi, zəngin poeziyaları onların sənətkarlıq qüdrətindən söz açmağa imkan verir. Bu mühitdə aşıq sənəti üçün önəmli olan ustad-şagird ənənəsi günümüzə kimi kifayət qədər özünəməxsusluğu ilə qorunmuşdur. Prof. Mürsəl Həkimov haqlı olaraq ustad-şagird ənənəsi məsələsini Azərbaycan aşıq yaradıcılığının inkişaf tarixində çox müqəddəs və həm də nəcib, xeyirxah bir ənənə hesab etmişdir (48, 41). Aşıqlar öncə klassiklərin yaradıcılığını mükəmməl səviyyədə öyrənməli, xalq dastanlarını öz repertuarlarına uyğun şəkildə söyləməyi bacarmalıdırlar. Yalnız şagird öz ustadından aşıq sənətini mükəmməl öyrənib ayrıldıqdan sonra xüsusi fəaliyyət göstərə və məclislər apara bilərdi. Buna nümunə olaraq Aşıq Məhəmmədin şagirdləri ilə birgə ermənilərin də iştirak etdiyi toyda olarkən baş verən hadisəni göstərə bilərik. Aşıq Məhəmməd qondarma erməni aşıqları olan Sarkisyan və Bağdasarın dəvətinə öz şagirdləri Təmaz və Qurbanla gedir. Məclisdə əvvəlcə sınaq üçün Aşıq Məhəmmədin şagirdlərinə söz verilir. Təmazla Qurban bir ağızdan «ustad olan yerdə biz əlimizə saz almarıq» deyirlər. Diqqət çəkən bir məqam da budur ki, ustadın izni olmadan Qurbanla Təmaz süfrəyə qoyulan xörəyə əl uzatmırlar. Şagirdlər Aşıq Məhəmmədin öncəgörənliyindən xəbərdar olduqları üçün onun duyduqlarının həqiqət olmasına şübhə etmirdilər. Eyni zamanda Əliabadlı Aşıq Hüseynin şagirdləri Herov, Aşıq Cəlil, Abdulla, Darçın onunla məclislərə gedər, ustad sözünə nəzər salar və ustadın izni olmadan məclisi tərk edə bilməzdilər. Ustad-şagird ənənəsi olmadan Azərbaycan aşıq sənətini təsəvvür

etmək mümkün deyil. Prof. Şimşek Əsma öz tədqiqatlarında qeyd etmişdir ki, Aşıqlıq gələnəyi xalqın könül duyğularını saz şairlərinin musiqi tərənnümləri ilə xalqın yaddaşına həkk edilərək nəsildən-nəslə gəlib çatmışdır (131, 29). Aşıq Hüseyn dastan bilməyən şagirdinə məclisdə əlinə saz götürməyi qoymazdı. Prof. M.Qasımlı da aşıqlıq ənənəsinə görə sərbəst müstəqil aşıq statusuna sahib olmaq üçün şagirdin klassik dastanları bilməsini və ustadı qarşısında imtahan verərək xeyir-dua almasını mühüm şərtlərdən biri hesab etmişdir (67, 22-24). Çox təəssüf ki, Zaqatala aşıq mühitində bu gün həmin ənənə öz əvvəlki gücünü tam formada qoruyub saxlamayıb. Bunun bir sıra tarixi və siyasi səbəbləri vardır ki, yeri gəldikcə açıqlamasını verəcəyik.

Burada tarixən yaşayıb-yaradan aşıqlarımızdan biri də varxiyanlı Aşıq Məhəmməddir. Onun həyat və yaradıcılığı haqqında ayrı-ayrı ustad aşıqlardan sənətkarın nəticəsi-Aşıq Səadəddindən əldə etdiyimiz məlumatlara əsasən, o, həqiqətən haqq aşığı olmuşdur. Folklorşünas alim Salman Mümtaza görə, «varxiyanlı Məhəmməd XVIII əsrin II yarısında Zaqatala rayonunun Varxiyan kəndində anadan olmuş, 65 yaşında dünyadan köçmüşdür. O, ustad aşıq olmuş, xalq şeirinin bir çox şəkillərində gözəl nümunələr də yaratmışdı» (80, 249). Aşıq Məhəmmədin həyatda qarşılaşdığı hadisələr, düzə-düz, əyriyə-əyri kimi münasibət bildirməsi, öncəgörənliyi el arasında onun sənətkarlıq qüdrətini daha da artırmışdır. Sənətkarın «Yüküm» rədifli divanisinə diqqət etsək, yüksək mənəvi-əxlaqi kefiyyətlərin təbliğini aydın görmüş olarıq:

Ustadımdan dərs almışam, ərkandı, yoldu yüküm.
Saf cövhərdən yüklənmişəm, cəvahirdi, ləldi yüküm.
Halımdan xəbəri olan, qiymət qoyar sözümə,
Dəymişdən cəm etmişəm, deməsin kaldı yüküm (78).

Elləri, obaları gəzən, bir üzü Xoy, bir üzü Dərbənd və türk dünyasının çox yerlərində olan ustadın bədahətən şeir demək bacarığı, özünə xas ifaçılıq qabiliyyəti sənətkara daha da böyük uğur gətirir. Divanilərinin birində gəzib dolaşdığı yerlərin adlarını çəkir.

Məhəmmədə qəsd elədim, bu cümlə cahanı gəzib,
Xoy, Sərab, Marağa, Təbriz, Tehranı gəzib.

Varxiyanlı Aşıq Məhəmmədin şeirlərinə bir sıra mənbələrdə təsadüf edirik. Onun «Saldın», «Tellərin», «Yoxdu» rədifli şeirləri «Azərbaycan aşıqları və el şairləri» kitabında çap olunmuşdur. «Azərbaycan Ədəbiyyatı İnciləri» kitabında aşığın «Düşdüm» gəraylısı, «Telli saz ustadları» kitabında isə «Könül», «Bir cam az», «Gəlməz», «Olan canım», rədifli şeirləri öz əksini tapmışdır (15, 153-155; 17, 94; 113, 38-39). Bu yerləri gəzib-dolaşan tədqiqatçılar, səyyahlar, folklorşünas alimlər Aşıq Məhəmmədin yaradıcılıq qüdrətindən söz açırlar. Dövrünün tanınmış etnoqraf alimi Plotto Qafqazı səyahət edərkən Məhəmmədin sənətkarlıq qüdrətini eşitmiş, onun ifaçılığı və yaradıcılığı haqqında yüksək fikirdə olmuşdur. O, məqalələrinin birində qeyd etmişdir ki, Aşıq Məhəmmədin mahnıları Zaqatala dairəsinin müxtəlif millətlərdən olan məclislərində Azərbaycan dilində oxunur. Plotto ustadın həm də improvizatorçu aşıq olub, yaradıcılığında daha çox məhəbbəti tərənnüm etdiyini bildirmişdir (135, 3-5).

Akademik F.Qasımzadə də məqalələrində XIX əsrin I yarısında Azərbaycanın şimalında bir sıra sənətkarların yetişməsindən söhbət açır. Bunlardan xüsusi ilə Aşıq Məhəmmədin adını qeyd etmişdir (65, 127).

Ustad sənətkarın olacaqları əvvəlcədən duyması, dərin dini, ürfani bilgiyə malik olması dayısı Hacı İsmayılın qəzəbinə səbəb olmuş, onu kafir adlandırmışdır. Bu yersiz qəzəb Hacı İsmayılda Aşıq Məhəmmədin ölümünə kimi davam edir. Hacı İsmayıl Aşıq Məhəmmədin cənazəsi aparılanda görür ki, tabutun üstündə yüzlərlə mələk uçur. Bundan sonra o, səhvini anlayıb camaata qoşulur və aşığın dəfnində iştirak edir.

Aşıq Məhəmməd demək olar ki, xalq şeirinin bütün janrlarında qələmini sınamış, el arasında böyük rəğbət qazanmışdır. Onun yaradıcılıq irsi, mövzu istiqaməti baxımından xüsusi maraq doğurur. Aşıq Məhəmməd ictimai-siyasi hadisələrlə dolu qaynar bir mühitdə yaşayırdı ki, bu da onun poeziyasından yan keçmirdi. Zaqatala haqqında bir neçə kitabın müəllifi Q.Şabanoğlu Aşıq Məhəmmədin zamanında əlində sazı el-el, oba-oba gəzərək saysız-hesabsız məclislər keçirdiyini və xüsusən erməni aşıqlarını bağladı-

ğını qeyd etmişdir (109, 43). Əsrlər boyu ermənilər müxtəlif siyasi səbəblərdən Azərbaycanın müxtəlif ərazilərində eyni zamanda Şəkidə, Zaqatalada məskunlaşırdılar. Təkcə 1826-1828-ci illər Rusiya-İran müharibəsinin gedişində İrandan, o cümlədən Azərbaycanın cənub ərazilərindən Zaqafqaziyaya, Azərbaycanın müxtəlif rayonlarına, əsasən də Qarabağa 18 min erməni ailəsi köçürülmüşsə, 1830-cu ildən bu göstərici 40 mini keçmişdir (18, 49).

Aşıq Məhəmmədin dövründə ermənilər öz məclislərinə Azərbaycan aşıqlarını çağırardılar. Aşıq Məhəmmədin öncəgörənliyi ilə bağlı bir rəvayət də nəql olunur. Ermənilər həmişə Aşıq Məhəmmədin yüksək fitri istedadının, bədahətən söz deməsinin paxıllığını çəkmişlər. Aşıq Səadəddinin, Aşıq Mədətin dediklərinə əsasən, iki dəfə Məhəmmədi şagirdləri ilə birgə öz məclislərinə dəvət edən Bağdasarla Sarkasyan onu çoxlu bəxşişlərlə yola salır (El arasında bu hadisənin Gürcüstanın Səbətli kəndində baş verməsi haqqında da fikirlər mövcuddur. Bəzi söyləyicilər isə bu kəndin Şəki ərazisində olduğunu iddia edirlər. Qeyd ki, Şəkinin Göynük kəndinin yaxınlığında Səbətli adlı kənd olub. Hal-hazırda bu kənd mövcud deyil). Üçüncü dəfə isə bir çox sınaqlara çəkərək məclislərin birində zəhərləyib öldürürlər. Əvvəla, Məhəmməd onlarla yeddi gün deyişir. Bu deyişmələrdən birinə – «Necədi?» rədifli deyişməsinə diqqət edək:

Səndən xəbər alım, ay el aşığı,
Bir olan Tanrının adı neçədi?
Əvvəlcə de hansı peyğəmbər gəlib?
Adəm atanın de, övladı neçədi?

Nə üçün yaradıb dərya-ümmanı?
Neçə min ovucdur suyunun sanı?
Yaxşı gəzib axtar sonsuz fəzanı?
Məhəmmədəm, göyün qatı neçədi? (78)

Aşıq yaradıcılığında tarixi, əfsanəvi, dini şəxslərin adlarını elə-belə çəkmir. Onlar haqqında olan əfsanə və xatirələrin hamısı aşığa bəlli olmuşdur: Habil, Qabil, Mənsur, Davud, Süleyman, İsa, Musa, İbrahim Xəlil, Əyyub, Yunis, Adəm, Nuh, Yəqub, Şəd-

dad, Firon, İsgəndər, Nuşirəvan Keykavus, Xosrov Pərviz, Namrud və b. Bəzən bir-iki misra ilə böyük bir hekayətə, yaxud dini-fəlsəfi adlara işarə olunur. Aşıq Məhəmməd bunların hamısını heç bir ustada qulluq etmədən öyrənmişdir:

Arif olan, danışsana, şirin göftarın görüm,
Gəl dərsini bəyan eylə, dilində əzbərin görüm.
Aç mətahın, tök bazara, sat malını, xırd eylə,
Sənafiyəm, xub seçərəm, ləbi-gövhərin görüm (78).

Bəhmədli Aşıq Mədətin dediyinə görə, Aşıq Məhəmməd erməni aşığı olan Aşıq Donu ilə məclislərin birində deyişir. Aşıq Məhəmməd onun qarşısına şərt qoyur ki, uduzsan, müsəlmançılığı qəbul edəcəksən. Qalib gələcəyini düşünən erməni aşıqla razılaşır. Amma Aşıq Donu bağlanır. Məcbur olub şərtə əməl edir. Bunun əvəzini çıxmaq üçün erməni aşıqları bir bəhanə ilə Aşıq Məhəmmədi toy məclisinə dəvət edirlər. Ustad haqq aşığı olduğu üçün başına gələcəklərini əvvəlcədən duyur. Baş verəcək hadisədən şagirdlərini xəbərdar edir. Onlar ustadlarının gedişinə mane ola bilmirlər. Bu səbəbdən özləri də getməli olurlar. Onun «qıfıllamaları»nı (ifadəni Zaqatala söyləyicilərinin işlətdiyi kimi verməyi məqsədəuyğun saydıq-Z.S.) aça bilməyən erməni aşıqları deyirlər ki, «sözdə sənə qalib gələ bilmədik, indi isə öncəgörənliyini sınağa çəkəcəyik». Beləliklə, bir dəryadan qızıl balıq tutub, bankanın içinə salıb, keçəyə büküb, qıfıllı sandıqda Məhəmmədin qarşısına gətirirlər. Məhəmməddən sandığın içində nə olduğunu soruşurlar. Sənətkar heç nə düşünmədən deyir ki, keçədir. Keçəni çıxardıb bir dəfə ayağı ilə dığırladır, keçə mavi rəng alır. İkincə dəfə qara, nəhayət, üçüncü dəfə keçə tərləyir. Deyir ki, bu filan dəryadan tutduğunuz qızıl balıqdır. Onun qarnında nişan üzüyü var. Aşıqlar bunun sirrini soruşurlar. Aşıq deyir: «Keçəni birinci dəfə fırladanda o, mavi rəng aldı. Mən onda göydə, ərş aləmində idim. İkinci dəfə qara rəng alanda yeraltı dünyaya baş vurmuşdum. Keçə tərli olanda dənizə baş vurmuşdum. Və nəhayət, keçədəkinin balıq olduğunu bildim. Məhəmmədin dediyi kimi balığın qarnını yarıb nişan üzüyünü tapırlar» (78).

Onu heç cürə bağlaya bilməyən erməni aşıqları sonda yeməyinə zəhər qataraq öldürürlər. Maraqlı haldır ki, yeməkdən öncə ustad öz şagirdliyə götürdüyü əmisi oğlanlarına tapşırır ki, onun yediyindən yeməsinlər. Ölümünü bilən sənətkar burada «Aman günüdür» rədifli divanisini deyir. Bu divanidə sənətkarın arzu və istəkləri, erməni aşıqlarına olan qəzəbli ifadəsi əks olunur:

Bu nə yoldu, nə fərmandı bilmirəm,
İzin verin, yollar, aman günüdür.
Bülbül olub öz bağımdan ötmədim,
Saralmayın, güllər, aman günüdür.

Məhəmmədin könlü ahü-zardadır,
Bəxtim bəd gətirib işim dardadı.
Heç bilmirəm qohum-qardaş hardadır,
Xəvər verin, ellər, aman günüdür (78).

Bütün sınaqlardan uğurla çıxan ustad aşığın xörəyinə zəhər qatmaqla Aşıq Donunun qisasını almış olurlar.

Onun şagirdlərindən Təmazın dili tutulmuş, Qurban isə uzun müddət dəri xəstəliyindən əziyyət çəkmişdir. Heç biri əvvəlki kimi çalıb-çağıra bilməmişlər. Bəzi mənbələrdə isə Məhəmmədin ermənilər tərəfindən şagirdləri ilə birgə zəhərlənib öldürüldüyü qeyd olunmuşdur (5, 155). Aşıq Məhəmmədin şagirdliyə götürdüyü əmisi oğlanlarının onunla birgə zəhərlənib öldürülməsi yuxarıda qeyd etdiymiz rəvayət və əhvalatlardan da məlum olur ki, həqiqətə uyğundur. Onun şagirdlərinin müəyyən zamandan sonra zəhərin təsiri ilə öncə dilləri tutulmuş sonra isə dünyalarını dəyişmişlər.

Aşıq Məhəmmədin poeziyası çoxşaxəli tam və dolğun bir poeziyadır. Onun şeirlərinin əksəriyyəti müəyyən səbəblərdən itmişdir. Təbiət gözəllikləri, məhəbbət, ictimai-siyasi lirika, dini-ürfani görüşlər, ustad sənətkarın poeziyasında xüsusi yer tutur. Aşıq Məhəmmədi aşıq sənətinin görkəmli sənətkarlarından biri olan Aşıq Alı, Aşıq Ələsgər, Növrəs İman, Mola Cuma kimi söz korifeyləri ilə bir cərgəyə qoymaq olar. O, həm də öz novatorluğu ilə sayılıb seçilən ustad aşıqlarımızdandır. Onun yaradıcılığında cığalı-zəncirli müsəddəsə təsadüf olunur ki, Aşıq Məhəmmədin

adıyla bağlıdır. Aşıq Məhəmmədin məhəbbət lirikası öz saflığı, səmimiliyi, axıcılığı ilə səciyyələnir. Ustadın arzuları, hiss-həyəcanı onun ayrı-ayrı şeirlərində, misralarında öz əksini tapır. «Gəlsənə» rədifli qoşmasında deyilir:

Xumar gözlüm, nə durmusan yol üstə,
Qədəm basıb bizə sarı gəlsənə.
Gecə-gündüz dilimdəsən, dilimdə,
Ay qız, mənim bu dərdimi bilsənə (78).

Aşıq Məhəmmədin məhəbbət mövzusunda yazdığı şeirlərinin məzmununu əsasən, gözəllərin tərənnümü, tərifi ilə yanaşı, yol gözləyən aşiqin hiss-həyəcanı, narahatçılığı, kədəri, nisgili təşkil edir. Ustad sənətkar gəzib dolaşdığı obaların, ellərin göz tutub könül oxşayan, ədəbli-ərkanlı gözəllərinin şəninə bədahətən şeirlər deyir. «Qadasın aldığım» divanisində bu barədə deyir:

Bu bağlara bağban idim, bar qadasın aldığım,
Bəslədibdi dol buxaqda nar, qadasın aldığım.
Bahar fəsli, yaz məhsulu, bağların yaraşığı,
Yanaxların təzə güldü, zər qadasın aldığım (78).

Ustadın xüsusən, məhəbbət şeirlərinin əksəriyyəti aşıq havası üstündə köklənir:

Məhəmmədəm yana-yana,
Yandı bağrım, döndü qana.
Çapar sala Borçalıya,
Batıbdı yasə telləri (78).

Və yaxud:

Oturmuşdum, gəlib keçdi yanımdan,
Bir ala gözlü qız baxdı, yeridi.
Onu görüb məndə aman qalmadı,
Dalınca ürəyim axdı, yeridi (78).

Molla Cuma kimi Aşıq Məhəmməd də şeirlərində həqiqi sevdiyi gözəlin adını çəkmir. Sadəcə, onun gözəlliyindən və əxlaqından söz açır. «Bağlar» rədifli təcnisində sənətkar kamil bir bənzətmə yaradır. Gözəlin çöhrəsindəki busə bağları ilə şikarın arxasınca düşən ovçunun bağları pusmağı müqayisə edir və bununla gözəl bir təşbeh yaratmış olur:

Bir gözəl görmüşəm bizim ellərdə,
Üzündə görmüşəm busə bağları,
Yaşılbaşlar cəm-xəm eylər göllərdə
Tərlan şikarında busə bağları (78).

Aşıq Məhəmməd özündən əvvəlki ustad sənətkarların yaradıcılıq irsindən kifayət qədər bəhrələnmiş sənətkarlarımızdandır. O, yeri gəldikcə Qurbaninin, Abbas Tufarqanlının, Xəstə Qasımın poeziyasına böyük sevgi və ehtiramla yanaşır, onların şeirlərinə nəzirə yazır. Bu nümunələrdən birinə diqqət yetirək:

Sallana, boylana gedən Salatın,
Elə sallanginən, yol inciməsin.
Qorxuram, dünyanın yeli tərs əsə,
Tökülə gərdənə, tel inciməsin (78).

Bu qoşma ustad sənətkarımız Qurbaninin «Salatın» qoşmasına nəzirə yazmışdır. Aşıq Məhəmməd yarının mənəvi gözəlliyinə, ədəb-ərkanına, tərbiyəvi keyfiyyətlərinə çox böyük üstünlük vermişdir. Onun şeirlərində həm də bir inciklik, yarın vəfasızlığından şikayət əks olunur. «Yeridi» qoşması bu baxımdan maraqlıdır:

Yeri, yeri, ikidilli dilbərim,
Sənin təki beyilqarı neylərəm?
Aldadıb yıxıbsan könlüm evini,
Xoşagəlməz belə cəri neylərəm? (78)

Ustad, gözəlliyin başlıca şərtləri kimi ədəb-ərkanı, əxlaqı əsas götürür. Gözəlliyi olub, əxlaqı olmayan gözəli gözəl sanmır. Qoşmalarının birində bu barədə deyir:

Gözəllik kamaldı, bil, camaldeyil,
Ağ üzündə qoşa qara xal deyil,
Gözəllik insana dövlət-var deyil,
Gözəl deyil, mərifəti olmasa (78).

Bu qoşmada əvvəldən sona kimi bədii ifadə və təsvir vasitələrinin, frazeologizmlərin yerində işlənməsi ustadın sənətkarlıq qüdrətindən soraq verir. Yeri gəldikcə sənətkar şeirlərində sevənlərin arasını vuran kəsləri qarğıyır:

Düyün düşsün dil verənin dilinə,
Şad olan gününü özü görməsin.

Sevgilimi saldı yadlar əlinə,
Ömrü boyu züryət üzü görməsin (78).

Ustadın bu qismə aid olan şeirlərindən «Gəlin», «Məni», «Sən», «Tükəzban», «Yar», «Yaraşığı», «Bilər» və s. nümunələrin adlarını çəkmək olar. Aşıq Məhəmməd çox zaman səsinin sevgisinə çatmadığı üçün kədərlənir, ömrü boyu o dilbəri görmək arzusu ilə yaşayır. «Səs» rədifli divanisində ustad belə deyir:

Sən Məhəmməd, nə gəzirsən Məcnun kimi dağı, səs,
Səkkiz cənnət hurisidir, qoynu behişt, bağı səs,
Sərindən aldı ağlımı, tər sinənin ağı səs,
Sinəm üstə çarpaz düyün, yetişmədi yarə səs (78).

Sevgisindən şikayət xarakteri daşıyan bir divanisində də təəssüf, nifrət və kədər duyulur:

Məhəmmədəm, kor qalıbdır namus, qeyrət, ar mənə,
Yar dərdindən dərdə düşdüm, yetişmədim dərmana.
Siz də baxın, ay ağalar, neyliyibdi yar mənə,
Qanlılara padşahlar da belə divan eyləməz (78).

Bu qəbil şeirlərində sənətkar fələkdən, taleyindən şikayət edir. Həyatda qarşılaşdığı haqsızlığa qarşı çıxır. Bütün ömrünü mübarizə ilə keçirən ustad sonunda yenə də Allaha üz tutur, başına gətirilən müsibətləri söyləməklə özündə təsəlli tapır. «Canım» rədifli qoşmasında belə deyir:

Qadir Allah, nə kəmtale qul oldun,
El içində haqqı say olan canım.
Qədirbilməzlərin qədrini aldı,
Əməyi itibən zay olan canım (78).

Həmişə olduğu kimi, mənfur ermənilər aşığı haqsız yerə şərə salıb, şikayət edirlər. Üç il vətənindən ayrı düşən, ömrünü zindanda keçirən aşıq o illər ərzində şikayət xarakterli şeirlərini yazır. (Bu hadisə ermənilərin sənətkarı zəhərləyib öldürməzdən əvvəl baş vermişdir.) «Məni» rədifli qoşmasına diqqət etsək, bu mənzərəni aydın görmüş olarıq:

Məhəmməd düşübdü şərə nagahan,
Yalvarmaqdan qabar oldu dil-dəhan,

Sən yetiş dadıma, Xaliqi-sübhan,
Amandı, götürün buradan məni (78).

Üç il zindan həyatı keçirən aşıq tez-tez boya-başa çatdığı elini-obasını xatırlayır:

Ağalar, vətəndən oldum avarə,
Qadiri-sübhanə şikayətim var.
Bir gedən olsaydı bizim ellərə,
Yazmışam, ol yarə əmanətim var (78).

Qeyd edək ki, Aşıq Məhəmməd ictimai-siyasi şeirlərinin böyük əksəriyyətini məhz ömrünün həbsdə keçirdiyi illərində yazıb. Qarşılaşdığı haqsızlıqlar, qondarma erməni aşıqlarının onun başına açdığı oyunlar ustadı rahat qoymur. Çar Rusiyasının siyasəti nəticəsində Azərbaycan torpaqlarına yerləşdirilən ermənilər öz niyyətlərini burda da açıq-aşkar bəyan etmişlər. Ustad sənətkar qoşmalarının birində deyir:

Ağaclar oyanıb gül açan zaman,
Söyüd də boy çəkib yırğalanmasın.
Alar caynağına parçalar atar,
Tülkü aslan üstə yorğalanmasın (78).

Aşıq Məhəmməd poeziyasında yolunu azan insanları doğru yola çağırır. «Olmasa» rədifli qoşması bu istiqamətdə yazılıb:

Nütfəsi halalın nanı bol olar,
Halal insanlara dağlar yol olar,
Halal damcı-damcı damar
Heç üzülməz haram qatı olmasa.

Və yaxud:

Ay Məhəmməd, meyl eləmə harama,
Naşı təbib, əlin vurma yarama.
Mancınağa yaxşı sərin barama,
Sarı hamar çıxsın sırğalanmasın (78).

Gördüyümüz kimi, sənətkar şeirlərində yeri gəldikcə yaşadığı, böyüyüb boya-başa çatdığı elinin-obasının məşğuliyyət tərzinə də işarə edir. Ustad sənətkar dürüst olmağı ilk öncə özünə tövsiyə edir. Özünə rəva bilmədiyini başqasına da rəva bilmir. Bu xüsusiyyəti ustadın özünəxas əxlaqi keyfiyyətlərindən biri kimi də-

yərləndirə bilərik. «Dünyada» rədifli ustadnaməsi bu baxımdan maraq doğurur:

Könül, qafil olma, heç kəsə uyma,
Aldanma heç cürə vara dünyada.
Düz gəzib dolansan ellər içində,
Heç zaman çəkməzlər dara dünyada (78).

Aşıq Məhəmməd sözü yerində işlətməyi bacaran, sözdən çələng hörən ustad sənətkarlarımızdandır. O, poeziyasında Azərbaycan dilinin bütün zənginliklərindən, atalar sözlərindən, məcazlar sistemindən kifayət qədər bəhrələnmişdir.

Sübuta yetirib dövran insanı,
Acın dini olmaz, toxun imanı.
Əzrayılın zərri, gürzlü kamanı,
Məhəmməd, sinənə batar, tələsmə (78).

Ustadın yaşadığı dövrdə tanınmış, dini gözəl bilən, xalqın gələcəyi naminə çalışan şəxsləri haqsızcasına sürgün edirdilər. Çox zaman ermənilər tərəfindən güdaza gedən bu şəxslər vətənlərindən ayrı düşürdülər. «Görəndə» rədifli qoşmasında sənətkar qarşılaşdığı hadisələri tam təfsilatı ilə əks etdirməyə çalışmışdır. Onun bu qoşmasında yaşadığı dövrün mənzərəsi canlanır:

Könlüm qalxıb haraları dolanır,
Viran qalmış o dağları görəndə.
Yaş yerinə didəmdə qan dolanır,
Bülbül ölmüş o dağları görəndə (78).

Bu nümunə bizə Q.B.Zakirin «Eylər» rədifli müxəmməsini və M.P.Vaqifin «Görmədim» şeirini xatırladır. Hər üç müəllif dövrün, zamanın haqsızlığından şikayət etmişlər. Sonrakı bəndlərdə daha kəskin çıxış edən sənətkar hiss-həyəcanını belə ifadə edir:

Kimsə Məhəmmədin dərdini bilməz,
Hicran xəstəsiyəm, təbibim gəlməz.
Heç eynim açılıb üzüm də gülməz,
Vaxtsız köçən cavanları görəndə (78).

Cəmiyyətdə baş verən hadisələrdən öz könlünə müraciətlə şikayətini bildirən sənətkar bütün bu haqsızlıqların çıxış yolunu insanların səmimi münasibətində və doğrunu seçmələrində görür.

Aşıq ədəbiyyatında «könül»ə müraciətlə yazılmış nümunələrə tez-tez təsadüf edirik. Aşıq Abbas Tufarqanlı, Aşıq Şəmşir, Ağdabanlı Qurban, Molla Cuma kimi sənətkarların yaradıcılıqlarında bu tip nümunələri təsadüf edirik:

**Tufarqanlı Abbas:**

Nə ağlarsan, nə sızlarsan,
Bir dərdi beş olan könlüm.
Axırda zünnar bağlarsan,
Qəmə yoldaş olan könlüm (15, 62).

**Aşıq Məhəmməd:**

Nədən susdun, nə sakitsən,
Dərya kimi daşan könlüm.
Yoxsa daha qocalıbsan,
Qarlı dağlar aşan könlüm (12, 238).

Aşıq Məhəmməd klassik ənənəyə sadiq qalmış, sələflərinin yaratdığı ənənədən lazımı şəkildə bəhrələnə bilmişdir. O, poeziyasında «könül» silsiləsində şeirlər yaratmışdır ki, bu da onun ənənəyə bağlılığını göstərir. Bu silsilədən olan şeirlərinin əksəriyyətində ustad öz könlünə müraciət edərək onunla canlı bir varlıq kimi dərdləşir:

Vaxt olar çıxarsan ərşə-asmana,
Vaxt olar, havadan yenərsən, könül.
Vaxt olar düşərsən çiskin-dumana,
Vaxt olar hər işi qanarsan, könül (78).

Aşıq Məhəmmədin yaradıcılığında dini-ürfani nümunələrə də təsadüf olunur. «Görün», «Pərvərdigar», «Bir cam az», «Necədir», «Səni» və s. şeirlərini yuxarıda deyilənlərə nümunə göstərmək olar. Zaqatalada bu gün də yaşayıb-yaradan ustad sənətkarlarımızdan olan varxiyanlı Mədətin dediyinə əsasən, Aşıq Məhəmməd məclislərdə bədahətən şeir deyib, saz çalanda, maraqlı söhbətlər edəndə onun haqq aşığı olduğu isbat olunurdu. Haqq aşığı olmasını bütün ürfani şeirlərində izləmək mümkündür. Şəriəti yaxşı bilən sənətkar sonralar təriqəti də öyrənir. Ustadın haqq aşığı olması barədə el

arasında müxtəlif rəvayətlər də dolaşır. Ürfani dəyərlərin əks olduğu və Ş.İ.Xətainin “Sazım” qoşmasına uyğun «Bir cam az» rədifli qoşması bu baxımdan xüsusi maraq doğurur:

Yatmış idim, qafil gəldi üstümə,
Bir cam dolu, bir cam yarı, bir cam az.
Üç muradı onda tutdum dəstimə,
Bir cam kamal, bir cam söhbət, bir cam söz (78).

Qoşmanın məzmunundan göründüyü kimi, ustad Xıdırın, Şahlar şahının öz əlləriylə içirdikləri eşq badəsinə işarə edir. Həmin dəmdə Allahdan, onun müqəddəslərindən ağıl-kamal, ustad sənətkara el arasında ucalıq gətirən müdrik söz sahibi olmağını diləyir.

«Səni» rədifli qoşmasında sənətkar yenə də öz könlünə müraciət edir. Ona eşqin camından içdiyi üçün öz halından gileylənir:

Dedim, könül, içmə eşqin camını,
O, hicran oxuna keçirdər səni,
Eşq bir atəşdir, dözə bilməzsən,
Yandırıb göylərə ucaldar səni (78).

Aşıq Məhəmməd əslində Novruzu Qəndaba, Abbası Gülgəzə yetirən eşq camının onların başına gətirdikləri müsibətlərdən, sınaqdan keçdikləri hər işindən xəbərdardır. Allah eşqinin atəşinə düşən haqq aşığı acılara sinə gərə bilmədikcə kədərlənir, könlünü qınaq yerinə çevirir. Hərdən isə bu acının müqəddəs ərənlərin, övliyaların əliylə içdiyi abi-kövsərlə bağlı olduğunu xatırlıyıb susur və bunu özünə şərəf bilir. «Yüküm» rədifli divanisində bu barədə deyir:

Mərdanələr yığılıban, söhbəti xoş eyləsin,
Bir-birinə xoş deyibən, sərin peşkəş eyləsin,
Sadiqəm, mərd məclisində içənlər nuş eyləsin,
Abi-kövsərdən almışam, abi-zülaldı yüküm (78).

Dünyanın sirlərini bilən, hal və qaldan xəbərdar olan sənətkar mizan-tərəzidə həmişə ədalətli olmağı ilə üstün gələcəyini xatırlayıb içində təskinlik tapır. Axirət gününü yada salan ustad insanlara yalandan, hiylədən kənar durmağı tövsiyə edir. «Haray» divanisi bu baxımdan maraqlıdır:

Təqdirdən xəlq olanların can gələr bədəninə,
Hər kəsin hesab-kitabın yazıb verir əlinə,
Ələsətdə müsəlmanlar gələr yola-ərkana,
Onda çox vay halına tapmazsan izim, haray (78).

«Pərvərdigar» divanisində isə o, insanlara dünya malına bel bağlamamağı, yalnız bir olan Allaha güvənməyi məsləhət görür:

Adəm Həvvadan yarandı, nə qədər ki, bəndə var.
Üryan gəlib, üryan gedən sultan da var, xan da var.
Bu divan o divan döyil, bir ulu divan da var.
Qurular mizan-tərəzi divani, pərvərdigar (78).

Yuxarıda qeyd etdiyimiz kimi, Aşıq Məhəmmədin haqq aşığı olması, hazırcavablığı barəsində el arasında bu gün də çoxlu sayda rəvayətlər dolanmaqdadır. Aşıq Məhəmməd həm də yüksək əxlaqi keyfiyyətlərə malik bir sənətkar olmuşdur. O, hər kəsin səhvini ikilikdə deyər, camaat arasında heç kimə tutduğu işə görə xəcalət çəkdirməzdi.

Fikrimizcə, Aşıq Məhəmməd poeziyası öz dolğunluğu, bitkinliyi ilə özündən sonra gələn nəsillərə gərəkli nümunə olacaqdır. Prof. Hüseyn İsmayılovun fikrincə, mənəvi xəzinəmizin inciləri eldən-elə, dildən-dilə keçərək öz tarixi kökünü qorumaqdadır (22, 4-5).

Zaqatalada tarixən istedadlı sənətkarlar yaşayıb-yaratmışlar. Bu günə kimi belə sənətkarların həyat və yaradıcılıq irsləri layiqincə araşdırılmadığından bəzi tədqiqatlarda yalnız adı çəkilmişdir. Zənnimizcə, Azərbaycan aşıq sənətinin az və yaxud çox öyrənildiyi bölgələri var. Təəssüf ki, Zaqatala da az öyrənilən bölgələrimizdəndir. Məhz bu səbəbdəndir ki, bəzi hallarda Zaqatala aşıq mühitini Dərbənd, Şirvan, mühitləri daxilində vermişlər (85, 53-54; 66, 164-165). Amma bu mühitdə istər tarixən yaşayan, istərsə də bu gün yaşamaqda davam edən, el arasında sayılıb-seçilən sənətkarların özlərinəməxsus yaradıcılıq xüsusiyyətləri, sələflərdən gələn ustad-şagird ənənəsinin az da olsa yaşaması, ustad aşıqların xüsusi ifa tərzləri, repertuar zənginliyi mühitin məhz Zaqatala aşıq mühiti adlanmasına əsas verir. Varxiyanlı Aşıq Məhəmmədin qoyduğu ənənəni layiqincə davam etdirən, ustad aşıq

səviyyəsinə qədər yüksələn aşıqlarımızdan yengiyanlı Aşıq Əlixanın, qandaxlı Aşıq Arabın, «Kamal» təxəllüsü ilə şeirlər yazan talalı Aşıq Dibronun adlarını çəkmək olar. Adları çəkilən bu aşıqların hər biri ayrılıqda öz dəsti-xətti ilə, şagird öyrətmə bacarığı ilə tanınan aşıqlarımızdan olmuşdur.

1861-ci ildə Zaqatalanın Qandax kəndində yoxsul, zəhmətkeş bir ailədə anadan olan Aşıq Arab çox maraqlı və əzablı bir həyat yolu keçmişdir. Hələ kiçik yaşlarından atasını itirən **Aşıq Arab** ailəsinin yükünü öz üzərinə götürmək məcburiyyətində qalır. O bəylərin evində nökərçilik edib, evə çörək pulu gətirərmiş. Arabın dərdinə ortaq olan, ona təsəlli verən qonşusu və müasiri Aşıq Əzizxan olmuşdur. Aşıq Arabda aşıq sənətinə olan marağı sazı, şən və şirin çalğısı ilə məhz qonşusu Əzizxan yaratmışdı. Ona tez-tez klassik aşıqlarımızdan söz açır, şeirin-sənətin və sözün hikmətini öyrədirdi. Aşıq Şenlik haqqında aşıq Əzizxandan həmişə xoş sözlər eşidən, yaradıcılığına və şəxsiyyətinə böyük hörmətlə yanaşan sənətkar 1930-cu ildə «Öldü» rədifli qoşmasını yazır. Çox təəssüf ki, onun yaradıcılığından bizə gəlib çatan yalnız «Bu gələn», «Baxın», «Dağlar» rədifli qoşmaları və «Yoxdur», «Mən» rədifli gəraylıları olmuşdur. Aşıq Arabın müraciət etdiyi mövzuların əsasını nəsihət xarakterli ustadnamələri, insan və təbiət gözəlliyinin tərənnümü, nəhayət, dinin təbliği, ürfani şeirlər təşkil edir. Ustad sənətkar şeirlərinin əksəriyyətində dərsini haqdan, gücünü, qüdrətini eldən aldığına işarə edir. «Bu gələn» qoşmasında ustad sənətkar insanlar arasında xaini, pisi, pisliyi görmək istəmədiyini bildirir:

Aşıq Arab haqdan aldı payını,
Çıxdaş olsun aralıqdan xaini.
İtirmərəm yarın haqqı-sayını,
Köhnə yardı, vəfadardı bu gələn (78).

Burada onun sevgisinə olan vəfası, etibarı da çox aydın şəkildə duyulmaqdadır. Aşıq Arab «Mən» rədifli gəraylısında Allahdan əmanət verilən canı haqq yolundan ayırmamağa, pislərdən, pisliklərdən kənar olmağa çağırır, yeri gəldikcə özünü İbrahim züryəti, Məhəmməd ümməti hesab edir:

Quranda oxudum ayət,
Məkkəni edəm ziyarət.
Daim çəkirəm salavat,
Məhəmməd ümmətiyəm mən (78).

Aşıq Arab insanlara olduğu kimi qiymət verməyə üstünlük vermişdir. O, insanın əxlaqi keyfiyyətlərinə, onun tərbiyəsinə daha çox önəm vermişdir:

Öz doğma yurdumun meyvə bağında,
Alma, heyva dərən bir sona gördüm.
Başında ağ çalma, ayağında məs,
Bürünmüş ipəkdən ağ dona, gördüm.

Söz açdım, gənclikdən, sevgidən, yardan,
Arada dik baxıb, dil açdı birdən.
Söylədi, oğlum var, incimə məndən,
Mən onu mehriban bir ana gördüm (78).

Burada gözəlin yalnız daxili aləmi deyil, onun saf məhəbbətinə, övladına sadiqliyi deyil, eyni zamanda xarici görkəmi, geyindiyi libası səmimiyyətilə təsvir olunur. Bütün bu xüsusiyyətlər ustadın klassik irsə dərindən bələd olmasından və insanlığa verdiyi yüksək dəyərdən irəli gəlir. Əlimizdə olan şeirlərindən məlum olur ki, Aşıq Arab zəngin yaradıcılıq irsinə malik olmuşdur. Zaqatalalı ustad aşıqların dediklərinə görə, Aşıq Arabın özünəməxsus və maraqlı tərzdə məclis aparmağı olmuşdur. O, hər hansı məclisdə olarkən özündən əvvəlki ustadların yaradıcılığına müraciət etməklə yanaşı, öz repertuarından da böyük məharətlə istifadə edərək, məclis əhlinin ruhunu oxşayan havalar ifa edərmiş. Qurban Şabanov atası Aşıq Murtuzəliyə istinadən yazır ki, Kor Nəzirlə Aşıq Arab məclislərin birində deyişmişdir. Çox təəssüf ki, deyişmə yazıya alınmadığından bu günümüzə gəlib çatmamışdır. Aşıq Arab 1938-ci ildə vəfat edib. Onun mənəvi irsi sonrakı aşıqların yaradıcılığında da dərin iz buraxmışdır.

Zaqatala aşıq mühitinin tarixi nümayəndələrindən biri də **Aşıq Dibro** olub. O, 1861-ci ildə Zaqatalanın Aşağı Tala kəndində anadan olmuşdur. Onun şeirləri XX əsrin 30-cu illərində çap

olunan «Aşıqlar» kitabında verilmişdir. Sonralar isə «Şəki-Zaqatala antologiyası» kitabında ustad sənətkarın bir neçə şeiri nəşr olunub. Burada diqqəti çəkən məqamlardan biri də budur ki, adı çəkilən mənbələrdə sənətkarın olum tarixi müxtəlif illərə təsadüf edir. Azərbaycan Folkloru antologiyası (Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Baləkən folkloru) kitabında Aşıq Dibronun 1875-ci ildə anadan olduğu göstərilir. Onu da qeyd edək ki, Aşıq Dibro Molla Cumanın müasiri olmuş, eyni zamanda ustadın qızı Xanımbalanın onun yeganə davamçısı olduğu göstərilmişdir (21, 45-49). Zaqatalalı ustad aşıqların dediklərinə görə, Molla Cuma Zaqatalada tez-tez məclislər aparmış, qabaqcıl aşıqlarla deyişmiş, gözəllərin şəninə şeirlər demişdir. Onun istər öz elindən, istərsə də kənar ellərdən, onlarla şagirdləri olmuşdur. Balakənin İtitala kəndindən olan Aşıq Məhəmməd Həsrətov Məhəmməd Əli oğlu da onun yetirmələrindən biri olmuşdur. Molla Cuma Zaqatalada və onun bir çox kəndlərində – Carda, Talada məclislərdə olarkən «Əliabad», «Dünya», «Yollar» və s. şeirlərini bədahətən demişdir. Bütün bunlar Aşıq Dibro haqqında maraqlı məlumatlar verir. «Aşıq Dibronun yaratdığı sənət inciləri, xüsusilə təcnis, qıfılbənd, ustadnamə və s. kimi başqa şeirləri onun aşıq yaradıcılığındakı mövqeyini yada salmağa və onun istedadlı bir sənətkar olduğunu söyləməyə haqq verir» (110, 6).

Aşıq Dibronun şeirlərində yaşadığı zəmanədən şikayət, təbiət tərənnümü və gözəlin real təsviri öz əksini tapır. Onun «Dünya» rədifli qoşmasında isə öyüd-nəsihət məzmunlu misraları diqqət çəkir:

Azma bu dünyada haqqın yolunu,
Adildi, müdrükdü, uludu dünya.
Ötər, fəhm etməzsən qilü-qalına,
Çiskindi, dumandı, doludu dünya (78).

H.İsmayılov Aşıq Dibro yaradıcılığında böyüyə hörmətin, insanpərvərliyin, dostluğun, sadiqliyin, mərdliyin təbliği, namərdlik, pislik, paxıllıq kimi mənfi sifətlərin tənqid olunması baxımından yüksək dəyər verir və onun poeziyasını «əxlaqi fikirlər mənbəyi» adlandırmışdır (58, 170-171). Həqiqətən də, Aşıq Dibro

poeziyası insanı düşündürür, ona bədii zövq, rahatlıq bəxş edir, mənəviyyatını saflaşdırır.

Saf məhəbbəti Aşıq Dibro yaradıcılığının əsas qayəsi hesab etmək olar. Mühitin digər aşıqlarından fərqli olaraq, Aşıq Dibro gözələ fərqli mövqedən yanaşır. O, gözəlin əxlaqı, tərbiyəsi, daxili aləminin zənginliyi ilə yanaşı, onun xarici gözəlliyinə də üstünlük verir. Aşıq Dibro gözəlin bütün cizgilərini tam incəliyi ilə təsvir etməyə çalışmış və qoşmalarında bir-birindən rəngarəng bənzətmələr yaratmışdır:

Sərt uçuş turaca, qaçmaq ceyrana,
Xoş duruş marala nə gözəl imiş.
Mərd baxış aslana, döyüş pələngə,
Ah-nalə bülbülə nə gözəl imiş (78).

Onun «Danış», «Adam var ki», «Meydandır», «Eləməz», «Öysün», «Nəsihət» divaniləri, «İndi», «Düşdü», «Nazlı», «Bənövşə», «Var» qoşmaları, «Görüm» və s. gəraylıları vardır. Azərbaycanın bir çox bölgələrində məclislər aparan sənətkarın yaradıcılığı xəlqi və bəşəridir. 1928-ci ildə keçirilən Aşıqların I qurultayında Zaqatalalı Aşıq İsmayılla yanaşı, Aşıq Dibro da iştirak etmişdir. İstər Zaqatala elində, istərsə də kənarda (Gürcüstan, Dağıstan) apardığı bütün məclislərdə insanları doğruluğa, düzlüyə, mərdliyə səsləmişdir. Yeri gəldiyi məqamda ağıla, kamala da önəm verilmişdir. «Deyirlər» rədifli qoşmasında bu barədə deyir:

Bu dünyada kamallıdı varı olan,
Ağlı az olsa da başda, deyirlər.
İxtiyarı xəlayiqə car olan,
Adam cərgəsinə keçdi, deyirlər (78).

Ustadnamələrində atalar sözlərindən, hikmətlərdən yerli-yerində istifadə edən aşıq yaşadığı zamanın reallığını tam şəkildə açıqlamışdır. Prof. B.Alptəkin qeyd etmişdir ki, «Ustadlar yaratdığı ustadnamələrində insanlara dünyanın vəfasızlığını, keçici olduğunu xatırladaraq pislikdən əl çəkib, hər işin ədalətlə, təmkinlə görülməsinin əsaslı olduğunu bildirmişdir» (126, 21 -25).

Mükəmməl şeirləri, dərin hafizəsi ilə elin-obanın yaddaşında yaşayan aşıq Dibro 1947-ci ildə dünyasını dəyişmişdir. Heç şüb-

həsiz ki, ölməz sənətkarın poetik yaradıcılığı milli şeirimiz üçün öz ədəbi-estetik qiymətini hər zaman saxlayacaq və sonrakı nəsillərə bir örnək olacaqdır.

XIX əsrin ortaları və XX əsrin əvvəllərində yaşayıb-yaratmış ustad sənətkarlarımızdan biri də **Aşıq Könlü** olmuşdur. Aşıq Könlünün şəxsiyyəti haqqında heç bir yazılı mənbədə məlumat verilmir. 1995-ci ildə prof. P.Əfəndiyevin təşəbbüsü ilə çıxan «Molla Cuma» kitabında Molla Cumanın Aşıq Könlü ilə deyişmələri verilmişdir. Amma təəssüf ki, orada da sənətkarın şəxsiyyəti barəsində heç bir konkret fakt verilməmişdir. Prof. Paşa Əfəndiyevin dediyinə əsasən, əslində, Molla Cumanın deyişdiyi Aşıq Könlü sənətkarın öz təxəyyülünün məhsuludur. Müəllif bunu Molla Cumanın yaratdığı xəyali obraz hesab edir. Aşıq Könlünün Zaqatala aşıqlarından əldə etdiyimiz şeirləri və el arasında dolaşan rəvayətlər isə onun həqiqi sənətkar olması haqqında məlumat verir. Zaqatala aşıqlarından olan varxiyanlı Aşıq Mədət və Səadəddinin dediklərinə əsasən, Aşıq Könlü əslən Zaqatalanın Car mahalındandır. Molla Cumanın müasiri hesab olunan sənətkarın haqqında el arasında dolaşan rəvayətlər onun şəxsiyyəti barədə kifayət qədər bilgi verir. Ustad aşıqların dediklərinə əsasən, Molla Cuma Zaqatalaya tez-tez səfər edər, Carda, Talada olar, məclislər aparar, gözəllərin ən sadiqinin, safının şəninə bədahətən şeirlər deyərdi. Aşıq Könlünün Molla Cuma ilə deyişmələrindən məlum olur ki, Könlü ustadın uydurduğu xəyali obraz deyil, elə dövrünün tanınmış sənətkarıdır. Zaqatala aşıqlarından varxiyanlı Mədətin də yaradıcılığında da xəyali obrazla canlı insan kimi deyişməyinə təsadüf edirik. Əslində, xəyali deyişmə bu mühitin özünəməxsus xüsusiyyətlərindən biri hesab oluna bilər. Amma bu da həqiqətdir ki, Aşıq Mədət yaratdığı xəyali obraza öz dərdini, nisgilini deməklə, sanki, içində təsəlli, rahatlıq tapmış olur. Bununla yanaşı, sənətkar uydurduğu müsbət xəyali obraza yüksək dəyər verir, onun yerini müqəddəslər və pirlərlə yanaşı görür. Amma bütün bu kimi başqa xüsusiyyətləri biz Molla Cuma ilə Carlı Aşıq Könlünün deyişmələrində izləmirik. Molla Cumanın aşıq Könlü ilə olan deyişmələrinin birində el arasında Könlü sa-

yılıb-seçilən ustad aşıq kimi təqdim olunur. Zaqatalalı ustad aşıqlardan topladığımız rəvayətə əsasən, bir gün Molla Cuma Aşıq Könlü ilə təsadüfən Carda olarkən qarşılaşırlar. Tanışlıq verib deyişməyə başlayırlar. Molla Cumanın Aşıq Könlüyə meydan verməsinə baxmayaraq, Könlü «bizlərdə sözü ustad başlar» deyir. Molla Cuma onun bacarıq və qabiliyyətinə heyran qalır. Aşıq Mədətin dediyinə əsasən, Molla Cumanın meydanına çıxanda sənətkarın 55-60 yaşı olardı. Bu da təxminən 1915-ci ilə təsadüf edir. Bu yaş dövründə Aşıq Könlünün Molla Cumanın meydanına çıxması, onunla ərkyana deyişməsi, hərbə-zorbaya cavab vermə cəhdi onların səmimi dostluq münasibətlərindən də soraq verir. El arasında dolaşan rəvayətlərdən birində deyilir ki, Aşıq Könlü Molla Cumanın sənətkarlıq qüdrətinə, dərin fitri istedadına bələd olduğundan onunla görüşmək arzusunda olmuşdur. Aşıq Könlü Molla Cumaya həmişə müqəddəs pir, ustad kimi baxmışdır. Onlar deyişdikdə klassik ənənəyə uyğun hərəkət etmişlər. Bildiyimiz kimi, deyişmə məclisləri, əsasən, bu mərhələdə aparılırdı: 1. Tanışlıq; 2. Dəvət; 3. Hərbə-Zorba; 4. Qıfılbənd (116, 62-63).

Onların deyişmələrindən birinə diqqət edək:

**Molla Cuma:**

Bu meydanda sənə tənə deyərəm,
Barmaq soxub gözlərini oyaram.
Oxlov alıb xinqal kimi yayaram,
Fətir kimi görünürsən mənə sən.

**Aşıq Könlü:**

Ləc olan bəndəyə yaman ləcəm mən,
Aşıqlıx elmində səndən ucam mən.
Bilirsənmi, hindi necə acam mən,
Külçə kimi görünürsən mənə sən (78).

Bu deyişmə başqa bir variantda digər mənbələrdə də daha mükəmməl formada verilmişdir (33, 56-62). Aşıq Könlünün sənətinə böyük hörmətlə yanaşdığı Molla Cumaya «Aşıqlıq elmində səndən ucam mən» deməsi elə də inandırıcı görünmür. Çox

təbii ki, bu, sonradan aşıqlar tərəfindən deyilmişdir. Daha doğru variant isə, zənnimizcə, belədir:

Mən Könlüyəm, qac ilən çox qacam mən,
Ləc olan kimsəylə hər vaxt ləcəm mən.
Bilirsənmi, indi necə acam mən,
Külçə kimi görünürsən mənə sən (78).

Həmən məclisdə sənətkarlar qıfılbəndlə də deyişirlər.

**Molla Cuma:**

Molla Cuma, nədir bizdə əmanət,
Bir olar əlimizdən çıxar hey?
O nədir ki, qətrə-qətrə azalar,
Əriyibən qarlar kimi gedər hey?

**Aşıq Könlü:**

O candır ki, bizə olar əmanət,
Vaxtı çatar əlimizdən çıxar hey.
O, ömürdür gəlib keçər, azalar,
Dağ qarı tək əriyibən itər hey (78).

Sonda Molla Cuma qalib gəlir. Amma Aşıq Könlünün sənətkarlıq qüdrəti onu heyran edir. Bu deyişmələrdən göründüyü kimi, hər iki aşığın meydanda bir-birilərinə ərkyana hərbə-zorba demələri, təbii ki, onların dostluq və sənətkarlıq yaxınlığından irəli gəlmişdir. Başqa bir deyişməsində Aşıq Könlü şəxsiyyəti haqqında məlumat verilir:

**Könlü**

Mən Aşıq Könlüyəm, könlümdür gümrah,
O kimdir ki, əvvəl quldur, sonra şah?
O kimdir ki, dəryalarda uddu mah?
Kiminən-kimə bunlar belə əmidir.

**Cuma**

Molla Cuma gecə-gündüz çəkər ah,
O Yusifdir əvvəl quldur, sonra şah.

O Yusifdir dəryalarda uddu mah,
Xudavənddən bunlar belə əmidir (78).

Bütün bunlar göstərir ki, Aşıq Könlü adlı sənətkar mövcud olmuşdur və yaradıcılıq qüdrəti ilə el arasında ad-san qazanmışdır. Aşıq Mədətdən qeydə aldığımız başqa rəvayətdə isə, «Aşıq Könlü Molla Cumanın sənətkarlıq qüdrətini eşidif Layıskıya gedır. Könlü diyir ki, mən Layıskıya gedif Molla Cumanı bağlıyıf gələsiyəm. Aşıq Könlü öz istəyi ilə Layıskıya gedir. Molla Cumanın evini sorax ala-ala gəlif bir doqqaza çatanda görüy ki, bir kişi kolu yavaya alıf hasarın üstə qoyur. Sən dimə ho kişi Molla Cuma imiş. Molla Cuma görüy ki, bir cavan aşıx gəlir. Ona ədəblə xoş gəlifsən diyir:

**Molla Cuma:**

Xoş gəlifsən, Aşıq Könlü,
Yerin başdı sinəm üstə.
Qoç kəsərəm ayağına,
Bas bir qədəm üzüm üstə.

**Aşıq Könlü:**

Sağol səni Molla Cuma,
Bir sözüm var dilim üstə,
İzin olsa qulluğunda,
Duraram mən yolun üstə.

Nəhayət, xeyli deyişdihdən soram Molla Cuma Könülə bir bağlama deyir:

Yeddi ovçunu bir dağda gördüm,
Yeddi bülbülü bir bağda gördüm,
Yeddi şamamanı bir tağda gördüm,
Hünərin var tap, ay Aşıq Könlü.

Aşıq Könlü bu bağlamanı aça bilməyif sazı əlindən yerə qoyur» (78). Aşıq Könlünün yaradıcılıq irsi, günümüzə lazımi səviyyədə gəlib çatmasa da Zaqatala aşıqlarından əldə etdiyimiz materiallar əsasında, deyişmələrindən çıxış edərək belə bir nəticəyə gəlmək olur ki, Aşıq Könlünün bir sənətkar, şəxsiyyət kimi yaşamış və yaratmışdır.

Bu dövrdə Zaqatalada yaşayıb-yaradan aşıqlarımızdan biri də **Aşıq Şəmsəddin Cəlal** olmuşdur. O, 1906-cı ildə Zaqatalanın Tala kəndində dünyaya göz açıb (bəzi mənbələrdə 1916-cı il kimi verilir). Onun saza-sözə olan marağı uşaq yaşlarından yaranmışdı. Çox keçmir dövrünün tanınmış ustad aşığına çevrilir. İti hafizəyə malik olan aşıq klassik ənənəni də yaxşı mənimsəmişdir. Zaqatalalı Məhəmməd Şaban oğlunun dediyinə görə, o, 1941-ci ildə Böyük Vətən müharibəsinə getmiş və bir daha geri qayıtmamışdır. Çox təəssüf ki, sənətkarın yaradıcılığından çox az nümunə əldə edə bilmişik. Onun şeirlərinin əksəriyyəti naməlum səbəblərdən itmişdir.

Aşıq Şəmsəddinin yaradıcılığından «Samavar», «Soruş», «Batır», «Elə mən», «Dönmüşəm» və s. şeirlərini əldə edə bilmişik. Klassik dastanları yaxşı bilən aşıq özü də dastan yaratmışdır. Aşıq Şəmsəddinin iki şeiri «Azərbaycan Folkloru antologiyası»nın (XIII kitab) «Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən folkloru»nda nəşr olunmuşdur (21, 432). II cahan müharibəsi illərində cəbhədən ailəsinə tez-tez məktublar yazıb göndərmişdir. Nədənsə sonralar sənətkarın məktublarının arası kəsilmişdir. Həmin zamanlardan ondan heç bir səs-soraq eşidilmir. Müharibədə olan sənətkarın yadına tez-tez vətən torpaqları, eli-obası, yaşıl dağları düşür. «Dönmüşəm» rədifli qoşmasında şairin el-oba, vətən həsrəti boy verir:

Yenicə sussa da topların səsi,
Mən ilk bahar növrağına dönmüşəm.
Doğma ellər yada düşdü, kövrəldim,
Əsən xəzan yarpağına dönmüşəm (78).

Sənətkarın doğma sazından ayrı düşməsi, onun qəlbini silkələyir. Silaha sarılan aşıq məktublarında tez-tez ailəsindən ona doğma olan sazını xəbər alır, göz bəbəkləri kimi qorumaqlarını xahiş edir:

Toz qonubmu telli sazın bəndinə,
Qış gəlibmi tər şamama həndinə?
Qayıtmasam əgər Tala kəndinə,
Bilin, vətən torpağına dönmüşəm (78).

Aşıq Şəmsəddinin yaradıcılığından əlimizdə olan materialların azlığına baxmayaraq, onu deyə bilərik ki, o, doğma vətəninə, el-obasına bağlı sənətkarlarımızdan olmuşdur. Zil səsə malik olan aşıq bütün janrlarda qələmini sınamış və uğur qazanmışdır:

Onu da qeyd edək ki, Zaqatala aşıqları ustad-şagird ənənəsini davam etdirmək baxımından iki qismə bölünür:

1) Ustad yanında şəyird durub özləri də şəyird yetişdirən aşıqlar;

2) Ustadı olmayan, «dərsi»ni haqdan alan haqq aşıqları;

Birinciyə aid olan Aşıq Məhəmmədin, Aşıq Sarətin, suvagilli Kor Nəzirin, Əliabadlı Aşıq Hüseynin, Aşıq Əlinin, Aşıq Valehin, sənət irsi bu gün də yaşamaqdadır. Ustadın şagirdindən ilk tələbi öncə sazı düzgün tutmağa alışması, on klassik dastan bilməsi və saz havalarından on beşini yaxşı ifa etməyə bacarması idi. Bundan sonra ustad öz şagirdlərini məclislərə gəlməyə izn verərdi. Onu da qeyd edək ki, bu gün çağdaş Zaqatala aşıq mühitində ustad-şagird ənənəsinin zəifləməsi halları özünü göstərir ki, bu da, təbii ki, zamanın tələblərindən irəli gələn bir prosesdir. Digər mühitlərə (Borçalı, Şirvan, Göyçə və s.) nisbətən az öyrənilsə də, burada hər dövr öz sənətkarını yetişdirmişdir.

Zaqatala aşıqları içərisində öz sənətkarlıq qüdrəti ilə, özünəməxsus ifa tərzi ilə sayılıb-seçilən aşıqlardan biri də Çobankollu **Aşıq Kazımdır.** O, 1888-ci ildə Zaqatalanın Çobankol kəndində zəhmətkeş bir ailədə dünyaya gəlmişdir. O, saza-sözə bağlı olmağı ilə yanaşı ömrünün sonunadək müxtəlif vəzifələrdə çalışmış (kənd soveti sədri, kolxoz sədri və s.) və 1969-cu il oktyabrın 30-da vəfat etmişdir. Ustadın beş qızı, bir oğlu var. Övladlarından Vəliyev Avdırahman saz çalmasa da, aşıq şeiri üslubunda şeirlər yazır. Aşığın sazı bu gün də öz evində saxlanılır. Aşıq Kazım el arasında, əsasən, ifaçı sənətkar kimi tanınmışdır. El sənətkarlarının arxivində saxlanılan materiallar içərisində farsca yazılmış şeirlərinə də təsadüf edirik. Aşıq Kazım öz evində tez-tez məclislər qurar, mühitin ən çox tanınmış saz-söz ustadlarını dəvət edərdi. Ustadın oğlu Avdırahmanın dediyinə görə, onlara talalı aşıq Məhəmməd, Mikayıl Azaflı və onun sənət dostu varxiyanlı Aşıq

Dalğın gələrdi. Belə məclislər keçiriləndə el-obanın ağsaqqalları yığışar, sənətkarlara alqış deyər, xeyir-dua verərdi. Yuxarıda qeyd etdiyimiz kimi, Aşıq Kazım el arasında ifaçı aşıq kimi tanınmışdır. Amma onun arxivində öz dəsti-xətti ilə yazdığı müxtəlif dastanlardan parçalara, ustad aşıqlardan Xəstə Qasımın, Molla Cumanın, Aşıq Məhəmmədin, Aşıq Könlünün və başqalarının şeirlərinə təsadüf etməklə yanaşı, özünün yaratdığı qoşmalara, Aşıq Siracla olan deyişmələrinə də təsadüf etdik. Aşığın «Olmaz-olmaz», «Olur» «Endirər», «Çobankol», «Gözəl» qoşmaları, divaniləri, bir vücudnaməsi də vardır. Aşıq Kazımın «Olur» rədifli gəraylısı və vücudnaməsi folklorşünas alim Mətanət Abdullayeva tərəfindən qeydə alınmış, Azərbaycan folkloru antologiyasında (XIII) Şəki-Zaqatala folkloru kitabında nəşr olunmuşdur (21, 411). Amma bir həqiqəti də təəssüflə qeyd edək ki, sənətkarın yaradıcılığından əldə etdiyimiz şeirləri çox azdır. Aşıq Kazımın yaradıcılığında aşıq şeirinin bütün şəkillərinə təsadüf etmək mümkündür. Bu nümunələrin böyük əksəriyyəti də ərəb-fars dillərində ustadın öz xətti ilə yazıya alınmışdır. Məhz bu səbəbdən ustadın yaradıcılıq irsi ayrıca bir araşdırma tələb edir.

Onun ustadnamələri gəncləri tərbiyələndirmək, onlara əxlaqi dəyərlər aşılamaq baxımından çox əhəmiyyətlidir. «Olmaz-olmaz» ustadnaməsinə diqqət edək:

Gözləmə, mərifət olmaz namərddə,
Düşməsin minnəti mərdin namərdə.
Kazım deyər, axtarsalar heç yerdə,
Cökə üstə nar olmaz-olmaz (78).

Aşıq Kazım həyatın dərin keşməkeşlərindən çıxmağa çalışdıqca yeni bir məngənəyə düşür. Buna görə də öz könlünə müraciət edir. Könlünü başına gələnlərin əsas səbəbkarı kimi göstərirdi. O, qoşmalarının birində bu barədə deyir:

Heç rahat yaşamaz ar olan könül,
Namusa aşnalıx, var olan könül,
Hər yolu düşünüb daralan könül,
Şad etmədin sahibkarın, gülmədi (78).

Aşıq Kazımın Aşıq Siracla sənət və dostluq əlaqələri olmuşdur. Onlar bir yerdə məclislər aparmışlar. Arxiv materiallarından məlum olur ki, Aşıq Kazımla Aşıq Sirac məclislərin birində deyişiblər. Bu deyişmədən məlum olur ki, hər iki sənətkarın ürfani məqamları yaxşı bildikləri bəlli olur:

**Aşıq Kazım:**

Hər kimin pəsdindən şairlik keçsə,
Həbibin əlindən şərabın içsə,
Ariflər yanında sözinən gedər,
Şairlik sinəsi közinən gedər.

**Aşıq Sirac:**

Bu dünyanın yox kimsəyə vəfası,
Hər kim gəlsə, beş gün olar vəfası.
Bağbanın olsa da bağa cəfası,
Şamama bəslənər, tağıynan gedər (78).

Aşıq Kazım o sənətkarlardandır ki, həmişə klassik ustadlarımızın yaratdıqları ənənəyə sadiq qalmış, yeri gəldikcə Aşıq Ələsgərin, Molla Cumanın şeirlərinə nəzirələr yazmışdır. Buna nümunə olaraq, onun Aşıq Ələsgərin «Endirər» rədifli divanisinə yazdığı nəzirəni göstərə bilərik:

Bismillahi rəhmanirrəhim, Allaha baş endirər,
Göydə uçan məleykələr billaha baş endirər.
İsa Nəbi zühur oldu, Məryəm doğdu anadan,
On iki peyğəmbərinən qıvlaya baş endirər (78).

Aşıq Kazım yaşadığı elinin-obasının, bütövlükdə vətəninin hər qarışını dərin məhəbbətlə sevmiş və şeirlərində tez-tez təbiətin əsrarəngiz gözəlliklərindən söz açmışdır. Onun «Çobankol» rədifli qoşmasına diqqət edək:

Səd afərin belə bara düşübsən,
Almaya, heyvaya, nara düşübsən.
Bəxtəvərsən, Kazım, bura düşübsən,
Sinəmdə çalınan sazdı Çobankol (78).

Fikrimizcə, Çobankollu Kazım yaradıcılığı özündən sonra gələn sənətkarlara gərəkli nümunə ola bilər.

Zaqatala aşıq mühitinin ustad aşıqlarından biri də **Aşıq Əzimdir.** Aşıq Əzimin yaradıcılıq irsinə keçməzdən öncə onun həyatı barədə məlumat vermək daha düzgün olardı. O, 1907-ci ildə Zaqatalanın Yengiyan kəndində dünyaya gəlmişdir. Qoşmalarının birində özü barədə belə deyir:

Mən özüm aşığam, Əzimdir adım,
Əliabad əyalətim,Yengiyan kəndim,
Bu dünyada bir qonağam, kun dedim,
Səndə fəyakunu bilsən, yaxşıdır (78).

Hələ uşaq yaşlarından saza böyük həvəsi olsa da, atası onu hər vəchlə bu sənətdən uzaq tutmağa çalışmışdır. Buna baxmayaraq, Aşıq Əzim bu sənətə bir o qədər çox bağlanmışdır. Dəfələrlə evdən gizlin qaçıb Şəkiyə oxumağa getmək istəyi puç olmuşdur. «Atam qoymadı» şeirində ustad bunun səbəbini belə deyir:

Sirr verdim dostuma, saldı hay-küyə,
İstədim gizlicə qaçam Şəkiyə,
Ordan da üz tutum gözəl Bakıya,
Dedim mətləbimə çatam, qoymadı.
Yazıb yaratmağa atam qoymadı (78).

Belə bir çətin şəraitdə sənətə olan sevgisini itirməyən Aşıq Əzim nəhayət ki, dövrünün sayılıb-seçilən bir sənətkarına çevrilmişdir. Aşıq Əzimin mahirliyi ondadır ki, o, həmişə yorulmadan öz üzərində işləmiş, aşıq sənətinin ən incə sahələrinə yaradıcı bir «tədqiqatçı» kimi yollar axtarmışdır. Aşıq Əzim aşıq sənətində yaradıcı aşıq-şair kimi püxtələşməyə başlamışdı. Aşıq Əzim haqqında tanıtım edən Həmid Ormanlı qeyd edir ki, «Aşıq olmaq üçün təkcə saz, səs, söz vəhdətinə nail olmaq azdı, həm də gərək aşıq olasan. Əsl sənətkar məclisdə dastan deməli, özündən əvvəlki aşıqların yaradıcılığına müraciət etməli, yeri gəldikcə isə bədahətən şeirlər deməyi də bacarmalıdır. Aşıq Əzimi də el-oba məhz bu sıraya qoşmuşdur» (88, 12). Onun dillər əzbəri olan qoşma və gəraylıları, divaniləri, bağlamaları və müxəmməsləri kifayət qədərdir. «Yüküm» rədifli qoşmasında bənzərsiz bir müqayisə yaradır:

Loğmanın icadı, dərdlər dərmanı,
Yaralar məlhəmi, ürəyin şanı,
Xəstələr şəfası, canların canı,
Əziməm, bənzəri gövhərdir yüküm (78).

Ustad sənətkar 1980-cı ildə vəfat etmişdir.

Yaşadığı zamanın hər üzünü, acısını, nisgilini, şirinini, müharibənin vəhşətini görən ustadın hələ uşaq yaşlarından aşıq şeiri üslubunda qoşmalar, gəraylılar və s. yazmağı, özünəməxsus saz ifa etmək bacarığı, məclislər aparmağı çox keçmir ki, ona bütünlükdə yaşadığı, böyüyüb boya-başa çatdığı el-obasının hörmətini qazandırır.

Aşıq Əzimin yaradıcılıq irsi çoxşaxəli və rəngarəndir. Onun yaradıcılığını, əsasən, üç hissəyə ayırmaq olar:

1. 1920-40-cı illərdəki yaradıcılıq dövrü;
2. 1941-1945-ci illərdəki yaradıcılıq dövrü;
3. 1950-1980-ci illərə qədər olan dövr.

Birinci dövrə aid şerilərinin yalnız bir qismi əlimizə gəlib çatmışdır. Onun arxivindən əldə etdiyimiz nümunələr, əsasən, yaradıcılığının iki və üçüncü dövrləri əhatə edir.

Aşıq Əzim aşıq poeziyasında klassiklərdən yararlanmış, eyni zamanda təmiz xalq dilindən də istifadə etmişdir. Ustad sənətkar zəmanəsinin bir sıra görkəmli aşıqları ilə sıx ünsiyyət qurmuş, özündən sonra gələn aşıqlar üçün təcrübəli məktəb olmuşdur. O, aşıq yaradıcılığının bütün sahələrinə müraciət etmiş və Zaqatala aşıq mühitində silinməz iz buraxmışdır. Dodaqdəyməz, müxəmməs, qıfılbənd, təcnis, cığalı təcnis, gəraylı, divani və s. bu kimi şeir növləri sənətkarın yaradıcılığında özünün mükəmməl bir şəkildə əksini tapmışdır. Ustad, yeri gəldikcə özünü sənətkar adlandıran hər kəsi doğru-dürüst sözübütöv, vətənpərvər, cəsarətli olmağa çağırmışdır. Qoşmaların birində deyir:

Sirri aşkar edir dil, iki dodağ,
Qəlbimiz ağacdır, əlimiz budax,
İgid nişanəsi doğru danışmax,
Mərd igiddə iki söz olmaz-olmaz (14, 45).

Hər zaman xalqla ünsüyyətdə olan sənətkar insanlığa, doğru sözə, düz əmələ və səmimiyyətə önəm vermiş, elini özünə arxa hesab etmişdir:

Yad sənə dost olar gül yarpaq kimi,
Xain ürək söylər üzü ağ kimi,
Yenə elin dar günündə dağ kimi,
Durar möhnətində çaralar səni (14, 47).

Rafiq Musazadə «Aşıq sənəti və zərb muğamları» adlı məqaləsində aşığı xalqın sevimlisi, onun qəlbinə, ürəyinə daha yaxın sənətkar olduğunu qeyd edir. «Onlar həmişə xalqın şad və qəmgin günlərində xalqla birlikdə sevinib kədərlənmişlər. Məhz buna görə də aşıq ədəbiyyatı və aşıqlıq sənəti xalq arasında rəğbətlə qarşılanaraq yaşamış və bu gün də yaşamaqdadır» (79, 88).

El sənətkarı şeirlərində, oxucusuna böyüyüb boya-başa çatdığı yer haqqında məlumat verir.

Böyük, nümunəvi bir həyat yolu keçmiş ustad sənətkarın yaradıcılığı rəngarəngliyi ilə diqqət çəkir. Aşıq Əzim yaradıcılığının əsasında, təbiət, məhəbbət və vətənpərvərlik mövzusu durur. O, şeirlərində yaşadığı diyarın əsrarəngiz təbiətindən, göz oxşayan zümrüd meşələrindən, xüsusi zövqlə bəhs edir. Zaqatalanın füsünkar təbiəti onun istedadını daha da çulğalamışdır. Qoşmalarının birində deyir:

Zəhmətim yetirib böyük bir ada,
Yaxşını yamanı saxlaram yadda,
Zümrüd meşələrdə, səfalı yerdə,
Gəzsəm, yaşıyaram, gəzməsəm, ölləm (14, 103).

Aşıq Əzim yaşadığı elinə bağlı sənətkardır. O, ana yurdunu böyük məhəbbətlə sevmiş və şerilərində qızılgüllər diyarı adlandırdığı Zaqatalanı vəsf etmişdir. Bu baxımdan «Zaqatala» rədifli qoşması xüsusi maraq doğurur. Aşıq Əzim bu qoşmasında əvvəldən sonadək o yerlərin gözəlliklərindən söz açır, yeri gəldikcə mühitin toponimikası ilə də oxucusunu tanış edir:

Yaşıl don geyinib Naib bulağı,
Durub tamaşaya Pərzivan dağı,

Cüyürlü, turaclı dövlət qoruğu,
Zilban şəlaləsi Zaqatalada (14, 71).

Zaqatala aşıq mühitində yaşayıb-yaradan ustad sənətkarların poeziyalarında rayonun toponimikasının təsvirini vermək, hər kəndin özünəməxsus adət-ənənəsini öz təbii boyaları ilə əks etdirmək artıq bir ənənə halını almışdır. El şairi Muxaxlı Ramazanın, Varxiyanlı Aşıq Mədətin və bir çox başqa aşıqların yaradıcılığında da bu cür nümunələrə təsadüf edirik. Fikrimizcə, aşıq poeziyasının qaydalarına uyğun şəkildə hər bir kəndin, tarixi yerlərin, qalaların, bulaqların adlarını çəkmək, öz səciyyəvi çalarlarını sadalamaq sənətkardan xüsusi bacarıq tələb edir. Sözlə, bədii boyalarla aid olduğu mühitin xəritəsini yaratmaq aşıq ədəbiyyatında az təsadüf olunan xüsusiyyətlərdəndir. Mühitin xəritəsini poeziyaya gətirmək daha çox Zaqatala aşıqlarının yaradıcılıqlarında təsadüf edilə bilər. Aşıq Əzimin «Zaqatala» rədifli qoşmasında mühitə məxsus xüsusiyyətləri, adət-ənənə, məşğuliyyət tərzini izləmək mümkündür:

Boldu elimizin halal çörəyi,
Odur yaşayışın sağlam ürəyi,
Fındığı, nanəsi, tütünü, çayı,
Yüksək baraması Zaqatalada (14, 71).

Ustadın «Kəndimiz», «Yengiyan», «Bənövşə», «Bəzənəcək» və bir sıra başqa şeirləri onun təbiət mövzusunda yaratdığı ən dəyərli nümunələrdir. O, Zaqatala dağlarından ilham almış, buz bulaqlarından içib bəhrələnmişdir. Dağ bulağının saflığını öz poeziyasına hopdura bilmişdir. Ustad aşığın yazmış olduğu şerilərin hamısından xalq ruhu, xalq nəfəsi duyulur. «Haray eylər» qoşması təbiət mövzusunda yazdığı ən dəyərli nümunələrdəndir:

Yenə gəldi bahar, bəzəndi hər yan,
Quşlar nəğmə deyər, dil haray eylər.
Eşqim arzulayan diləklərimdən,
Aylar qanadlanar, il haray eylər (78).

Sənətkar eyni zamanda məhəbbət mövzusuna da müraciət etmişdir. O, təmiz, saf məhəbbəti hər şeydən ali və uca tutmuşdur.

Sevdiyi gözəlin simasında bütün gözəlləri vicdanlı, əxlaqı dolğun və sadiq görmək istəyir:

Mən Əziməm, yaralıyam, yaralı,
Onun üçün yoxdur səbrim qaralı,
Ellər yaraşığı, dünya maralı,
Gəl danışaq namusinən, Sərvinaz (14, 112).

Onun məhəbbət poezyasının əsasında konkret olaraq bir obraz durur. Bu obrazın şəxsində gördüyü mənəvi, əxlaqi gözəllikləri o, bütün Azərbaycan qızlarının şəxsində görməyi arzulayır. Aşıq Əzim poeziyasının gözəlliyi və səciyyəvi çaları da məhz burada özünü göstərir. Ustad bir ömrü yalnız vəfalı yarına, ömürgün yoldaşı Tükəzə sadiq qalır, yalnız onu vəsf edir, yalnız onu arzulayır.

Xəbər çatsa mənim pünhan canıma,
O mahaldan bu mahala gələrmi?
Nə müddətdi xəstə yatıb qalmışam,
Yeddi dərdin bir dərmana gələrmi? (78).

Bəzən taleyindən gileylənir və buna görə də arabir divanilərində bədbin əhval-ruhiyyə duyulur:

Əzəldən ahuzarə düşdüm, ay oldu mənim, mənim.
Gözlərim yaşla doldu, vay oldu mənim, mənim.
Ətrafında dolanırdım bir miskin bülbül kimi,
Bədnəzərin ahu gəldi, hay oldu mənim, mənim (14, 10).

Ümumiyyətlə, götürdükdə isə, Aşıq Əzim nikbin ruhlu sənətkardır. Hər işin, hər hadisənin sonunda bir xeyir olacağına inanır.

Sənətkar ara vuran, iki sevən gəncin arasını pozan şəxsləri şeirlərində kəskin tənqid edir:

Taleyim yetirib eşqin gölünə,
Üzsəm, yaşıyaram, üzməsəm, ölləm.
Söz gəzdirib ara vuran iblisdən,
Yazsam, yaşıyaram, yazmasam ölləm (78).

Məhəbbət mövzusunda yazdığı şeirlərində bir səmimilik, saflıq duyulur. Təmiz, saf sevgi onun poeziyasının qayəsini təşkil edir:

Ala gözlüm, bizə sarı
Qonax gəlsən yol sevinər.
Gəl aç qəlbimin mətahın,
Bazar düşər, mal sevinər (14, 20).

Bu nümunələrin hər birində bir axıcılıq, saz havalarına uyarlılıq duyulur.

Ustad sənətkar yaradıcılığında məhəbbət mövzusu ilə yanaşı, vətənpərvərlik, dini və ürfani mövzulara da müraciət etmişdir. Onun vətənpərvərlik mövzusunda yazdığı şeirlərində düşmənə hədsiz nifrət duyulur. Onu da qeyd edək ki, Aşıq Əzim 1941-1945-ci illər II cahan müharibəsinin iştirakçısı olmuş və döyüşlərin birində ağır yaralanmışdır. Vətənpərvərik mövzusundakı şeirlərini, əsasən, müharibədə keçirdiyi o ağır və dəhşətli günlərində yazıb. O illərdə yazdığı şeirlərində mübarizə ruhu, düşmənə kəskin nifrətlə yanaşı, bir bədbinlik, qəriblik əhval-ruhiyyəsi və ayrı düşdüyü el-oba həsrəti, yaşadığı zəmanədən şikayət motivləri önəmli yer tutur. Bu tip şeirlərinə nümunə olaraq «Mənim», «Dərdim», «Gəlmişəm», «Dünyada», «Salam», «Ay kağız», «İndi», «Bir gün» və s. qoşmalarının, divanilərinin və gəraylılarının adlarını çəkmək olar. Mübarizə ruhunda yazılmış bir nümunəyə diqqət edək:

Mərdlik etsə ata, oğul, hər ana,
Canı qurban versək xalqa, vətənə,
El bir olsa, böyük dağdır düşmənə,
Qışdan sonra gələn bahar bizdədir (78).

Şifahi xalq ədəbiyyatının digər janrları kimi aşıq şeirinin də xalqın tarixində iz salmış hadisələri əks etdirmək baxımından əvəzsiz xidmətləri vardır. Akademik Həmid Araslı qeyd etmişdir ki, «aşiq şeiri çox həssas, tarixi boyu xalqın həyatında baş verən mühüm hadisələrə birinci növbədə cavab verən bir yaradıcılıqdır» (10, 1).

Dünya ərasətdir, qardaşım tanı,
Qeyrət zamanıdır, qoru vətəni,
Yaramızdan axan o qızıl qanı,
Dağlara, düzlərə səpib gəlmişəm (14, 94).

Döyüşlərin birində ağır yaralanan aşıq gözünün önünə bir anlıq elini-obasını gətirir. Vətən həsrəti ilə alovlanan sənətkar öz doğma vətənində ölmək istəyir:

Əzim ağlar qoydu ata-ananı,
Axtarmayın bu davada itəni,
Nə olaydı bir görəydim vətəni,
Vətən, səni ərz eylərəm indi mən (14, 51).

Vətənindən, doğmalarından ayrı düşdüyü anlarda belə poeziyasının əsasında vətənpərvərlik, yaşadığı dövrdən şikayət, gördüyü haqsızlıqlardan narahatçılıq duyulur. «Dərdimi» rədifli qoşmasında bu barədə deyir:

Qadir Allah, budur səndən diləyim,
İstərəm könlümnən ala dərdimi,
Qəm çəkməkdən qaralıbdır ürəyim,
Qoya da bilmədim çölə dərdimi (14, 34).

Ustad sənətkar müharibənin törətdiyi acınacaqlı mənzərələrin canlı təsvirini yaratmağı bacarmışdır. Digər tərəfdən onun elə qoşmaları vardır ki, burada konkret bir sujet xətti əvvəldən sonadək gözlənilmişdir. Bu xüsüsiyyətə başqa sənətkarların vətənpərvərlik mövzusunda yazdıqları qoşmalarında az təsadüf olunur. «Qaldı» rədifli qoşmasında ustad ön cəbhədə baş vermiş bir hadisədən bəhs etmişdir. Qəhrəmancasına şəhid olan Azərbaycan əsgərini necə dəfn eləmələrindən, ona sədaqətindən söz salmışdır.

Bilmədim qibləni, nə ayaq, nə baş,
Dedim yat, xalq üçün şəhidsən, qardaş,
Əsgərlərin ikisi lap yavaş-yavaş,
Söylədi, məktublar yaylıqda qaldı (14, 21).

Gördüyümüz kimi, Aşıq Əzimin vətənpərvərlik mövzusunda yaratdığı şeirləri həm də ona görə maraqlı və səciyyəvidir ki, o, real həyat hadisələrini əks etdirmişdir. Bu istedadı ona el arasında daha böyük nüfuz qazandırmışdı.

Aşığın yaradıcılığında dini-ürfani motivlərin də özünəməxsus yeri var. Nəzərə alsaq ki, sənətkarın həyatı, yaradıcılığı Sovet hakimiyyəti dövrünə təsadüf edirdi, o hakimiyyətin qoyduğu qadağalar qarşısında az da olsa, bu mövzuya yer ayırmağın özü sənətkardan

cəsarət tələb etmişdir. «Pərvərdigar», «Mənim» divaniləri, «Ya Rəbbim», «Dərdimi» qoşmalarında dini və ürfani mövzulara müraciət etmişdir. Sənətkar bu qəbil şeirlərində insanları şər əməldən çəkinməyə, yoxsullara qarşı mərhəmətli olmağa səsləyir. Allaha müraciətlə yazılmış «Pərvərdigar» divanisində ustad bütün imanlı kəslər kimi, öz qəlbindən də mərhəmət hissini kəsməməyi diləyir:

Öz qəlbimdən şükr eylərəm ərzimi, pərvərdigar,
Gecə-gündüz nitq söylərəm sözümü, pərvərdigar,
Mərhəmətdən kəsmə məni, köməyimsən, ya kərim,
Axıradək məhrum qoyma gözümü, pərvərdigar (14, 9).

Müqəddəs islam dininin məziyyətlərini daha çox onun qıfılbəndlərində, divanilərində izləmək mümkündür. Divanilərin birində ustad insanlara axirətlərini xatırladaraq bəd əməllərindən çəkinmələrini tövsiyə edir:

Fikir verin ibadətə, güvənməyin mala siz,
Yeddi daşı, cəhənnəmi gah bir yada salın siz,
Sorğu-sual haqdır bizə yəqin onu bilin siz,
Bu dünya bir pəncərədir, çoxları baxar gedər (14, 13).

Aşıq Əzim poeziyasında dini və ürfani motivlərlə yanaşı, ictimai-siyasi motivlərə də təsadüf olunur. «Düşübsən», «Boran dünyasan», «Bir də gəl» və s. qoşmaları bu mövzunu əhatə edir. Bu cür şeirlərində sənətkar yaşadığı zəmanədə qarşılaşdığı haqsızlıqlardan söz açır.

Ömrünün son vaxtlarında yaratdığı şeirlərində zəmanəsindən şikayətə, yüksək əxlaqi dəyərlərə böyük önəm vermişdir. Eyni zamanda sənətkar Tanrının ona verdiyi ömrə şükr oxumuş, heç vaxt giley-güzar etməmişdir. Hətta qoşmalarının birində bu barədə deyir:

Olmuşam davada hər bir vuruşda,
Güllədən nişan var ayaqda, başda,
Ölüm məsləhətdir elə bu yaşda,
Ciyərim dərmanla bişmək bəsimdir (78).

Ustad yeri gəldikcə şeirlərində gənc nəslə öz öyüd-nəsihətini verir. Onun ustadnamələrində insanları şeytana uymamağa, dostluğa, sevgiyə, bir-birilərinin qədrini bilməyə bir çağırış duyulur:

İblis girib qoltuğuna çaşdırar,
Zənn edərsən, təməlimdə daş durar.
Qohumdan-qonşudan uzaqlaşdırar,
Dili şirin qəlbi qaralar səni (14, 47).

Və yaxud:

Ey oğul, həmdəm ol zəmanəmizə,
Nə qədər cavansan, sağsan dünyada.
Təmiz etibarla hörmət qazansan,
Öz xalqınla üzü ağsan dünyada (14, 31).

Mövzu rəngarəngliyi ustadnamələrinin əsas qayəsini təşkil edir. Ədəb-ərkan, düz söz, doğru əməl və s. onun yaradıcılığının əsas istiqamətlərindəndir.

Qanmaza baş əymə yerə çöküncə,
Qanana ver canın belin büküncə,
Pis övladın xəcalətin çəkincə,
Otuz il irəli ölsən, yaxşıdır (78).

Ustad öyüdü, ustad nəsihəti ilə yanaşı, onun poeziyasında bu sənəti yaşadanlara qarşı böyük sevgi, ehtiram və hörmət duyulur. Qurbaniyə, Varxiyanlı Aşıq Məhəmmədə, Çobankollu Aşıq Kazıma, xalq şairi Səməd Vurğuna nəzirələr yazmış sənətkar, Aşıq Hüseyn Cavan ilə görüşmüş, bir neçə qoşmasını ona ithaf etmişdir. Arxivindən əldə etdiyimiz yazılara və sələflərinin deməklərinə əsasən, Aşıq Pənah, Aşıq Hüseyn Cavan, Dağıstanlı şair Soltan tez-tez Aşıq Əzimin qonağı olmuşlar. Onların sorağına bütün el-oba yığılar, sənətkarlara alqış deyərdilər. Belə məclislər gənclərin tərbiyəvi-əxlaqi dəyərinin artmasına kömək etmişdir. Bu gün isə həmin məclislər, demək olar, az təşkil olunur. Bütün bunların səbəbi texniki və mədəni inkişafla əlaqədardır. «El aşıqları, onların oxuduqları hava və ifa tərzləri, danışdıqları nağıl və dastanlar, indiki mədəni tələblər mənasında desək, əhali üçün vaxtı ilə müəllimi də, mətbuatı da, kinonu da, professional teatrı da, radionu da əvəz etmişdir» (50, 168). Göründüyü kimi, görkəmli pedaqoq Ə.Həşimov də aşıq yaradıcılığının böyük tərbiyəvi əhəmiyyətini qeyd etmişdir. Aşıq Əzim meydanda həmişə qələbə qazanardı. O, tez-tez el şənliklərinə məclislərə dəvət alardı. Aşıq Əzimin iştirak etdiyi

məclislər ustadların bir-biri ilə deyişmələri ilə gözəlləşərdi. Onun tez-tez Aşıq Əvvəllə deyişmələri, qıfılbəndləri olardı. Maraqlıdır ki, Aşıq Əzim qıfılbəndi həmişə son məqamda deyər, qarşısındakı rəqibindən cavab almadıqda məclisi bununla bitmiş hesab edərdi. O, əslində, qıfılbəndi rəqibinə qarşı bir silah, vasitə kimi əsas tutardı. Təsadüfən bir məclisdə iştirak edən Aşıq Əzimlə Aşıq Əvvəl deyişirlər. Aşıq Əvvəlin məclisdə bir gözəli gözü tutduğunu və hər sözünü ona həsr etdiyini görən sənətkar məclis iştirakçılarını şübhələndirməmək üçün onu fikrindən döndərməyə çalışır. Amma bu da bir fayda vermir. Məclisi bitirməkdən başqa çarəsi qalmayan Əzim ona belə bir bağlama deyir:

Pərzivan dağında bir quş görmüşəm,
Qanad çalıb göy üzündə uçar hey,
Bir burun var, nəfəs çəkir şırhaşır,
Nə görərsə, dimdiyindən biçər hey (78).

Aşıq Əvvəl ona cavab verə bilmir. Məclis əhli onun bacarığına əhsən deyir.

«Əsl sənətkar Azərbaycanda el şairi, çalğıçı, bəstəkar və nəhayət, müğənnidir. Aşıq yaradıcılığı ədəbiyyat, musiqi, ifaçılıq, rəqs və teatr elementlərini özündə birləşdirən çoxcəhətli sənətdir. Aşıq həm şeir və hava qoşur, həm də saz çala-çala oxuyub oynayır» (4, 4). Aşıq Əzimdə bu xüsusiyyətlərin hər biri öz əksini tapmışdır.

Yengiyanlı Aşıq Əzimin yaradıcılıq irsindən çox bəhs emək olar. Nəticə etibarilə qeyd edək ki, Aşıq Əzim yaradıcılığında klassik ənənəyə sadiqliklə yanaşı, iştirakçısı olduğu II cahan müharibəsinin də canlı mənzərələri əks olunmuşdur. Bu, onun poeziyasına rəngarənglik və yeni çalar gətirir.

Ustad sənətkarın əksər qoşmalarında müəyyən bir sujet xətti var. Belə nümunələrə digər aşıqların yaradıcılığında az təsadüf olunur ki, bu da onun yaradıcılıq qüdrətindən soraq verir.

Sənətkarın məhəbbət poeziyası ülvi, təmiz, saf, əxlaqlı Azərbaycan gözəllərinin tərənnümünə həsr olunmuşdur. Eyni zamanda məhəbbət mövzusuna həsr ounmuş şeirlərində bir axıcılıq ahəngi duyulur.

Aşıq Əzimin yaradıcılığı özündə dolğun bir inkişaf yolu keçmiş məhəbbəti, insanın alicənab əməllərini, onun istək və arzularını tərənnüm etmişdir.

Aşığın poeziyası bədii təsir gücü ilə daim xalq yaradıcılığı mənbəsi olmaqla bərabər, insanın həyatı kimi sonsuz problemlərlə də qarşılaşır. Əsas etibarilə bu poeziya nəinki xalqın istəklərini tərənnüm edir, həm də xalq yaradıcılığı bulağı olmaqla xalqın spesifik mədəniyyətinin formalaşmasına çox güclü təsir göstərir, yaradıcı şəxslər üçün ilham mənbəyi kimi çıxış edir.

Onun sənətkarlığında xalq yaradıcılığından irəli gələn qanunauyğunluqlar vardır. Buna görə də Aşıq Əzimin sənətkarlıq irsi el arasında əməllərinə, təmiz, saf məhəbbətin tərənümünə, vətənpərvərlik hislərinin rəngarəngliyinə, ifa tərzinə görə daim yaşayacaqdır.

## Qaçaq aşıqlar

Azərbaycan türklərinin və azsaylı xalqların məskunlaşdığı Zaqatala aşıq mühitində aşıq sənəti dövrün, zamanın tələbinə uyğun tərzdə tarixi təkamül prosesi keçmişdir. Hər dövr öz sənətkarını yetişdirdiyi kimi, hər sənətkarın da müəyyən dövrdə daha çox müraciət etdiyi konkret mövzular olmuşdur. Müəyyən tarixi mərhələlərdə biz bu prosesi Zaqatala aşıqlarının yaradıcılığında da izləyirik. Qaçaqçılıq hərəkatı ilə birbaşa əlaqəsi olan, elindən-obasından, ailəsindən qaçaq düşən, həyat və yaradıcılıqları həmin dövrə təsadüf edən Aşıq Bəkirin, Aşıq Hüseynin sənətkarlıq irsi də bu baxımdan xüsusi maraq doğurur. Öncə qaçaqçılıq hərəkatının yaranma və yayılma səbəblərinə nəzər salaq.

Azərbaycan Rusiyanın müstəmləkəsinə çevriləndən sözün həqiqi mənasında milli-mənəvi dəyərlərimizə, adət-ənənəmizə istəməyərəkdən biganə olmaq məcburiyyətində qalmışıq. Bir tərəfdən, çarizmin bütöv bir xalqa yaşatdığı zülm, digər tərəfdən, feodal istismarı, ağır vergilər xalqın kəskin narazılığına gətirib çıxartmışdır. XIX əsrin 40-70-ci illərinin islahatları heç də xalq kütləsinin xeyrinə olmamışdır. Torpağı, malı-mülkü əlindən alınmış kəndli hər yerdə sahibkar və yerli ağaların zülmünə düçar qalır ki,

bu da onların səbir kasasını daşdırır, böyük etiraza səbəb olurdu. 1847-ci ildə «kəndli əsasnaməsi» nəşr edilir. Bu əsasnaməyə görə, «bəy və ağa torpağında yaşayan kəndlilər, rəncbər, rəiyyət, yəni mülkədar tabeyi adı almışdır» (59, 4). Əgər burada ad almış 15 yaşına çatan kəndlinin (kişi cinsindən olan) hər birinə 5 desyatin pay torpağı almaq hüququ verilirdisə, onun əvəzində isə taxıl məhsulunun 1/10-ni, çəltik, meyvə məhsulunun 1/3-ni torpaq sahibinə verməli, eyni zamanda hər ailə ayrılıqda bəyə 18 gün işləmək məcburiyyətində idi. Bütün bunlar Zaqafqaziyada kəndli hərəkatının genişlənməsinə, böyük vüsət almasına səbəb olmuşdur. Çar inzibati orqanları bir tərəfdən sahibkarlara, qolçomaqlara geniş imtiyazlar verməklə özlərinə güclü tərəfdar qazanmış olmuşlar. Bütün bunlar kəndli hərəkatının başlanmasına birbaşa səbəb olmuşdur. Verilən islahatların heç biri kəndlinin haqqını ödəmədi, əksinə onların güzəranını daha da ağırlaşdırmışdır. Bu səbəbdən çar məmurlarının özbaşınalığına, feodal zülmünə qarşı yerlərdə kəskin mübarizə başlamış ki, belə mübarizənin ən geniş yayılmış forması qaçaq hərəkatı olmuşdur. Elə 1863-cü ildə Zaqatala dairəsində kəndli üsyanı baş verdi. Bir sıra tarixi mənbələrdə göstərilir ki, bunun əsas səbəbi çarizmin müstəmləkə siyasəti idisə, digər səbəbi isə Azərbaycan əhalisinin bir hissəsini zorla xristianlaşdırmaq cəhdi idi (59, 228).

Fikrimizcə, ikinci səbəb birbaşa etniklərin çoxluğu ilə seçilən bu bölgədə müəyyən qarışıqlıq salmaq məqsədi güdmüşdür. Bu da aşıq yaradıcılığında öz izini qoymuş və qaçaq aşıqların yaradıcılıqlarında əks olunmuşdur. Qaçaqçılıq dastanlarından olan «Molla Nur», «Qaçaq Kərəm» və s. dastanlar zamanın tələbi ilə, mövcud vəziyyətlə əlaqəli yaranmışdır. Zaqatalalı Aşıq Hüseyn və Aşıq Bəkir də məhz qaçaqçılıq dövrünün aşıqlarından olmuşlar. Onları elindən, obasından qaçaq edən yerli bəylərin haqsızlıqları olmuşdur.

Həyat və yaradıcılığı XIX əsrin sonları və XX əsrin əvvəllərinə təsadüf edən talalı **Aşıq Bəkir** yaradıcılığında, əsasən, zəmanəsindən şikayət, ictimai-siyasi haqsızlığı əks etdirən şeirlərə üstünlük vermişdir. Aşıq Bəkir saz-söz adamı olmaqla yanaşı, həm də çox xeyirxah, nəcib, yüksək mənəvi keyfiyyətlərə malik

bir şəxsiyyət olmuşdur. Dara düşən bir qaçağı düşdüyü çətin vəziyyətdən qurtardığı üçün Aşıq Bəkiri əvvəlcə Cardakı həbsxanaya salır, sonra isə Gürcüstana aparırlar. Tarixi mənbələrdə qaçaqçılıq hərəkatında bilavasitə rolu olan şəxslərin vətəndən kənara sürgün edildiyi, evləri dağıdıldığı, ailəsinə min bir işgəncələr verildiyi göstərilmişdir (59, 238).

Aşıq Bəkir həbsdə olarkən bir dostuna göndərdiyi «Ağlasın» rədifli qoşmasında keçirdiyi iztirablar, ağrı-acı və ömür yolu təsvir olunur:

Carın türməsində ağrıdı başım,
Görməyə gəlmədi qohum-qardaşım.
Süzülüb töküldü gözümün yaşı,
Bəs mən ağlamayım, dost, kim ağlasın?

Laqedixdən atlandım maşınla bir yuvaya,
Su içmax nizamı gəlif qulaya.
Talalı Bəkirəm, düşdüm bəlaya,
Bəs mən ağlamayım, dost, kim ağlasın? (78).

XIX əsrin 60-70-cı illərində olduğu kimi XX əsrin əvvəllərində də qaçaqçılıq hərəkatı Azərbaycanın bütün bölgələrində istiqamət almışdı və bu şimal bölgəsindən də yan keçmir. Həmin dövrdə bu hərəkata bilavasitə mühitin tanınan, sayılıb-seçilən ziyalıları, islamı mükəmməl bilən, onun təbliği ilə məşğul olan şəxslər dəstək olmuşlar. Qaçaq Yusif, talalı Şeyx Əhməd Əfəndi də ömrünün ən gözəl çağlarını sürgündə keçirmişdilər. Hələ 1863-cü il üsyanında Zaqatala dairəsində Çar Rusiyasının müstəmləkəçilik siyasətinə qarşı üsyan baş verir, lakin bu üsyan mütəşəkkil hazırlanmadığından yatırılır. Mənbələrə görə, 8 nəfər dar ağacından asılır, 1000 nəfərdən ibarət şəxs isə Sibirə sürgün olunur. Bunların içərisində daha çox din və üləmla bağlı ziyalılar idi (111, 68). Bunu anlayan çarizmin dairədəki canişinləri belələrini ya sürgün etdirmiş, yaxud da başlarına min bir müsibət gətirmişlər. Prof. Valeh Hacıların gəldiyi qənaətə görə, belələri, yəni ağır sosial-iqtisadi şəraitin qaçaq etdiyi adamlar əsla qaçaq olmayıb, tapdalanmış ədalətin bərpaçıları idi (46, 7).

Prof. R.Rüstəmzadə isə belələrinə daha konkret bir mövqedən yanaşaraq yazmışdır: «Çarizmin və yerli hakimlərin ədalətsizliyinə etiraz edib, elindən-obasından ayrı düşən, hökumətdən gizlənən, əsasən, çöllərdə, meşələrdə yaşayanlar xalq arasında «qaçaq» adlandırılmışdır. Müəllif onu da qeyd etmişdir ki, bu tip insanlar ya tək-tək, ya da hökumətdən narazı qalan kəndli kütlələrini ətrafına toplayaraq kiçik dəstə halında gəzir və mütləqiyyətə qarşı mübarizə aparmışlar. Sonra müəllif qaçaqları qruplarına görə iki qismə ayırır: tək-tək gəzən qaçaqlar, böyük dəstələrlə gəzən qaçaqlar (100, 31).

Birincilər haqqında yaranmış rəvayətlər daha çox məhəlli xarakter daşıyır və böyük əhatədə tanınmır. Deyilən xüsusiyyətləri Aşıq Hüseynə aid etmək olar. El arasında daha çox qaçaq, qoçaq və s. adlarla tanınan Aşıq Hüseyn ustadların dediklərinə əsasən, çox mərd, cəsarətli və iradəli bir insan olmuşdur. Aşıq Hüseyn Oruc oğlu Sulxayev 1890-cı ildə Zaqatala rayonunun Əliabad kəndində anadan olub. Mişleşli Aşıq Hüseyni evində tez-tez qonaq edən Oruc kişi onun sənətinin, ifasının vurğunu olur. Oğlunu hələ yetkin yaşlarıından Aşıq Hüseynə şagirdliyə verir. Mişleşli Aşıq Hüseynlə Dağıstan, Rusiya, Gürcüstan ellərini gəzib-dolaşan balaca Hüseyn rus, türk, ləzgi, avar, gürcü dillərini də yaxşı mənimsəmişdi. Bunu onun yaradıcılığında da izləyirik. O, şeirlərində yeri gəldikcə rus, türk, gürcü sözlərindən istifadə etmişdir. Aşıq Hüseyn şəcərəsinin layiqli davamçısı əliabadlı Aşıq Camalın söylədiyinə görə, Aşıq Hüseyn Qaçaq İslamın toyunda saz çalıb-oxuduğu, məclis apardığı üçün elindən-obasından qaçaq düşmüş və nəhayət, sonda sürgün edilmişdir. Xalq arasında dolaşan digər versiyaya görə isə, Aşıq Hüseyn haqsız yerə yoxsul bir kəndlini döyən çar məmurunu yaralamış və bu səbəbdən uzun müddət kiçik bir dəstə ilə dağlara çəkilmişdir. Məqamı düşdükcə isə öz ailəsini, qohumlarını görmüş yenə də dağlara çəkilmişdir. Onun cəsarəti, hünəri haqqında el arasında müxtəlif rəvayətlər, əhvalatlar və tamamlanmamış dastan da dolaşmaqdadır. Çox təəssüf ki, aşıqların dilində dolaşan Aşıq Hüseyn haqqındakı dastan hələ də tam şəkildə yazıya alınmamışdır. Bu gün aşıqlar arasında

dastandan yalnız müyyən hissələr səslənməkdədir. Fikrimizcə, dastanın geniş yayılmamasının yalnız bir səbəbi ola bilərdi. O da çar Rusiyasının, yerli hakim qüvvələrin qaçaqlara olan münasibəti ilə əlaqəli olmuşdur. Çünki o zamanlar qaçaqlar haqqında dastan düzüb-qoşmaq özü də bir təhlükə yaradırdı. Prof. İsrafil Abbaslı məqalələrinin birində qeyd etmişdir: Geniş kütlə içərisində qaçaqlar haqqında çoxlu xatirələr, rəvayətlər, hekayətlər dolaşsa da, bunlar dastanlaşmaq üçün özünə müəyyən tarixi-ictimai səbəblərdən zəmin tapmamışdır (1, 14). Bəhmədli Aşıq Cahangir Dalğının arxivindən əldə etdiyimiz Aşıq Hüseyn haqqında dastanın sonluğu müəyyən səbəblərdən itmişdir. İndi Aşıq Hüseynin şeiriyyatı yalnız onun şagirdlərinin və ayrı-ayrı ustad və ifaçı aşıqların hafizəsində qorunmaqdadır. Deyilənlərə görə, Aşıq Hüseyn həmişə yoxsulların, haqsız yerə əzilən, təhqir olunub torpağı, malı-mülkü əlindən alınan kəndlilərin tərəfini saxlamışdır. O, taxılı anbarda yığıb çürüdən kəndxudaların, bəylərin taxılını mərdanə olaraq dəfələrlə kasıblara paylamışdır. Məhz bu xüsusiyyətlərinə görə el-oba onu çox sevmiş, həmişə də ona arxa-dayaq olmuşlar. Aşıq İslam, Aşıq Bəkir və bir çox qaçaqlar da onunla daim bərabər olan, fəaliyyət göstərən qaçaqlardan olmuşlar. Aşıq Hüseyn haqqında olan məlumatları yuxarıda qeyd etdiyimiz kimi, onun ənənəsinin layiqli davamçısı Aşıq Camaldan və Cahangir Dalğının arxivindəki əlyazmaların içərisindən əldə edə bilmişik. Qeyd edək ki, aşıqlar arasında dastan yarımçıq olmağına baxmayaraq, bir neçə variantda dolaşmaqdadır. Arxivdəki yarımçıq dastanın söyləyicisi isə orada qeyd olunduğu kimi, Aşıq Hüseynin şagirdi Aşıq Herov Ramazanov olmuşdur. Digər tərəfdən hadisələr yarımçıq qaldığı, zaman və məkan məhdudiyyəti zəif, obrazların isə az olduğu üçün buna dastanlaşmamış əhvalat adı vermək düzgün olar. Dastan ənənəvi qaydada olaraq ustadnamə ilə başlayır. Sonrakı mərhələdə burada baş verən hadisələr qaçaqçılıq hərəkatını tam şəkildə əks etdirməklə yanaşı bəylərin, çar üsul-idarəsinin haqsızlığından da bəhs olunur. Gərgin süjet xəttinə malik olan bu dastandakı əsas hadisələr iki şəxsin ətrafında cərəyan edir. Elindən-obasından qaçaq düşən aşıq oğlunun qəfil ölüm xəbərini eşidib öz

kiçik dəstəsilə gizlincə kəndə gəlir. Həkimlərin biganəliyi, savadsızlığı ucbatından dünyasını dəyişən Nəzirin vaxtsız ölümü Hüseyni bərk sarsıdır. Dəfn mərasimi müddətində Aşıq Hüseyn bədahətən «Bilmədim», «Döndüm», «Ey vətən» rədifli şeirlərini söyləyir. Ustad «Ey vətən» rədifli qoşmasında vətən, onun gözəl təbiəti ilə öz xarakteri, bəxti arasında qəribə bir təzad yaradır:

Əzəldən xəlq olub, gəldim dünyaya,
Ondan bəri laldı dillər, ey vətən.
Bağban idim, meyvəsindən dərmədim,
Qızılgüllər soldu bağdan, ey vətən (78).

«Bilmədim» rədifli divanisində sənətkar bütün olub keçənlərə görə özünü, qəlbini qınaq yerinə çevirir. Boşuna keçən illərə görə heyifslənir.

Əzəldən bülbül olub yaz qədrini bilmədim,
Soldu lalə gül, reyhanım tez, qədrini bilmədim.
Heyif, ömrüm bada keçdi, yetişmədim murada,
Arı təki sızıldaram, nar qədrini bilmədim (78).

Darda qalan aşıq Allahını, onun pirlərini, övliyalarını köməyə çağırır, onlardan qəlbinə təsəlli umur, imdad istəyir:

Əliabadlı Hüseynəm, dərd məni əzir,
Dadıma yetişsin İlyasi Xızır.
Camaat qayıdıb gəldi, gəlmədi Nəzir,
Neçün bağlamadın yolların, Vətən (78).

Aşıq Hüseynin oğlunun dəfnində iştirak etdiyini eşidən yerli bəylər Çar məmurlarına xəbər verirlər. Onlar gələnə kimi Aşıq Hüseyn öz kiçik dəstəsi ilə kənddən uzaqlaşmış və dağlara çəkilmişdir. Bu əhvalat əvvəldən axıradək Aşıq Hüseynin keçirdiyi iztirablardan, yaşadığı ağrı-acıdan və eyni zamanda yerli bəy və çar məmurları ilə olan mübarizəsindən xəbər verir. Prof. M.H.Təhmasib bu tip dastanlarda təsvir olunan hadisələrin real həyatda həqiqətən olmuş hadisələrin bədii əksi olması qənaətinə gəlmişdir (23, 435-436). Dastandan Aşıq Hüseynin dağlarda tutulduğu və sürgün olunduğu məlum olur. Bəzi mənbələrdə isə Aşıq Hüseynin müharibəyə getdiyi və bir daha geri qayıtmadığı fikri ilə də qarşılaşırıq. Bizcə, bu daha düzgündür. Çünkü Aşıq

Hüseynin qaçaqçılıq etdiyi dövr 20-30-cu illərin sonlarına təsadüf etmişdir. Müharibənin başlanması qaçaqçılıq hərəkatına qoşulanların ideya istiqamətini bilavasitə Böyük Vətən müharibəsinə yönəltmişdir. Daha konkret desək, müharibənin başlanması qaçaqçılıq hərəkatının bilavasitə səngiməsinə səbəb olmuşdur. Bu dastanda xalqın vüqarı, iradəsi, azadlıq, haqq-ədalət uğrunda apardıqları mübarizə ruhu duyulur. Prof. Rüstəm Rüstəmzadə bu tip dastan qəhrəmanlarıını vətən, xalq mənafeyini öz mənafeyindən üstün tutan el qəhrəmanları adlandırmışdır (101, 111). Ümumiyyətlə, Aşıq Hüseyn yaradıcılığında özünəməxsus yer tutan «Görünür» gəraylısı və «Bilmədim» divanisi indi də çağdaş dövrün aşıqları tərəfindən sevilə-sevilə oxunur, Ustad sənətkarın həyatında baş verən acılar, qarşılaşdığı haqsızlıqlar ona həyat dərsi vermişdir. Onun həssas ürəyi dərdlərə, zamanın haqsızlıqlarına biganə qala bilmir. Baş verən hadisələrin səbəbini Aşıq Hüseyn ictimai ədalətsizlikdə görmüşdür. «Döndüm» rədifli gəraylısına diqqət edək:

Əliabadlı Hüseynəm necə,
Cavan ömrüm keçdi vecə.
Görənlər deyirlər qoca,
Nə vaxtsız piranə döndün (78).

Aşıq Hüseyn «Bir gün» rədifli vücudnaməsində birbaşa öz keçdiyi ömür yoluna nəzər salır. Bu vücudnamə, əslində, ümumilikdən çıxaraq ayrılıqda aşığın keçirdiyi yaş dövrləri üzərində konkretləşir:

Otuz yaşa varhavara,
Xəbər gəldi hər diyara.
Neçələrin çəkdim dara,
Bir babur aslana döndüm (78).

Göründüyü kimi, Aşıq Hüseynin yaradıcılığı düşmənə qarşı kəskin mübarizə və ədalətə çağırış motivləri üzərində qurulub. Aşıq Hüseyn insanlara haqsız yerə edilən zülmün əsas səbəbini birbaşa dövrün gərdişinə və ictimai ədalətsizliyə bağlayır. Ustad sənətkar eyni zamanda tərbiyəvi-əxlaqi xüsusiyyətləri də öz yaradıcılığında dolğun şəkildə əks etdirməyə çalışmışdır. O, digər tərəfdən bütün zülmün, haqsızlığın səbəbini ailədə qoyulmuş tər-

biyədə görür. Qoşmalarının birində tərki-vətən olduğunu bildirən sənətkar öz əxlaqına, tərbiyəsinə, birbaşa el-oba ilə bağlı olduğuna, adət-ənənəsinə sadiq qaldığına işarə etmiş və bu barədə qoşmalarının birində demişdir:

Doğrudur, aşiqəm, tərki-vətənəm,
Haqqın, həqiqətin tərəfindəyəm.
Zarafata ləli-gövhər qataram,
Elmi-mərifətin tərəfindəyəm (78).

Ustad sənətkar gözəlin xoş görünüşünü, qamətini, xətti-xalını əxlaq-tərbiyəvi cəhətləri ilə birləşdirərək o qədər real təsvir etmişdir ki, bu da onun sənətkarlıq qüdrətini daha da artırmışdır. Şeiriyyətində gözəlin konkret təsvirinə keçməzdən öncə ustad sənətkar təbiətin əsrarəngiz gözəlliyindən başlamışdır. Bilavasitə bu gözəlliyin qadın gözəlliyi ilə əlaqəsini yaradır. «Görmüşəm» rədifli gəraylısı fikrimizə sübut ola bilər:

Uca dağların başında,
Təzə yağan qar görmüşəm.
Ətəyində lalə, nərgiz,
Qönçə gülü var görmüşəm (78).

Və yaxud:

Aşıq Hüseynəm Aleybadlı,
Bir gözəldə xal görmüşəm.
Həm qəmzəsi, qələm qaşı,
Həm üzündə nur görmüşəm (78).

Əliabadlı Aşıq Camalın dediyinə əsasən, Aşıq Hüseyn qaçaq düşməzdən əvvəl gözəl məclislər aparmış, yüksək hafizəyə, ifaçılıq qabiliyyətinə malik olmuşdur. Aşığın indiyə kimi açılmayan qıfılbəndini bu gün suvagilli el şairi Seyid açmışdır. Nümunəyə diqqət edək:

**Aşıq Hüseyn**

Əliabadlı Hüseynəm, habı hesabı,
Açın, tökün, siz də hesab kitabın.
Ağlı olan buna versin cavabın,
Düşməsin araya xal, bizə göndər.

**Seyid**

Olsa da müsəlman danışan, gülən,
Suvagüllü Seyiddir hesabı çəkən.
Birini alallar ağlı var ikən,
Ürəkdən can deyib, can verən olsun (78).

Aşıq Hüseyn ustad-şagird ənənəsini yaşadan, qoruyan sənətkarlardan olmuşdur. Zaqatala aşıq mühitində varxiyanlı Aşıq Məhəmməddən sonra qoyduğu ustad-şagird ənənəsi bu gün də onun şagirdləri tərəfindən davam etdirilməkdədir. Deyilənlərə görə, ustadın 14-ə yaxın şagirdi olmuşdur. Bunlardan Aşıq Abdullanın, Aşıq Herovun, Aşıq Darçının, Aşıq Bədirin, Aşıq Cəlilin, Aşıq Camalın və başqalarının adını çəkmək olar. Bu aşıqlar el arasında hörmətlə, sevgiylə qarşılanmışlar. Prof. H.İsmayılov qeyd etmişdir ki, əsl sənətkar ustad yanında aşıqlığın ədəb-ərkanını, saz çalıb-oxumağı, məclis aparmağı layiqincə mənimsəməyi bacaran kəslərdir (56, 16).

Adları çəkilən aşıqlar günümüzə kimi ustadlarının yolunu layiqincə davam etdirmiş, dövrünün kamil sənətkarı səviyyəsinə kimi yüksələ bilmişlər.

XIX əsrin 50-60-cı illərini əhatə edən və Çar Rusiyasını təlaşa salan Şeyx Şamil hərəkatının da Zaqatala folklor mühitində özünəməxsus yeri olub. Bu hərəkat Çar üsul-idarəsinə və bu idarəçiliyə xidmət edənlərə yönəlmiş, 20 il müddətində davam etmişdir. Şamil hərəkatı ilə, onun qəhrəmanlığı ilə əlaqəli onlarla əfsanə, rəvayət, dastan yaransa da təəssüf ki, uzun müddət yaşamamışdır. Çünki yüz ilə qədər keçən bu zaman kəsiyində əvvəlcə rus, sonra sosializm təbliğatına uyğun gəlmədiyi və sovet senzura sisteminin ciddi nəzarətində olduğundan bu nümunələrin mühüm bir qismi unudulmuşdur. Şeyx Şamillə bağlı dastan və əhvalatlar uzun zaman insanların hafizəsində yaşamış, ürəklərdən-ürəklərə ötürülsə də vaxt keçdikcə insanlar yaşlaşmış, çoxusu dünyasını dəyişmişdir. Beləliklə də, xalq qəhrəmanın, xalq yaddaşındakı şücaətinin çox az hissəsi günümüzə gəlib çıxmışdır. Lakin böyük rus şairi Tolstoy Şamilin möcüzəvi şəxsiyyəti və qəhrəmanlığı haqqında əsər yazmışdır. Əsər Şamil haqqında zəngin məlumat

verir. «Bu ədəbiyyatı müstəmləkəçiyə nəql edənlər rus istilasına dair xalqın tərənnüm etdiyi dastan və türkülərin milli bir sir-sifətlə saxlamış, yaxud rus məmuru zənn etdikləri müstəmləkəçinin xətrini qırmayacaq bir surətdə təhrifə məcbur olmuşdurlar» (124, 122). Şeyx Şamil bütün qafqazlılar arasında «İmam» kimi tanınırdı. Bu, təbii ki, xalqın öz qəhrəmanına qoyduğu hörmət, sevgi və rəğbət hissi ilə əlaqəli idi. Folklorşünas alim Əhməd Cəfəroğlu «Azərbaycan ədəbiyyatında istiqlal mücadiləsi» əsərində qeyd etmişdir ki, Şeyx Şamil hərəkatı dar bir mühit içərisində cərəyan etmiş, Şimali Qafqazın istiqlal aşiqlərini birləşdirən vətəni bir vəzifə-azəri türklərinin istiqlal mücadiləsini qüvvətləndirən müştərək və Milli bir qayədir» (127, 26-28). Şeyx Şamil şəxsiyyəti azadlıq uğrunda mübarizə simvoluna çevrilmiş, xalqın tarixi keçmişə düzgün münasibət, vətənə sədaqət hislərinin formalaşmasında xüsusi əhəmiyyət kəsb etmişdir.

Hər dövr öz qaynar və maraqlı hadisələri ilə yadda qalır. Eyni zamanda hər dövr bu hadisələri ilə ustad sənətkarların, aşıqların yaradıcılığına tutulan bir saf aynaya bənzəyir. Bu baxımdan da Aşıq Hüseynin həyatı və yaradıcılığının araşdırılması yaşadığı dövrün, qaçaqçılıq hərəkatı ilə bağlılığının tədqiq olunması, zənnimizcə, folklor və aşıq sənəti üçün böyük fayda verə bilər.

Beləliklə, Zaqatala aşıq mühitində tarixən yaşayıb-yaradan aşıqların həyat və yaradıcılıqları onu göstərir ki, bu mühitdə konkret bir ənənə olmuşdur və həmin ənənin davamçıları aşıq sənəti tariximizin səhifələrində əbədiləşəcəklər

# II FƏSİL

# ÇAĞDAŞ ZAQATALA AŞIQ MÜHİTİ

## Çağdaş Zaqatala aşıqları

XIX əsrin əvvəllərindən təşəkkül tapmağa başlayan Zaqatala aşıq mühitini bu gün də yaradıcılığının çoxşaxəliliyi, ideya-məzmun xüsusiyyətlərinin müxtəlifliyi ilə tanınan sənətkarlar davam etdirməkdədir. Zaqatala aşıq mühitində öz dəsti-xətti ilə sayılıb-seçilən sənətkarlar yaşayıb-yaradır, el şənliklərində, dövlət tədbirlərində, bayram və mərasimlərdə çalıb-çağırırlar. Mühitin çağdaş politrasında ustad və ifaçı aşıqların yaradıcılıqları rəngarəngliyi ilə Azərbaycan aşıq sənətinin inkişafına xidmət etməkdədir. Müasir Zaqatala aşıq mühitində sazla tənburun paralel inkişaf prosesi müşahidə olunur. Bəzi saz havaları tənburda da ifa olunur. Bu da, təbii ki, mühitin spesifikasıdan irəli gəlir.

Çağdaş dövrün ustad aşıqları içərisində yüksək sənətkarlıq xüsusiyyətləri ilə seçilən aşıqlardan biri də **Cahangir Dalğındır**. Sənətkarın əsl adı haqqında arxivindən və oğlu Aydından əldə etdiyimiz məlumata görə, o, Mütəllibov Qeyfəddin Əmrullah oğludur. 1932-ci ildə Qax rayonunun İlisu kəndində (əvvəllər həmin ərazi Beşbulaq xanlığı adlanmışdır) anadan olmuşdur. O, uşaq ikən İlisu çayı daşmış, kəndin bir çox evləri kimi, Əmrullah kişinin də evini sel aparmışdır. Kiçik yaşlarında ana-atasını itirən Qeyfəddin 15-16 yaşına qədər Bakı şəhərindəki 1№-li uşaq evində tərbiyə almışdır. 1946-cı ildə öz xahişi ilə uşaq evindən çıxmış və Zaqatala rayonuna gəlmişdir. Zaqatalanın Varxiyan kəndindən olan Təmir adlı bir dindar kişi onu himayəsinə götürmüş, soyadını dəyişib Əhmədov, adını isə Cahangir qoymuşdur. Həmin vaxtdan el arasında Əhmədov Cahangir Əmrullah oğlu kimi tanınmışdr. Ustad bu barədə özü də şeirlərinin birində yazmışdır:

Yurdum İlisudur, kəndim Varxiyan,
Olduğum obaya deyirlər patyan.
Ordadır büsbütün məni tanıyan,
Soruşun onlardan halımı bir-bir.

Adım Cahangirdir, sorsanız hərgah,
Anam Cavahirdir, atam Əmrullah.
Mənzilimdən sizi eyləyim agah,
Sel gəlib yurdumu axıtdı bir-bir (78).

Təmir kişi dindar olduğundan ona ruhani təhsili vermişdir. Təmir kişi dünyasını dəyişəndən sonra oğlu Süleyman Cahangiri öz himayəsinə götürmüşdür. 1954-cü ilə qədər Süleymanın himayəsində qalan Aşıq Dalğın elə həmin ili Günəş adlı bir qızla ailə qurmuşdur. Yeri gəlmişkən, onu da qeyd edək ki, Varxiyan qədimdən saz-söz ocağı, şairlər məskəni olduğu üçün Cahangir Dalğın həmin diyara düşəndən qəlbində saza maraq oyanır. Sənətkar sazı əlinə alıb ifa etməyə başladığından onu dərdlərinin yeganə dərmanı, ürəyinin tək sirdaşı hesab etmişdir. Bədahətən şeir demək bacarığı onu el arasında daha da məşhurlaşdırmışdır. El aşığını musiqidən, dastandan, havacatlarından kənarda təsəvvür etmək mümkün deyil. Klassik xalq dastanlarımızı dərindən bilən, özünəməxsus ifası ilə məşhur olan Cahangir Dalğın saz çalmağı, bədahətən şeir deməyi Allahdan gələn müqəddəs bir vergi hesab etmişdir. Aşıq Ələsgəri bildiyi üçün onun təsiri ilə bədahətən şeirlər söyləmişdir:

Ulu göylər sinəsini gəribdir,
Ab-atəşi **xaki badə** veribdir,
Ağam mənə tifilikən veribdir,
Yüz on dörd kitabın ayəsi məndə (78).

Aşıq yaradıcılığının ilkin çağlarında qələmə aldığı şeirlərindən birində özünü söz-şeir mülkünün gənc bağbanı olduğunu qeyd etmişdir:

Şeir, söz mülkünün gənc bağbanıyam,
Yaradıb cahana təbiət məni.
Sözümdə bir zərrə ləkə olarsa,
Qoy çəksin divana ədalət məni (78).

Getdikcə aşığın təcrübəsi artır, öz potensialından daha səmərəli istifadə edir. Cahangir Dalğın şeir yazıb saz çalmaqda, məclis aparmaqda öz məharətini belə mənalandırır:

Meydanda mənimlə bərabər olmaq,
Yeni yüz-yüz şair yarana gərək,

Yeddi qat yer-göydən xəbərdar ola,
Qandıra mətləbi insana gərək (78).

Sonralar ailəsində baş verən uğursuzluqla əlaqədar, özünə Dalğın təxəllüsünü qəbul edir və el arasında Cahangir Dalğın kimi tanınır. Cahangir Dalğın 1981-ci ildə 52 yaşında vəfat edib. Hazırda beş qızı, iki oğlu var ki, onlardan Əhmədova Sonbahar, Əhmədova Şövkət Aşıq Dalğın ocağının layiqli davamçıları hesab oluna bilər. Aşıq şerinin müxtəlif şəkillərində qələmini sınayan ustadın şeirləri «Zaqatala», «Şəlalə» qəzetlərində çap olunub və o, şerlərində bir çox təxəllüslərlə («Şəms», «Dalğın» «Coşğun», «Qəmgin», «Tənhalı», «Cahangir» və s.) tanınıb. Daha çox simvolik adlardan özünə təxəllüs seçməyə üstünlük verən ustadı digər sənətkarlardan fərqləndirən xüsusiyyətlərdən biri də məhz budur. Aşıq bu təxəllüslər içərsində «Dalğın»ı özünə daha doğma, daha yaxın hesab etmişdir. Bunun səbəbi onun ailəsində baş verən uğursuzluqla, ağrı-acı ilə əlaqədar olmuşdur. Əgər Zaqatala aşıq mühiti Aşıq Məhəmməd, Aşıq Dibro, Aşıq Könlünün, Aşıq Şəmsəddin və başqalarının yaradıcılığıyla tanınmışsa, Aşıq Dalğın yaradıcılığında yüksək bir zirvəyə çatmışdır.

Dalğın aşıq sənəti və üçün önəmli olan musiqini, rəqsi və şeri öz fəaliyyətində birləşdirən aparıcı bir sənətkar kimi yadda qalıb. Prof. S. Paşayev yazmışdır: «Tarixin müxtəlif dövrlərindən keçib gələn ayrı-ayrı adlarla tanınan aşıq sənəti, aşıq yaradıcılığı ilə məşğul olan əsil sənətkar öz yaradıcı fəaliyyətində 3 əsas xüsusiyyəti (musiqi, rəqsi, şeri) vəhdətdə götürməlidir» (91, 52). Aşıq Dalğın da məhz belə sənətkarlarımız sırasında olmuşdur. O, aşıq şerinin bütün növlərində-bayatı, gəraylı, qoşma, təcnis, gözəlləmə, deyişmə və s. qələmini sınamış və el arasında həmişə uğur qazanmışdır. Prof.S.Məmmədliyə görə, «Hər ustad sənətkarın ilk baxımdan klassik saz gələnəklərinə bağlılığı və sədaqəti aşıqlığın ilkin şərtlərindən biridir» (76, 19).

Dalğın öz yaradıcılığında əsasən məhəbbət, din, ürfan, təbiət təsvirlərinin tərənnümü, vətənpərvərlik və nəsihətnamə xarakterli mövzulara üstünlük vermişdir. Onun arxivindən 800-ə yaxın şeir əldə etmişik. Cahangir Dalğının məclislərdə məqamı düşüncə

bədahətən şeir demək qabiliyyəti, mükəmməl ifa tərzi, onu həm el şairi, həm də ustad sənətkar kimi dəyərləndirməyimizə əsas verir. Prof. Qara Namazov el şənliklərinin sənətkarın yetişməsində böyük təsiri olduğunu qeyd etmişdir (83, 19-30). Aşıq Dalğın həqiqətdə mərdlik, mərdanəlik məktəbi keçib. Bu mərdlik Dalğına Zaqatalanın suyu, təmiz ab-havası, Böyük Qafqaz dağlarının yenilməzliyi ilə, ağsaqqallarının öyüd-nəsihətləri, mərd oğullarının dəyanəti, ustad aşıqların sazıyla, sözüylə keçmişdir.

Sənətkar öz poeziyasında xalq şeirinin bütün janrlarına müraciət etmişdir. Belə ki, onun yaradıcılığında bayatı janrı da özünəməxsus yer tutur. İstər ictimai-siyasi, istərsə də təbiət və məhəbbət mövzuları onun yaratdığı bayatıların leytmotivini təşkil edir:

Car qalada qan dolur,
Ora gedən bənd olur.
Car qalaya baxanda,
Gözlərim qandan dolur.

Bu qala Car qaladı,
Üstü Zaqataladı,
Yara söz dimiyəsən,
Yarım özgə balladı (78).

Birinci bayatının məzmunundan göründüyü kimi dövrün ictimai-siyasi haqsızlığı boy verir. Folklorşünas alim T.Məmmədova «Borçalı aşıq mühiti» kitabında qeyd etmişdir ki, «aşıq bədii-estetik mənəviyyatın ifadəsi, dövrün tarixi-siyasi hadisələrini əks etdirən güzgüyə bənzəyir» (77, 23-24). Yuxarıda qeyd etdiyimiz kimi, 30-40-cı illərdə davam etməkdə olan qaçaqçılıq hərəkatı Zaqatala bölgəsində də özünü göstərmişdir. Qaçaqların toyunu aparan hər hansı aşığı ya sürgün, ya da ki, Car kəndində olan qaranlıq zirzəmi gözləyirdi. Məhz həmin dövrün hadisələrini bir bəndlik bayatıda əks etdirməyə çalışan Aşıq Dalğın yeri gəldikcə şeirlərində də bu vəziyyəti yaradanları tənqid atəşinə tutur.

Ustad sənətkarın yaradıcılığında məhəbbət lirikası önəmli yer tutur. Burada təsvir və tərənnüm olunan məhəbbət real, insani, həyati məhəbbətdir:

Vəfalıya qurban olsan səfadır,
Bəy ilqara həmdəm olmaq cəfadır.
İlk məhəbbət cəh-cəlaldan bahadır,
Bil qədrin məzarda yatana kimi (78).

«Deməsəydim» qoşmasında Dalğın sevdiyi gözəlin əhdinə dönük çıxmasından şikayətlənir:

Bu eşqin oduna qovrulmaz idim,
Əzəldən sən mənə yar deməsəydin.
Səndə ki, düz ilqar yoxmuş, ey dilbər,
Dilin düşərdimi, var deməsəydin.

Dalğınam, ilhamı alıram eldən,
Dolanıram kənar fitnəli-dildən.
Mən ölüncə səni silməzdim dildən,
Bu tərlan könlümə sar deməsəydin (78).

«Varlıların məhəbbəti olmur» - deyə düşünən sənətkar «Heyifsən» adlı qoşmasında gözələ öz tövsiyyələrini verir. Onun nanəcibə, qədirbilməzlərə deyil, yalnız onu sevənə, onun qeydinə qala bilənə yar olmağı məsləhət görür:

Nanəcibə, bəy ilqara, naqisə,
Həmdəm olma, ey sərvinaz, heyifsən.
Ləbinin balını qədirbilməzə,
Özün qıyma, ey sərvinaz, heyifsən (78).

Azərbaycan xalq şerində, ümumiyyətlə, aşıq poeziyasında məhəbbət mövzusuna həsr olunan qoşma, gəraylı və başqa nümunələrdə real insanların tərənnümü xüsusi yer tutur. «Biz yazılı ədəbiyyatımızda realizm ünsürlərinin meydana gəlməsində birinci növbədə xalq ədəbiyyatına, şifahi poeziyaya borcluyuq» (121, 49).

Aşıq Dalğın yaradıcılığında da real məhəbbət Qurbani, Abbas Tufarqanlı, Aşıq Ələsgər yaradıcılığında olduğu kimi xüsusi boyalarla tərənnüm edilmişdir. Sənətkar məhəbbət şerilərində gözəlin xarici görkəmini mənəvi aləminin saflığı ilə vəhdətdə verir. «Söz ola bilməz» qoşmasında deyir:

Duruşun, qamətin, o mina boyun,
Çox əcəb biçilib, söz ola bilməz.

Zülflərin gizləmiş o ay camalın,
O ala gözlərə söz ola bilməz (78).

Və yaxud «Yanımda gəl gəz» qoşaqafiyəli qoşmasında belə tərənnüm olunur:

Mil tutan əlləri, şirin dilləri,
Əkdiyin gülləri, keçən günləri,
O gizli sirləri, xoş sətirləri,
Danış mətləbləri, yanımda gəl gəz (78).

Beş bənddən ibarət olan bu şeirdə əvvəldən axıra kimi zəngin poetik ifadələrlə gözəli təsvir edir. Bu mənzərəyə Vaqifin «Pəri» qoşmasında da rast gəlirik.

«Gəl-gəl» adlı gəraylısında həsrətindən divanə olduğu gözəli harayına səsləyir. Bu gəraylıda sevən aşiqin çəkdiyi iztirablar bütünlüklə əks olunur:

Qələm qaşlı, ala gözlüm,
Sənə vardı sözüm, gəl-gəl.
Həsrətindən divanəyəm,
Sənsiz necə dözüm, gəl-gəl.

Belə dövran düşməz ələ,
Bülbül aşiq oldu gülə,
Sənin kimi şux gözələ,
Vurulmuşam özüm, gəl-gəl (78).

Bildiyimiz kimi, aşıq ədəbiyyatında bülbülə müraciətlə yazılan şeirlər çoxdur. Şirvan aşıqları içərisində Aşıq Rəcəb, Mirzə Bilal Qərb aşıq mühitindən Aşıq Hüseyn Bozalqanlı, Zaqatala aşıq mühitindən Aşıq Mədət, Aşıq Könlü kimi Aşıq Dalğın da bülbülə müraciət etmişdir. «Bülbül» qoşmasında ustad sənətkar bu obrazdan bir simvol kimi istifadə etməyə çalışmışdır. Sevgilisini axtaran aşıq ayrılığa dözə bilməmişdir. Əsl həqiqətdə isə sevgisini itirən aşiqin ah-fəğanı, göz yaşları mətnaltı tərzdə bülbülün göz yaşları ilə müqayisə edilmişdir:

Tikanlı, yovşanlı bu biyabana,
Nə olub düşübsən avara, bülbül.
Solar həsrətindən güllü baxçalar,
Söyləmə dərdini Şahmara, bülbül (78).

Bu şeirdə klassik aşıq ənənələri davam etdirilir. Aşıq Borçalı aşıq mühitinin yetirməsi Aşıq Məhəmməd Bozalqanlı da eyni mövqedən çıxış edərək belə yazmışdır:

Mənim kimi dad əlindən,
Dəm vurursan dəm, ay bülbül.
Bu fələyə neynəmişəm,
Bu mən bəxti kəm, ay bülbül (17, 79).

Aşıq Dalğın digər bir qoşmasında vüsala yetişməyən, nikbin sonluğu olmayan sevdaya düşməsindən şikayətlənərək «Sən yox, qoy mən ağlayım» – deyir:

Mən sənin tək bura qonaq düşmüşəm,
Ana beşiyimdən iraq düşmüşəm.
Sevdaya əzəldən nahaq düşmüşəm,
Bülbül, sən ağlama, qoy mən ağlayım (78).

Yeddi bənddən ibarət olan «Bülbül, sən ağlama, qoy mən ağlayım» şeirində lirik qəhrəmanın kədərlə dolu naləsi eşidilir:

Sənin məskənindir bu gülli aran,
Gündə yüz qönçəni edirsən seyran.
Dalğının könlünü yar etdi viran,
Bülbül, sən ağlama, qoy mən ağlayım (78).

Ustadın məhəbbət mövzusunda yazılmış şeirlərini əsasən üç qismə bölmək olar:

1. Allaha müraciət və ilahi məhəbbətə həsr edilmiş;
2. Vəfasız gözəllərdən şikayət;
3. Sözünə sadiq qalan gözəllərin tərənnümü.

Birinci qismə aid olan şeirlərindən məlum olur ki, ustad sənətkar Allaha qəlbən bağlı olmuş, dini dərindən bilmiş və onun sirlərinə lazımi qədər yiyələnmişdir:

Ey xudam, həbibimsən, ilahim, səndən mədəd.
Gözə gəlməz pərvərdigar, ilahim, səndən mədəd.
Verdin insaf, verdin iman, göndərdin ərşdən kitab,
Tez aldılar Yusif-Nəsib, İbrahim, səndən mədəd (78).

Ustad bu divanisində Allah dərgahına yetişmək, onun sevgisini, rəhmini qazanmaq, haqqın, həqiqətin yolunu tapmaq və tanıtmaq uğrunda keçirdiyi hiss-həyəcanını bölüşməyə çalışmışdır.

Eyni zamanda ustad aşıq peyğəmbərlərin ilahidən güc aldıqlarını, ondan mədəd gördüklərini xatırlatmışdır. Digər bəndlərdə Dalğın müqəddəslərə verilən vəzifələrinə və ilahi gücün dəyişilməzliyinə dolayısı ilə işarə etmişdir. Fani dünyada malın-mülkün, sevincin kədərin hər şeyin Allah tərəfindən göndərildiyini dərk edən aşıq Allahdan mədəd istəyir:

Musa ilə Həzrət Əli Cəbrayıldan söz açdı,
Əzrayıl da tapdı yolu can almağa üz aldı,
Cahangirə nə göstərdin, nə göstərmək istəsən,
Əzablara dözən mənəm, Allahım, səndən mədəd (78).

«Könül» rədifli ustadnaməsində aşıq bir çox mənəvi problemlərə toxunmuşdur. İnsanları hər işə vaxtında əməl etməyə, yaxşı və pisi ayırd etməyə, dünya malına bel bağlayanları Allaha yaxın olmağa səsləmişdir. Dini dərindən bildiyi üçün dünyanın faniliyinə işarə, dinə və doğru yola çağırış onun poeziyasından yan keçməmişdir. Aşıq Dalğın mənəviyyatını şəriətin yolunda təmizləyən, təriqətdə arifləşən, mərifətdə kamilləşib, haqqa, həqiqətə yön alan ustad aşıqlarımızdan olmuşdur.

«Könül» rədifli qoşmasının son bəndində öz qəlbinə müraciət edərək, Leyli camından eşq piyaləsini içib, yalnız Allah eşqi uğrunda alışıb yanmağı, ona qovuşmağı təsvir etməmişdir:

Coşğun deyər, olmaz eşqin qayğısı
Hər zaman arxadır mühib ağası,
Al Leyli camından eşq piyaləsi,
Qurban ol o qadir mövlanə, könül (78).

Ustad sənətkar bu şeirdə də insanın İlahiyə olan müqəddəs sevgidən söhbət açır. «Hər zaman arxadır mühib ağası» deməklə sənətkar insanlara arxa, dayaq olan, sevilən, məlhəm verən, onlara yol açan, yardımçı olan, gözəgörünməz, lakin hər yerdə var olan Allahı nəzərdə tutur. III-IV misralarda sənətkar Novruzu Qəndaba, Tahiri Zöhrəyə yetirən müqəddəslərin camından eşq piyaləsindən danışmır (əslində burada da lazımi mərhələləri keçərək Allaha qovuşmağa işarə edilir). O, Allaha qovuşmağı öz müqəddəs amalı hesab edir. «Eşqin köməyi ilə Allahını tapan, onun səsini öz içində eşidən aşiq haqqa qovuşmuş hesab olunur. Belə aşiq haqq sir-

rindən agah olur, gözündən qəflət pərdəsi qalxır. Ruhunun əbədiliyini görür» (44, 27-30). Digər bir «Bağışla» rədifli qoşmasında Aşıq Dalğın Allahdan günahkar bəndələrin günahın öz qüdrəti, ucalığı vahidliyi və ilahiliyi naminə bağışlamağı diləyir:

Qadir allah, insafından ayırma,
Yaratdığın günə, aya bağışla.
Taxsırsız qul olmaz, rəhimsiz ağa,
Ol həbibim Beytullaya bağışla (78).

Aşıq Cahangir Dalğının arxivində saxlanılan materiallar arasında Aşıq Ələsgərin «Endirir» rədifli müxəmməsinə nəzirələrə də təsadüf edirik. Prof. H. İsmayılov haqlı olaraq Aşıq Ələsgərin övliya məqamından çıxış etdiyini bildirmişdir **(52, 289**). Dalğının Aşıq Ələsgərin yuxarıda adı çəkilən müxəmməsinə yazdığı nəzirəyə diqqət edək:

**Aşıq Ələsgər**

Ələstidən «bəli» deyən, sübhanə baş endirir.
Məhəmmədə nazil olan, qurana baş endirir.
Özü birdi, adı minbir, vəhdəhuəl – laşərik,
Əhli-mömün görə bilməz, pünhana baş endirir (38, 149).

**Aşıq Dalğın**

Nəfsinə hakim olan, haqqın yolundan gedir.
Sidqi ilə səcdə edən, qıvlaya baş endirir.
Yaranmışa şəfa olsun, diyə gecə-gündüzlər
Yüz iyirmi dörd min Nəbi, Mövlaya baş endirir (78).

Bu qəbil şeirlərə Dalğının arxivində çox təsadüf olunur.

Onun poeziyasında gözəl daha çox tərbiyəsinə, əxlaqi keyfiyyətlərinə görə dəyərləndirilir. Onun məhəbbət və gözəllərin tərənnümü ilə bağlı «Şükr et», «Bülbül», «Ay qız», «Necə oldu» «Gövhərim», «Dürlü san» və s. şeirlərinin adlarını çəkmək olar. Aşıq Dalğın yaradıcılığında mənəvi gözəllik məhəbbətin birinci şərti kimi götürülür. Burada təkcə vəfa və etibar deyil, kamal, mərifət və nəciblik kimi keyfiyyətlər əks olunur. Klassik poeziyamızda olduğu kimi ustad sənətkarın yazdığı gözəlləmə və tərifnamələrdə

gözəlliyin başlıca xüsusiyyəti ədəb-mərifət, saf və təmiz addır. Çünki bu günün təriflənən gözəli sabahın anasıdır. Elə məhz buna görə də, gözələ yalnız bir məşuqə kimi deyil, ona həyat yoldaşı, bəşəriyyətin anası, insanlığın ilk tərbiyəçisi kimi baxılmalıdır.

Prof. Q.Namazov aşıq poeziyasında qadının mənəvi gözəlliyi barəsində belə yazmışdır: «Aşıq ədəbiyyatında qadına yalnız qadın kimi deyil, həm də həyat yoldaşı, ana, tərbiyəçi və nəhayət, əmək, mübarizə yoldaşı kimi baxıldığından onun daxili gözəlliyi, daxili nəcibliyi də xüsusi əhəmiyyət kəsb edir» (82, 106). Cahangir Dalğının gözəlləmələrinin əksəri gözəlləmə ilə ustadnamə sərhəddindədir. Yəni gözəlləmərində nəsihətamiz ibarələr olduğu kimi, ustadnamələrində də bir şuxluq, şən əhval-ruhiyyə duyulur. Bu da, təbii ki, zamanın tələbindən irəli gəlir. «Gövhərim» adlı gözəlləməsində gözəlin əxlaqi keyfiyyətləri, dərin mənəvi aləmini açıqlamaqla bərabər, həm də müəyyən nəsihət xarakteri daşıyır. Bu qəbil şeirlər ustadnamə ilə gözəlləmənin sərhədində durur:

Yaxşı nəzər qılın Laçın tək quşa,
O cövlan vuranda gəlməzmi xoşa?
Hər sözdən bir məna cəm etmək başa,
Lazım gələr nəsihətdir, gövhərim (78).

Digər «Zay olarsan tez» rədifli ustadnaməsində sənətkar gözəllərə belə müraciət edir:

Cahangir Dalğınam, sən al öyüdü,
Bəsləmə bağında barsız söyüdü,
Ümid, arxa bilsən hər yetən hürü,
Qanlı günbəzlərə tay olarsan tez (78).

Cahangir Dalğın burada gözələ namərd sözünə uymamağı, müxənnət oxundan yan qaçmağı məsləhət görür.

Aşıq Dalğın yaradıcılığını təbiət təsvirləri daha da zənginləşdirir. Onun lirikasında təbiət mənzərələri, təbiət gözəllikləri ayrıca, təcrid olunmuş halda deyil, insanın əhvali-ruhiyyəsi ilə bağlı tərənnüm olunmuşdur. Aşıq Dalğın poeziyasında yurdunun yamyaşıl təbiətinin füsünkar gözəlliklərini ən xırda incəliklərinə qədər vəsf etməyə çalışmışdır.

Ənənəvi inanclara görə insan dərdini suya, dağa danışır. Dağlar həmçinin aşıqların həyatından, zəmanədən, vəfasız sevgilidən şikayət etdiyi dərdli-qəmli vaxtlarında yön tutduqları bir müraciət obyekti olmuşdur. Eyni zamanda dağlar aşıq ədəbiyyatında mərdlik, vətənpərvərlik, ucalıq, möhkəmlik rəmzi kimi verilmişdir. Aşıq Ələsgər, Aşıq Şəmşir, Aşıq Əlixan və başqalarının yaratdığı «Dağlar» qoşmalarından fərqli olaraq, Aşıq Dalğın Böyük Qafqazın rəngarəng yamaclarını, yüksək zirvələrini tam dolğunluğu, əlvan reallığı ilə əks etdirməyə çalışmışdır:

Cüyürlü, ceyranlı yaylaqlarına,
İlk dəfə düşübdür güzarım, dağlar.
Sizdəki təbiət başqa nemətdir,
Sizlə qüdrətlənir Azərim, dağlar (78).

Aşıq Dalğının təbiət mövzusunda yazdığı şeirləri iki qrupa bölmək olar: birinci qrupa aid olan nümunələrdə el sənətkarı, xüsusilə, bahar fəslində təbiətin gözəlliyindən cuşa gələrək, onun yaşıl don geyinən yamaclarını, min bir rəngə çalan çiçəklərini vəsf etmişdir. «L» hərfi üstündə yaratdığı «Dalbadal» qoşması yüksək sənətkarlıq nümunəsi olmaqla yanaşı, həm də əsrarəngiz təbiət gözəlliklərinin tərənnümçüsü kimi çıxış etməklə məşhur olmuşdur. Yeri gəlmişkən, onu da qeyd edim ki, aşığın «Dağlar», «Dalbadal» qoşmaları bu gün də sənətçilərin repertuarlarından düşmür:

Leysan yağar, pərvazlanar çəmən-çöl,
Lalə bitər, güllər açar dalbadal.
Laçın cövlan vurar, oxuyar bülbül,
Leylilərin seyri gələr dalbadal (78).

Qoşmanın sonrakı bəndində Aşıq Dalğın insanlara layiqli işlə ad qazanmağı, qalan ömrü boş yerə hədər verməməyi, ləng hərəkət etməməyi məsləhət görür. Xüsusən, bu yaradıcılıq formasına biz Molla Cuma, Aşıq Dalğın, Aşıq Valeh poeziyasında da rast gəlirik. «Durnalar» mövzusunun klassik poeziyada Vaqif, Vidadi xoş zövq və ustalıqla ifadə edərək əsl poetik şedevr yaratmışlar. Lakin hər iki şeirdən fərqli olaraq, Aşıq Dalğın yaşadığı dövrə uyğun olaraq durnaları azad bir zəmanədə heç bir maneəyə rast gəlmədən sərbəst qanad çalaraq istədikləri səmtə

uçmalarını təsvir edir. Sələflərinin durnalara müraciətində qürbət, ayrılıq və pessimizm notları duyulurdusa, onun müraciəti nikbin sonluqla bitir. Durnaları arzuladığı məkanda sərbəst görüb sevinir. Bu xüsusiyyətə biz digər «Durnalar» şeirlərində təsadüf etmirik:

Yoxdur insanlarda qəribi-zarlıq,
Qalmayıb cəlladlar, dərin zindanlar.
İndi var məhəbbət, bir də ki varlıq,
Gəlin, bu çəməndə gəzin, durnalar (78).

Təbiət gözəlliyinə həsr olunmuş şeirlərin ikinci qrupu daha dolğundur. Bu şeirlərdə insan psixologiyasını, daxili hiss-həyəcanlarını duymaq olur. Ustad sənətkar təbiətin gözəlliyini bədii vasitə kimi qələmə alır, əsas məqsəd isə insanla, onun saf sevgisi ilə bağlı olan məsələlərdir. Cığalı təcnisinin birində belə deyir:

Kamil ovçu, gəl yarama əl atma,
Bir cüt sona geniş göldə üzəndə.
Aşıq deyər üzəndə,
Bir cüt sona üzəndə.
Onların baxışları,
O vaxt olur yüzyandə.
Sən özündən gəl elə bir imtahan,
Necə olur əlin yardan üzəndə (78).

Göründüyü kimi, Aşıq Dalğın xalq şeiri formasına büsbütün riayət etmiş, onun elementlərini yerli-yerində düzmüşdür. Şeirdə bu daha əsasdır. Çünki forma cığalı təcnisdə çox mühümdür və sənətkardan bunu yaratmaq üçün xüsusi istedad tələb edir. Aşıq təcnisdə dərin poetik nümunələr yaratmaqla bərabər, həm də sevən aşiqin daxili psixologiyasını, keçirdiyi hiss-həyəcanını bədii boyalarla verməyi bacarmalıdır. Aşıq Dalğının yaradıcılığında təcnis janrının xüsusi yeri var. Bəzi folklorşünas alimlərimiz təcnisə janr kimi deyil, poetik füqur kimi baxırlar (73, 10-30; 89, 125-126; 25, 168-169; 71, 6; 51, 16-17; 31, 7; 7, 19). Demək olar ki, sənətkar yaradıcılığında təcnisin bütün formalarından istifadə etmişdir. Prof. M.H.Təhmasib haqlı olaraq məqalələrinin birində qeyd etmişdir ki, təcnis yaratmaq üçün sənətkar hər şeydən öncə, dilə hakim olmalı, onun incəliklərinə vaqif olmalıdır (117, 5-6).

Dalğın cığalı təcnislərinin birində taleyindən gileylənir. Aşıq hiss-həyəcanını məzmunlu ifadə tərzi və dolğun boyalarla təsvir edir:

Yenə mən neylədim qanlı fələyə,
Taleyin sərinə nə qara bağlar,
Mən aşiqəm nə qara,
Xumar zülfün nə qara,
Fələk bir gün vermədi,
Nə ağ olsun, nə qara.
Bahar min büsatla çalsa nağara,
Bəxtini çovğuna, nə qara bağlar (78).

Aşıq Cahangir təcnisin sirlərinə yiyələnmək üçün ustad aşıqları dinləmiş daha sonra əliabadlı Aşıq Əlidən dərs almışdır. Onun təbiət mövzusunda yazılmış təcnislərdən biri də «Gedər-gəlməz» təcnisidir:

Yay fəslində dağda olar qar tala,
Bağrın yansa, get əzizim, qar tala.
Əmlik quzu şikar olsa qartala,
İçəndə qanını eyləməzmi, if-if,
Çoban qoyun sürüsüylə keçəndə,
Görüb bu haləti hay eylər of-of (78).

Yeri gəlmişkən, onu da qeyd edək ki, bu janrın ondan çox növündə qələmini sınayan aşığın yaradıcılığında təcnisin özünəməxsus yeri duyulmaqdadır. Xüsusən də, təcnisin gedər-gəlməz və ya nəfəsçəkmə növündə yazmaq aşıqdan böyük məharət tələb edir. Bu təcnisin ilk dəfə görkəmli saz və söz ustası Aşıq Nəcəf tərəfindən yarandığı qeyd edilmişdir (121, 122). Bəzən təcnisi bir mənalı şəkildə ayrıca janr kimi deyil, şeir forması kimi qəbul edənlər də var ki, burada müəyyən baxımdan həqiqətə uyğunluq var (73, 78-79). Zaqatala aşıqlarının yaradıcılığını araşdırarkən əksər şeir şəkilləri ilə bərabər bu formaya təsadüf edirik.

Bu təcnisin digər təcnislərdən fərqi və çətinliyi onun da əsas əlaməti olan nəfəsçəkmənin düzəlməsidir. Belə ki, nəfəsin verilməsi ilə çıxarılması səsin yaratdığı hiss-həyəcandan rədif kimi istifadə olunur. Eyni zamanda nəfəsin alınması prosesinin geri

qayıtması təkrar olunmur. Şair əhvalını bu təcnisə uyğun ifadə etmişdir (121, 182).

Dalğın deyər, qismət olsun sinəsin,
Sirr verməkçin dost-dostunu sınasın.
Dost yolunda dost görəndə sinəsin,
Ağrı çəkən onda eyləməzmi if?
Xilas olan gəlsə əgər üz qoyub,
Vəfalı dost görər hay eylər of-of (78).

Aşıq Nəcəfin «Gedər-gəlməz» təcnisinə diqqət edək:

Çalış hər bir işə yara yetəndə,
Dərdə əlac olar yara yetəndə,
Həsrət çəkən könül yara yetəndə,
Görüş zamanında eyləməzmi iss...
Bir bədəsil çıxsa yaxşı nəsildən,
Görənlər ah çəkib, ay eylər of-of (17, 87).

Göründüyü kimi, təcnis quruluş etibarı ilə bir-birinə yaxın olsa da, məzmun-ideya baxımından tamamilə başqadır. Əgər Aşıq Dalğın öz təcnisində vəfalı dostluqdan söhbət açılmışsa, Aşıq Nəcəfin yaratdığı ilk nümunədən yara yetməyin çətinliyi önə çəkilmişdir. Cahangir Dalğının yaradıcılığında yer tutan mövzulardan biri də vətənpərvərlikdir. O, Vətənin hər qarışına böyük məhəbbət bəsləmiş, onun suyuna, çörəyinə böyük qayğı ilə yanaşmışdır. Belə ki, «Dürlü san» qoşmasında fikirlərini, Vətənə olan məhəbbətini belə ifadə edir:

Yerdə, göydə həyat verən insana,
Biri oddur, biri sudur, biri nan.
Hər şeydən əzizdir, hər şeydən baha,
Biri ana, biri vətən, bir can (78).

Beş bənddən ibarət olan bu şeirin son bəndində daha çox bəşəri arzular hiss olunur.

İnsanla insanın hər məhəbbəti,
Bir etibar, bir səxavət, dürlü san.

Aşıq Dalğının yazdığı vətənpərvərlik şeirlərini əsasən iki qrupa bölmək olar:

1. qürbət eldə sıxıntı çəkən aşiqin vətənpərvərlik duyğuları;

2. bəşəri hisslər, «Vətən», «Düşən kim» gəraylılarını bu baxımdan yüksək qiymətləndirmək olar:

«Düşən kimi» gəraylısını aşıq daha çox öz acı həyatı ilə bağlamışdır:

Coşğun deyər, ümidim var,
Ölsəm də mən, adım qalar.
Hal bilənim şəksiz yanar,
Canım oda düşən kimi (78).

Aşığın yaradıcılığında ən çox müraciət olunan janr qoşmadır. Bu janrda demək olar ki, Aşıq Dalğın bir çox problemlərə toxunmuş və yeri gəldikcə şeir yazıb saz çalmaqda, məclis aparmaqda özünü ustad hesab etmişdir. Onbirlik şeir şəklindən ibarət olan qoşmanın bir çox növlərində (ayaqlı qoşma, qoşayarpaq qoşma) nümunələr yaradan Aşıq Dalğın daha çox təkrirlərdən istifadə etmişdir. Buna misal olaraq «Necə oldu», «Sənsən», «Yarı böl», «Görəndə» və s. adını çəkmək olar. Aşıq Dalğının yaratmış olduğu qoşmaların əsas ideyasını dini və ürfani dünyagörüşün təbliği, zəmanədən, sevgilisindən şikayət, hakim qüvvələrin tənqidi təşkil edir.

Hakimə əyilməz, başım nə dinə,
Köksüm ki, hərarət borc verin günə.
Üç şeydən məsafə bildim əfsanə,
Haqqa aşıq olanlar söyləyəcəkdir (78).

«Sözüm budur» qoşmasında isə elinə dəyərli məsləhətlər verir:

Dalğın deyər, sözüm büdür qanana,
Heç kim əl atmasın indi yalana.
Həyat gərdişindən dalda qalana,
Sözüm düzdür, danma, yola sal məni (78).

Aşıq Dalğın xalq şeirinin bütün incəliklərini dərindən mənimsəmişdir.

Aşıq Dalğın yaradıcılığında ictimai-siyasi məzmuna və fikrin fəlsəfi məqamına çox fikir verir. Bu dünyada nə varlının, nə də yoxsulun olmasına razı olmayan Aşıq Dalğın insanlar arasında bərabərliyi ən ümdə və vacib şərtlərdən biri hesab edir. Onun nəzərində dünyanı yalnız doğru söz, doğru düşüncə və doğru əməl

sahibləri qoruya bilər. Bəzən şeirlərində Allaha müraciət edən sənətkar bu dünyada tutduğu mövqedən asılı olmayaraq, hər kəsə əməlinə görə dəyər verilməyini istəyir. «Yarı böl» qoşması bunun gözəl nümunəsi hesab oluna bilər:

Şahlar şahı, qulum edir iltimas,
Məndə olan müşkül halı yarı böl,
Haqq-hesabı məhşər günə saxlama,
Hamısını qoy, mülki-malı yarı böl (78).

Doğru yoldan yayınanların cəzasını məhşər gününə qalmasını istəməyən ustad hakim qüvvələrin, müftəxorların mal-mülkünün məzlum bəndələrlə yarı bölünməsi arzusundadır:

Kimi deyim qəlbi çıxıb qaradan,
İsgəndər, Süleyman kam aldı hardan.
Məzlum bəndələrə, taclı şahlardan
Al əlindən cah-calalı yarı böl (78).

Sənətkar ustadnamələrində də bir-birindən rəngarəng, məzmunlu məcazlar sistemini yaradır:

Həyata nəzər sal, vacib söz topla,
Gir dərin dəryada doğru, düz topla.
Həqiqətdən, mərifətdən yaz topla,
Ləhcənin, məzmunun gövhəri olsun (78).

Öyüd-nəsihət xarakteri daşıyan ustadnamələr Cahangir Dalğının yaradıcılığında özünəməxsus yer tutur. Bildiyiniz kimi, aşıq sənəti yarandığı ilk dövrlərdən həmişə xalqın həyatını tərənnüm etmiş, onun dərdinə şərik olmuş, uğuruna sevinmiş, xalqı əmin-amanlığa səsləmiş, xeyirxah işlərini alqışlamaqla bərabər, nadanlığı, namərdliyi pisləmiş, müdrik kəlamları ilə gənclərə öyüd-nəsihət vermiş, həm də nəsillərin tərbiyəçisi olmuşdur. «Ustadnamə» ustad nəsihəti, ustad sözü, ustad vəsiyyəti deməkdir» (48, 41). Aşıq Dalğın ustadnamələrində xalq kəlamlarından, atalar sözlərindən bəhrələnmişdir. Onun ustadnamələrinin mövzuları çoxşaxəlidir. Aşığın «Danış» adlı ustadnaməsi öz şagirdlərinə verdiyi dəyərli nəsihətlərlə zəngindir:

Dünyada xalq olub, arifəm deyən,
Məclislərdə ağır otur, az danış.

Yüz suala bir kəlməylə cavab ver,
Yaxşı dinlə, aşkar dillən, düz danış (78).

Altı bənddən ibarət olan bu ustadnamədə əvvəldən axıra kimi ustad-şagird ənənəsinin şərtləri, məclislərdə özünü aparmaq qaydalarından danışılır. «Düşəndə» adlı ustadnaməsində isə ustad həm yüksək bədiilik nümayiş etdirmiş, həm də sözə fəlsəfi çalar vermişdir:

Nər suda yaşamaz, quruda balıq,
Qartalam deyənlər etməz qarğalıq.
Neynəsin, o zaman gənclik, qocalıq,
İgidin qılıncı daşa düşəndə.

Parla, ulduz aləmində birləşəndə ay,
Günün zərrəsinə ola bilməz tay.
Sakitləşir birdən-birə coşan çay,
Zirvələrdən o enişə düşəndə (78).

Aşıq sənətinin incəliklərini bilən, zəngin həyat və yaradıcılıq yolu keçən Aşıq Dalğının ustadnamələri sənətkarlıq xüsusiyyətlərinə və kamilliyinə görə əvəzolunmazdır. İstər mövzu, istər ideya baxımından mənbəyini xalq həyatından alan Dalğının nəsihətnamələri yüksək bədii dəyərə, böyük tərbiyəvi əhəmiyyətə malikdir. Prof. M.Həkimov ustadnamələrdə qüvvətli məntiq, oxucunu-dinləyicini hər an düşündürən fəlsəfi və didaktik məsələlərin ön plana çəkildiyini qeyd etmişdir (49, 450).

Belə ki, sənətkar «Səni» adlı ustadnaməsində övladlarını pis yoldaşdan uzaq durmağı məsləhət görür:

Nabələd məkanda qəribsən özün,
Mərdə danışmasan ötməz bir sözün.
Peymanın çağlayıb danışsan düzün,
Cibindən pul verib atdırar səni (78).

Daim xalq içərisində olan aşıq bu nümunələrində yaşadığı mühitlə bağlı ciddi narazılıq və şikayətlərinə, həm də gələcəyə ümidlə baxan bir sənətkar kimi nəsihətamiz fikirlərini, humanist duyğularını, həmçinin öz şəxsi kədəri ilə bağlı düşüncələrini bəşəri kədər və narahatçılıqlarla birlikdə ifadə etmişdir. Prof.

Vaqif Vəliyevə görə, el sənətkarları həmişə xalqın güzaranını, arzu və istəklərini həqiqətəuyğun şəkildə təsvir və tərənnüm etmişlər (122, 23). Çox təəssüf ki, Aşıq Dalğının ictimai-siyasi mövzuda yazılmış 20-dən çox nəsihətamiz ustadnaməsi əlyazmalarının içərisindən oğurlanmışdır.

Aşıq Dalğının yaradıcılığında ustadnamə, qoşma ilə yanaşı, digər aparıcı janrlar da üstünlük təşkil edir. Belə ki, 15-dən çox müxəmməsi, müxtəlif növlərdə 30-a yaxın təcnisi, 13 gəraylısı, 7 deyişməsi və nəhayət 4 qıfılbəndi məlumdur. Təcnisləri ideya, bədii təsvir vasitələrinin, məcazlar sisteminin çoxluğu baxımından daha diqqətəlayiqdir. Sənətkar «Bilmək olsa» təcnisində qalamaq, dolanmaq fellərindən yerli-yerində, çoxmənalılıq çalarlarında istifadə etmişdir:

Coşqun deyər, ana oldun, qal ana,
Rəhmət gedən kəsə, sağlıq qalana,
Bir könül ki eşq oduna qalana,
O könül də məhəbbətə hayandır (78).

«Başa baş» rədifli digər təcnisində isə «baş», «üz», «yaş» kimi çoxmənalı sözlərinin məna çalarlarını çox məharətlə və yerli-yerində işlədə bilmişdir. Onun arxivindən əldə etdiyimiz bu nümunə qubalı şair Rəhim Alxasa yazılmışdır:

Gənc yaşımda mən gördüyüm işlərə
Səbr ilə nəzər saldım başa-baş.
Aşıq olan başa-baş
Dərsi alsın başa-baş.
Mərd ilə çörək kəsən
Mərdlik etsin başa-baş.
Mərd olanlar öz başını ucaldar,
Namərdlərə dərd tapdırar başa-baş (78).

Şair Rəhim Alxas Aşıq Dalğın yaradıcılığına böyük rəğbətlə yanaşmiş, onu kamil söz sərrafı adlandırmışdır. Bu sənətkarlar yeri gəldikcə bir-birinin yaradıcılığındakı nöqsanları da tənqid hədəfinə tutmaqdan çəkinməmişdir. Onların yazışmalarından məlum olur ki, islam dinini mükəmməl səviyyədə bilmişlər. Aşıq Dalğının şair Alxasa yazıb göndərdiyi bağlaması müəyyən səbəb-

lərdən onun arxivindən itsə də, Rəhim Alxasın ona göndərdiyi cavab məktubu qorunub saxlanılır:

Rəhimin köksündə neçə dağı var,
Bil ki, hər cənnətin yeddi bağı var.
Tutub cəhənnəmdə min günah qərar,
Saysan əzab çəkən həyacanımdı (78).

Aşığın zəngin irsindən «Sərin dolansın», «Ata-at» kimi təcnislərini məzmun və forma baxımından dərin düşüncə, böyük məharətlə yazılmış ən kamil şeir nümunələri kimi qiymətləndirmək olar:

Günlərin bir günü çıxdım bazara,
O gündə də aldı mənə ata at,
Dünyanın malına bərabər idi,
Versələr, verməрəm yüz min ata-at (78).

Göstərilən nümunədə maraqlı cəhətlərdən biri də budur ki, təcnisdə konkret bir süjet xətti var. Bu xüsusiyyətə biz Aşıq Əzimin yaradıcılığında da təsadüf edirik. Şeirdə konkret bir süjet xəttinin olması mühiti səciyyələndirən xüsusiyyətlərdəndir. Göründüyü kimi, sözün çoxmənalılığından məharətlə istifadə etmiş sənətkarın bu təcnisində həm də çox dolğun fikir aşılanır. Prof. Qara Namazov qeyd etmişdir ki, «Aşıq gördüyündən, eşitdiyindən yazar» (82, 129).

«Ata-at» təcnisi doğrudan da, aşığın həyatında unudulmaz iz qoyan bir hadisə ilə bağlı yaranmışdır.

Aşıq Dalğının altı dodaqdəyməzi arasında «Tərsinə döndü», «Sən də al» şeirləri xüsusi yer tutur:

Tərs keçdi adnalar, tərs dolandı ay,
Tərs ilin girişi tərsinə döndü.
Tərs xəyalında tərs olar arzusu,
Tərs edən hər işi tərsinə döndü (78).

Aşıq Dalğın yaradıcılığında deyişmə qıfılbənd və müxəmməs janrlarından da ustalıqla istifadə etmişdir. Aşıq ənənəsində mövcud olan məktublaşma, müəşşarə (şeirləşmə) kimi çətin janrı ustad statusuna yiyələnmiş Dalğın dərindən bilirdi. O, şair Alxasla tez-tez məktublaşmış və bir çox maraqlı deyişmələrini yaratmışdırlar.

Aşıq Cahangir Dalğının bir çox şeirlərində sevgisinə qovuşmayan aşiqin çəkdiyi iztirablar əks olunur. Aşıq çox zaman sevdasını pozan kəsləri qarğış edir. «Bitməsin» rədifli şeirində şeytan əməlinə uyan insanların pis əməlləri tənqid edilir, pis düşüncə, pis əməl sahibləri qarğışlanır:

Bu fani dünyada düşdüm sevdaya,
Sevdanı pozanın gülü bitməsin.
Çəkdiyi zəhməti qoy getsin zaya,
Nə əksə, yanında gülü bitməsin (78).

Bu nümunədən göründüyü kimi, sənətkar sələflərinin qoyduğu ənənəyə lazımınca sadiq qalmışdır.

Aşıq ədəbiyyatında, ayrı-ayrı dastanlarımızda şikayət, qarğış xarakteri daşıyan nümunələrə də təsadüf edirik. «Qurbani» dastanında Qurbani başına müsibətlər gətirmiş vəziri qarğıyır:

Vəzir, səni qarğıyıram,
Haqq muradın yetirməsin,
Göydən min bir bəla ensə,
Birin səndən ötürməsin (24,76).

Haqq aşığının qarğışı qarğış, alqışı alqış olur-deyirlər. Əgər bu nümunədə qarğış konkret şəxsə ünvanlanıbsa, Aşıq Dalğının poeziyasında bu ümumiləşmiş şəkildə nəzərə çarpır. El arasında Dalğının baş verəcək hadisələri əvvəlcədən duya bildiyi barəsində fikirlər də səslənməkdədir.

Burada diqqəti iki məsələyə yönəltmək istəyirik. Birinci, aşıq kimi tanınan Dalğın, nədənsə, şeirlərinin əksəriyyətində özünü şair kimi qələmə verir. Doğrudan da, bu xüsusiyyət ondan irəli gəlir ki, Zaqatala aşıq mühitində yaşayıb-yaradan sənətkarların əksəriyyəti ilkin olaraq sözə üstünlük vermiş, sonradan sözlə-sazı vəhdətdə götürmüşlər. Daha dəqiq desək, bunlar sənətə aşiqlikdən gəlmişlər. İkinci məsələ, Aşıq Dalğının əksər şeirlərində tarixən mövcud olan aşıqlarımızın adını tez-tez yada salmasıdır. Bu da, təbii ki, Zaqatala aşıq mühitində müəyyən tarixi ənənənin mövcud olmasına və bu ənənənin layiqincə davam etməsinə işarədir.

Hər zaman həqiqət carçısı olan, aşıq şeirinin müxtəlif şəkillərində səkkiz yüzdən çox şeiri bizə məlum olan Aşıq Dalğın

yaradıcılığı özündən sonra gələn yaradıcı və ifaçı aşıqlar üçün böyük bir örnək olacaqdır.

Çağdaş dövrün ustad aşıqları içərisində yüksək sənətkarlıq xüsusiyyətləri ilə seçilənlərdən biri də **Aşıq Mədətdir.** Aşıq Mədət Ramazan oğlu Ömərov 1934-cü ildə Varxiyan (indiki Bəhmədli) kəndinin yoxsul ailələrindən birində anadan olmuşdur. Yaşadığı yer haqqında şeirlərindən birində belə deyir:

Yurdum Varxiyandır, Mədətdir ismim,
Vaxt olar torpağa qarışar cismim.
Sinəmdə telli saz görünər rəsmim,
Məni sevənlərə bir yadigardır (78).

Zurna alətinin mahir ifaçılarından olan Aşıq Mədətin babası o dövrün bacarıqlı el sənətkarı olmuşdur. Dayısı Araz isə ustadlar sırasında yeri olan aşıqlarımızdan olmuşdur. Aşıq Mədətin dediyinə görə, babasını və dayısını görəndə onun beş yaşı varmış. 1939-cu ildə II dünya müharibəsi başlanan kimi, dayısı Araz könüllü müharibəyə yola düşür. Mədətin anası Əminə xanım Arazın böyük və istəkli bacısı olduğundan az yaşlı oğlu Bayramı ona həvalə edir. Araz gedərkən sazını Əminə xanıma verərək 6 yaşlı Mədəti göstərmiş və demişdir: «Bacım, bu uşax atamın və mənim sənətimin layixli davamçısı olacax». Aşıq bu barədə şeirlərinin birində aşağıdakı kimi yazmışdır:

Arazam, söylərəm ərzü-halımı,
Neylirəm vətənsiz dünya malını,
Gözləməyin, siz gedənin yolunu,
Mən gedirəm, ya gəlləm, ya gəlmənəm? (78).

Doğrudan da, zaman gəldi ki, yeddi yaşı olan balaca Mədət dayısından yadigar qalan sazı çalıb oxumağa başlamışdır. 8-9 yaşlı uşağın saz çalıb oxuması ilk baxışdan qəribə görünsə də, bu, həqiqətdir. Müharibədən geri qayıtmayan dayısının əlyazmaları bizə məlum olmayan səbəblərə görə yandırılmışdır. Aşıq Mədətin dediyinə əsasən, Layısqılı Molla Cuma tez-tez Zaqatalaya gəlmiş, onun babasının evində qonaq olmuş, dayısı Aşıq Arazla birgə məclislər aparmışdır. Aşıq Mədət dayısı Aşıq Arazın toyunu Molla Cumanın apardığını da bildirir. Görünür, Aşıq Araz atasının

vasitəsilə Molla Cuma ilə hələ gənc yaşlarında yaxınlıq etmiş, sənət əlaqələri yaratmışlar. Aşıq Araz Molla Cumaya şagirdlik etməsə də, amma ustaddan aşıq sənətinin sirlərini lazımınca mənimsiyə bilmişdir. Yeri gəldikcə şeirlərində bu barədə deyir:

Molla Cuma verib mənə dərsini,
Sənətə bağladım ömrün yarsını.
Seçə bilməm bu yolların tərsini,
Mən gedirəm, ya gəlləm, ya gəlmənəm (78).

Aşıq Arazın bir dastanı da olmuşdur, amma təəssüf ki, tam şəkildə dövrümüzə qədər gəlib çatmamışdır. El arasında dastanın kiçik hissələri dolaşmaqdadır. Aşıq Mədətin yaradıcılığı 7-ci sinifdə oxuyarkən aşkarlanmışdır. Müəllimlərin həmin vaxtdan istedadlı şagird kimi tanıdıqları Mədəti Varxiyan kənd orta məktəbinin ədəbiyyat dərnəyinə yazırlar. Ondan sonra Aşıq Mədətə el şənliklərini, toy məclislərini aparmaq təklifi edilir. O vaxtdan aşıq adını alan sənətkar el şənliklərində, toy məclislərində alqışlanmış və ayrı-ayrı ustad aşıqlarla deyişib uğur qazanmışdır. Sənətkarın ömür yolu rəngarəng, maraqlı olduğu qədər də acınacaqlı keçmişdir. «Ömrümün» rədifli qoşmasında bu barədə deyir:

Mədətəm, vermişəm ömrümü bada,
İnləyə-inləyə cövrü-cəfada,
Var-dövlətim olmasa da dünyada,
El-ələmə sözü qalıb ömrümün (78).

Saz-söz ocağında böyüyüb boya-başa çatması və Aşıq Məhəmmədin, Mola Cumanın və dayısı Aşıq Arazın sənətkarlıq irsini dərindən mənimsəməsi onun qüdrətli bir ustad aşıq kimi yetişməsinə şərait yaratmışdır. O, günahsız yerə ömrünün bir neçə ilini həbsdə keçirməli olmuşdur. Aşıq Mədət özü haqqında belə demişdir: «Mən günahsız olsam da, haqsız yerə nə türmədə keçirdiyim günlərə, nə də taleyin mənə bəxş etdiyi acılardan şikayət etmək istəmirəm. Çünki o pis günlər mənə yaxşı günlərin qədrini bilməyi öyrətdi. Belə ki, ustad sənətkar həyatın yalnız sərt üzünü, acısını qismət eləyən taleyi ilə barışır, onu özünə dost hesab etmişdir. Məhz bu cəhətdən onun «Aşıq Mədət və Tale» adlı avtobioqrafik səciyyə daşıyan dastanı daha böyük dəyərə malikdir:

**Tale**

Aşıq Taleyin dostusan,
Tale yazandan incimə.
Allahındı qismət, qədər,
Yazıb-pozandan incimə.

**Aşıq Mədət**

Yaradana sən bağlısan,
Tale, səndən incimərəm.
Mən ki qabağında qulam,
Tale, səndən incimərəm (78).

Aşıq Mədət deyir ki, onu sazla sirdaş edən, sənətkar edən cah-calalı olan dağların, rəngarəng yaşıl diyarın təbiəti olmuşdur. Aşıq Mədət klassik aşıq poeziyasının ən yaxşı ənənələrini müasir dövrümüzün tələb və əhvali-ruhiyyəsi ilə çox məharətlə birləşdirən bir sənətkardır. Onun yaradıcılığında aşıq poeziyasının bir sıra ən gözəl ənənələri yaşayır və inkişaf edir. Aşıq Dalğından fərqli olaraq Aşıq Mədət yalnız bir təxəllüslə yazıb-yaratmışdır. Onun yalnız bir neçə qoşması «Qırmızı bayraq» və «Zaqatala» qəzetində çıxıb. Aşıq Mədət yaradıcı aşıq kimi təkcə aşıq şeirləri yaratmaqla kifayətlənməmişdir. Onun musiqi duyumu da çox güclüdür, sazın səs dünyasını asanlıqla qavrayır. Aşığın özünün yaratmış olduğu bir neçə saz havası vardır. Onun havacatlarından «Ballı», «Narıncı», «Zaqatala» Zaqatalanın el şənliklərində aşıqlar tərəfindən ifa edilməkdədir. Prof. S.Paşayev aşıqları Azərbaycan xalqının ən qədim ifaçıları adlandırır, xalqın arzu və ideyası ilə yaşadığı qənaətinə gəlmişdir (99, 24).

Ustadın mindən çox şeir örnəyi, el şənliklərində, məclislərdə bədahətən söz demək qabiliyyəti, ayrı-ayrı aşıqlarla deyişmək, onları məqamında bağlamaq bacarığı, yüksək əxlaqi dəyərlərə malik olması el arasında şöhrətini daha da artırmışdır. Folklorşünas alim Mahmud Allahmanlı aşıqda ədəb-ərkan və improvizatorluq bacarığının olmasını onun sənətkarlıq qüdrəti ilə bağlamışdır. Digər tərəfdən müəllif məsələni birbaşa sənətkardakı keyfiyyət və yaradıcılıq xüsusiyyəti hesab etmişdir (6, 31). Aşıq Mədə-

tin ifaçılıq xüsusiyyətlərinə gələrkən onu qeyd etmək olar ki, ustad dövrünün bir çox aşıqlarından fərqli olaraq məclisləri tək aparmağa önəm vermişdir. Aşıq Mədət tək məclis aparmasının əsas səbəbini tarixən aşığın və sazın da Allah kimi tək olması ilə əlaqələndirmişdir. «Saz mənim haqq-təala ilə ünsiyyət yaratmaqda ən pak, ən ülvi bir silahdaşımdır. Mən sazı ifa etdikdə içimdə rahatlıq tapıram» (78).

Onun yaradıcılığında müraciət olunan başlıca mövzular, məhəbbətin tərənnümü, vətənpərvərlik, təbiət gözəlliklərinin təsviri, dini-ürfani və nəhayət, zəmanədən şikayətdir. Mədətin yaradıcılığını məzmununa görə iki qismə ayırmaq olar:

1. Gənc yaşlarında yazıb-yaratdığı nikbin əhvali-ruhiyyəli şeirləri;

2. Qocalıq çağlarında yaratdığı bədbin əhvali-ruhiyyəli, zəmanədən şikayət xarakterli şeirləri.

Bu xüsusiyyəti biz M.P.Vaqifin poeziyasında da izləyirik. Şair «Görmədim», «Eylər» və s. rədifli şeirlərini məhz qocalığında qələmə almışdır.

Şeirlərindən də görünür ki, Aşıq Mədət ömrünün böyük hissəsini əziyyətlə, ağrı-acı ilə keçirmişdir.

«Düşdü» rədifli qoşmasına diqqət edək:

Bəxtim gətirmədi, söndü çırağım,
Qalmadı sevgiyə daha marağım,
Ahı-naləm ilə səsim,sorağım,
Obadan, obaya, ellərə düşdü (78).

Gənclik dövründə yazdığı şeirlərinə nəzərən qocalıq çağında yaratdığı incilərin hər birində dərd-nisgil, yaşanmış günlərin acı və şirin xatirələri boy verir. «Tökülməkdədir» rədifli qoşmasında aşıq belə deyir:

Vədəsiz ağardı saqqalım,saçım,
Qar kimi ələnib tökülməkdədir.
Ömrümün qalası daşdan olsa da,
Getdikcə köhnəlib sökülməkdədir (78).

Bu qoşmanın möhürbəndində isə ustad insanları dərd çəkib ahu-zar edənlərə gülməməyi məsləhət görür.

Mədətin dərdi var hesaba gəlməz,
Dərd bilən çəkdiyim əzaba gülməz,
Qocalan təzədən cavana dönməz,
Baxın əlif qəddim bükülməkdədir (78).

Amma bütün bunlara baxmayaraq, sənətkar taleyindən gileylənmir. Əksinə, tanrısına hər zaman şükür edir.

Aşıq şeirinin bütün janrlarında qələmini sınayan Mədətin yaradıcılığında ustadnamələr xüsusi yer tutur. Ustadnamə və nəsihətnamə adlanan bu qəbil şeirlər aşığın poeziyasının zirvəsi sayıla bilər. Ustadnamələrdə insanın mənəvi gözəlliyi, əxlaqi keyfiyyətləri, cəmiyyət içərisində davranış qaydaları, xalqın məişətinə, adət-ənənəsinə uyğun şəkildə tərənnüm olunur. Aşıq Mədət ustadnamələrində göstərir ki, pis yoldaşa sirr vermə, özgəyə quyu qazma, özünə rəva bilmədiyini başqasına arzularına, özündən böyüklərə hörmət qoy, atadan qalan yadigarı əziz saxla, gözə işıq gətirən çörəyi korlama, ona xor baxma və s. İstər mövzu, istərsə də bədii ideya baxımından müxtəlif olmaqla Aşıq Mədətin ustadnamələrini bir neçə qrupa ayırmaq olar:

1. Övladlarına həsr olunan ibrətamiz nəsihətlər;
2. Dövrün haqsızlıqlarına münasibət;
3. Gözəllərə nəsihət;
4. Öz acılarının ümumi şəkildə verilməsi.

«Yaxşıdır» ustadnaməsində yaxşını pisdən seçməyi, olduğun kimi görünməyi və ya göründüyün kimi olmağı, həyatda «ləli» «inci»ni arayıb tapmağı tövsiyyə edir:

Mən haqdan dərsimi aldım onunda,
Gəzmək istəmirəm şeytan donunda,
Əgər sərrafamsa, mis mədənində,
Axtarıb gövhəri seçsəm, yaxşıdır (78).

Ustadnamələrin ən gözəl xüsusiyyətlərindən biri insanda əxlaqi keyfiyyətlər, nəcib sifətlər axtarmaq və bu keyfiyyətləri başqalarına nümunə göstərmək, başqalarını da bu yola sövq etməkdir. Buna görə də Aşıq Mədətin ustadnamələrinin çoxunda mərd-namərd, xeyir-şər, doğru-yalan, yaxşı-pis, dost-düşmən kimi bir-birinə əks olan sifətlər qarşılaşdırılır. Aşıq ustadnamələrində klas-

sik ənənələrə sadiq qalır, insanları pis əməllərdən çəkindirmək üçün o dünyanı xatırladır. Əbədi olmayan bu dünyada mənalı yaşamağı, gəncliyin ardınca düşgün qocalığın gəldiyini, şux qamətinin əyiləcəyini poetik dilin rəngərəngliyi ilə ifadə edə bilir:

Sənətkarlar girər cürbəcür dona,
Əbədi deyildir ömür insana,
Tükənər gəncliyi, yetişər sona,
Mədət qəddin əyib gedər, nə olsun? (78).

«Dəyişdi» ustadnaməsində isə yaşadığı dövrün, insanların xarakterlərinin, yaşam tərzinin dəyişmə-sini, insan həyatının dialektikasını poetik bir lövhə ilə əks etdirir:

Ey ariflər, baxın möcüzələrə,
Zaman ölü ilə sağlar dəyişdi.
Şeytan əməlinə uyan çox oldu,
Tarix gülən ilə ağlar dəyişdi.

Mədətəm, dərdimə şərikdir sazım,
Haqdan kəsilməsin ömrüm, avazım,
Al-yaşıla bürünəndə Qafqazım,
Sirli-sözlü qarlı dağlar dəyişdi (78).

Aşıq Mədət həmişə xalqın içərisində olan sənətkardır. O, xalqın yaşayış tərzini, onun düşdüyü vəziyyəti əks etdirməyə çalışır:

Ağlar Aşıq Mədət, gülləri solsa,
Üzü gülməz, bağı viranə olsa,
Ağacların qurdu içindən olsa,
O bağdan xalqıma bir də bağ olmaz (78).

Aşığın yazdığı ustadnamələrin əksəriyyəti övladlarının simasında bütün vətən övladlarına olan nəsihətlərdir:

Əziz oğul, məndən sənə nəsihət,
Kamil təbib axtar, dərdi parçalar.
Ağıllı sərkərdə ordu itirməz,
Ağılsız sərkərdə ordu parçalar (78).

Əvvəldən axıradək oğlunun simasında xalqın övladlarına yaxşını pisdən seçməyi, xeyri şərdən ayırmağı məsləhət görür. Onları cəsarətli, mübariz və biri-birilərinə arxa dayaq olmağa səsləyir.

Mədətə dərs verər bu geniş cahan,
Kamil ustad olur sınaqdan çıxan.
Həyat təcrübədir, bir də imtahan,
Quzular cəm olsa, qurdu parçalar (78).

«Oğul» adlı gəraylı şəklində yazılan ustadnaməsində oğlunu iki şəxsin söhbətinə qarışmamağı, ona pislik, namərdlik edəni Allaha tapşırmağı və özü istəməyən işi başqasına rəva görməməyi məsləhət bilir. Nəhayət, ustadnamələrin digər qrupunu aşığın öz hissləri, öz həyatı ilə bağlı məsələlər təşkil edir ki, bu məsələlər həm də xalq ilə bağlıdır. «Sən özün ağla» ustadnaməsində sənətkarın bütünlüklə kədərli ürəklərin qeydinə qalmağı səsləyən çağırışı eşidilir:

Quruyub lal olan çaylar çağlamaz,
Loğmanı gətirsən, yaran bağlamaz,
Dar günündə heç kim sənə ağlamaz,
Özün öz gününə, sən özün ağla (78).

Ustad sənətkar həm də elin-obanın gözəllərinə də öz nəsihətini əsirgəmir. O, vətən gözəllərini elmli, təhsilli, yaxşını pisdən seçə bilən dünyagörüşlü, onları ürəkdən sevəni sevməyi bacara bilən gənclər kimi görmək istədiyini açıqlayır:

Düşün, dolan alçaq ilə ucanı,
Kamil öyrən əlifbanı, hecanı,
Seçmə gözəl cavan ilə qocanı,
Səni kim istəsə, sən onu istə (78).

Aşıq Mədətin ustadnamələrinin mövzu, məzmun və ideya bədii xüsusiyyətlərindən çox danışmaq olar. Onun 90-dan çox ustadnaməsi dövrünün bir çox problemlərini qabarıq şəkildə əks etdirməklə klassik ənənəyə yeni ruh gətirmiş olur.

Mərdlik, mərdanəlik məktəbi keçən Aşıq Mədət şeirlərində insanın mənəvi gözəlliyi, paklığı, əxlaqi keyfiyyətləri, cəmiyyət içərisində davranış qaydaları xalqın məişətinə və adət-ənənəsinə uyğun şəkildə tərənnüm edilir. Xüsusən də, sənətkarın ustadnamələrində dövrün, zamanın gərdişinə münasibət, əxlaqi dəyərlər həmişə ön plana çəkilir. «Eylər» rədifli ustadnaməsinə diqqət edək:

Ləli-cəvahirdir atalar sözü,
Haqdır dolandıran gecə-gündüzü,

Yeri gəlsə əgər yaradan özü,
Xanı diyarbaşı, qul eylər-eylər (78).

Sənətkarın ustadnamələrində həyati və real olan bir obraz boy verir. Bu obraz, sözün həqiqi mənasında, Aşıq Mədətin özüdür. Onun ustadnamələrində mətnaltı məna, simvol genişliyi, alqış və qarğış, təəssüfkeşlik, gələcəyə ümid, haqq-ədalətə çağırış motivləri əsaslı yer tutur. Digər baxımdan bu deyilənlər onun ustadnamələrinin spesifik xüsusiyyətləri kimi də dəyərləndirilə bilər. Ustadnamələrin əksəriyyətində aşıq öyüd-nəsihəti, sanki öz qəlbinin müraciəti kimi ətrafındakılara, bütün cəmiyyətə eşitdirməyə çalışır. Məsələn:

Mədət, başın üstə gətir çən-duman,
Haray salıb heç eyləmə ay aman.
Gecə-gündüz quşlar oxuyan zaman,
Özünü görməmiş ona sar demə (78).

Aşıq Mədət hər sözü yerində işlətməyi, sözdən çələng hörməyi bacaran bir sənətkardır. Qoynunda yaşadığı dağlarını, el-obasını dərin məhəbbətlə sevən aşıq sənətini hər zaman özünə şərəfli bir peşə sanmışdır. «Eldir» rədifli ustadnaməsində bu barədə deyir:

Nəzər salsan, Mədət, ərşə, asmana,
Səyyah tək ayağın çatar hər yana,
Axıb göz yaşların dönsə ümmana,
Yaşına göz yaşı qatası eldir (78).

Ustad sənətkar el-obasına, bütövlükdə vətəninə bağlıdır. Yuxarıda qeyd etdiyimiz kimi, Aşıq Mədət yaradıcılığının mövzu dairəsi çox genişdir. O, ustad aşıq kimi öz əsərlərində beynəlxalq aləmdə baş verən hadisələrə münasibətini bildirir. İndi Azərbaycan xalqının ümumi dərdi olan Qarabağ problemi onu da düşündürür və yaradıcılığında bu mövzuya xüsusi səhifə ayırır. Ustad sənətkarın aşıq şeirinin müxtəlif qoşma, gəraylı, müxəmməs, bağlama, vücudnamə şəkillərində yaratdığı dəyərli əsərlərində bu ümumi dərdin xüsusi yeri var. Siyasi vətənpərvərlik məzmunu kəsb edən «Ağlaram» gəraylısına diqqət edək:

Sarı cəllad, bax cahana,
Sən gülürsən, mən ağlaram.
Qan tökülən bir ümmana,
Sən gülürsən, mən ağlaram (78).

Böyük sarsıntı və qəzəblə yazılmış bu gəraylıda Azərbaycan xalqının son 22 ildə yaşadığı faciələr, keçirdiyi ağrılı-acılı günlər əks olunur. Aşıq elinə naxələf çıxan, yüzlərlə günahsız insanları qanına qəltan edən sovet və daşnak casuslarına «sarı cəllad» deyərək nifrətini bildirir. Onu da qeyd edək ki, Aşıq Mədət bu şeiri hələ Sovet hakimiyyəti mövcud olduğu bir dövrdə qələmə almışdır. O zaman bu gəraylını yazmaq özü böyük cəsarət və hünər tələb edirdi. On iki bənddən ibarət olan bu gəraylıda demək olar ki, haqsız tökülən qanlara, matəm saxlayan bir xalqın – odlar diyarının harayı əks olunur. Bu baxımdan prof. M.Həkimov haqlı olaraq aşığı konkret bir dövrün, bir zamanın oğlu hesab etmişdir. Eyni zamanda o qeyd etmişdir ki, «Aşıq ədəbiyyatı vətənpərvər, beynəlmiləl və xəlqidir» (49, 242).

Həm 1990-cı ilin 20 yanvar faciəsinə, həm də 1992-ci il 26 fevral Xocalı faciəsinə ürəkdən ağlayan ustad sənətkar, sanki, bu gəraylısında sınıq könülləri, qohumlarını, əzizlərini itirmiş insanların, bütünlükdə qara bağlayan xalqın vəziyyətini, bədbin əhval-ruhiyyəsini əks etdirməyə çalışmışdır.

Azərbaycanın ümumi problemi olan Qarabağ düyünü Aşıq Mədətin yaradıcılığına hər zaman mübarizlik, düşmənə nifrət əhval-ruhiyyəsi verməklə bərabər, həm də bir bədbinlik gətirir. Ustad sənətkar doğru söz danışmağa böyük üstünlük verir. Bütün günahsız axıdılan qanların səbəbkarlarını qorxmadan, böyük cəsarətlə «sapı özümüzdən olan baltalar» adlandırır. «Baltalar» qoşmasında yuxarıdakı gəraylısına nisbətən, daha mübariz ruhla faciənin səbəbkarlarına nifrət yağdırır. Bu şeirdə, sanki, acı sözlər yağışa dönüb satqınların başına yağır. Onları söz yağışına tutan sənətkar belə deyir:

Unu ələyəndə çıxan kəpəkdi,
Eybəcər ləkədən qaçan ipəkdi,
Leş dağıdan ac-yalavac köpəkdi,
Sapı özümüzdən olan baltalar.

Sonrakı bəndlərdə aşıq məcazlardan, sözün poetik çalarlarından istifadə edərək gözəl bir bənzətmə yaradır:

Qurdlara fürsətdi döyüş davada,
Gözü ov axtarır, yerdə havada,
Günahsız quşları qırdı yuvada,
Sapı özümüzdən olan baltalar (78).

Yaşadığımız mühitdə ictimai-siyasi motivlər gücləndikcə aşıqlar quru sözçülükdən, nəsihətçilikdən uzaqlaşmağa çalışır, zəmanələrinin konkret tarixi hadisələrini əks etdirən realist ruhlu əsərlər yazmağa maraq göstərirlər (46, 50).

Bilmədilər, dünya fanidir, fani,
Geydilər əyninə zərli çuxanı,
Dedik, eşitmədi xayi-vahını,
Sapı özümüzdən olan baltalar (78).

Nəhayət, sənətkar düşmən tapdağında qalan torpaqlara, məhv olan maddi və mənəvi abidələrə, insanların min bir zəhmətlə tikib, qurduğu evlərinin düşmən tərəfindən yağmalanmasına təəssüflənir:

Aşıq Mədət ürəyini boşaltdı,
Dözmədi qələmə, sözə əl atdı.
El tikib quranı düşmənə satdı,
Sapı özümüzdən olan baltalar (78).

Vətənə olan böyük və hədsiz məhəbbət, xainlərə, yalana, itaətkarlığa qarşı hədsiz nifrət Aşıq Mədət yaradıcılığının, demək olar ki, əsasını təşkil edir. Vətən dərdi, torpaq həsrəti, el sənətkarını daim düşündürür. Onun itirilmiş torpaqlara müraciətlə yazdığı gəraylısında bu barədə belə deyilir:

Matəm içindədir dağlar,
Kimlərə gör qalıb bağlar,
Kəpəz ağlar, Murov ağlar,
Şuşa, Laçın, Kəlbəcərim (78).

Yeddi bənddən ibarət olan bu gəraylıda əvvəldən axıradək zəmanəsinin dönüklüyündən, o zamanki hakimlərin diqqətsizliyindən şikayət şerin əsas ideyasını təşkil edir. Onun yaradıcılığında Vətən yolunda, torpaq uğrunda canından keçmiş igid, mərd oğullara da yazdığı qoşma, divanilər, müxəmməslər başlıca rol

oynayır. O, matəm içində olan başı dumanlı dağları, vətəndən ayrı düşən elləri görüb xəcalət çəkir və qoşmalarının birində «Gözəl Qarabağım təkəm neyləyim» deyir:

Qollarımı qəm belimə bağlayır,
Tale sinəm üstə ocaq qalayır,
Bağça-bağlarımda bayquş ulayır,
Gözəl Qarabağım, təkəm neynəyim (78).

«Haqq aşığının sözündə yalan olmaz» – deyən atalarımız, təbii ki, yanılmamışlar. Nəhayət, ustad sənətkar ümidini Allahdan üzmür. Böyük və şanlı, xoşbəxt bir günün gələcəyinə inanır. Prof. M.Həkimov Aşıq sənətinin poetikası kitabında qeyd etmişdir ki, «Gələcəyə ümid və onun müxtəlif istək və arzular şəklindəki təzahürü həmişə aşıq yaradıcılığının əsasını təşkil etmişdir» (49, 242-243). Bu baxımdan Aşıq Mədətin «Var» rədifli divanisinə diqqət edək. O, burada igid, mərd oğlulların qəhrəmanlığını alqışlayır.

Az deyildi Koroğlular bu gün meydana çıxan,
Xainləri pəncələyib, boğazlarından sıxan,
Qələmini süngü kimi düşmən gözünə soxan,
Mədət deyər, ayıq sayıq milyon vətəndaşı var (78).

Beləliklə, sənətkar hər açılan sabaha ümidlə, inamla baxır. Xalqını bu yolda inamlı, cəsarətli olmağa səsləyir. Sənətkarın ən böyük, ən ülvi, ən kamil insanlıq fəlsəfəsi də məhz bundadır.

Aşıq Mədətin şeirlərinin bir qismini də təbiət mövzusu təşkil edir. O, təbiət mövzusunda yazdığı şeirlərində yalnız yaşadığı rəngarəng, qızılgüllər diyarını deyil, bütün Azərbaycan diyarının təbiətini əks etdirməyə çalışmışdır. «Oğluyam» adlı qoşmasında özünü dağlar oğlu adlandırır, ucalıq rəmzi olan dağı özünə arxa bilir.

Üzü qibləgaha, meyli Allaha,
Sirri, sözü olan dağlar oğluyam.
Gözəl yaylaqları, billur çeşməli,
Çəmən, çölü olan dağlar oğluyam.

Dağlardı Mədətin arxa, dayağı,
Güllər diyarının bağçası, bağı.
Bürünüb atlasa gəlin sayağı,
Şivə-nazı olan dağlar oğluyam (78).

Elə bir sənətkar yoxdur ki, o, dağlara şeir qoşmamış olsun. Aşıq Hüseyn Bozalqanlı, Aşıq Ələsgər və başqaları öz repertuarlarında dağları böyük məhəbbətlə tərənnüm etmişlər. Aşıq Mədət yaradıcılığında dağlara yazılmış 15 şeir məlumdur. Gah vəfasız sevgilisindən şikayətçi, gah da ümumi dərdlərini onunla bölməyə çalışan dağlardan ilham alan bir aşıq kimi, bir vətəndaş kimi çıxış edir. Gərəylılarının birində Aşıq Mədət belə deyir:

Yaxşı gündə, yaman gündə,
Yaxşı şeydi, elim, dağlar.
Nələr yazıb, nələr qoyub,
Xəlqimizə əlim, dağlar (78).

Digər tərəfdən sənətkar bu qəbil şeirlərində dərdini, nisgilini dağlarla bölür. Dağlar bütün el aşıqlarının dar günündə pənahı, ümid yeri olmuşdur. Bu mənada sənətkar dağları ürəyinin ən yaxın sirdaşı, dərdlərinin çarəsi hesab edir:

İxtiyarım getdi əldən,
Susdu sazım, tarım, dağlar.
Sil yaşımı, aç gözümü,
Sən ol vəfadarım, dağlar (78).

Ömür-gün yoldaşını vaxtsız itirən sənətkar hər dərdini, hər istəyini dağlara deyir, ondan mədət istəyir. Dağlardan bir simvol kimi istifadə edən Aşıq Mədət onu böyük savaşların əsil şahidi olduğunu bildirir.

Fələk özü qoyub təməl daşını,
Ancaq odur bilən sənin yaşını.
Keçib səndən karvan, şahlar qoşunu,
İzi qalmayıbdır sizdə, ay dağlar (78).

Aşıq Mədət həmvətənlərini Allahın Azərbaycan torpağına bəxş etdiyi misilsiz gözəllikləri qorumağa çağırır. Bu yaşıllıqda, bu rəngarənglikdə gözü olan yağıların gözünə daim ox olmağa səsləyir. «Vardır» adlı qoşması məhz bu xüsusiyyəti əks etdirir. Bu qoşmasında sənətkarın atalar sözlərindən bəhrələnməsi, sözə sığal verə bilməsi bir şair kimi Aşıq Mədətin söz deyə bilmək qabiliyyətindən soraq verir:

İblis əynindədir Qafqazın donu,
Belə qalmaz, xalqım geyər o donu,
Xain nadanların yetişib sonu,
Yaman günün ömrü deyiblər, azdır (78).

Qeyd etdiyimiz kimi, Aşıq Mədət yaradıcılığında təbiət mövzusu önəmli yer tutur. O, təbiətə gözəllik verən hər çiçəyini, hər daşını sevir, onlara dərindən hörmət bəsləyir. «Öz sinəmdədir», «Bənövşə», «Dağlar», «Gül», «Varxiyanım» adlı qoşmaları və «Zaqatala» adlı müxəmməslərində bütünlükdə Zaqatala təbiətinin gözəllikləri, yaşıllıqları əks olunur. Ustadın təbiətin əsrarəngiz gözəlliklərinə həsr etdiyi şeirlərində həm rayonun ayrı-ayrı kəndlərinin təsviri, adlar, həm də təbiət bir simvol kimi istifadə olunur.

Belə ki, «Gəz, özün danış» qoşmasında bütünlükdə Zaqatalanın 30-a yaxın kəndinin adı çəkilməklə o kəndlərə məxsus xüsusiyyətlər də verilir. Təbiət təsvirlərini yerli-yerində işlətmiş sənətkarın bu şerində toponimlər və bədii təsvir vasitələri xüsusi yer tutur:

Arif olan möcüzədir, Qafqazım,
Aranı, yaylağı gəz, özün danış.
Gövhər məkanıdır, mərcandır gözü,
Sərrafdan ləl götür, gəz, özün danış.

Külçə bişirməkdə Car kəndini gör,
Şabalıd ağacı olub inci,dür.
Eşqin səməndini burax, yorğa sür,
Nəzər sal hər yana, gəz, özün danış (78).

On altı bəndlik bu qoşmada Aşıq Mədət rayona məxsus bütün ənənəvi xüsusiyyətləri göstərməklə bərabər, hər kəndin camaatının özünəməxsus ənənəvi-psixoloji cəhətlərini bədii boyalarla açıqlamağa çalışır. Bu şeirdə həm də zəngin və müalicəvi əhəmiyyəti olan bir sıra bulaqların adını çəkir, yerini işarə edir. Bu da coğrafiyaşünaslar üçün mənbə kimi istifadə etməyə imkan verir.

«Dağlarda» rədifli qoşmasında Aşıq Mədət vətənin təbiətinə gözəllik verən bir sıra quşları, heyvanları qəddarcasına qıran ovçulara müraciət edir. Onlara bu peşədən vaxtında əl çəkməyi

məsləhət görür. Bu cəhətdən o, xalq ruhunda yazan Səməd Vurğun ənənəsinə yaxınlaşmış olur:

Ovçu, insafa gəl, əl çək silahdan,
İncilər var, qaşı qara dağlarda.
Canlını bənzətmə çürük bostana,
Soxulub eləmə ura dağlarda (78).

Bu nümunədə aşıq rayon camaatının məşğuliyyət tərzindən söz açmış, dialektoloji sözlərdən də istifadə etmişdir. Sonuncu misradakı ura – məhsul yığımından sonra yerdə qalan məhsulun camaat tərəfindən elliklə yığılaraq mənimsənilməsi nəzərdə tutulur. Sonrakı bənddə aşıq qəzəbini belə bildirir:

Çox da fikrini vermə dərinə,
Ağırlıq düşəcək sonra sərinə,
Cüyür, ceyran maralların yerinə,
Gələsən, üz-üzə sara dağlarda (78).

«Öz sinəmdədir», «Durnalarım oy», «Maral» adlı qoşmalarında ovçuları məzəmmət edən Aşıq Mədət həm də zəngin məcazlardan məharətlə istifadə etmişdir:

Ovçu, insaf eylə, vurma ceyranı,
Dağlar ağırlıqda söz sinəmdədir.
O ağrı çəkdikcə qovruluram mən,
Elə bil, yarası öz sinəmdədir (78).

Aşıq Mədət ovçuluq peşəsini tutan kəsləri bu yoldan əl çəkmələrini məsləhət görmüş və bunu günah hesab etmişdir.

Aşıq poeziyasına Dirili Qurbani tərəfindən gətirilən bənövşə mövzusu sonralar bir sıra aşıqların yaradıcılığında geniş yayılmışdır. Əlbəttə, Qurbani kimi sənətkardan sonra bənövşə haqqında təzə nəsə demək böyük hünər istəyir. Aşıq Mədətin «Bənövşə»-sini nəzərdən keçirsək, görərik ki, o məhz belə hünər sahibidir:

Deyirəm hikmətdən mən bala-bala,
Cəllad mən deməsin can ala-ala.
Kamal dəryasında əl çala-çala,
Çoxları vay deyib atdı bənövşə (78).

Nümunədən göründüyü kimi, burada bənövşəyə həsr olunmuş misralar heç bir sənətkarı xatırlatmır. Bu mənada bu şeir

Qurbani ilə başlanan bənövşələr tarixində öz orijinallığı, bədii təsvir və ifadə vasitələrinin yeni düzümü ilə seçilir.

Aşıq Mədət yaradıcılığında məhəbbət mövzusu öz müxtəlifliyi ilə zəngindir. O, ustad sənətkarların yaradıcılığına böyük hörmət bəsləmiş, öyrənmiş, yaradıcılıq axtarışlarından, dövrünün sənət yeniliklərini öyrənməkdən heç vaxt usanmamışdır. «Tapıldı» adlı qoşmasını varxiyanlı Aşıq Məhəmmədə həsr edilmişdir:

Qəbrin nurla dolsun, Aşıq Məhəmməd,
Bu diyarı axtaranlar tapıldı.
Gözəl sənətkardan ellərə qalan,
Yadigarı axtaranlar tapıldı (78).

Bu qoşmanın yazılmasının müəyyən bir tarixi var. 2000-ci il iyunun 3-də Zaqatala rayonunun Mədəniyyət sarayında Aşıq Məhəmmədin yubileyi keçirilir. Bu yubileyin keçirilməsinə Zaqatalalı foklorşünas Q.Şabanov, xalq ədəbiyyatını dərindən sevən Haşım müəllim böyük səy göstərmişlər. Onların el sənətkarlarına olan hörməti Aşıq Mədətin bu şeiri yazmasına səbəb olmuşdur. «Gül, Varxiyanım» qoşmasında yurdunun gözəlliklərini açıqlamaqla yurduna daim bərəkətli, abad olmasını arzulayan sənətkar yenə də varxiyanlı ulu ustadını xatırlayır:

Rizvan bağı kimi oldun laləzar,
Məhəmməd yurduna girməz bayqu-sar.
Aşıq Mədət kimi oğulların var,
Bizimlə fəxr elə, gül, Varxiyanım (78).

Aşıq Mədət Azərbaycan xalqının milli adət-ənənələrini özündə qoruyub saxlayan, tarixi kökümüzdən xəbər verən «Kitabi-Dədə Qorqud»a böyük məhəbbətlə yanaşır. Tarixi Dədə Qorquddan gələn qopuz-saz ənənəsini hər zaman yaşatmağı, qorumağı önəmli bilir. Mədət şeirlərin birində belə deyir:

Mədətdir sinəsi çeşmə tək dolan,
Xoşbəxtdir Vətəni laləzar olan.
Dədə Qorquddan yadigar qalan,
Xoş avazlı telli saz bizimkidir (78).

Bu ənənənin yalnız Azərbaycan xalqına mənsub olduğunu bildirən Aşıq Mədət xalqımızın qəhrəman oğlu kimi yaddaşlarda

ədəbi yaşayan, xalqın əmin-amanlığı, xoş güzəranı uğrunda vuruşan Koroğluya, Qaçaq Nəbiyə olan məhəbbət və hörmətini də əsirgəməmişdir. Yeri gələrsə, yağı düşmən qarşısına çıxmağa layiq «Nəbi kimi oğlu çoxdur xalqımın» – deyir:

Nəbi olmuş idi dillər əzbəri,
Həcər idi onun yari-dilbəri.
Yeri gəlsə, qırar yağı, ləşkəri,
Nəbi kimi oğlu çoxdur xalqımın (78).

Bəli, bu insanlar xalqı üçün ömür yolunda silinməz iz qoyub getmişlər. O izlər o qədər qiymətli, mənalı olmuşdur ki, bu gün də daş kitabələr kimi nəsillərin gözü önündə güzgü kimi öz əksini göstərir. Aşıq Mədət elini, vətənini, yaşadığı gözəl Zaqatalanı böyük məhəbbətlə sevən, ona ürəkdən bağlanan bir sənətkardır. «Zaqataladır» adlı qoşmasında diyarını nəğməkar bülbülün Vətəni adlandırır:

Qonaqpərvərlikdə gəzsən hər yanı,
Gülüzar diyarı Zaqatalamdır.
Nəğməkar bülbülün ana vətəni,
Eşqi, bəxtiyarı Zaqatalamdır (78).

Nəhayət, insan məhəbbəti, insan gözəlliyi, insanın amalı və mənəvi qüdrəti xalq aşığının ilham mənbəyi olmuş, onu riqqətə gətirmişdir. Buna görə də məhəbbət və gözəllik aşığın həmişə müraciət etdiyi mövzu olmuşdur. Prof. Q.Namazovun görə, «aşıq sənəti məhəbbət duyğularından yaranmışdır» (82, 100).

Aşıq Mədət yaradıcılığının mövzusu yalnız aşiqanə hisslərin bədii təsviri və tərənnümü ilə məhdudlaşmayıb. İnsan qəlbinin nəhayətsiz istəkləri, ülvü duyğuları, hiss və həyəcanlarına da önəmli yer verilir. Həyat yoldaşının vaxtsız ölümü sənətkarı kədərləndirir. Onu bütün yaradıcılığı boyu böyük sevgi və hörmətlə xatırlayır. Aşıq «Amandı» rədifli qoşmasında əvvəldən axıradək gah peşimançılıq hissi keçirən, gah tənhalıqdan şikayət edən aşığın yalvarışları tam səmimiliyi ilə verilir:

Canımızı nahaq saldıq odlara,
Tay ola bilmədik qəlbi şadlara,
Qıyıb aşiqini vermə yadlara,
Məni tənha qoyub getmə amandı (78).

Şeirdən sənətkarlıq baxımından Mədətin incə duyğulara malik şair qabiliyyətli söz sahibi olması açıq görünür. Ustadın yazdığı «Hardadır», «Bülbül» gəraylıları tənhalıqdan, ona qarşı olan haqsızlıqdan doğan kədərin göstəriciləri kimi üzə çıxır. «Bülbül» gəraylısında o təbiəti sevgi dolu nəğmələri ilə bəzəyən, daim istəyinə çatmağa can atan bülbülə müraciət edərək, özünün qəmli vaxtında susmasını, oxuyub aşiqi daha da kədərləndirməməsini istəyir:

Dünya Süleyman mülküdür,
Yatan Mədətin bəxtidir,
Şairin yaslı vaxtıdır,
Amandır, oxuma, bülbül (78).

Onun istər «Bülbül», istərsə də «Səni» qoşmasından müdrik bir kədər, bütün ömrü boyu onunla yoldaş olmuş dərd keçir:

Sərvindən qərq olub məzara endim,
Dünyada Leyli də, Əsli də səndin,
Divanə o Məcnun, Kərəm də məndim,
Yadımdan çıxara bilmirəm səni (78).

Şeirdə Azərbaycan xalqının ən gözəl ənənələri, dastanlarımızdan möhtəşəm obrazlar görünməkdədir. Şair başqa bir şeirində kədərinə ümumbəşəri boya verməyi bacarır və bununla da şəxsi insan kədərini həzin fəlsəfi kədərə çevirə bilir. Bu şeirdən qalxan məna dinləyiciləri insanlığın, insanların qədrini bilməyə, çətin günündə bir-birinə dayaq olmağa çağırır:

Hamı müşkül, bəndə ağlar,
Qısılıb kimə bel bağlar,
Harda görsən uca dağlar,
Başı dumanlı, qardadır (78).

Aydın görünür ki, şair çox həssas adam olmuş, ağrını ötürmək qüdrətində olmamışdır. Ona görə də onun poeziyasını qəmkədər poeziyası adlandırmaq daha düzgün olar. Bədii məcazlardan məharətlə istifadə olunan bu şeirin hər bəndinin son misralarında həmqafiyə sözlər yaradan sənətkar xüsüsi hünər göstərmişdir. «Sardadır», «Qardadır», «Vardadır», «İxtiyardadır», «Dardadır»,

«Yardadır», «İntizardadır» və s. sözlərdən yerli-yerində istifadə edə bilməsi, maraqlı qafiyə sistemi yaratmışdır.

Aşıq Mədət yaradıcılığında məhəbbət mövzusunda yazılmış gözəlləmələr xüsusi yer tutur. Aşıq Dalğın və Aşıq Mədət digər müasirlərindən fərqli olaraq, xəyali məhəbbətin tərənnümçüsü kimi çıxış edir. Onun şeirlərinin sonunda müəyyən nikbin əhvali-ruhiyyə, gələcəyə olan böyük inam, hədsiz ümid duyulur. Ayrı-ayrı adlar olsa da, o bütün gözəlləmələrində sevgilisini xatırlayır, ona sadiq qalacağını qeyd edir. «Dilbər», «Gözəl», «Etibarsız qız», «Leyla» və başqa şerləri xüsusi diqqətə layiqdir. «Dilbər» şeirində ağlamaqdan gözləri tutulan aşıq onu bu günə salana, vəfasız olanlara qarğış edir. Haqq aşığının qarğışı tez həyata keçər – deyər atalarımız.

Vəfasız olanın üzü gülməsin,
İtirsin yurdunu yerin bilməsin.
Arzum budur, bayqu yaxın gəlməsin,
Bülbül olub gülə qonana, Dilbər (78).

Sənətkar gözəllərin tərənnümündə aşıq şerinin ənənələrindən,bədii təsvir vasitələrindən yerində istifadə edir. «Leyla» adlı gözəlləməsində ilk bəndlərdən tanışlıq xatirələrini xatırladan Aşıq Mədət sonarkı bəndlərdə isə onu təbiətə yaraşıq verən qızılgüllə müqayisə edir.

Xəstənin məlhəmi qüzey qarıdır,
Sirli dağlar yarsızların yarıdır.
Təbiətin güllü-gülüzarıdır,
Təravətli bazar-yazındı Leyla (78).

Şeirin mətnindən bir musiqi də duyulmaqdadır. Onu da qeyd edim ki, Aşıq Mədət həm də peşəkar musiqiçidir. Bu baxımdan bu şeirdə də sözlərin axıcılığına, səs ahənginə dərindən fikir vermişdir.

Mədət, ləbi-bala gəldi,
Bülbül olub gülə gəldi,
Yarın özü dilə gəldi,
Aldı məni sinəsinə (78).

Aşıq Mədət yaradıcılığında qocalığından şikayət məzmunu kəsb edən şeirləri də çoxdur. Bu şeirlərində ustad ağrılı-acılı ömür

keçirmiş, böyük həyat təcrübəsinə malik olan müdrik bir insana bənzəyir. Eyni zamanda arxaya dönüb ötən günlərə nəzər salması onu qiymətləndirməsi, bütün müsbət və mənfi tərəfləri ilə həyatın ibrətləri, neçə-neçə misralarda və bəndlərdə əks olunmuşdur.

Ustad sənətkarın poeziyasında dini-ürfani məzmun daşıyan şeirlərin xüsusi dəyəri var. Bu tip divanilərində, deyişmələrində sənətkarın istedadı, xəlvəti elmlərə bələd olması, nəhayət, haqqa bağlı olması ayrı-ayrı simvolik obrazların dilində və nəzmə çəkdiyi aydın düşüncələrində əks olunur. Ustad bu tip şeirlərinin çoxunda özünü haqqın carçısı, qulu sanır. Hər vəchlə Allaha qovuşmaq istəyən sənətkar içindəki dərdini müqəddəslərlə, Allah ilə paylaşmadığı gününü ömrünün hesaba salınmayan günlərindən zənn edir. O, haqqa qovuşmağın əsl yolunu təsəvvüfün dörd mərhələsindən keçməkdə görür. Prof. Ali Rza təriqəti bir yol adlandırır və qeyd etmişdir ki, ilk başlanğıcda şəriət bilgilərini yetərincə öyrənməyən şəxs, təriqətin yolunda çarpışaraq, həqiqətə gedən yolu tapmayacaqdır. Sonra müəllif bu dörd mərhələni keçib Allaha qovuşmaq üçün, həmin şəxsin dünyanın bütün gözəlliklərindən məhrum olub, öz nəfsinə sahib olmağını əsaslı şərtlərdən biri hesab etmişdir (125, 228). Aşıq Mədət də məhz belə sənətkarlarımızdan olmuşdur. O, şeirlərinin birində belə deyir:

Pay aldım mən mövladan,
Düz yolumla gedəcəyəm həyatdan.
Məhşər günü keçmək üçün siratdan,
Öz-özümə körpü qazanmışam mən (78).

Haqq yaratdıqlarını sevər. Doğrunu, həqiqəti qoyub qadağalara, halalı qoyub harama əl atanları da sevər, amma hər kəsi əməlinə görə sınağa çəkib dəyər verər. Aşıq Mədət Allah qarşısında üzü ağ, əməli doğrudur. Prof. M.Qasımlı Aşıq sənətində informativ yük və repertuar problemi, məqaləsində qeyd etmişdir ki, hər bir ustad aşıq həm ümumən islamı, həm də sufi-dərviş mənəvi dünyası ilə bağlı bilgiləri, dini-ürfani rəmz və işarələri öz repertuarında yerləşdirməyi bacarmalıdır (67, 22-24). Aşıq Mədət də məhz belə sənətkarlarımızdandır. O, cismi, ruhu ilə tam haqqa bağlıdır:

Haqqdan yaranmışam, haqqın quluyam.
Eşqinin nuruna boyanmışam mən.
Şirin, pak yuxumdan busə almağa,
Yarımın səsinə oyanmışam mən (78).

Şair tez-tez qəribə xəyallara dalır. Sevgilisinin haqq dünyasına qovuşduğu möcüzəli bir dünyaya xəyalən qonaq gedir. O, möcüzəli aləmdə həqiqətə gedən yolu keçib Allaha qovuşmaq istəyir. Aşıq Mədət insanlığa dəyər verməyi bacarır. İnsana dəyər verən haqqa tez qovuşur. İnsanın özünü tanıması, insanlığın fərqində olması onu Allaha daha da yaxın edir. Prof. Hasan Kamil Yılmaza görə, Allaha gedən yol insanın içində doğur, könlündə kamilləşir və qəlbində haqq ilə qovuşur (132, 12). «Nə var» rədifli qoşması bu baxımdan diqqətə layiqdir:

Gələndə dünyaya haqdan pay alsam,
Eşqin badəsindən içməyə nə var,
Ərşin-kürşün hər yerini dolansam,
Dəryada gövhəri seçməyə nə var (78).

Və yaxud:

Qəlbində var isə Rəsulun dini,
O kəsə genişdir körpünün eni.
Pak olsan ölüncə qiyamət günü,
Sirat körpüsündən keçməyə nə var (78).

Haqqa qovuşmaq üçün haqqın dörd mərhələsindən keçən Aşıq Mədət bu yolda çəkdiyi əzabları özünə ən böyük şərəf bilir. Prof. H.İsmayılova görə bu mərhələni keçən hər aşıq ucalar-ucası qarşısında zərrəyə döndüyünü və ucalığın bir zərrəsi olduğunu dərk edir və bütün sirlərin onun qarşısında pünhanlığını itirdiyini bilir (54, 46).

Aşıq Mədətə aşkar olmayan hadisə, bəlli olmayan sirr yoxdur. Bu xüsusiyyətləri biz aşığın bir çox deyişmələrində də izləyirik. Burada ustadın sənətkarlıq qüdrəti, əqli və kamalı tam şəkildə aşkarlanır.

Aşıq Mədətin qıfılbəndlərinin bir çoxu dini məzmun kəsb edir.

**Aşıq Mədət**

Nədir baxmaz, heç minnətə,
Kim meyl verdi sünnətə,
Kimdi üç kəlmə söhbətə,
Gedib hara vasil oldu?

**Aşıq Səaddəddin**

Baxmaz əcəl heç minnətə,
Rəsulallah hökm verdi sünnətə.
Musa Allahla söhbətə,
Tur dağına vasil oldu (78).

Bu nümunələrdən məlum olur ki, hər iki aşıq dindən, övliyalardan, Qurandan və ürfandan, eyni zamanda xalq arasında dolaşan əsatir və əfsanələrdən xəbərdardır.

Aşıq Mədət poeziyası bir çox özünəməxsus xüsusiyyətləri ilə də tanınır. Bu xüsusiyyətləri biz daha çox onun simvolik obrazlarla olan deyişmələrində, avtobioqrafik səciyyə daşıyan dastan-rəvayətlərində izləyirik. «Aşıq Mədət və Tale», «Fəna dünya və Aşıq Mədət», «Saz və Şivğa» və s. deyişmələri yuxarıda deyilənlərə nümunə ola bilər. Aşıq Mədət deyişmələrini iki qismə ayırmaq olar:

1. Xəyali və simvolik obrazlarla olan deyişmələri;
2. Ayrı-ayrı aşıqlarla olan deyişmələri;

Aşıq Mədət və Taleyin deyişməsi çox ustalıqla qələmə alınmış bir əsərdir. Burada şair insanı simvolik obrazla canlı bir şəxs kimi qarşılaşdırır. Onun deyişdiyi bu obraz tam xəyali bir obrazdır. Amma sənətkar obraza elə ifadə verir ki, sanki canlı bir insanla deyişir. Bir nümunəyə diqqət edək:

**Tale**

Tale bilir tədbirini,
Bacar saxla səbirini,
Öz əliylə qəbirini,
Özü qazandan incimə.

**Aşıq Mədət**

Mədətdir halalı yeyən,
Ziyan çəkər mənə deyən,
Kafirdir səndən inciyən,
Tale, səndən incimərəm (78).

Bu tip deyişmələri biz ustadın avtobioqrafik dastanı hesab olunan «Aşıq Mədət və Talenin dastanı»nda əvvəldən sonadək izləyə bilərik. Doğrudur, biz klassik ənənədə, xüsusən, dastanda və ayrı-ayrı aşıqların yaradıcılığında çayla, dağla, fələklə olan deyişmələrə təsadüf edirik. Amma ayrılıqda qarşı tərəfin tam xəyali obrazla canlı insan kimi deyişməsini bütün dastan boyu izləyə bilmirik. Bu nümunədə yalnız müəyyən məqamda könülə, çaya suya və ayrı-ayrı quşlara, heyvanlara müraciət etməklə kifayətlənir. Aşıq Mədət yaradıcılığında dastan boyu təsadüf etdiyimiz «Fəna dünya», «Tale», «Şivğa» və s. xəyali obrazlara, demək olar ki, digər aşıqların yaradıcılığında rast gəlmirik. Bu da çox təbii ki, onun aşıq sənətinə gətirdiyi yeniliklə əlaqədardır. Aşıq Mədət yaradıcılığında deyişmə və qıfılbənd kimi janrlara da xüsusi yer verilmişdir. Çağdaş dövrün bir sıra aşıqları ilə deyişən Aşıq Mədət həm də el şənliklərini, toy məclislərini aparmışdır. Aşıq Səadəddin, şair Bəhmənlə, Aşıq Qəmbərqulu, şair Vəli ilə, şair Zöhrə ilə olan deyişmələri daha çox maraq doğurur.

**Aşıq Mədət**

Gileylənmə mənə Aşıq Səadəddin,
Qəm yükünü alıb şələ bağlama.
Sözümüz inci yox, qəmdi, kədərdi,
Canıma od-alov vurub dağlama.

**Aşıq Səadəddin**

Dərdi yarı bölək ay Aşıq Mədət,
Qəm yükünü alıb şələ bağlama.
Zamanın gərdişi bizdən betərdir,
Sellərə-çaylara dönüb çağlama (78).

Əvvəldən axıradək öz həyatlarından bir-birinə şikayət edən sənətkarlar sonrakı mərhələdə qəmi-kədəri unudub, hərbə-zorbaya keçirlər.

**Aşıq Səadəddin**

Lovğalanıb çıxma, aşıq qabağa,
Keçərəm üstündən yol əvəzindən,
Çənələnmə, ustad ilə hərifsən,
Yataram üstündə hal əvəzində.

**Aşıq Mədət**

Boş sözləri gətirmə heç dilinə,
Səndən bülbül olmaz bağın gülünə,
Mədət atar səni qatır belinə,
Tozu çırpılmamış çul əvəzində (78).

Sonrakı mərhələdə bağlamadan istifadə edən aşıqların bir-birini bağlamaq cəhdləri də xüsusi maraq doğurur:

**Aşıq Səadəddin**

Kamil aşıq sualıma cavab ver,
Dağlar başı niyə duman, tüstüdür?
Nizama kim salıb niyə ay-günü,
Ay niyə soyuqdur, günəş istidir?

**Aşıq Mədət**

Yaranmışdır, dağlar sudan, tufandan,
Onun üçün başı duman tüstüdür.
Ay hər şeyə soyuq baxır, soyuqdur,
Günəş məhəbbətə görə istidir (78).

Klassik ənənədən gələn deyişmə janrının hər üç mərhələsinə layiqincə əməl edən Aşıq Mədətin həm deyişmələri, həm də qıfıllamaları, mövzusunun müasirliyi və dil-ləhcə etibarilə fərqlənir.

Aşıq Mədətin yaradıcılığında əsaslı yer tutan məktublarıdır. Onun Zöhrə ilə məktublaşması «Aşıq Mədətlə Talenin dastanı»nda verilir. Burada əsas dastan qəhrəmanlarndan, Mədətlə Zöhrənin qarşılaşma səhnəsindən, dostluq münasibətlərindən söz açılır:

Axtarıram çeşmələrin gözünü,
Əksini göstərən ayna üzünü,
Aşıq Mədət qısa deyib sözünü,
Bacım Zöhrə, axırıncı namədir (78).

Əldə etdiyimiz materiallara əsasən, onun çoxsaylı, qoşma, gəraylılarından başqa 15 qıfılbəndi, 20 deyişməsi, 30 divanisi, 100-dən çox bayatısı, 15 təcnisi, 40 müxəmməsi, 3 dastanı mövcuddur. «Salamatdı», «Aldı», «Zöhrə haray», «Gedər-gəlməz», «Vədəsində», «Birdi», «Geyinibdi» adlı gəraylıları, «Bu dünya», «Məni», «Dözə bilmirəm» rədifli divaniləri, «Dilmcan», «Zaqatala», «Mingəçevir» kimi müxəmməsləri vardır. Aşığın böyük məharətlə işləmiş «Altı hərf» qoşması hərfləri yerli-yerində düzgün verməsi bacarığı cəhətdən də, böyük dəyərə malikdir:

Sənin ismin mən aşiqi öldürür,
Bu sirr qalsın aramızda altı hərf.
Günəş ya mənimdir, ya da ki, sənin,
Bu sirr qalsın aramızda altı hərf (78).

Aşıq Mədədin tutduğu haqq yolu, aşıq sənətinə gətirdiyi bir sıra xüsüsiyyətlər yenilik kimi qəbul oluna bilər. Fikrimizcə, onun yaradıcılıq yolu özündən sonra yetişən gənc sənətçilər üçün gərəkli bir nümunə ola bilər.

Zaqatala aşıq mühitində hər zaman öz dəsti-xətti ilə sayılıb-seçilən sənətkarlar yetişməkdədir. Bunlardan biri də varxiyanlı Aşıq Məhəmmədin nəvəsi **Ramazanov Səadəddin** Əbdüləziz oğludur. O, 1933-cü il yanvarın 21-də Zaqatala rayonunun Bəhmədli kəndində anadan olmuşdur. Orta təhsillidir. Uşaq yaşlarından saza böyük maraq və həvəs göstərmişdir. Bu maraqla sənətkar hələ 10-13 yaşlarında olarkən sazı öyrənmiş, 16-18 yaşlarında isə artıq el arasında sərbəst məclislər aparmağa başlamışdır. Aşıq Səadəddin Aşıq Məhəmmədin sənət şəcərəsini yaşadan yeganə davamçısı olmuşdur. O, 2006-cı ilin avqustunda Bəhmədli kəndində vəfat etmişdir. Aşıq Səadəddin hələ uşaq yaşlarından Aşıq Məhəmmədin bütün şeirlərini sinədəftər etmişdir. O, məclislərdə, el şənliklərində olarkən məclisi ilk öncə Aşıq Məhəmmədin sözü ilə açarmış. Onun bir sıra qoşmaları, gəraylıları olsa da, el arasın-

da, məclislərdə əsasən, ifaçı aşıq kimi tanınmışdır. Sənətkarın əlimizdə olan şeirləri qoşma, gəraylı, ustadnamə, divani, deyişmə və bayatılardan ibarətdir. Qeyd edək ki, onun ifasında qəribə bir yanğı, kədər, dərd, nisgil var ki, bu da çox təbii ki, onun iç dünyası və özünəməxsusluğu ilə ölçülə bilər. «Yazıqsan» rədifli ustadnaməsində ustad qədərin-qismətin Allah payı olduğuna, ömrün etibarsızlığına işarə edir:

Ömür ki var ağır yükdü belində,
Kəlmə-şəhadəti saxla dilində.
Ay Sadəddin, bir mey apar əlində,
Məhşər günü məlul durma, yazıqsan (78).

Aşıq Səadəddinin saz-söz ocağında böyüməsi, məclislər görməsi onun klassik ənənənin kifayət qədər mənimsəyib yaşatmasına da səbəb olmuşdur. O, hər şeydən öncə yaşadığı elinə-obasına, təbiətinə bağlı və vurğun bir insan olmuşdur. Aşığın «Gəlsin», «Varxiyana gəl», «Varxiyanın», «Dağlar» və s. kimi şeirləri də vətənin təbiətinə olan ən xoş təəssürat və sonsuz məhəbbətlə yazılmışdır. Bir nümunəyə diqqət edək:

Açın süfrə xoşa gəlsin,
Oturanlar coşa gəlsin.
Xoş avazın elə gəlsin,
Xoş gəlibsən, bahar-yazım (78).

Aşığın əksər şeirləri həyatdan, dövrandan şikayət xarakteri daşıyır. «Aman günüdür» qoşması bu baxımdan nəzərimizi cəlb edir:

Duva qılan haqq evinə yetirsin,
Fələk belə zülmü yerdən götürsün.
Həsrətlini vüsalına yetirsin,
Amin deyin, dillər aman günüdür (78).

Aşıq Səadəddin özünəməxsus ifa tərzinə, məclis ələ ala bilmə bacarığına görə digər aşıqlardan fərqlənir. Onun ifasında qəriblik, nisgil və yanğı duyulur. Bu qəriblik, bu nisgil onun iç dünyası ilə, sənətkarlaq təbi ilə əlaqəli yaranır. Son gününə kimi sazla nəfəs alan, sazı əlindən yerə qoymayan aşıq belə bir şeir yazır:

İgid olan üzbəüzdə dolana,
Mərd oluban mərd meydanda tanına.

Xərçəng kimi bir insanı sancmaya,
Ölüncə danışar xoş sazım mənim (78).

Folklorşünas alim Mahmud Allahmanlı aşığın qüdrətini şərtləndirən amillərdən biri kimi ədəb-ərkan və improvizasiyanı əsas göstərmişdir. O qeyd edir ki, «bu məsələ sənətkarın keyfiyyət və yaradıcılıq xüsusiyyətidir. Məhz bu xüsusiyyət özlüyündə aşıq yaradıcılığının mənşəyi haqqında düşünmək üçün əsas verir» (6, 33).

Doğrudan da Aşıq Səadəddinin yaradıcılıq ənənəsinin əsası möhkəm və əbədi sütun üzərində qurulub. Haqq aşığı olan Aşıq Məhəmməddən Aşıq Səadəddinə keçən irsi xüsusiyyətlərdən biri kimi ürəyədamma, olacaqları vaxtından öncə duyma bacarığı idi. Ölümünü əvvəlcədən duyan ustad «Məni» rədifli qoşmasını yazır və bu qoşmasında övladlarına son vəsiyyətini edir.

Övladlarım, sözüm sizə əmanət,
Götürün, yetirin məzara məni.
Eşqindən ürəyim yara bağladı,
Götürün, yetirin məzara məni (78).

Aşıq Səadəddin yaxın sənət dostu olan Aşıq Mədətlə birgə çoxlu məclislər aparmış və yeri gəldikcə deyişmişdir. Onlar növbəti dəfə məclislərin birində deyişirlər:

**Aşıq Mədət**

Kimdi ərşdə sağ dayandı,
Bəs kimdi nura boyandı?
Kimdi səsindən oyandı?
Bəs kimlər bədasil oldu?

**Aşıq Səadəddin**

Haqq özü nura boyandı,
İsa ərşdə sağ dayandı.
Adəm yaranıb oyandı,
Pir onda bədasil oldu (78).

Deyişmədən göründüyü kimi, Aşıq Səadəddin dini dünyagörüşə malik olan, ürfani məqamlara bələd olan aşıqlarımızdan olmuşdur. Dünyanın yaranışı, hal və qal məsələləri, Adəmin yaranıb

oyanma səbəbləri, pirin bədasil olma sirləri ustad aşığa bəllidir. Ustad Aşıq Məhəmməd ocağından olan sənətkarın yaradıcılıq irsi öz maraq dairəsini həmişə qoruyub saxlayacaqdır.

Zaqatala aşıq mühitinin sayılıb seçilən, el arasında hörmət qazanan aşıqlarından biri də Əliabadlı Aşıq Məhəmməd olmuşdur. Kərimov Məhəmməd Məhərrəm oğlu 1930-cu ildə Zaqatalanın Əliabad kəndində dünyaya gəlmiş və 2004-cü ildə vəfat etmişdir. O, uzun müddət Aşağı talalı ustad Aşıq Dibroya şagirdlik etmiş və ondan aşıq sənətinin sirlərini öyrənmişdir. Aşıq Məhəmməd ömrünün son çağlarında aşıqlıqla yanaşı, axundluq da etmişdir. Yeri gəldikcə, tanınmış axund kimi Əliabad kəndində keçirilən mövludlarda iştirak etmiş, yas mərasimlərini mükəmməl səviyyədə aparmış, gözəl səslə zikr etmiş və Quran oxumaqla da məşğul olmuşdur. Aşıq Məhəmməd dövrünün tanınmış ifaçı aşığı kimi xalq dastanlarının böyük əksəriyyətini hafizəsinə yazmış, el şənliklərində, aşıq məclislərində bildiklərini sazın-sözün sehri ilə, xoş avazı ilə nəzmə çəkmişdir.

Aşıq Məhəmməd yaradıcılığı öz orijinallığı ilə hər zaman yaddaşlarda yaşayacaq.

Çağdaş Zaqatala aşıq mühitinin nümayəndələrindən biri də **Balayev Camal Uluxan** oğludur. O 1930-cu ildə Əliabad kəndində dünyaya gəlmişdir. Aşıq Camalın uşaqlıqdan saza böyük marağı olduğundan atası Uluxan kişi onu Aşıq Herovun yanına şagirdliyə vermişdir. Aşıq Herovun ustadı dillərdə dastan olan Aşıq, Qaçaq Hüseyn olmuşdur. Aşıq Camal az vaxt ərzində ustadından aşıq havalarını mükəmməl səviyyədə öyrənmiş, məclislərdə bədahətən şeirlər də demişdir. Digər tərəfdən Aşıq Camalın saz-söz ocağında böyüməsi dövrünün tanınmış ustad aşıqlarının məclislərində tez-tez iştirak etməsi onun kamil bir sənətkar kimi yetişməsinə imkan vermişdir. Zaqatala aşıq mühitində yaşayıb yaradan aşıqlardan əksəriyyətinin saz sənətinə gəlməzdən öncə tənburla çalıb-çağırmasının şahidi oluruq. Maraqlı haldır ki, elə Aşıq Camal da ömrünün qırx ilini tənbur çalmış, məclislərdə tənbur havalarının ahəngi ilə oxuyarmış. Son on ildə isə məclisləri sazla aparır. Zaqatala aşıq mühitində tənbur saz əlaqələrinin paralel inkişafı

tarixi dövrlərdən mövcud olmuşdur. Zaqatala aşıqlarının bəziləri ifalarına əvvəldən sazla başlamış, digər qrup aşıqlar isə öncə tənbur, sonra saza keçirmişdir. Bu çox təbii ki, mühitin özünəməxsus xüsusiyyəti ilə əlaqəlidir. Aşıq Camal da məhz bu tip sənətkarlarımızdan olmuşdur. O, «Ceyran», «Olarmı», «Kimindir», «Eylədin», «Bilmirəm», «Mən olum», «Gəzdirir», «Olaydı», «Mən», «Dünya», «Arzular», «Ay fələk» və s. kimi qoşma, gəraylı və divanilərin müəllifidir. Aşıq Camal özündən əvvəl yaşayıb yaratmış sənətkarlara, onların sənət irsinə böyük hörmət və rəğbətlə yanaşmış, mühitin digər aşıqları kimi məclisləri söz, sənət xiridarı Aşıq Ələsgərin, Aşıq Məhəmmədin sözü ilə açmışdır. Onun ifasında kədər, nisgil və həsrət duyulur. Sənətkarın ifasında fələkdən, yaşadığı dövrandan küskünlük, inciklik duyulur. Bu da çox təbii ki, sənətkarın taleyi ilə əlaqəli yaranmışdır. Ömür-gün yoldaşını vaxtsız itirən Aşıq Camal «Eylədin» rədifli qoşmasında bütün hiss-həyəcanını, qəzəbini belə ifadə edir:

Başına mən dönüm bimürvət fələk,
Niyə məni nazlı yardan eylədin?
Yanında nə idi mənim günahım?
Yaxşı düşün məni hardan eylədin? (78).

Aşıq Camal şeirlərində gözəlləri daha çox xarakterinə görə vəsf edir:

Ey ariflər, sizi agah eyləyim,
Gözəl var ki, şeytan şəri gəzdirir.
Gözəl var ki, gözəllikdə gözəldir,
Gözəl də var dildə zəhər gəzdirir (78).

Gözələ əxlaqına görə dəyər vermək Zaqatala aşıqlarının hər birinin yaradıcılığında təsadüf olunur. Belə əxlaqi-estetik mövqe Aşıq Məhəmmədin, Aşıq Könlünün, Aşıq Dalğının, Aşıq Camalın yaradıcılıqlarında aydın müşahidə olunur.

Ustad sənətkar ömür-gün yoldaşının ölümünə heyfslənir, yarı ilə birgə keçirdiyi günlərin həsrəti ilə yaşayır. «Olarmış» rədifli qoşmasında bu barədə deyir:

Aşıq Camal sinə dağlar,
Yar yolunda daim ağlar,

Yar yanında gözəl çağlar,
Axır bir gün pozularmış (78).

Aşıq Camal «Olubdur» rədifli gəraylısında sevgilisinin xəyalıyla yaşayır. onun ölümüylə barışa bilmir:

Yar deyibən ağlamaqdan.
Gözüm yaşı çay olubdur.
Xoş güzarım getdi əldən,
Günüm ahu-vay olubdur (78).

Aşıq Camal eyni zamanda klassik ənənəyə sadiq sənətkarlarımızdandır. O, ustadından klassik dastanlarımızı, «Novruz», «Aşıq Qərib», «Şah İsmayıl» və s. mənimsəmiş, məclislərdə böyük məharətlə ifa etmişdir. Aşıq Camalla yanaşı, Zaqatala aşıq mühitində öz sənətkarlıq qüdrəti ilə sayılıb-seçilən aşıqlardan biri **Aşıq Valeh** Rəhim oğlu Həsənovdur. Aşıq Valeh 1937-ci il may ayının 1-də Qərbi Azərbaycanın Göyçə mahalında Basarkeçər rayonunun Şişqaya kəndində anadan olmuşdur. Sonralar 1969-cu ildə ailəsi ilə birgə Zaqatala rayonuna köçmüş və o zamandan Zaqatalada məskunlaşmışdır. Aşıq Valehin atası Rəhim zamanının tanınmış ustad aşıqlarından olmuşdur. Elə Valehin də uşaq yaşlarından bu sənətə olan həvəsi səbəbsiz olmur. Atası Rəhimdən bu sənətin sirlərini dərindən mənimsəyir, el havalarının mükəmməl ifasını öyrənmişdir. Aşıq Valehin dediyinə əsasən, Qızılvəngli Aşıq Quludan dərs almış atası Aşıq Rəhimin onlarla yetirməsi olmuşdur. O, klassik dastanları yaxşı bilmiş, mükəmməl ruhani təhsili almış və dərin biliyə malik olmuşdur. Musiqişünas Azad Ozan məqalələrinin birində qeyd etmişdir ki, «dastançı aşıq kimi tanınmış Rəhim möhkəm yaddaşı ilə, yaddaşının qeyri-adi kəsəri ilə çoxlarında qısqanclıq oyadırmış» (63, 138). Aşıq Valehin əmisi Aşıq Əli də dövrünün tanınmış sənətkarlarından olub. Onun haqqında əvvəlki fəsildə söz açdığımızdan üzərində dayanmırıq.

Atasının sənət şəcərəsinin layiqli davamçısına çevrilən Aşıq Valeh şeirlərinin birində özünü eşq əhli adlandırır və bununla yanaşı özü haqqında məlumat verir:

Eşq əhliyəm, məhəbbətdir ustadım,
Öz adım Valehdir, Həsən soyadım.

Budur ürəyimdə arzum, muradım,
Qismət olmayasan sara, sevgilim (78).

Sənətkar sözün həqiqi mənasında ustad görmüş, öz ifaçılıq üslubu ilə tanınmış, yaradıcı aşıqlarımızdandır. O, digər aşıqlar kimi oxumur, amma istənilən havanı çox böyük məharətlə ifa etməyi bacarır, eyni zamanda klassik dastanlarımızı («Aşıq Qərib», «Novruz Qəndab», «Abbas və Gülgəz» və s.) yaxşı bilir. Həmçinin Aşıq Valeh yeni dastanlar da yaradır. Bunlardan «Valeh və Afət», «Valeh və Narınc» adlı avtobioqrafik səciyyə daşıyan dastan və poemasını nümunə göstərmək olar. Aşıq Valehin bu dastanlarının hər birini bir ömür salnaməsi, saflıq, doğruluq və cəsarət mücəssiməsi adlandırmaq olar. Aşıq Valeh yaradıcılığında klassik ənənədən gələn xüsusiyyətləri qoruyub saxlamaqla yanaşı, həm də özünəməxsus ifa tərzi ilə məclis aparmaq bacarığı və yüksək sənətkarlaq qüdrətilə tanınır. O, klassiklərimizin keçdikləri yaradıcılıq yolunu dərindən mənimsəyən sənətkarlarımız sırasına daxildir. Onun yaradıcılığında ustad aşıqlarımızdan olan Qurbaninin, Aşıq Ələsgərin, Aşıq Qulunun və Rəhimin təsiri duyulur. Bu ənənə onun bütün şeirlərində qorunub saxlanılır. Aşıqşünas E.Məmmədliyə görə «klassik saz və söz gələnəklərinə bağlılıq və sədaqət aşıqlığın, sənətkarlığın ilkin şərtidir» (75, 19).

Aşıq Valehin yaradıcılığını zaman və məkana görə əsasən, iki qismə ayırmaq olar:

1. Göyçə dövrü
2. Zaqatala dövrü

Qeyd edək ki, Aşıq Valeh Cöyçədən 29 yaşında çıxmışdır. Yaradıcılığının Göyçə dövründə o, əsasən, məhəbbət mövzusunda olan şeirlərini yazmışdır. Bunlardan «Olacaqsan», «Gözlə, sevgilim», «Olsa» və s. şeirlərinin adlarını çəkmək olar.

Onun müraciət etdiyi mövzular həm klassik ənənəyə söykənir, həm də müasir ictimai-siyasi durumu əks etdirir. Klassik ənənədə olduğu kimi yaradıcılığında məhəbbət, təbiət təsvirinə geniş yer verilir. Bununla yanaşı, ictimai-siyasi lirika, vətən həsrəti, din və ürfan motivləri də özünəməxsus yer tutur.

Sənətkar poeziyasında yaşadığı diyarın əsrarəngiz gözəlliklərini, qartalın uçuşunu, zirvələrdəki qarın əlvanlığını, çəmənlərin al-əlvan çiçəklərini və ən xırda daşına kimi öz qəlbinin saflığı, səmimiliyi ilə təsvir və tərənnüm etməyə çalışmışıdır. «Dağların» rədifli qoşması buna nümunə ola bilər:

Yenə bahar gəldi, keçdi zimistan,
Gəldi yenə xoş cəlalı dağların.
Baş qaldırıb bənövşəsi, nərgizi,
Həyat verən bu səfalı dağların (78).

Onun poeziyasında öz əksini tapan bu tip qoşmalarda təbiətin əsrarəngiz portreti yaradılır. Aşıq «Bu yerlər» rədifli qoşmasında təbiət gözəlliklərini, hər bir açan tər qönçənin incəliyindən, quşların şən avazından, çəməndəki lalənin xoş görnüşünə kimi, əvəzsiz bir portretini yaratmışdır. Sənətkar bu şeirdə tarixi proseslərə də münasibətini bildirir. Bu da çox təbii ki, sənətkarın yaradaıcılıq qüdrətindən soraq verir. «Bu yerlər» rədifli qoşmasına diqqət edək:

Çıx «Qala düzü»nə bir şəhərə bax,
Hər tərəf gül-çiçək, tamam bağça-bağ.
Möhtəşəm binalar, ağ eyvan, otaq,
Sərvətdə, nemətdə boldu bu yerlər (78).

Təbiət gözəlliklərinin canlı portretini o, yalnız qoşmalarında deyil, təcnislərində, dodaqdəyməzlərində, divanilərində də yaradır. O, bu şeirlərində təbiət təsviri ilə yanaşı, insan-təbiət münasibətlərini çox böyük incəliklə, qarşılıqlı şəkildə vəhdətdə verməyi bacarmışdır. Eyni zamanda ustad şeirlərində həm canlı təsvir, həm də bədii təhlil verə bilir. «Sərinə» rədifli dodaqdəyməz divani-təcnisinə diqqət edək:

Çiskin gedər, çən çəkilər, dağlar çıxar sərinə,
Dərələrdən sərin yellər əsər, dağlar sərinə.
Aşıq deyər sərinə,
Qalda igid səri, nə!
Qış aranda girlənək,
Yayda çıxaq sərinə.
Qar quzeydə hər an qalar, gələn il qar yağana,
Yenidən qar yağacaqdı, qarlı dağlar sərinə (78).

Burada aşığın sənətkarlaq qüdrətini göstərən xüsusiyyətlərdən biri də budur ki, təcnis həm divani üzərində yazılmış, həm də cığadan istifadə edilmişdir. Aşıq Valehin təsvir etdiyi gözəlliklərin hər biri canlı və realdır. O yalnız gördüyünü, duyduğunu və dərk edə bildiyini qələmə alır. Bu xüsusiyyət də onun poeziyasına axıcılıq, əlvanlıq, təbiilik və səmimilik gətirir.

Onun yaradıcılıq irsi əvvəldən sonadək səmimilik, cəsarət, haqqa çağırış üzərində qurulmuşdur.

Klassik ənənəyə söykənən aşığın yaradıcılığında məhəbbət mövzusu xüsusi yer tutur. Valehin poeziyasında tərənnüm olunan gözəllər xoş simaları ilə yanaşı hər şeydən öncə saflıqları, səmimilikləri və mərdlikləri ilə tanınır. Gözəlin xarici görkəmi, xoş görünüşünün, sərv-boyunun, şux qamətinin təsviri Qurbaninin Aşıq Ələsgərin, yaradıcılığında daha çox təsadüf olunur. Fikrimizi əsaslandırmaq üçün Aşıq Ələsgər və Aşıq Valehin şeirlərindən nümunə gətirək:

**Aşıq Ələsgər**

Gözəl, sənə məlum olsun,
Alışıban yanıram mən,
Ala gözlər süzüləndə
Canımdan usanıram mən (13, 261).

**Aşıq Valeh**

Ay Allah, qarşıma çıxdı bir sona,
Ağlımı başımdan aldı az qala.
Ala gözlər süzüb baxanda yana,
Atəşi cismimə saldı az qala (78).

Onun şeirlərinin hər misrasında saf məhəbbət, sevgi hissləri boy verməkdədir. Bu mövzuda yazdığı «Ay qız», «Gözlərin», «Sevgilim», «Getdi», «Məhəbbət», «Getməsəm olmaz», «Gəlmişəm», «Sən», «Xoş gəldin» və s. şeirləri vardır. Aşıq Valeh gözəli əxlaqlı, tərbiyəli, zəngin mənəviyyatlı görmək istəyir. «Nədəndir» rədifli qoşması dediklərimizə bariz nümunədir.

Oğrun-oğrun daldalardan baxanda,
Baxışlardan eşqin mehri axanda,

Aşiqi yandırıb oda yaxanda,
Qurbandır aşiqin canı, nədəndir? (78).

Məhəbbət Aşıq Valeh poeziyasının ən önəmli və əsas mövzularındandır. O, vətənin, elin-obanın gözəllərini saf, xəyanətdən uzaq və vəfalı görmək istəyir. Ustad saf, təmiz eşqi həmişə İlahidən diləyir. «Məhəbbət» rədifli qoşmasında bu barədə belə deyir:

Valeh ilahidən dilər eşqini,
Qüdrəti ilhamdan alar eşqini,
Namərd bir oyuncaq bilər eşqini,
Sanar ki, şəkərdi, baldı məhəbbət (78).

Aşıq harda olsa belə yenə də öz müqəddəs sandığı sevgilisinə sadiq qalır, onun ədəb-ərkanına, tərbiyəsinə yüksək dəyər verir. «Olmaz» rədifli qoşması da məhz onun ömür-gün yoldaşı Afət xanıma həsr edilmişdir:

Aləmi-röyada mən gördüm onu,
Bu sınıq könlümün dəyişdi donu.
Müxtəsəri, budur sözümün sonu,
Çəksələr də dara, getməsəm olmaz (78).

Onun bu səpkidə yazdığı «Gəlmişəm», «Dedimmi gəlsin» deyişməsi, «Sən», «Xoş gəldin», «Məhəbbət», «Ayrı düşəndə» və «Gözlərin» rədifli qoşma və gəraylılarını nümunə göstərmək olar. «Gözlərin» rədifli gəraylısına diqqət edək:

Gizlətsəm də bu sevdamı,
Duyuq düşüb artıq hamı.
Sönər qəlbimin ilhamı,
Gəlməsə kara gözlərin (78).

Aşıq Valeh Allahın qüdrətinə inanır. Hər sözü, hər kəlamı haqqa bağlı olan sənətkarın arxa-dayağı da haqdır. «Üstədir» divanisində bu barədədir:

Valeh, sən Haqq-Təaladan dərdinə dərman dilə,
Çağırginən şahlar şahın, etiqadla, sidqilə,
Gəlsə yüz min təbib loğman, ya bilməyə, ya bilə,
Sidq dillə Haqq-Təaladan istə aman, üstədi (78).

Sözdən çələng hörməyi bacaran ustad ilhamını eldən alır, gücünü, qüdrətini isə İlahidən diləyir. O, eyni zamanda bu xüsu-

siyyəti bütün sənətkarların Simasında görmək istəyir, bu barədə şeirlərinin birində deyir:

Şair ola bilməz hər şeir yazan,
İlhamı elindən almasa əgər.
Hər sim tərpədəndən sənətkar olmaz,
Mizrabı ürəkdən çalmasa əgər (78).

Hər zaman haqq deyib, haqq eşidən, haqqa bağlı olub, haqqı-həqiqəti soraqlayan, ümidsizliyə düçar olduğunda belə inamını itirməyən ustad sənətkar Sözün həqiqi mənasında mərdlik, mərdanəlik məktəbi keçmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, Aşıq Valeh əslən Göyçə mahalındandır. Onun poeziyasında Göyçə təsiri açıqca duyulur. Yaradıcılığında tez-tez Göyçəni xatırlayan ustad o yerlərin həsrətini çəkir. Onun poeziyasının əsas xəttini vətən, el-oba, torpağa bağlılıq, yurd-yuva həsrəti, kədər, nisgil geniş yer tutur. Deyişmələrinin birində bu barədə deyir:

Göyçəliyəm, didərginəm vətənimdən, elimdən,
Qərib könlüm ayrılmayır bir an Göyçə gölündən.
Mən Valehəm, həcv-hədyan əsla çıxmaz dilimdən,
Dindirsələr xoş dinərəm, sinəsi dəftər mənəm (78).

Aşıq Valehin ədəbi irsinin el-oba tərəfindən böyük rəğbət və hörmətlə qarşılanmasının əsas səbəblərindən biri də xalqın istək və arzularını, kədər və nisgilini hamının başa düşdüyü sadə və aydın bir dildə ifadə etmək bacarığı ilə bağlıdır. Onun şeirlərində düşmənə kəskin nifrət, kin-küdurət duyulur. Bu xüsusiyyəti ustadın bütün yaradıcılığı boyu izləmək mümkündür:

Bir zaman düşmənlər çapdı atını,
Məhv etdi yurdumun hər büsatını.
Qırdılar ellərin qol-qanadını,
Saraldı bu yerlər, soldu bu yerlər (78).

Aşıq Valehin vətənə məhəbbət, torpaqların işğalı ilə bağlı yaranan şeirlərində qəribə bir təəssüflə yanaşı, əvəzsiz bir təbiət təsviri canlanır. Ustadın «Nə isə» rədifli qoşmasında vətən və onun təbiəti aşığın hiss-həyəcanı, həsrəti ilə vəhdətdə verilmişdir:

Yenə dağlarımı duman, qar alıb,
Xəzan vurub güllü bağım saralıb.
Tər qönçənin dövrəsini xar alıb,
Xoryad əl uzadıb nara nə isə (78).

Hələ gənc yaşlarından vətənindən ayrı düşən Aşıq Valehin sonradan saz-söz ocağı olan bu diyarda məskunlaşması onun yaradıcılığını daha da şaxələndirir. Hər iki mühitin təbiətən bir-birinə bənzəməsi, onun şeiriyyətinin rəngarəngliyini artırır. Ustad bütün varlığı, əqidəsi, düşüncəsi ilə elinə-obasına, xalqına bağlı olan sənətkardır. Vətən həsrəti çəkən, yurd-yuva düşgünü olan aşıq yiyəsiz qalan obaların harayına səs qatır, yağı tapdağında olan torpaqlarımızı azad görmək istəyir. Düşmənlərə olan kinini, qəzəbini sazı ilə, sözü ilə aləmə bəyan edən Aşıq Valeh bununla sanki içində qaysaq bağlayan vətən, Göyçə adlı dərdinin azacıq da olsa yüngülləşməsini təsəlli bilir. Bu narahatlıq zaman-zaman böyüyür, dünyanın, çərxin gərdişinə qarşı etiraza çevrilir. «Üstədir» rədifli divanisində onun hiss-həyəcanı, nigarançılığının əsas səbəbi tamamilə açıqlanır:

Mən bir dərdə giriftaram, halım yaman üstədi,
Axtarıram yoxdu təbib, xeyli zaman üstədi.
Əldən getdi cavanlığım, başdadı piranilik,
Bundan belə şəfa bulmaq, xeyli güman üstədi (78).

Vətən həsrəti ilə bağlı yaranan bəzi şeirlərində bu düşüncələr daha da dərinləşir, siyasi xarakter daşıyır.

Yaxın dost olsaq da birləşmədik biz,
Bundan bəhrələndi düşmənlərimiz,
Birləşə bilsəydi bax, ellərimz,
Yurd-yuva alışıb dönməzdi külə (78).

Bir-birinin arxasınca düşmən tapdağına məruz qalan torpaqlarımızın halına, qız-gəlinlərimizin ləkələnmiş ismətinə təəssüflənən sənətkar o zamankı səriştəsiz məmurlara sözünü belə ünvanlayır:

Zəngibasar hanı, Pəmbək hardadı,
Göyçə gölün gözü intizardadı,
Qız gəlinlər, əsarətdə, dardadı,
Kim danışsın bu qeyrəti de, belə (78).

Torpaq, el-oba həsrəti ilə yaşayan sənətkar, sonunda damarında türk qanı axan bütün insanları birliyə, savaşa səsləyir:

Valeh deyər, biz birləşsək, bir olsaq,
Yumruq kimi sıxılaraq gur olsaq,
İsgəndər bəy, el yolunda tir olsaq,
Elimin şöhrəti tez düşər dilə (78).

Bu qoşmada vətən həsrəti öz poetik çalarları ilə əvvəldən sonadək izlənilir. Ustad hər zaman doğruluq, düzlük, haqq-ədalət tərəfdarı olmuşdur. Onun yaradıcılığında gələcəyə, dövrün, zamanın gərdişinin düzəlməsinə inamla yanaşı ümidsizlik, inciklik, pessimist əhval-ruhiyyəyə də təsadüf olunur. Sənətkarın «Düşdüm» rədifli qoşması da məhz bu istiqamətdə yazılmışdır:

Yüküm əydi, daşım düşdü qəribə,
Elimdən-günümdən aralı düşdüm.
Xeyir əkdim, şər götürdüm dünyada,
Ağ günə can atdım, qaralı düşdüm (78).

Sənətkar həmişə yaxşılıq edir, onun əvəzi olaraq ətrafdan pislik görəndə sarsılır. Buna görə heç kəsi deyil, yalnız bəxtini, taleyini günahlandırır, hiss-həyəcanını, duyğularını kəskin ifadə etməklə içinə rahatlıq, sakitlik gətirmiş olur. «Bəxtim» rədifli qoşmasında hiss-həyəcanını, etirazını kəskin şəkildə belə ifadə edir:

Çox can atdım yaxşılığa, nə fayda,
Görmədim bəhrəsin, ay qara bəxtim.
Ömrüm keçdi qilu-qalda, harayda,
Ya bir yolluq məhv et, ya çara, bəxtim (78).

Bununla yanaşı, onun poeziyasında yaşamağa həvəs, yüksək həyat eşqi duyulur. Ustad ən ağır anında yalnız Allahı köməyə çağırır. Yalnız o İlahi qüdrəti qəlbinin tək sirdaşı, dərdinin dərmanı, yardımçısı hesab edir. Arzularını, istəklərini yada salaraq ondan əlavə ömür payı istəyir:

Çox cavanam, hələ tezdi, alma canım, ey fələk,
Qərib eldə kimsəm yoxdu, kəsə yanım, ey fələk.
Əzrayıla tapşırginən, qoy gəlməsin yanıma,
Qürbət eldə can verərəm, mən nə danım, ey fələk (78).

Aşıq Valehin yaradıcılığı, aşıq şeiri üslubunda yaratdığı incilər onu həm el şairi, həm də ustad sənətkar kimi dəyərləndirməyimizə əsas verir. Aşıq Valeh o sənətkarlarımızdandır ki, aşıq şeirinin bütün janrlarında qələmini sınamış, dövrünün tanınmış aşıqları ilə deyişmiş və həmişə də uğur qazanmışdır. Sənətkar ustadnamələri, deyişmələri ilə iştirak etdiyi məclisə həmişə bir canlılıq, xoş əhval-ruhiyyə bəxş etmişdir. Fikrimizcə, ustad, aşıq poeziyasında yer tutan ustadnamələri, nəsihətamiz öyüdləri ilə bir abidə ucaltmışdır:

Yaxşı, təmiz adla dolansan əgər,
Yaxanı tanımaz qüssə, qəm, kədər,
Yalançı, yaltağa güvənsən hədər,
Yaxın dost-aşnaya ar olacaqsan (78).

Və yaxud:

Sözü eşit, yaxşı öyrən, yaxşı qan,
Üz çevirmə əsl dostdan, yaxşıdan,
İtirmə hörməti, ey arif insan,
Hörməti, izzəti, cəlalı gözlə (78).

Aşıq Valehin Dağıstan səfəri xüsusilə diqqəti cəlb edir. Təsadüfən bir məclisdə Dərbənd aşıqları ilə deyişir. Bunun başlıca səbəbi Aşıq Mirzalının, Aşıq Ələsgərin kiçik oğlu şair Əbdül Əzimin və Aşıq Nəcəfin öz adına bağlaması olur. Buna dözməyən Aşıq Valeh meydana çıxmış və belə demişdir:

Əgər mərdsən bu meydanə saz götür, mərdanə gəl,
Həqiqətdən kəlmə kəsək, danış, xoş zəbanə gəl.
Mərifətlə məclis apar, görənlər əhsən desin,
Hərcayıya yoldaş olma, sirr vermə nadana gəl
(21,447; 78,10).

Aşıq Valehin bu suala verdiyi tutarlı cavabla Aşıq Mirzalı bağlanmış və səssizcə aradan çıxmalı olmuşdur. Aşıq Valeh əvvəlcə aşığın ona meydan oxumasını ədəblə qarşılayır. Aşıq Valehin Aşıq Mirzalı ilə deyişmələri olmuşdur. O, məclisdə başqasının şeirini öz adına çıxan aşıqları tənqid hədəfinə tutmağı özünə bir borc hesab etmişdir. O, hər zaman sənətkar oğlunun mərd olması, düz danışıb saxtakarlığa yol verməməsi ideyasından çıxış etmişdir.

Həmin məclisdə yerli aşıqları bir-bir bağlayan sənətkar, qoyulan şərtə hörmət əlaməti olaraq əməl etmir. Şərtə görə kim bağlansa, o aşıq sazını məclisdə qoyub getməliymiş. Amma Aşıq Valeh buna razı olmur. Bu təbii ki, aşığın böyük yolu gözləməsindən, sözə dəyər və qiymət verməsindən irəli gəlmişdir. Çox maraqlı xüsusiyyətdir ki, həmin məclisdə söz yenidən Zaqatalalı Aşıq Camalla Aşıq Valehə verilmişdir. Hər iki aşıq dostcasına məclis əhlini maraqlandıran və düşündürən deyişmə deyirlər:

**Aldı Valeh**

Havadan nəm almır, torpaqdan qida,
Ətri yox, parlayır həddən ziyada,
Odda yanmır, xəta törədir suda,
O andırır, şam-çırağı bəllidir.

**Aldı Camal**

Torpaqdan yox, sudan alır qüvvəti,
Gecələr nur saçır, budur qüdrəti.
Özü oddur, nəmlik sevmir xisləti,
Hərdən yanıb qaralmağı bəllidir (78).

Məclis Aşıq Camalla Aşıq Valehin xeyirinə qurtarmışdır (78).

O, məclislərdə həmişə iki istiqamətdə deyişir. Ustad sənətkar istər vətəndə, istərsə də vətəndən kənarda, Rusiya və Dağıstan ellərində olsun, iştirak etdiyi məclislərdə qarşısında ona meydan oxuyan sənətkarlarla bədahətən deyişmişdir. Yeri gəldikcə, ustadların açılmamış və deyilməmiş deyişmələri ilə onları sınağa çəkmişdir. Digər tərəfdən o görəndə ki qarşısındakı aşıq bilərəkdən başqasının sözünü öz adına bağlayır, onda sözünü mərdanə deyir. Çox zaman meydanda rəqibi, ustadı zəif zənn edib, öncə ona hədə-qorxu, hərbə-zorba gəlir. Amma görəndə ki, Aşıq Valeh haldan-qaldan, İlahi gözəllikdən insana, var olan hər bir varlığa hörmətdən danışır, onda səssizcə kənara çəkilməli olur.

Aşıq Valeh deyişmələri oxucusuna doğruluq, düzlük, hörmət və sevgi aşılayır. O, yersiz hərbə-zorbadan, hədədən çox uzaqdır. Yalnız meydanda qarşısındakından haqsızlıq görəndə kimliyini

nişan verir. O həmişə yalandan, saxtakarlıqdan və ikiüzlülükdən özünü uzaq tutur. Eyni zamanda sənətkar dostlarını da, bütövlükdə cəmiyyəti də belə görmək istəyir.

Aşıq Valeh yaradıcılığında təsəvvüf dünyagörüşünün elementləri vardır. Təsəvvüf elementləri insan düşüncəsində kök salan xəyali pak varlıqların qeyri-adiliyindən yaranmışdır. Xüsusən də ən incə məqamların, ən geniş, əvəzsiz təxəyyülün ifadəsi zamanı ortaya çıxır. Fikrimizcə, təsəvvüfün əsas elementləri içərisində başlıcası tərki-dünyalıq, dünya varından uzaq olmaq, özünə qapılmaqdır. Prof. Məhərrəm Qasımlının fikrinə görə, hər bir ustad aşıq, həm islama, həm də ürfani rəmzi və işarələrə yaxşı bələd olmalıdır (67, 22-23).

Əksər halda məhəbbət dastanlarının inkişaf xətti, xüsusən də, qəhrəmanın buta alması, saz çalma məqamları haqq aşığının Allah dərgahına yetişmək üçün keçdiyi dörd yolla eyniləşdirilir. Zöhrə Qafarova «Folklorda təsəvvüf elementləri» məqaləsində qeyd etmişdir ki, dastanda çox zaman aşıqlıq yuxu ilə bəxş olunur. Bu zaman haqq aşiqinə çevriləcək qəhrəman yuxuda eşq badəsinin nurunu içir, sonra bir neçə gün yatır. Ayılanda artıq haqq aşığı öz sevgilisini axtarmağa başlayır. Həmin andan etibarən, aşiqin eşqinə çatması üçün cəfa mərhələləri başlayır ki, bu yolu məharətlə keçən aşiq öz eşqinə yüksəlir. Bu məqamda biz təsəvvüflə qarşılaşırıq. Sufilikdə də aşıq ilk öncə eşqin mərifətini dərk edir və sonda haqqa çatır (64, 27).

Aşıq Valeh dini-ürfani səpkidə şeirlər yazmaqla yaradıcılığını daha çox dolğunlaşdırmış və şaxələndirmişdir. Haqqın, həqiqətin yolunu tanıyan, Allahın ən müqəddəs bəndələri olan ərənlərin, pirlərin, övliyaların adlarına çox hörmətlə yanaşır, yaradıcılığında onları tez-tez yada salır. O, hər addımda Allahın, Haqq-Təalanın qüdrətinə güvənir, «Pərvərdigar» rədifli divanisində bu barədə yazır:

Sığınmışam qüdrətinə, ya şahi-mərdan xuda,
Sayılı borcdan qutaran, Məsihi dardan xuda.
Ayrı salma bu kimsəsiz Valehi yardan xuda,
Yalvarıram, Tanrı kimi bir ada, pərvərdigar (78).

Aşıq Valeh yaradıcılığında qul, dərd, qəm-qüssə, hal-qal, şahlar şahı, şahi-mərdan, qırxlar piri kimi təsəvvüfi ifadələrə tez-tez təsadüf edirik. Əslində ürfan elminin incəliklərinə bələd olmadan, təriqətin yolunu tutmadan aşıq bu tip şeirlərini yarada bilməzdi. «Ya Məhəmməd, Əl Mustafa», «Başabaş», «Pərvərdigar» və s. kimi şeirləri buna gərəkli nümunə ola bilər. Ustadın yaradıcılığı ilə tanış olarkən məlum olur ki, o dini-ürfanı elmləri gözəl bilən sənətkarlarımızdandır. Bu təbii ki, onun genindən və böyük bir şəcərədən olması ilə əlaqədardır. «Başabaş» rədifli divanisi Allaha müraciətlə yazılmışdır. Maraqlı olan xüsusiyyətlərdən biri də budur ki, aşıq bir tərəfdən Allaha müraciət edərək ondan mərhəmət istəyir, digər tərəfdən isə öz qəlbini dindirərək onu qınaq yerinə çevirir. Bu xüsusiyyəti biz klassiklərdən hesab olunan varxiyanlı Aşıq Məhəmmədin poeziyasında da izləyirik. Bu divanisində aşığın fərdi yaradıcılıq istedadı və bacarığı açıqlanır:

Şahlar şahı, mürvət eylə, gəlmə mənnən başabaş,
Şər-böhtana salma məni, hər yetənlə başabaş.
Şeytan-iblis məclisindən dedim könül uzaqlaş,
Şümür xislət yol gedərmi söylə sənlə başa-baş (78).

«Ş» hərfi misranın əvvəlində, həm də sonunda işlənilir. Bu kimi xüsusiyyətlərə eynən ustad sənətkarlarımızdan olan Layıskılı Molla Cuma və varxiyanlı Aşıq Cahangir Dalğının yaradıcılığında da təsadüf olunur. Molla Cumanın bu səpkidə yazdığı «M əvvəl axır», «B», «N əvvəl axır» qoşma və təcnislərinin ideya istiqaməti də real gözəlin tərənnüm və təsvirinə həsr olunmuşdur. Molla Cumanın «M əvvəl axır» təcnisinə diqqət edək:

**Molla Cumada**

Molla Cuma, qulum deyər mən olum,
Mah camalın zəkatın ver mən olum,
Mehribanım, yar qapında mən olum,
Meyit düşsəm Allah üçün yüz olum.

**Aşıq Dalğında**

Layiqli hər işə olar həmayil,
Ləngiməyin, gəlib çatar təzə il.

Laləli ömürdən, Dalğın, sən də bil,
Laf eləmə, illər ötər dalbadal (78).

Aşıq Valehin Aşıq Mədət, Aşıq Cuma kimi ustad aşıqların əhatəsinə düşməsi, qaynayıb-qarışması, məclislər aparması, ənənələrində qovuşmasında böyük rol oynamışdır. Nəhayət, bu xüsusiyyət onun yaradıcılığının daha da püxtələşməsinə gətirib çıxarmışdır. Aşıq Valehin dini-ürfani bilgilərə dərindən bələd olması onun «Pərvərdigar» rədifli divanisində aşkarlanmışdır:

Altı gündə yaratmısan on səkkiz min aləmi,
Ondan əvvəl xəlq eylədin yarəb, lohi-qələmi,
And verirəm Kərbəladan simvol olan ələmi,
Vermə cavan ömrümü gəl, sən bada pərvərdigar (78).

Sənətkarın bu şeiri ilə tanış olarkən məlum olur ki, o, Qurana və onun ayələrinə çox yaxşı bələddir. Biz «löhü-qal», dünyanın 6 gündə yaranması haqqındakı fikirlərə Qurani-Kərimin «Yunus» surəsinin 3-cü ayəsində təsadüf edirik (69, 97-98). Dünyanın altı gündə yaranması Qurandan savayı, ayrı-ayrı miflərimizdə və müxtəlif mövzuları əhatə edən kitablarda da öz əksini geniş şəkildə tapır. Müxtəlif ayələrdən ibarət olan «Əsrarül-Quran» da qeyd olunur ki, «O haman Allahdır ki, asimanları və yeri altı gündə yaratdı» (41,26).

Qeyibdən eşitdi gizli bir səda,
Yamənhu sədası saldı fəryada,
Qalanda Cəbrayıl bəhri dəryada,
Ustad gördü Şahi-mərdan Əlini (78).

Şahi-Mərdan və Həzrət Əlinin digər adlarına aşıq ədəbiyyatında tez-tez təsadüf edirik. Prof. H.İsmayılov "Aşıq yaradıcılığı, mənşəyi və inkişafı mərhələləri" kitabında qeyd etmişdir ki, «öncə bu ondan irəli gəlir ki, bütün urfan təriqətləri, təsəvvüf elminin bütün nəzəri əsasları Əli-əleyhissalamın gizli elmlərindən qaynaqlanır (52, 298).

Şahi-Mərdan Əli və başqa müqəddəslərin adlarına məhəbbət dastanlarımızda, aşiqə buta verilməsi məqamında da rast gəlirik. Məsələn, «yuxuda fövqəltəbii bir qüvvə tərəfindən mükafatlanan aşiq eşq şərabını pirlərin, qırxların, Xızırın, Əlinin vasitəsilə

içmiş, mərifət sahibi olmuş və həqiqətin nuruna boyanmışdır» (11, 80-81). Maraqlıdır ki, aşıq hər bir müqəddəsin özünəxas xüsusiyyətlərini olduğu kimi verir. Bu təbii ki, sənətkarın dünyagörüşü, dini və ürfanı yaxşı bilməsi ilə əlaqədardır. Şeirlərinin birində qiyamət gününü xatırlayaraq deyir:

Yarəb, qiyamət gününün,
O, məhşər zülmət gününün,
Millətə zillət gününün,
Sahibi-Zaman xatirinə (78).

Göründüyü kimi, sənətkar on ikinci İmam Mehdi Sahib əz-Zamanın qeybi və zühuru barədə müəyyən məlumatlara malikdir («Qeybət» ərəbcədən «qeybə çəkilmək», «yox olmaq», «zühur» isə «zahir olma», «üzə çıxma» mənasındadır). Sələflərinin irsini gözəl bilən Aşıq Valeh bu sirlərin hər birini yaxşı mənimsəmişdir.

Aşıq Valehin yaradıcılığı rəngarəngdir. Onun şeirlərinin, eləcə də hər bir misrasının məna yükü ağırdır. Bədii ifadə tərzi özünəməxsus və zəngin, poeziyasının dili isə xəlqi və bəşəridir. Bu baxımdan onun vücudnamələri məzmununa görə xüsusi maraq doğurur. Aşığın vücüdnamələrində uşağın ana bətninə düşdüyündən dünyaya gəlişi, keçdiyi ömür yolu və nəhayət, ölümdən sonrakı həyatı tam təsvir olunur. Vücudnamələrində aşıq insanı bəd əməldən, pis düşüncədən uzaqlaşdırmaq, Allaha yaxın olmaq kimi əxlaqi keyfiyyətləri aşılayır. Prof. Qara Namazov "Azərbaycan aşıq sənəti" kitabında vücudnamələrin insan həyatında keçdiyi yolu, təsvir edən şeirlər tərcümeyi-hal olduğunu qeyd etmişdir (82, 60). Prof. Azad Nəbiyev isə «Azərbaycan aşıq məktəbləri» kitabında vücudnaməlməri bir mənalı şəkildə qoşma poetik sisteminə əsaslanan, onun ölçülərində yaranan və qoşmanın tipi kimi tanınan şeir şəkillərindən biri hesab etmişdir (85, 54, 58 ). Maraqlı xüsusiyyətlərdəndir ki, ustad «Olar» rədifli vücudnaməsində sırf qız övladının dünyaya gəlişindən, böyüyüb boya-başa çatmasından, nəhayət, ölümü və axirətindən danışır. Eyni zamanda aşıq qız övladını bəyənməyən, ona xor baxan insanları tənqid hədəfinə tutur:

Ey qıza xor baxan naşükür bəndə,
Anan da qız olub, düşünsən sən də.

Üstünə kiçicik bir meh əsəndə,
Ana öz canıyla qoruyan olar (78).

Doğrudur ki, aşıq poeziyasında xüsusən, Xaltanlı Tağının, Abbas Tufarqanlının, Molla Cumanın, Bozalqanlı Aşıq Hüseynin, varxiyanlı Aşıq Məhəmmədin, Aşıq Mədətin də yaradıcılıqlarında Vücudnamələrə təsadüf edirik. Amma bu vücudnamələrin bəzilərində, xüsusən ölümdən sonrakı həyat təsvir və təhlil olunur. Əslində təhlil şeirin təsvirində açıqlanır. Aşıq Valeh bu vücudnaməsində qız övladının ana bətninə düşdüyündən dünyaya gəlişinə, körpə vaxtlarından ömrünün sonuna kimi yaşadığı ayrı-ayrı yaş dövrləri ilə yanaşı, ölümdən sonrakı həyatı da təsvir etməyə çalışmışdır:

Əllisində qrov düşər qaşına,
Altmışında qar ələnər başına.
Elə ki yetişdi yetmiş yaşına,
Fikir, xəyal eylər, pərişan eylər (78).

Burada insanın dünyaya gəlişindən xəbər verilir. «Göründü gözümə iki pəhlivan» dedikdə isə sənətkar insanın dünyaya gəlişindən yaxşı və pis əməllərini yazan mələkləri nəzərdə tutur. Dini dünyagörüşə görə körpənin ana bətninə düşdüyü anda Allah tərəfindən ilk öncə onun bəxti və ruzisi verilir. Digər tərəfdən isə «göründü gözümə iki pəhlivan» dedikdə aşıq Allahın müqəddəs bəndələrindən sayılan Həzrət Əli və onun qulamı Qənbəri nəzərdə tutur. Görünür, sənətkar bütün bunlara yaxşı bələd imiş, ürfan və dini dünyagörüşünə kifayət qədər malik imiş. Burada axirət, din və ürfanla əlaqəli maraqlı ideyalara da rast gəlirik:

Əməlinə görə bax, qəhri-qəza,
Çəkərlər məhşərə verərlər cəza.
Ya atarlar oda, yada ayaza,
Kimi mömin, kimi bədiman olar (78).

Bu vücudnamədə Allahın müqəddəs hesab olunan imamlarının adları çəkilir və axirət dünyası yada salınır. Axirət günündə məhz Allah və bu müqəddəslər tərəfindən saya sayılmağımız istənilir. Allahın seçdiyi müqəddəsləri, imamları yaxşı tanıyan, pirlərin, ərənlərin adını hörmətlə xatırlayan Aşıq Valeh onlardan yalnız yaxşılıq görür. Elə burada xatırlatmaq istəyirik ki, prof.

Q.Namazov vücudnamələrdə axirət dünyasının təsviri hissəsini bəzən «mehracnamə» də adlandırmışdır. Digər tərəfdən müəllif vücudnamlərində dini etiqadlardan uzaqlaşaraq real həyat həqiqətlərinin əks olunması qənaətinə də gəlmişdir (82, 60-61). Əslində gördüyümüz kimi bu vücudnamə əvvəldən sona kimi dini dünyagörüşünə əsaslanaraq yazılmışdır:

Pirim Şahi-Mərdan, sən yetiş dada,
Həsən, Hüseyn, Zeynal gəlsin imdada.
Nağı, Tağı, Əsgər, Cəfər bəs harda?
Musa, Rza, Baqir tez çatan olar (78).

Aşıq Valehin vücudnamələri tərbiyəvi-əxlaqi dəyərlər və dini tövsiyələr əsasında yazılmışdır. Prof. A.Nəbiyev «Azərbaycan xalq ədəbiyyatı» kitabında vücudnamələrin ümumi məzmununda ibrətamizlik olduğunu qeyd etmişdir (86, 234).

Sonda ustad öz qəlbinə müraciət edir, qız övladını bəyənməyənlərə isə müyyən tövsiyələr verir:

Valeh, sən də sığın Şahi-Mərdana,
Nadanlara söylə mərdi-mərdana.
Cəsur qəhrəmanlar doğur mərd ana,
Bunu anlamayan çox nadan olar (78).

Göründüyü kimi, birinci misrada müqəddəs Şahi-Mərdan, ikinci misrada cəsarət, üçüncü misrada isə cəsur, qeyrətli anaların mərd qızlar dünyaya gətirməsindən bəhs olunur.

Qeyd edək ki, Aşıq Valeh yaradıcılığında təsadüf edilən ürfani-dini dünyagörüş elementlərinin varlığı, sözü səmərəli və yerində işlətmək bacarığının olması onun poetik imkanlarını təsdiq edir. Ustad sənətkarın şeirlərinin hər birinin ayrılıqda öz məna yükü, öz ruhu və öz poetik çaları var. Onun yaradıcılığında təcnisin də xüsusi yeri var. Ümumiyyətlə götürdükdə, Zaqatala aşıqlarının yaradıcılıqlarında təcnisə, digər janrlara nisbətən az təsadüf edilir. Bu şeir formasını varxiyanlı Aşıq Məhəmməd, Cahangir Dalğın, Aşıq Yusif və nəhayət, Aşıq Valeh poeziyasında da izləyirik. Konkret olaraq Aşıq Valehin təcnislərindən danışarkən cəsarətlə deyə bilərik ki, ona bu tükənməz istedad çox təbii ki, Allah tərəfindən verilən nemətdir. Ümumiyyətlə, Aşıq Valehin

poeziyasında Qərb aşıq mühiti ənənəsi daha çox duyulur. Bu da onun Göyçə aşıq mühitində böyüyüb boya-başa çatması və ustad oğlu olması ilə əlaqədardır:

Dərdini deyincə naqis qardaşa,
Get ürək sözünü yaxşı yada de.
Aşıq, yaxşı yada de,
Düşdük yaxşı yada de,
Ağ Aşıq həsrət qaldı,
Yarı yaxşı yada de.
Hərcayı qardaşdan, sarsaq soydaşdan,
Yaxşıdır nə desən yaxşı yada de.

Bu nümunədə həm öyüd-nəsihət, doğruluq, həm də gələcəyə inam kimi bir çox tərbiyəvi-əxlaqi dəyərlər aşılanır. Sənətkar yaradıcılığında bütün təcnis formalarında qələmini sınamış və böyük uğur qazanmışdır. Ustad yeri gəldikcə iştirakçısı olduğu istənilən məclisdə qarşılaşdığı rəqibini deyişmə, qıfıllama ilə yanaşı, təcnislə də sınağa çəkib çaşdırır. «Sərinə» rədifli ayaqlı təcnisində ustad bütün yaradıcılıq imkanlarından istifadə edir. Sənətkar burada həsrətin iki sevən qəlb üçün nə dərəcədə ağır olmasını yerinə düşən müqayisələr aparır:

Yar yarından üz döndərsə, könül dönər ya daşa,
Yar həsrəti eşq atəşi, toxunarsa ya daşa,
Aşıq deyər ya daşa,
Ya kəsəyə, ya daşa.
Yar yara həsrət qalar,
Könül dönsə ya daşa.
Aşıq Valeh, eşq atəşin ya qaynaya, ya daşa,
Qorx o gündən şər xülyalar yol axtara sərinə (78).

Və yaxud:

Qətlimə fərmanı yazdın əlinlə,
Cənazəm önündə götür əl, inlə.
Endir dar məzara sən öz əlinlə,
Qoy yönün Kəbəyə yar sinə, sinə (qəbrə mənasında).

Prof. A.Nəbiyevə görə təcnis sözün poetik gözəlliklərini nümayiş etdirən şeir şəkli olmağı ilə yanaşı, eyni zamanda daha

dərin məna yüklərinin aparıcısı kimi milli-kulturoloji düşüncənin nəsillərarası daşıyıcısıdır (86, 246).

Ümumiyyətlə, Aşıq Valeh poeziyası sözün həqiqi mənasında tam, dolğun və tükənməz bir xəzinəyə bənzəyir, zənnimizcə, ona İlahidən verilən bu söz xəzinəsi, eldən aldığı ilhamı aşıq sənətimizə hələ çox-çox yeni töhfələr bəxş edəcək.

Bu mühitdə özünə xas ifa tərzi və zil səsi ilə seçilən aşıqlarımızdan biri də **Muxaxlı Əlidir**. Əli Abdulla oğlu Gəncəliyev 1950-ci ildə Zaqatalanın Muxax kəndində anadan olmuşdur. Onun uşaq yaşlarında olarkən saza-sözə maraq göstərməsi heç də təsadüfi olmamışdır. Aşıq Əlinin əmisi oğlanları tənbur çalmış, məclislərə getmiş, elinin-obasının rəğbətini qazanmışdırlar.

Sənətkarlar nəslində böyüyüb boya-başa çatması onda aşıq sənətinə olan həvəsi daha da artırır. Deyişmələrinin birində bu barədə deyir:

Muxaxlı Əliyəm sinəmdə sazım,
Elin xoş günündə gəlsin avazım,
Eldən ayrı sənətkarlıq nə lazım,
Sazdan ayrı düşmək fəlakətimdir (78).

Aşıq Əlinin dediyinə görə, o uşaq yaşlarında ikən öz-özünə saz çalmağı öyrənmiş, yetkin yaşlarına çatarkən isə iki ustaddan dərs almışdır. Bunlardan biri Muxaxlı Ramazan, digəri Aşıq Valeh olur. Muxaxlı Ramazan ömrünün cavan çağında məclisləri tək sazla aparmış, amma bütün bunlara baxmayaraq, özünü el şairi hesab edir. O, aşıq havalarını mükəmməl bilməklə yanaşı, bədahətən şeirlər deyir. Belə ustadlardan dərs alan aşıq Əli istər oynaq havaları, istərsə də qəmli havaları çox böyük məharətlə ifa etməyi bacarır. Aşıq Əli «Baş Sarıtel», «Dilqəmi», «Osmanlı divanisi», «Misri», «Şahsevəni», «Ovşarı», «Gəraylı», «Təcnis», «İncəgülü» və s. havaları məharətlə ifa edir. Aşıq Əli yaradıcılığında klassik ənənəyə sadiq qalmaqla yanaşı, zamanın tələbi ilə səsləşən digər mövzulara da müraciət edir. Vətənini, onun zəngin təbiətini böyük məhəbbətlə sevən sənətkar elinə-obasına bağlıdır. O, şeirlərində böyüyüb boya-başa çatdığı, suyundan içib zümrüd meşələrindən, ürək açan yaşıl dağlarından, xoş mənzərələrindən ilham

aldığı Zaqatalanı «cənnət məkan», «qızılgüllər diyarı» adlandırır. Sənətkar «Zaqatala» rədifli şeirində həm burada yaşayan insanların qonaqpərvərliyindən söz açır, həm də öz tövsiyələrini verir:

Muxaxlı Əliyəm deyim ürəkdən,
Süfrən əskik olmur duzdan, çörəkdən,
Yamanı yaxşıdan, şəri gerçəkdən,
Sərraf tək seç axtar, ay Zaqatala (78).

Onun şeirlərinin hər birində axıcılıq, saz havalarına uyarlıq var. Bu baxımdan «Dağlar» rədifli gəraylısına diqqət edək:

Çiskin, dumanlı başına,
De kim bələddir yaşına,
Koroğlu tək savaşına
Nə vaxt gəlim, nə vaxt dağlar.

Və yaxud:

Əli bir az toxda, gözdə
Səbr etsən sönər köz də,
Alışar sinəmdə söz də
Dil yanıb dodaq çəkibdi (78).

O, ənənədən gələn saf məhəbbətin tərənnümünə, təbiət təsvirlərinə poeziyasında böyük önəm verir, eyni zamanda vətənpərvərlik, tarixi, siyasi mövzulara da üstünlük verir. Ustad aşıq yaxşılıq edib sonunda pislik gördüyündə sarsılır, öz könlünə müraciət edib, dərdini içinə boşaltmaqdan başqa çarəsi qalmır: «Ağlama» rədifli gəraylısında sənətkar öz qəlbinə müraciət edərək onu yalandan, böhtandan, pislərdən və pisliklərdən kənar olmağa səsləyir. Hər çətin anında saza, sözə, qələmə sarılan ustad bu üç varlığı həyatda ən yaxın etibarlı sirdaşı, dostu hesab edir. Sazın möcüzəli səsindən ilham alan, təskinlik tapan sənətkar sazı «könül dünyasının müjdəçisi» hesab edir. Şeirlərinin birində saza, sözə böyük dəyər verən Aşıq Əli bu barədə deyir:

Nələr yoxdu sazda nələr,
Ha dinlərsən azlıq edər.
Könülləri yazlıq edər,
Ağlama könlüm, ağlama (78).

Onun poeziyası əsasında gözəllik, mübarizliklə yanaşı, həyatdan küskünlük də duyulur: «Belə getdi» gəraylısında təbiətlə öz daxili aləmi arasında zəngin bədii boyalarla qəribə bir bənzətmə yaradır. Ömründən keçən acılı-şirinli günləri dağları-daşları dəlib gələn boz-bulanıq sellərə bənzədir. İşğal olunmuş vətən torpaqlarının, gözü yaşlı qalan qız-gəlinlərimizin dərdini düşüncələrində dolandıran sənətkar şeirinin birində «Güllü bağım oldu talan» deyə gözəl Qarabağı yada salır:

Qohum-qardaş oldu yalan,
Qarabağım oldu talan,
Yaddaşlarda oldu qalan,
Axdı ömrüm belə getdi (78).

Onun bu gəraylı örnəyində bədii təsvir vasitələri bir-birini əvəzləmək baxımından çox dəyərlidir:

Sözüm qaldı ürəyimdə,
Arzu murad diləyimdə,
Qasırğalar küləyində,
Əli, ömrün belə getdi (78).

Sevgi, doğulub boya-başa çatdığı eldən başlanır. Aşıq Əlidə bu sevgi sonsuzdur. O vətənin hər qarışını sevir. Vətəninə gələn acı onun da ümumi dərdinə çevrilir. Sənətkar tarixi hadisələrə biganə qalmır. Özgə torpağına göz dikənlərə sözünü belə ünvanlayır:

Necə qəhrəmanlar gəldi dünyaya,
Tut vaxtı yetişdi, tez oldu getdi,
Rüstəmin zərbindən titrədi dağlar,
Düşdü dastanlara söz oldu getdi (78).

Aşığın yaradıcılığında deyişmənin xüsusi yeri var. Sənətkarın qüdrətini artıran əsas xüsusiyyətlərdən biri də onun məclislərə düşüncə bədahətən deyişmək bacarığına malik olmasıdır. Onun Zaqatala aşıqlarından Aşıq Valeh və el şairi Ramazanla da deyişmələri olmuşdur. Bu deyişmələrin hər birində dostluq, böyük yolu gözləmək, ustadlara hörmət duyulur. Bu xüsusiyyətləri biz bütün Zaqatala aşıqlarının yaradıcılığında izləyirik. Aşıq Əli ilə el şairi Ramazan məclislərin birində olarkən deyişirlər:

**Aşıq Əli**

Xudam nəzərindən salmasın səni,
Səni duymayanlar duysun qüssəni.
Kədər dünyasına çatan naməni,
Nikbin könüllərdə duyulan dostum.

**Aşıq Valeh**

Çoxları döş vurub çıxar sürəyə,
Çox can atar, çata bilməz bərəyə.
Çoxları zirvədən enər dərəyə,
Bəd xisləti ahu-vay olan dostum (78).

İnanırıq ki, Aşıq Əli öz dəsti-xətti ilə, özünəməxsus yaradıcılıq imkanları, ifası ilə Azərbaycan aşıq sənəti üçün yeni-yeni töhfələr bəxş edəcəkdir.

Zaqtala aşıq mühitinin nümayəndələrindən biri Muğanlı kəndində dünyaya göz açmış Aşıq Sabirdir. O, Azərbaycan ozan-aşıq sənətinin layiqli davamçılarından biridir. Çox dərin, mənalı, keşməkeşli ömür və yaradıcılıq yolu keçən Aşıq Sabir yaşadığı, böyüyüb boya-başa çatdığı obasında, gəzib dolaşdığı uzaq ellərdə belə zəmanəsinə boyun əyməyən mübariz bir insan, ustad aşıq, ailəsinə bağlı, sevgisinə layiq, incə ruhlu bir sənətkar kimi tanınıb. Zaqatala aşıq mühitində istər tarixən, istərsə də çağdaş dövrümüzdə onlarla ustad və ifaçı sənətkarlarımız yetişmişdir. Onların hər birinin Zaqatala aşıq mühütində özünəməxsus yeri və rolu olmuşdur. Muğanlılı Aşıq Sabir Abdulməcid oğlu İbrahimov bu mühütdə öz dəsti-xətti, şirin ürəyə yatımlı ifası, səsi ilə bədahətən şerlər deməyi ilə yadda qalan sənətkarlarımız sırasındadır. Təəssüf ki, Aşıq Sabirin həyat və yaradıcılıq irsi günümüzə kimi tədqiqata cəlb olunmamışdır.

**Aşıq Sabir** Abdulməcid oğlu İbrahimov 1950-ci ildə Zaqatalanın saz-söz diyarı olan Muğanlı kəndində zəhmətkeş bir ailədə anadan olmuşdur. Şeirlərinin birində böyüyüb boya-başa çatdığı yer haqqında belə deyir:

Muğanlı elimdir, doğma obamdır,
Yazda yaylağımdır, qışda sobamdır.

Ürəyim qan tökər olsam da bir xan
Mənim doğma yurdum Azərbaycan!

Aşıq Sabir öz ilham pərisi ilə məhz Muğanlı elində görüşmüş, hər zaman güc aldığı torpağı, doğma elini-obasını poetik obraza çevirib qəlbinin ən dərin guşəsində saxlamağa çalışmışdır.

Aşıq Sabirin dediyinə əsasən, bu sənətə vurğunluq onda hələ uşaq yaşlarından yaranmışdır. Ustadın babası aşıq Allahverdi Həsilov zəmanəsinin adlı-sanlı sənətkarlarından biri olmuşdur. O, XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayıb yaratmışdır. Babası dünyasını dəyişəndən aşıq Sabirin anası atasının sazını götürüb saxlamış, evlərinin yuxarı bir küncündə asmış və bu sazı hər zaman özünə doğma və müqəddəs bilmişdir. Çöx keçmir ki, Hürü ananın oğlu Sabir bu saza həvəs göstərmiş öz üzərində işləyə, el məclislərində çala-çağıra məşhur bir sənətkara çevrilmişdir. Prof. Qara Namazov el şənliklərinin sənətkarın bir sənətkar yetişməsində böyük təsiri olduğunu qeyd etmişdir (83, 19-30). Aşıq Sabir vətənini diyar-diyar gəzib məclislər keçirdiyindən xalqın həyatını, adət-ənənələrini, dilini gözəl bilmişdir. Məhz bu amillər onun yazdığı şeirlərin daha canlı, daha təbii alınmasında böyük rol oynamışdır. Aşıq Sabirin sənətkarlıq irsi nüəyyən bir şəcərə təşkil edir. Ustad sənətkarın babası zəmanəsinin tanınmış sənətkarlarından olmaqla yanaşı qardaşı Şirin Qəlbunur da el şairi kimi fəaliyyət göstərməkdədir. Aşıq Sabirin oğlu Sübhan, qızı Aytən də atasının layiqli davamçılarından hesab oluna bilər. Hər ikisi sazda çox məharətlə ifa etməyi bacarırlar. Aşıq Sabirin qızı Aytən Aşıq Ulduzun şagirdi olmuşdur.

Aşıq Sabir gəncliyindən başlayaraq ustad sənətkarların ədəbi irsini dərindən öyrəndiyi üçün onun yaradıcılığı getdikcə zənginləşmişdir. Aşıq Sabir yaradıcılıq qüdrəti ifa tərzi vətəndən uzaqda Rusiya, Qazaxıstan, Gürcüstan, Dağıstan ellərində də sevilmiş və dəfələrlə müxtəlif məclislərə dəvət almışdır. O, bu gün el məclislərinə dəvət alır. «El aşıqları, onların oxuduqları hava və ifa tərzləri, danışdıqları nağıl və dastanlar, indiki mədəni tələblər mənasında desək, əhali üçün vaxtı ilə müəllimi də, mətbuatı da, kinonu da, professional teatrı da, radionu da əvəz etmişdir» (50, 168)

Aşıq Sabir yaradıcılığı çoxşaxəli və müxtəlif yönlüdür. Onun poeziyası əvvəldən sona vətənpərvərlik, yaşadığı elə-obaya, ailəsinə, ömür-gün yoldaşı Yaxşıxana sevgi, hörmət hisləri üzərində qurulmuşdur. Sevgi ilə nəfəs alan aşıq, yarının gözündən də, özündən də uzaq getməməsi üçün canını belə qurban verməyə hazırdır:

Gecə-gündüz damarımda axan qan,
Görən nə düşünür indi Yaxşıxan.
Vərəqlədim keçən ömür yolumu,
O sevgi dastanın yadıma düşdü.

Aşıq Sabir ailəyə bağlı olduğu kimi vətənininə, yaşadığı elinə-obasına bağlı insandır. Onun poeziyasında hərdən qəriblik, vətən həsrəti duyulur, hərdən də sinədən gələn misralarında sevinc-qəm bir-birinə yoldaş olurlar. Prof. Mürsəl Həkimov haqlı olaraq Aşıq ədəbiyyatını vətənpərvər, beynəlmiləl xəlqi olduğunu qeyd etmişdir (49-242). Aşıq Sabir poeziyasında bu vətənpərvərlik motivləri dərin iz salır. “Düşmüşəm” rədifli şeirində sənətkar belə deyir:

Sabir qan yaş tökər vətəndən ayrı,
Başı nələr çəkər sevgidən ayrı.
Qardaşdan, bacıdan, anadan ayrı
Şaxtalı boranlı qara düşmüşəm.

Aşıq Sabirin poetik irsini dürüst dəyərləndirmək üçün onun şeirlərinin mövzu dairəsinə, estetik mahiyyətinə, məna-məzmun tutumuna, sənətkarlıq xüsusiyyətlərinə həssaslıqla yanaşmaq lazımdır. Bu xüsusiyyətlər mövzu əlvanlığı ilə seçildiyi kimi yeni fikir aşılamaq və deyim tərzi baxımından da fərqlənir:

Hicran yaraları bağrımı dəldi,
Düşündüm ömrümün sonudu gəldi.
Daş da olsa dözməz insanın qəlbi,
Ey baharım, zimistanım hardasan?

Sənətkar yaşadığımız fani dünyamızın təzadlı olaylarına aydınlıq gətirmək üçün alleqorik predmetlərdən ustalıqla istifadə edir. Belə şeirlərində təbliğ etdiyi ibrət insanları saflığa, doğruluğa, imana vətənpərvər olmağa səsləyir. Ümumiyyətlə, böyük humanizm, xeyirxahlıq, səxavət, inam, ailəyə bağlılıq, səmimiy-

yət, igidlik, mərdlik, vətənpərvərlik kimi atributlar aşıq Sabir poeziyasının əsasını təşkil edir:

O gözəl şəhərim Zaqatalanı,
Könül coşa gəlib çəkə nazını,
Səs salıb dünyaya qazanıb ad-san
Mənim doğma yurdum Azərbaycan!

Ustad sənətkarın yaradıcılığında təbiət və vətənpərvərlik mövzularında yazılmış bütün şerlərində vətəndən ayrı bir ağrı-acı həsrət boy verir. O, doğma elinin hər qarışına, mamır bağlamış daşına kimi nəğmələr qoşur. Bunun əsas səbəbi sənətkarın tez-tez vətəndən kənarda Rusiya, Dağıstan, Gürcüstan ellərinə məclislərə dəvəti ilə əlaqədar yaranmışdır. Tez-tez və uzun müddətli ailəsindən, vətənindən ayrı qalan sənətkarı həsrət, qəriblik tipli şeirlər yazdıran da məhz qürbət olmuşdur. “Bu yerlərdə qalaydım” rədifli qoşmasında Aşıq Sabir belə deyir:

Tale mənə qismət etsə, a qardaş,
Dönüb elə bu yerlərdə qalardım.
Yadıma düşüfdür hər qaya, hər daş.
Vallah, elə bu yerlərdə qalardım.

Sonrakı bəndlərdə aşıq yaşadığı elinin əsrarəngiz meşələrin, gözəl təbiətini vəsf edir. Vətən təbiətinin gözəl vaxtında müvəqqəti yurdundan ayrı düşdüyü üçün təəssüf hissi keçirir.

Gözəl mənzərəsi, sıx meşələri,
Ətirli bağları, yaşıl düzləri,
Kim ayrı düşəndə ağlar gözləri,
Gərək elə bu yerlərdə qalardım.

Sənətkar diğər bəndi üzünə həsrət qaldığı təmiz saf sevgisini xatırlayır:

Sevgilim hardadır özüm hardayam.
Bəxtimə qar yağıf yaman dardayam.
Vətən də darıxıf mən soraxdayam.
Gərəh elə bu yerlərdə qalaydım.

Sonrakı bəndə ustad insan ömrünü axar suya bənzədir. Necə ki, su öz çuxurunda durmur, sürətlə axır gedir, insan ömründəki illər də eləcə bir-birini üstələyir.:

İnsan ömrü sudur, dayanmaz, axar.
Gələn gələcəkdir, qalanlar baxar.
Sabirəm, sinəmdə ürəh sızıldar,
Gərəh elə bu yerlərdə qalardım.

Zaqatala aşıq mühiti, aşıq yaradıcılığı mənəvi və əxlaqi dəyərlər məcmusudur. Burada insan ömrünün ağrı və acıları, sevgi və iztirabları, sevinc və göz yaşları, kini, nifrət və məhəbbəti cəmləşmişdir. Ona görə də sənətkar bu ömür yolunda "Ömür karvanımdan can alır həyat", "Ömrüm, günüm qəm sazını çalandı" söyləyir. Eyni zamanda qəlbinin dərinliklərində olan ümüdünü də həyatdan qırmır. «Gələcək bir ümüd çırağım mənim» deyə düşünür.

Aşıq Sabir qürbətdə keçirdiyi günlərində vaxtının çox hissəsini telli sazıyla bölüşür:

Bir sinə dəftərəm vətən bağında,
Dərdi kimə deyim, a telli sazım?
Hayana baxıram bir kimsənəm yox.
Gəl mənə həmdəm ol, a telli sazım.

Aşıq Sabirin bu şeiri telli saza, ümumiyyətlə, saz-söz sənətinə olan hörmət və sevgidən, soraq verir. O, saz ilə həmsöhbət, sirdaş olduğu anlarını ən dəyərli anlarından hesab edir. "Ay telli sazım" qoşmasında bu barədə belə deyir:

Telinə həsrətəm xeyli zamandı,
Sənsiz nə sevincim olar, amandı.
Səndən sayrı düşdüm, halım yamandı,
Gəl sinəmdə dillən, a telli sazım.

Dərdli-kədərli anlarında hər zaman sazını sinəsində görmək istəyən sənətkar ömrə vəfa yoxdur deyə düşünür:

Sabir səni hər anında arzular,
Yoxdur ömrə nə dövrana etibar.
Təbiətdən əsər qanlı ruzigar
Yanımda sızlarsan a telli sazım.

**İctimai-siyasi** şeirlərində ustad aşıq başına gələn hadisələrə görə zamanın gərdişini günahlandırır. "Məni" rədifli qoşmasına diqqət edək:

Dünya, səndə bir etibar görmədim,
Saldın bu vaxtımda çöllərə məni.
Vətən həsrəti ilə çırpınır qəlbim.
Axıtdın sel kimi çöllərə məni.

Qanadımı qırdın, qolumu qırdın.
Dözməyən qəlbimə min yara vurdun.
Məni soraqlayar vəfalı yurdum.
Bu zaman salıbdır çöllərə məni.

Aşıq Sabir poeziyasında ictimai-siyasi şeirlərin əsasında dünya (obrazı durur) bir simvol kimi kök salır. Qarşılaşdığı çətinliklərin səbəbini Çərxin gərdişində görür. Sənətkar xüsusən kini-kidurətini, ağrısını-acısını dünyaya müraciətlə yazır:

Ayrılıq əlindən cana doymuşam,
Sevgilimdən tənha, ayrı qalmışam.
Həsrətdən sinəmi viran qoymuşam,
Sənə bel bağlamaq olarmı, dünya?

Digər bəndlərdə aşıq daha kəskin çıxış edir, dünyanı viranə adlandırır.

Viranəsən bilirəm əzəldən bəri,
Min yerə atırsan əlində zəri,
Qəriflikdə öldürürsən Sabiri
Köksümdə min yara qoydun a dünya.

Həyatdan, talenin qalmaqallı olaylarından şikayət xarakteri daşıyan şeirlərində ustad öz qardaşı oğlunun gözlənilməz və vaxtsız ölümünə dözmür, bu faciə hamı kimi sənətkarı da sarsıdır. “Ağladı” rədifli şeirində bu barədə deyir:

Məclislərdə gözüm axtarar səni
Ocağında közün axtarar səni,
Dözəmmərəm dözüm axtarar səni,
O çırağı sönmüş evin ağladı.

Aşıq Sabir ailəsinə bağlı olduğu kimi qohum-qardaşının da dərdinə şərik olan fədakar sənətkarlarımızdandır. Onun “Ağladı şeirində yaratdığı bədii təsvir və ifadə vasitələri Aşıq Sabirin sənətkarlıq qüdrətindən soraq verir:

Yurdunda bostanlar əkilən balam,
Ömrünə qara gün səpilən balam,
Vaxtsız çırağını söndürdü zaman,
Dostların dost dedi, gözlər ağladı.

Sənatkarın məhəbbət mövzusunda yazdığı şeirləri də diqqət çəkir. O, ömür-gün yoldaşı olan bir tək sevgisi Yaxşıxana sadiq qalır, elə bir şeiri olmasın ki, orada sevgidən bir misra yazmamış olsun. Ona ilham verən bu saf sevgisi, həyata bağlayan telli sazı, övladları olmuşdur. "Hardasan" rədifli şeirində saf sevgisini belə yada salır:

Yerim cənnət olsa qürbətdə mənim,
Sevincdən çox olur kədərim, qəmim.
Elə bir odlanır tarlada zəmim,
Söylə görüm, ey nigarım, hardasan?

Aşıq Sabir şəxsiyyəti və poeziyası öz dolğunluğu, bitkinliyi ilə özündən sonra gələn nəsillərə gərəkli nümunə olacaqdır.

**El şairləri**

Zaqatala aşıq mühitində ustad ifaçı aşıqlarla yanaşı, el şairləri də yaşayıb yaradırlar. Öz sənətkarlıq xüsusiyyətlərinə görə el şairləri iki qismə ayrılır. Birinci qismə aid olanlar həm aşıq şeiri üslubunda yazıb yaradır, həm də sazda aşıq havalarını böyük məharətlə ifa etməyi bacarır, yeri gələrsə ustad aşıqlarla məclisdə deyişirlər. Amma ustad aşıqlardan fərqli olaraq, ifa zamanı oxumurlar. Muxaxlı Ramazan, Mustafa məhz belə sənətkarlarımızdandır. İkinci qismə aid olanlar isə yalnız aşıq şeiri üslubunda yazan sənətkarlarımızdır ki, onlar sazda ifa etmirlər. Belə sənətkarlarımız sırasında Muxaxlı Məhərrəm Dağlını, Xəstə Əhmədin adlarını çəkə bilərik.

Elin-obanın böyük rəğbətini qazanan **Muxaxlı Ramazan** 1930-cu ildə Zaqatala rayonunun Muxax kəndində dünyaya göz açmışdır. Atasının ustad aşıq olması, saz-söz mühitində boya-başa çatması onda bu sənətə böyük həvəs və rəğbət hissi oyadır. Muxaxlı Ramazan şeirlərindən birində öz keçdiyi ömür yoluna nəzər salır:

Ömrüm keçib şeir yaza, saz çala,
İlham pərisiynən tutub qol-qola.
Qələmlə yapmışam alınmaz qala,
Bunu da qoymuşam yüzlərin üstə.

Və yaxud:

Ruzi qazanırıq halal əməkdən,
Bərəkət dilədik ulu fələkdən.
Bal da şirin deyil halal çörəkdən,
Hatəm səxavətli Muxaxlıyam mən (78).

El şairi Ramazan aşıq şeiri üslubunda yazıb-yaratmaqla yanaşı, yazılı ədəbiyyatı da gözəl bilir. Nəsiminin, Füzulinin, Xətainin şeirlərini sinədəftər etmiş, yeri gəldikcə poeziyasında da onlara böyük hörmətlə yanaşır. M.İbrahimov «Aşıq poeziyasında realizm» kitabında qeyd etmişdir ki, qüdrətli bir sənətkarın yetişməsi üçün yaradılan hər bir nümunədə həm xalq yaradıcılığının rolu, həm də yazılı ədəbiyyatla qarşılıqlı əlaqə və təsirdə inkişafı əsaslıdır (51, 12-14). El şairi haqqın nəzərinin öz üzərində olmasını həyatın hər bir nemətindən, var-dövlətindən üstün tutur. «Çəkə-Çəkə» rədifli təcnisində bu barədə deyir:

Yığmamışam nə altunu, nə zəri,
İnsana lazımdır haqqın nəzəri.
Ramazana dəyməsin bəd nəzəri,
Qalsın peşmanlığı ay keçə-keçə (78).

Ramazan elə el şairlərindəndir ki, yaradıcılığında aşıq şeirinin bütün nümunələrinə müraciət etmişdir. Prof. S.P.Pirsultanlıya görə, əsil sənətkar bacarığını təcnisdə bəlli etmişdir (96, 28). Aşıq bu şeirlərində öz xarakteri haqqında kifayət qədər məlumat verir.

Həm el şairi, həm də aşıq kimi tanınan Muxaxlı Ramazan şeirlərinin əksəriyyətində özünü eşq əhli kimi təqdim edir. Aşıq Ələsgərə ithaf etdiyi qoşmalarının birində belə deyir:

Eşq əhliyəm, ürək sözlə doludur,
Qurduğum yol ustadların yoludur.
Ozan, qopuz hər sənətdən uludur,
Onlar görüb neçə sənə, Ələsgər (78).

El şairinin yazdığı şeirlər müxtəlif mövzuları əhatə edir. İstər vətən, istər sevgi, məhəbbət, istərsə də bu günümüz üçün aktual olan Qarabağ mövzusu onun yaradıcılığında əsaslı yer tutur. «Necə oldu», «Dünya», «Olmuşam», «Var», «Üstə» və bir çox şeirlərinin məzmunundan görünür ki, el şairi Ramazan yaşadığı el-obaya bütövlükdə Azərbaycanın bircə qarış torpağına belə laqeyd qalmır. O, vətən torpaqlarının hər bir ecazkarlığına, hər bir gözəlliyinə ayrıca şeir yazmış, qoynunda yaşadığı dağları təsvir və tərənnüm etmişdir:

Gah piyada gəzdim, gah mindim atı,
Addım-addım çox dolandım elatı,
Tütəkdə çalınan çoban bayatı,
Yayıldı dərəyə, düzə dağlarda (78).

Bildiyimiz kimi dağlar, Qurbanidən, Aşıq Ələsgərdən, Şəmkirli Hüseyndən başlamış, Molla Cuma, Aşıq Məhəmməd Varxiyanlının, Aşıq Mədətin və başqa sənətkarlarımızın da müraciət etdiyi mövzulardan olmuşdur. Hər kəs bu mövzuya bir cür müraciət etmişdir. Aşıq Ramazan qoynunda məskən saldığı dağlarla həm dərdini bölmüş, həm də onu hər xırda incəliyinə qədər təsvir etməyə çalışmışdır:

Göy qaralıb ildırımlar çaxanda,
Hər tərəfdən sellər, sular axanda,
Külək əsib alaçığı yıxanda,
Hünər istər onda dözə dağlarda (78).

Dünyanın gərdişinə bel bağlamayan sənətkar tarixə nəzər salır, sevincini, kədərini, nisgilini ona söyləyir:

Bahar əyyamıdır, çöllər bəzənib,
Bülbüllər oxuyub, gül qonaq gəlib.
Könül havalanıb, eşq təzələnib,
Həsrətlə öldürmə nübara dünya (78).

O, şeirlərində böyüyüb boya-başa çatdığı elinin, obasının tez-tez adını çəkir, onun hər qarışına, hər daşına, çiçəyinə böyük məhəbbət, hörmətlə yanaşır. Sənətkarın poeziyasına gətirdiyi qəhrəmanlar xalqın içərisindən çıxmış, təsvir etdiyi təbiət gözəllikləri isə tam şəkildə reallığa əsaslanır. «Bacarıqlı el şairi odur ki, sözə,

şeirə böyük məsuliyyət hissi ilə yanaşır, az yazır, dəyərli yazır, yazıb yaratdığı örnəklərdə müasir həyatla səsləşir” (95, 154-167). «Bu yerlər» rədifli divanisi bu baxımdan dəyərlidir:

Dost əlini iki əllə tutan yerdir bu yerlər,
Söhbətinə qəndi-nabat qatan yerdir bu yerlər.
İnanmayan təşrif qılsın təbiətin qoynuna,
Xəstə olan dərdə dərman tapan yerdir bu yerlər (78).

Muxaxlı Ramazanın yaradıcılığının əsas hissəsini Qarabağa həsr olunmuş qoşma və gəraylılar təşkil edir. «Necə oldu» qoşmasında şair Göyçə mahalının, onun düşmən tapdağında qalan ərazilərinin adını çəkir. O, Vətənindən ayrı düşən həmyerlilərinin dərdinə şərik çıxır, soydaşları, doğmaları üçün qəribsəyən, sahibsiz qalan qarlı dağları təsvir, tərənnüm edir:

Sahibsiz qalıbdır laləli dağlar,
Yaşıl çəmən, meşə, meyvəli bağlar.
Ağkilsədə donub sərin bulaqlar,
Ələsgər babamın sazı necoldu?

Babacan, Ağbulaq, Zod, Sarı Yaqub,
Daşkən, Çil, Şişqaya qəm sazın çalıb.
Qızılvəng bu işə mat-məəttəl qalıb,
Şıx Alının ayaq izi necoldu? (78).

O, bütün şeirlərində itirilmiş hər qarış torpağımız üçün təəssüf hissi keçirir. Düşmən tapdağında olan bütün rayonlarımızın adını çəkərək vaxtı ilə gəzib dolaşdığı bulaqları xatırladır, bununla təbiətin əvəzsiz portretini yaradır. Bir gün vətən torpaqlarının alınmasına ümid bəsləyən şair xalqını bu yolda birliyə səsləyir, onları mərd, əyilməz, cəsarətli görmək istəyir. Əli Vəkil yazılarının birində qeyd etmişdir: «Şairlərə şeiri dərd yazdırır. El-oba dərdi, bütövlükdə vətən dərdi, fərdin öz çəkilməz dərdi» (123, 4). Şair oğlunu vətən uğrunda şəhid verən ananın ah-naləsinə həm qəzəblənir, həm də ürəkdən acıyır. «Ağlama» rədifli qoşmasında bu barədə belə deyir:

Türk övladı baş əyməyib yadlara,
Tarixən çox düşdük belə odlara.

Tülkü, çaqqal nə edər boz qurdlara,
Tutulacaq dil-boğazın, ağlama (78).

Aşıq həmin şeirin başqa bir bəndində isə yerinə düşən gözəl müqayisələr aparır:

Dumana bürünüb dağların başı,
İsti su yerinə axar göz yaşı.
Kəlbəcər elimin bir üzük qaşı,
İtməz barmağımdan izi, ağlama (78).

Çıxış yolunu yalnız ellərin birliyində görən sənətkar vətəninə olan arzu və istəklərini belə ifadə edir:

İmkan verməyək fitnə-fellərə,
Güvənək vətənə, doğma ellərə,
İstidən qor olub yanan çöllərə,
Dirilik suyu tək axa bileydim (78).

«Mən» rədifli qoşmasında el şairi Ramazanın daha kəskin çıxış edərək həmyerlilərini vətəninin, xalqının düşməninə düşmən, dostuna dost olmağı tövsiyə edir:

Dilimdə əzbərdir doğma vətənim,
Onsuz şahə qalxmaz ömür karvanım,
Dostlarına dostam, düşmənə qənim,
Onun xəmirində yoğrulmuşam mən (78).

Muxaxlı Ramazanın şeirlərinin əsasını saf məhəbbətin tərənnümü təşkil edir. Onun bu mövzuda yazdığı şeirlərində gözələ əxlaqına, ədəb-ərkanına görə dəyər verilir. Şair məhəbbət şeirlərinin qəhrəmanı hesab etdiyi gözəli vəfalı, sözünə sadiq, sədaqətli, mehriban, etibarlı görmək istəyir. Ümumiyyətlə, götürdükdə məhəbbət elə bir ilahi bəşəri bir hisdir ki, ona hər bir sənətkarın yaradıcılığında təsadüf edirik. Prof. V.Vəliyev «Qaynar söz çeşməsi» kitabında qeyd etmişdir ki, Azərbaycan şifahi xalq ədəbiyyatında elə bir söz ustadına təsadüf etmək olmaz ki, o, gözəldən, gözəllikdən və məhəbbətdən yazmamış olsun (120, 22). Ramazanın «Demədimmi» qoşması bu baxımdan maraqlıdır:

Odlara qalandım can deyə-deyə,
Qulun oldum sənə xan deyə-deyə,

Çıxmadın qarşıma can deyə-deyə,
Ötməsin aradan il demədinmi (78)?

Onun məhəbbət şeirlərində əsasən, vətəninin, elinin-obasının gözəlləri təsvir və tərənnüm edilir. Qeyd edək ki, burada şair üçün əsas olan birinci şərt gözəllərin ədəb-ərkanlı olmasıdır. Bu qəbil şeirlərinə «Gözəl», «Xanım» «Yaxşısan» və s. daxildir. O, şeirlərinin birində öz övladı tək sevdiyi gözəlin günəşə bərabər surətini təsvir edərək, onun sevgisinə qovuşmasını arzulayır. Onu pis gözlərdən kənar olmasını, haqq yolundan ayrılmamasını istəyir:

Günəşə nisbətdir o gül camalın,
Səadət bağında gəzsin xəyalın.
Könlün istəyənlə tutsun iqbalın,
Ürəyində yanar köz ilə, gözəl (78).

Sonrakı bəndlərdə şair özünü haqq carcısı kimi təqdim edərək gözələ xoş arzularını bildirir. Burada el şairinin məclislər aparan ustad aşıq kimi də təqdim olunduğunu görürük. Doğrudan da, Muxaxlı Ramazanın şairliyi ilə yanaşı, yeri gələndə gözəl məclislər aparmasının da şahidi oluruq:

Qədrini bilənəm mən haqqın-sayın,
Şirin dilin olub qüdrətdən payın,
Toyunu keçirsin Ramazan dayın,
Sinəsində telli saz ilə, gözəl (78).

Məhəbbət şeirləri içərisində şairin birbaşa öz taleyi ilə əlaqəli qoşma, gəraylı, təcnislərinə də təsadüf edirik. «Divanəsidir», «Deyə-Deyə», «Gülə-Gülə» və s. kimi şeirlərini buna nümunə göstərmək olar. «Gülə-gülə» qoşmasında şair iztirablarını, hiss-həyəcanını bəlli edir. Sevgisinə həsrət qalan şair «dərdindən könlümün aynası pas bağlayıbdır» deyərək hərdən onu qınayır. Bu dərdi yalnız onunla bölmək istəyir:

Çəkdiyim zəhməti zay eyləməyib,
Divanə Məcnuna tay eyləməyib,
Gözdən axan yaşı çay eyləməyib,
Dərdimi özünlə böl, gülə-gülə (78).

El şairi Ramazanın yaradıcılığında əsas yer tutan mövzulardan biri də ictimai-siyasi lirika və əxlaqi-didaktikadır. Maraqlı

xüsusiyyətlərdən biri də budur ki, onun tərbiyəvi-əxlaqi, öyüd-nəsihət kəsb edən şeirlərinin hər birində dövrün tənqidi, zəmanədən giley əsaslı yer tutur. «Olmasa» rədifli ustadnaməsi bu baxımdan maraqlıdır. Burada şair öyüd-nəsihətə yer verməklə yanaşı, haqq yolundan çıxanları tənqid edir:

Adından bəllidir namərd namərddi,
Dünyada altundur bir onun dərdi,
Yediyi zəhərdi, dediyi şərdi,
Mən yanmazdım iqtidarı olmasa (78).

Şairi «zamanın çərxi», cəmiyyətdə baş verən haqsızlıqlar narahat edir. O, şeirlərində tez-tez bu barədə yazır.

Ulaq qabaqlayıb dilboz səməndi,
Çulu dəyişsə də özü həməndi,
Sahibsiz qalıbdır haqqın kəməndi,
Biz isə deyirik allaha şükür (78).

Ətrafda baş verən hadisələrə biganə qala bilməyən sənətkar hər kəsin nəzərinin vətən torpaqlarının birliyinə yönəlməsini istəyir. «Olub» rədifli qoşmasında şair hadisələrə kəskin münasibətini bildirir:

Böhtan yedəyində yığmışıq günah,
Əcnəvi əlində olduq oyuncaq,
Tamam unuduldu cənnət Qarabağ,
Haqqın gəlişi də çox yavaş olub (78).

Cəmiyyətdə baş verən hadisələr, zamanın çərxi onu sarsıtsa da insanları doğru yola çağırmaqdan usanmır. Onun bu tip şeirlərinin hər birində xalqın ağır vəziyyətinə etiraz duyğuları və zamanın ədalətsiz, zülmkar əməllərindən şikayət əsas yer tutur. «Əsil sənətkar odur ki, o, yaradıcılığında da həmişə yaşadığı dövrün ictimai-siyası hadisələrini əks etdirməyi bacarsın» (3, 84-85). Şeirlərində və digər örnəklərdə Ramazan insanları doğru yola səsləyir, şər, böhtandan uzaq olmağı məsləhət görür. «Üstə» rədifli qoşmasına diqqət edək:

Arif olan xeyir işə şər deməz,
Riyakarlıq, yalan şöhrət gətirməz.

Bəndə götürsə də, Allah götürməz,
Namərd ayaq bassa mərdlərin üstə (78).

Muxaxlı Ramazanın şeirləri öz orijinallığı və səmimiliyi ilə diqqəti cəlb edir. El şairi özündən əvvəlki sənətkarları da unutmur, qoşma və gəraylılarında ustadları tez-tez xatırlayır, yaradıcılığında onlara böyük dəyər verir. Mənəm-mənəmlik, saxtakarlıq, şişirtmə onun şeiriyyətindən uzaqdır. El şairi həyatda öz qayğıkeşliyi, əqidəsi ilə necə tanınırsa, şeirlərində də həmin dəyərləri ilə tanınır. Təsadüfən iştirak etdiyi bir məclisdə başqa eldən qonaq olan bir aşığın özünəməxsus ədası, özündən razılığı Muxaxlı Ramazana xoş gəlmir. Ona söz verilərkən bədahətən «Var» rədifli qoşmasını deyir:

Mənə aşıq deyib büzmə dodağın,
Bəli mən aşıqəm belə karım var.
Ariflər yanında el arasında,
Hər saya çəkilən xoş göfdarım var (78).

Bu nümunəni bizdən öncə folkloşünas M.Abdulayeva da toplamışdır.

El şairi Ramazan Zaqatala aşıq mühitində özünəməxsus yerləri olan və hər biri öz sənətkarlıq qüdrəti ilə tanınan ustad aşıqların adlarını çəkərək ona davranışlarına diqqət etməyi xatırladır:

Aşıq Məhəmməd tək sözdə ucala,
Xudam verib həzin səsi Camala.
Dəfn etdi Kamalı ikinci Tala,
Onsuz gecə-gündüz ahu-zarım var (78).

On bənddən ibarət olan bu qoşmasında şair demək olar ki, bir çox haqq aşıqlarının adlarını çəkir, hərəsinə ayrılıqda dəyər verir. Bununla o, Zaqatala aşıqları haqqında oxucusuna kifayət qədər məlumat vermiş olur. Maraqlı cəhət budur ki, Muxaxlı Ramazan poeziyası əvvəldən sonadək həyati gerçəklik üzərində qurulmuşdur. Həyatda yaxşıya-yaxşı, pisə pis kimi dəyər vermək bacarığını onun bütün şeirlərində izləmək mümkündür. Nəsihət xarakteri daşıyan «Üstə» rədifli ustadnaməsində şairin birbaşa öz xarakteri boy verir:

Yaxşıya yaxşıyam, yamana yadam,
Qədir bilənlərin ağzına dadam,

Qışda da sönməyən alovam odam,
Çoxdu qızınanlar közlərim üstə (78).

Muxaxlı Ramazan poeziyasının özünməxas xüsusiyyətlərindən başlıcası budur ki, o insanlığa xas bütün mənəvi keyfiyyətləri əvvəlcə özündə təcəssüm etdirir, sonra başqalarında görmək istəyir. Yolundan çıxanların doğru yola qayıtmasını istəyən şair, nahaqqın haqqın üzərinə ayaq açmasına dözmür. Bütün bu kimi müxtəlif hadisələr onu hər zaman narahat edir:

Niyyətdə təmizəm, qeyrətdə mətin,
Durub yedəyində səmimiyyətin,
Mənimçün həmişə olubdur çətin,
Əyri ayaq bassa dizlərim üstə (78).

Muxaxlı Ramazan tez-tez məclislərə dəvət olunmuş, yeri gəldikcə, dövrünün tanınmış ustad aşıqları ilə də deyişmişdir. Təsadüfən məclislərin birində suvagilli Kor Nəzirlə deyişir. Dəvətlə başlayan məclis, hərbə-zorba, bağlama ilə davam edir və barışıqla bitir. Bu deyişmədə öyüd-nəsihət, zamanədən, qocalıqdan şikayət kimi önəmli məsələlər öz əksini tapır. Bir deyişməyə diqqət edək:

**Nəzir**

Əməli salehəm yoxdur günahım,
Dərsimi veribdir o şahlar şahı.
Bazarım əladır, dürdür mətahım,
Sənin məhsulundur şeir, Ramazan.

**Ramazan**

Boyadığın ipin solubdur rəngi,
Müştərilər qaçıb içirib zərdi,
Gəzib dağ mahalı, dolan Dərbəndi,
Qazanın qaynayır dur, Aşıq Nəzir (78).

Şair eyni zamanda yaşadığı elə-obaya bağlı, onun təbiətinə vurğun olan bir insandır. Onun «Zaqatala xəritəsi» qoşmasında rayonun bütün kəndlərinin adı çəkilir. Hər kəndin sakinlərinin ayrılıqda xarekteri, özlərinə xas xüsusiyyətləri, adət-ənənəsi,

davranış tərzi, qonaqpərvərliyi əks olunur. Hər yerin ayrılıqda spesifik özəlliklərindən söz açılır. Bu qoşma Muxaxlı Ramazan şeirləri içərisində, yaratdığı şah əsəri hesab oluna bilər. Onun şeirlərinin ayrılıqda hər biri insanları doğruluğa, düzlüyə səsləyir. Onun yaradıcılığının orijinallığı həm də bununla dəyərləndirilə bilər. Zənnimizcə, Muxaxlı Ramazan şeiriyyəti gələcək nəsillərə və aşıq sənətimizə gərəkli nümunə ola bilər.

Zaqatala aşıq mühitində həmişə tanınmış el sənətkarları yaşayıb-yaratmışdır. Çox təəssüf ki, başqa mühitlərə nəzərən bu mühitin tam araşdırılmaması səbəbindən saz-söz sahibləri də yetərincə tanınmamışdır. Belə sənətkarlardan biri də el şairi hesab olunan Bəhmədli Aşıq Mədətin böyük qardaşı **Ömərov İsmayıldır**. 1944-cü ildə dünyaya gələn şair hələ uşaq yaşlarından atasını itirmişdir. Onun saz-söz ocağında böyüməsi, dayısı Arazın, qardaşı Mədətin dövrlərinin tanınmış sənətkarı olması, babası Şabanın zurna, saz, balaban ifaçısı olması onda şeirə-sənətə olan həvəsi daha da artırır. On iki, on beş yaşlarına kimi sazı böyük həvəslə çalan İsmayıl sonralar nədənsə aşıqlıq etmir. İsmayılın aşıq şeiri üslubunda yazdığı şeirləri onu el şairi kimi tanıdır. Sazın xoş sədası ilə boya-başa çatan sənətkar sonradan sazda ifa etməsə də yaratdığı incilər bir başa saz-söz mühitindən qaynaqlanır. İsmayıl klassik ənənəyə sadiq qalmaqla yanaşı, müasir səpkidə də şeirlər yazmışdır. Onun şeirlərinin böyük əksəriyyəti aşıq şeiri üslubuna köklənir. Sənətkarın yazdığı bayatı, gəraylı, qoşma, divani, deyişmə və qıfılbəndləri, dodaqdəyməzləri əsasən, vətən, təbiət, gözəllik, məhəbbət və zamanın haqsızlığı mövzularını əhatə edir. El şairinin yaradıcılığında bayatı janrının özünəməxsus yeri var. Eşqindən gileyli olan şairin yaratdığı bayatı örnəklərinin hər birində dərd-nisgil, keçirdiyi daxili iztirabları boy verir. Bir nümunəyə diqqət edək:

Güldən dəstə bağladım,
Sevincimdən ağladım.
Gözlədim yar gəlmədi,
Tər sinəmi dağladım (78).

Gözəllik və məhəbbət onun yaradıcılığının əsasını təşkil edir. O, sevgilisini dünyanın hər cür nemətindən, varından, dövlətindən

üstün tutur. Onun ay camalını, tam səmimiyyəti ilə vəsf etməyə çalışır. «Qurban olum» «Saf məhəbbətim», «Bizim», «Gözlərin», «Kimi» və s. şeirləri bu səpkidə yazılmışdır. İsmayılın vətənpərvərlik ruhunda yazdığı əsərlərə «Vətənim», «Azərbaycanım», «Olmalıyıq», «Bu gün», «Bizimdir», «Olmasın», «Odlar diyarım», «Necə oldu», «Qarabağ» və s. ictimai-siyasi lirikasına isə «Mənim», «Əsmə», «Var» kimi şeirlərinin adlarını nümunə göstərmək olar. Vətən torpaqlarını azad görmək istəyən, el-obasında daim əmin-amanlıq olmasını Allahdan diləyən el şairi qoşmalarının birində düşüncələrini belə ifadə edir:

Qeyrət edək sar yanında,
Nəğmə deyək gül bağında,
Azərbaycan torpağında,
Deyib, gülsün elim mənim (78).

Vətən, yurd-yuva həsrəti sənətkarı yaradıcılıq boyu izləyir. O, əsir alınmış qız-gəlinlərimizin taleyinə yanır, qanını yurd-yuvası üçün halal edən igid oğullarımızın qeyrətinə alqış deyir. Tarixə nəzər salan sənətkar tökülən qanların günümüzədək yerdə qalmasına heyifislənir. Elinə-obasına bağlı olan sənətkar içində qaysaq bağlayan yaraları ovutmaq üçün sonda yenə də öz qəlbinə müraciət edir, onu qınaq obyektinə çevirir. «Mənim» adlı gəraylısında belə deyir:

İsmayıl elə bağlıdır,
Sinəsi qəmdən dağlıdır.
Odlar yurdunun oğludur,
Qan ağlayır şeirim mənim (78).

El şairi İsmayılın 100-ə yaxın şeirini əldə edə bilmişik. Qeyd edək ki, el şairinin oğlu İlham onun sənət şəcərəsinin layiqli davamçısı hesab oluna bilər. O, telli sazda özünəməxsus tərzdə ifa etməyi bacarır. Fikrimizcə, el şairi İsmayılın aşıq şeiri üslubunda yazdığı şeirləri bu sənətə çox böyük fayda verə bilər.

El şairlərinin digər qisminə yalnız aşıq şeiri üslubunda yazıb-yaradan, amma sazda ifa etməyən el sənətkarları daxildir. Bu qismə daxil olanlar sazda ifa etmirlər, amma buna baxmayaraq, özlərini sazdan kənarda hesab etmirlər. Əhməd Qımırlı da məhz

belə sənətkarlarımızdandır. Akad. H.Araslıya görə, hər sənətkarı onu yetirən mühit və şərait daxilində tədqiq edib qiymətləndirmək lazımdır (9, 37).

El şairi **Muradov Əhməd İsmayıl oğlu** 1937-ci il iyun ayının 13-də Zaqatala rayonunun Ələsgər kəndində zəhmətkeş bir ailədə dünyaya gəlmişdir. Hələ uşaq yaşlarından yel xəstəliyinə tutulan Əhməd şeirlərinin əksəriyyətini «Xəstə» təxəllüsü ilə yazmışdır. Ömrünün ən gözəl çağlarını xəstə olan Əhməd yazıb-yaratdığı şeirləri ilə el arasında böyük hörmət qazanmışdır. Uşaqlıq çağlarından sel gəlib kəndin evlərini tez-tez yuduğundan Xəstə Əhməd ailəsi ilə birgə Zaqatalanın Qımır kəndinə köçür və o zamandan orada məskunlaşır. Xəstə Əhməd 1974-cü ildə dünyasını dəyişmişdir.

Onun yaradıcılıq irsi rəngarəngdir. O, hər kiçik şeirini elin, obanın, xalqın əhval-ruhiyyəsinə uyğun tərzdə yazmışdır. Xalq, bütövlükdə bəşəriyyət üçün yazılan bütün şeirlərə böyük dəyər vermiş və bütün sənətkarları, el şairlərini bu ruhda, bu istiqamətdə yazmağa səsləmişdir. Şair Əhməd şeirlərinin birində öz arzu və istəklərini belə ifadə etmişdir:

Ömür kitabımı elə yazım ki,
Hər misra el üçün bir dastan olsun.
Bu günün gözündə elə yanım ki,
Sabahın odunda axtaran olsun (78).

El şairinin uşaq yaşlarından xəstə olması onun yaradıcılığında da müəyyən iz buraxır. Onun yazdığı «Təzə il», «Soruş», «Kimlər ağlasın» şeirləri bu baxımdan çox böyük maraq doğurur. Məsələn, nümunə verdiyimiz bu şeir əvvəldən sonadək bədbin əhvali-ruhiyyədə yazılmışdır:

Cavan olub cavanlığım etmədim,
Məclislərdə bülbül kimi ötmədim,
Bir ürəkdə çiçək kimi açmadım,
Bəs mən ağlamayım, dost, kim ağlasın (78)?

Mühitdə aşıq şeiri üslubunda yazıb-yaratmış Xəstə Əhməd poeziyasında özündən əvvəl yaşayıb-yaratmış sənətkarları tez-tez yada salmış, onların poeziyasına böyük məhəbbətlə yanaşmışdır.

Xəstə Əhməd poeziyasında Aşıq Ələsgəri, varxiyanlı Aşıq Məhəmmədi tez-tez xatırlamış, ona müqəddəs bir şəxs, övliya, əvəzolunmaz bir sənətkar kimi baxmışdır. Şair Əhmədin həyata baxışı digər el şairlərinin həyata baxışından çox fərqlidir. Onun bütün şeirlərində həyatdan küskünlük duyulur. O, həyatından, sevgisindən necə gileyli idisə, zirvəsinə qalxa bilmədiyi qarlı dağlardan, laləli düzlərdən də bir o qədər nigaran və incik idi. Xəstə Əhməd məhəbbət şeirlərində sevdiyi gözəlin adını çəkmir, onun adını hər zaman gizlin saxlamağa çalışır. O, sevgilisini vəfalı, mərd və sözünə sadiq, sədaqətli görmək istəyir. Şeirlərinin birində bu barədə deyir:

İlk sevgini o qəlbinə salıban,
Düz ilqarın qayğısına qalıban,
Səhvim varsa ələ qılınc alıban,
Həcər kimi can almaga gəlginən (78).

Onun poeziyasında yaratdığı təbiət təsvirlərini, portretləri ayrılıqda bir sənət əsəri adlandırmaq olar.

Xəstə Əhməd poeziyası tam, bitkin və dolğun bir poeziyadır. Çox təəssüf ki, onun şeirlərinin az hissəsi bizim əlimizə çatmışdır. Xəstə Əhməd yaradıcılığı özündən sonra gələn el sənətkarlarına gərəkli bir nümunə olacaqdır.

XX əsrin Zaqatala aşıq mühitinin yetirmələrindən biri olan el şairi Muxaxlı **Məhərrəm Dağlı** öz dəsti-xətti ilə tanınan sənətkarlardan biridir. Onun ifaçılıq qabiliyyəti olmasa da, dəyərli poetik irsə malik qüdrətli bir sənətkardır. Məhərrəm Qurban oğlu 1954-cü il iyunun 27-də Zaqatalanın Muxax kəndində dünyaya göz açmışdır. Hələ erkən yaşlarında atasını itirən Məhərrəm taleyin ona bəxş etdiyi hər cür çətinliyə, ağırlığa sinə gəlir. O, ən çətin, ən ağır anlarında elindən ilham almış, qoynunda yaşadığı dağlarından təsəlli tapmışdır. Hər sirrini, hər sözünü içinə yaxın, doğma bildiyi, sirdaş sandığı dağlarıyla bölüşməyə çalışmışdır. Sənətkarın aşıq şeiri üslubunda dağlara müraciətlə yazdığı onlarla şeir nümunəsi «Dağlar», «Dağlara-dağlara» fikrimizin doğruluğuna əsas verə bilər. Harda olsa, fikrən, mənən doğma elinə, dağlarına sıx bağlı olan Məhərrəm Dağlı sonralar özünə «Dağlı» təxəllüsünü götürməyi heç də təsadüfi olmur. (Məhərrəm Dağlının

«Onun», «Nə mənası var», «Dağlara» rədifli qoşmaları «Azərbaycan Folkloru Antologiyası», XIII, «Şəki-Zaqatala Folkloru» nda nəşr olunub). «Dağlara» rədifli gəraylısına diqqət edək:

Qar da yağır, vermir ara,
Bağrım başı olub yara.
Tez yetişim mən Niyara,
Dönüm dağlara-dağlara (78).

Yaşadığı diyarın hər qarışına eyni sevgi, eyni məhəbbətlə yanaşan sənətkar yurduna, onun hər xırda mamır bağlamış daşına belə biganə qalmır. Zaqatalanı, onun zəngin təbiətini, kəndlərini ayrılıqda özünəməxsus tərzdə doğru-düzgün vəsf edir. Bu baxımdan onun «Zaqatala» rədifli gəraylısına diqqət edək:

Park yanında Qala düzü,
Sevinc dolu daim üzü,
Gül çiçəkdir dağı-düzü,
Nə gözəlsən, Zaqatala (78).

Yaradıcılıq boyu el şairi sevincini, dərdini, iztirablarını dost sandığı dağları ilə bölməklə yanaşı, güllə, bülbüllə də bölüşdüyünə təsadüf edirik. Bu ənənədən gələn bir xüsüsiyyətdir. Biz buna Zaqatala aşıqlarından Aşıq Mədətin, Aşıq Cahangir Dalğının, eyni zamanda aşıq sənətinin korifeylərindən olan Aşıq Ələsgərin, Aşıq Şəmşirin yaradıcılıqlarında, ayrı-ayrı məhəbbət dastanlarımızda «Tahir və Zöhrə», «Novruz və Qəndab» da təsadüf edirik. Məhərrəm Dağlı da bu ənənəyə öz yaradıcılıq mövqeyindən yanaşmış, göz açdığı hər səhərdə bülbülün səsinə, xoş avazına oyanmaq istəmiş, onu fikrən «müjdələr quşu» adlandırmışdır. «Oxu, bülbül» gəraylısı bu baxımdan nəzərimizi çəkir:

Sən həsrətsən qızılgülə,
Bahar gəlib gülə-gülə.
Müjdə verdin bizim elə,
Oxu, bülbül, nə susmusan (78).

Məhərrəm Dağlı klassik ənənədən gələn təbiət, məhəbbət və dini mövzulara sadiq qalmaqla yanaşı, poetik baxımdan zəngin olan nümünələri yaratmışdır. O, yaradıcılığında müasirliyə, yeni axtarışlara meyilli olan sənətkarlarımızdandır. Şairin yaradıcılı-

ğında ictimai-siyasi lirika, dövrün zamanın tənqidi də xüsusi yer tutur. Maraqlı cəhət budur ki, o zamanın, dövrün haqsızlığını da tənqid hədəfinə çevirəndə birbaşa dağlara müraciət edir. Sanki insanlardan görmədiyi köməyi, tapmadığı təsəllini o, dağlarda axtarır:

Dağlar, zirvəndəki bir duman kimi,
Az-az bu diyardan çəkilirəm mən,
Söndürür bu həyat mənim eşqimi,
Uçux daxma kimi sökülürəm mən (78).

Yaşadığı dövrandan şikayətçi olan şair Allahın ona bəxş etdiyi ömür payı ilə razılaşır, ona qarşı üsyan etmir, əksinə içindəkiləri sirdaşı olduqları varlıqlarla bölüşməklə təskinlik tapır:

Kömək diləmirəm qohum-qardaşdan,
Zəhər dadlı olur yediyim aşdan,
Tale belə yazıb, qisməti başdan,
Bir qara kölgə tək çəkilirəm mən (78).

Sənətkarın yaradıcılığında əsaslı yer tutan mövzulardan biri də məhəbbətdir. O, saf sevgini dünyanın heç bir naz-nemətinə, varına, dövlətinə dəyişmir. Əsl sevginin gücünü ürəkdə aramaq gərəkdir deyən el şairi bu eşqin daha əbədi olduğunu bildirir:

Taleyin hökmü budur, sevən-sevənə yetməyir,
O sönməz məhəbbətin mənim qəlbimdən itməyir,
Əzəldən adət olub, varlı kasıba getməyir,
Sözlərin qılınc olub gözəl cana yetməsin (78).

Onun bu mövzuda yazdığı «Nigara», «Sevgilim», və s. şeirləri vardır. El şairi «Görmə», «Qarabağ», «Vətən» «Gəlmişəm» və s. qoşma və gəraylıları həm vətənpərvərlik, həm də ictimai-siyasi mövzulardan bəhs edir.

Məhərrəm Dağlı poeziyası tam, dolğun və əvəzsiz bir poeziyadır. Bu poeziyadan hələ çoxları bəhrələnib öz dəyərli nümunələrini yaradacaqlar.

Bu mühitdə özünəməxsus yeri olan el şairlərindən biri də **Çobankollu Şakir İbrahimlidir**. O, 1948-ci ildə Zaqatala rayonunun Çobankol kəndində dünyaya gəlmişdir. Gənc yaşlarından şeirə, poeziyaya böyük həvəs göstərmişdir. El şairi Şakir İbrahimlinin poeziyası əvvəldən sonadək saf, səmimi hisslərin üzə-

rində qurulmuşdur. Həyat yoldaşını vaxtsız itirən şairin poeziyasında onun ürək çırpıntıları, hiss-həyəcanı, arzu və istəkləri boy verir. Onun yaradıcılığının böyük bir qismi aşıq şeiri üslubuna köklənmişdir. Şairin bir neçə şeirinə ("Sən görüşə gəlməyəndə") mahnı da bəstələnmişdir. Şairin aşıq şeiri üslubunda yazdığı gəraylılarından, qoşmalarından və s. nümunələrindən məlum olur ki, burada həyatdan, zəmanədən şikayət əsas yer tutur. «Ürəyim» rədifli qoşmasında şair öz ürəyinə müraciət edir:

Ömrün baharını arxivə verdim,
Qalan illərimi yaşa ürəyim.
Həyatda tək səni vəfalı gördüm,
Qoyma ki, həsrətdən çaşa ürəyim (78).

Qəribə haldır ki, şair arzu və istəklərini həyata keçirmək üçün ürəyindən möhlət istəyir:

Möhlət ver qəddimi düzəldim mən də,
Gələcək günləri salma kəməndə.
Şakirin bir izi qoy qalsın səndə,
Dəyməsin arzular daşa ürəyim (78).

Şakir poeziyasında əsas yeri məhəbbət lirikası tutur. Buna nümunə olaraq «Ayrı gəzmə», «Görüşə gəlmiyəndə», «Axtara-axtara», «Keçibdir», «Sən olmasan», «Mənim ömrümə-ömrümə» və s.şeirlərinin adlarını çəkə bilərik. Şeirlərində hərdən həyata, taleyə qarşı etiraz səsini ucaldan şair hərdən də susmağı, Allahın bəxş etdiyi ömür payı ilə razılaşmalı olur.

Bülbüldəki gözəl səsdi,
Bilmirəm bu nə həvəsdi,
Saf bir damla sevgi bəsdi,
Mənim ömrümə-ömrümə (78).

Həyatı ilə razılaşan şair özünə təsəlli vermək üçün zamanın, dövranın gərdişinə nəzər salır. Tarix boyu olub keçənlərə nəzər salan el şairi hər şeyin bu dünyada ötəri olduğunu xatırlayır. Gülən varsa, ağlayan da var, həyat varsa, ölüm də var-deyə düşünən Şakir bütün bu əkslikləri görür. «Yurd yerinə dönən var» rədifli qoşmasında dünyanın faniliyindən söz açır:

Bu torpağın daşı birdir, suyu birdir.
Köçən köçüb, qalanlarda olur sirr,
Bir qonaqsan bu dünyada ay Şakir,
Hər bir anda ağlayan var, gülən var (78).

El şairi Şakir İbrahimli poeziyası xalqın duyğularını, ümid və istəklərini ifadə etmək baxımından çox dəyərlidir. Şairin yazıb-yaratdığı hər misrası sevgiylə, məhəbbətlə, həyat eşqi ilə yoğrulub. Bu misralarda sevinci, kədəri qəlbinin harayı əks olunur. Allahdan bəxş olunan ömür payını, şair, özünün də dediyi kimi, nəğmələr çələngi hörməklə keçirmişdir. El şairinin yaradıcılığından çox danışmaq olar. Ancaq monoqrafiyanın imkanı xaricində olduğundan bununla kifayətlənirik.

Zaqatala aşıq mühitində çox yaradıcı şəxslər yaşayıb yaradırlar. **Qımırlı Zalxa, Çobankollu Avdırahman** və başqalarının adlarını çəkmək olar. Yuxarıda həyat və yaradıcılıqlarından söz açdığımız sənətkarların hər biri ayrılıqda bir məktəbdir. Onların yaradıcılıq irsi gələcək nəsillər üçün gərəkli bir örnək olacaqdır.

# III FƏSİL

# ZAQATALA AŞIQ MÜHİTİNDƏ DASTANÇILIQ ƏNƏNƏSİ

## Ənənəvi dastanların Zaqatala variantları

Zaqatala aşıq mühitində tənbur və saz ifası ilə yanaşı, tənburçular və ustad aşıqlar tərəfindən deyilən klassik dastanlarımız da mövcud olmuşdur. Zaqatala aşıqlarının repertuarında vaxtı ilə işlənmiş dastanların zamanında yazıya alınmaması səbəbindən bir çoxu günümüzə gəlib çıxmamışdır. Buna baxmayaraq, əldə etdiyimiz məlumatlar, materiallar və hətta XX əsrin sonlarında belə, yeni dastanların yaranması mühitdə həmin tarixi ənənənin çox güclü olduğunu sübut edir. Həmin dastanları klassik dastanlarımızın Zaqatala variantları da adlandırmaq olar. Düzdür, bu gün Aşıq Məhəmmədin, Aşıq Arazın, Molla Cumanın yaşayıb-yaratdığı dövrlərdə olduğu kimi, dastançılıq ənənəsi Zaqatala aşıq mühitində özünün yüksək inkişaf prosesini keçirmir. Əksinə, bu ənənə demək olar ki, zəifləmişdir. Təbii ki, bu ənənənin əvvəlki dövrlərə nəzərən zəifləməsi, texniki inkişafın zənginliyindən də irəli gəlir. «Dövrün tələblərinə uyğun olaraq aşıq yaradıcılığı müxtəlif zaman kəsiyində parlayıb çiçəklənən və süquta uğrayan dövrlərini yaşamışdır. Zaman keçdikcə bu sənət növünün mövzu dairəsi dəyişməklə yanaşı, onun bədii ifadə vasitələri də dəyişmişdir" (68, 4). Ustad sənətkarlardan olan Əliabadlı Camalın, varxiyanlı Mədətin, Səadəddinin dediklərinə əsasən, vaxtilə, yəni XX əsrin 70-80-ci illərəinə kimi ayrı-ayrı yerlərdə aşıq və tənburçuların məclisləri qurularmış. Hər aşığın günlərlə danışdığı dastana görə mükafatlandırırdılar. Tənburla qurulan dastan məclislərinə isə «yığnax» deyərdilər. Sazla qurulan dastan gecələrində xüsusi olaraq əvvəlcədən hazırlanmış gənclər kosa paltarı geyinər, aşıq yorulanda onu meydanda əvəzləyər, camaatın yorğunluğunu və diqqətini öz oyunbaz hərəkətlərinə, məzəli söhbətlərinə cəlb edərdilər. Bu gənclər özlərini tanınmaz görkəmə salar, üzlərinə müxtəlif heyvan dərisindən maskalar taxar, əyinlərinə qadın paltarı geyinərdilər.

Bu gün isə, təəssüf ki, həmin ənənə unudulmuş və aradan çıxmışdır. Belə məclislər, demək olar ki, təşkil olunmur. Bu ənənənin bir sıra elementləri yalnız Qurban bayramı adətlərində yaşamaqdadır.

Zaqatala aşıqlarının dastan yaradıcılığı bu günə kimi öyrənilməmişdir. Görkəmli tədqiqatçı Badalov dastan məclislərində bu xüsusiyyətlərin olmasını regional çalarla bağlamışdır (133, 154. 134, 134). Tədqiqat zamanı Azərbaycan dastanlarının bəzilərinin Zaqatala variantlarına təsadüf etdik. Bunlardan «Novruz və Qəndab», «Soltan-Qəndab», «Abbas və Gülgəz» dastanlarının adlarını çəkmək olar. Orta əsrlərdən boy alıb gələn bu sənət, sufi-təkkə ocağından qidalanan dastançılıq ənənəsində özünün ən yüksək zirvəsinə çatmışdır. Aşıq sənətinin bir qolu olan dastançılıq ənənəsinin bəzi məziyyətləri bu ənənənin ürfana bağlı olduğunu sübut edir. Prof. H.İsmaylov aşıq sənətinin mənşəyi ilə bağlı yeni konsepsiyasında göstərmişdir ki, aşıq sənəti sufi-təkkə ocağında yaranmışdır. Təsəvvüf simvolları və obrazları sənətkarın şeirlərində, xüsusilə onun yaratdığı dastanlarında yaranmışdır (52, 160-162; 53, 50). Amma çox təəssüf ki, Aşıq Məhəmmədin, Aşıq Əzimin, Ziyəddinin el məclislərində söylədikləri dastanlar müəyyən səbəblərdən günümüzə qədər gəlib çatmamışdır. Aşıq Camaldan yazıya aldığımız «Novruz-Qəndab» mövcud klassik dastanlarımızın variantıdır. Bu dastan əski formasından müəyyən qədər çıxmış və aşıq onu öz istədiyi formaya salmışdır. Dastan klassik ənənədə olduğu kimi ustadnamə ilə başlamış və duvaqqapma ilə bitmişdir. Sadəcə hadisələrin zaman və məkanı fərqlidir, improvizəçilik fərqli xüsusiyyətlər meydana çıxarmışdır. Bütün bu xüsusiyyətləri nəzərə alan prof. R.Rüstəmzadə Şifahi xalq ədəbiyyatımızın ən monumental nümunəsi dastan adlandırmışdır (102, 4).

Aşıq sənətinin bir qolu olan dastançılıq ənənəsinin özü aşıq sənətinin ürfana bağlı olduğunu sübut etmişdir. Zaqatala aşıq mühitində topladığımız dastanları iki yerə ayırmaq olar:

1. Azərbaycan dastanlarının Zaqatala variantları.
2. Müəllifi məlum olan, avtobioqrafik səciyyəli regional dastanlar.

Birinci qrupa aid olan iki dastanın birini Əliabadlı Aşıq Camaldan yazıya almış, digərini isə Bəhmədli Aşıq Cahangir Dalğının arxivindən əldə etmişik. Amma təəssüf ki, Aşıq Məhəmmədin, Aşıq Arabın, Sarəcin, Ziyəddinin məclislərdə söylədikləri «Şah Məsun», «Sarının», «Şahzadə Yetərin» dastanları müəyyən səbəbdən günümüzə qədər gəlib çatmamışdır. Əliabadlı Aşıq Camaldan yazıya aldığımız «Novruz-Qəndab» dastanın Zaqatala variantı hesab oluna bilər.

Görkəmli folklorşünas alim T.Fərzəliyev aşığı saz məclisinin əsas aparıcısı, dastanı isə ən zəngin repertuar yaradıcılığı hesab etmişdir (32, 171). Aşıq dastanın müəyyən hissələrinə öz yaradıcılığı baxımından yanaşmışdır. Hadisələr arasında yer adları və zaman fərqi özünü tez-tez göstərir. Biz müxtəlif mənbələrdə «Novruz-Qəndab»ın bir sıra varintlarına təsadüf etdik. Amma Zaqatala variantı mövcud variantlardan çox fərqlidir. Mövcud variantlardan fərqli olaraq bu variantda dastan obrazlarının adları da fərqlənir. Kərim paşa, Səlim paşa kimi, Novruzun anası Zeynəb, Züleyxa kimi, Gülşən Güləndam kimi verilmişdir. Zaqatala aşıq mühitində dastan bir qayda olaraq ustadnamə ilə başlayıb duvaqqapma ilə bitir. «Novruz-Qəndab»ın spesifikliyini şərtləndirən xüsusiyyətlərdən biri də budur ki, burada Novruz nəzir-niyazla, qurbanla dünyaya gəlmiş uşaqdır (78). Dastanda qeyd olunur ki, Xızırın sözünə əsasən, dünyaya gələcək uşağın adını Novruz qoyurlar. Məclislərin birində eşqdən, həqiqi sevgidən söz salan aşığın söhbəti Novruzun halını pərişan edir. Su kənarında tut ağacının altında yatır, yuxuda övliyalardan biri ona eşq badəsini içirir. Beləcə hadisələr bir amal – saf məhəbbət uğrunda cərəyan edir. Prof. P.Əfəndiyevə görə, məhəbbət dastanlarında vəfa, etibar, eşqinə sadiqlik, təmiz ülvi, qibtə ediləcək məhəbbət ön plana çəkilmişdir (36, 178). Mühitin maraqlı xüsusiyyətlərindəndir ki, dastanın bu variantında, pay verən, Haq-təalanın buyruğuna əməl edən Xızırdır. Çünki abi-kövsərin müqəddəs nurunu Allah payı olan butanı, əvəzsiz qüvvəni və ucalığı haqq aşığına vermək qüdrətinə yalnız Xızır malik ola bilər. Butanın məhz Xızırın, Qırxlar pirinin, Əlinin, dərvişlərin verməsi, bu şəxslərin Allah dərgahına

yaxın olması, Allah elçisi olması ilə əlaqəli idi. Xalq rəvayətlərinin əksəriyyətində Xızır Nəbini müxtəlif funksiyalarda – yol göstərən, gələcəkdən xəbər verən, xilasedici, yolundan azanı yoluna qaytaran, yazın gəlişindən soraq verən və nəhayət, aşiqi məşuquna yetirən, Haqq dərgahından enmiş müqəddəs şəxs kimi görürük. Aşıq Novruza butanı verən də həmən Xızırdır. Yoxsulları varlı edən, kimsəsizlərə dayaq olan, çarəsizlərin dərdinə çarə tapan, yarı yarına qovuşduran da Xızırdır. Xızır əvvəldən sonadək Novruzun arxasında durur. Ona ən ağır, ən kədərli anlarında kömək olur. Bu variantda Göyçə variantından fərqli olaraq, qəhrəman yalnız Allahın əmri, Xızırın vasitəçiliyi ilə buta verilən Qəndaba sadiq qalır. Novruz nə ona sahib duran Tacir Məhəmmədin qızı Güləndamı, nə də Kəlləgözün əsarətindən qurtardığı gözəl Şahnazı alır. Onlara bacı gözündə baxır, Güləndamla olan deyişməsində öz fikrini belə bildirir:

Gülərüzlü Güləndamım,
Qoy qorusun Xudam səni.
Nazlı yardan aralıyam,
Qoy qorusun Xudam səni (78).

O, hər iki gözələ sonuna kimi dayaq olur. Mövcud variantlarda isə Qəndabla yanaşı digər iki gözələ də aşiq olur və onların hər ikisini alır. «Buta verilən şəxs yalnız öz butasına sadiq qalmalı, onun uğrunda hər əzaba, hər çətinliyə sinə gərməyi bacarmalıdır. Prof. M.Cəfərli qeyd etmişdir ki, butavermə dastanlarda təsəvvüfi-ürfani məsələdir (27, 75).

Maraqlı xüsusiyyətlərdən biri də budur ki, digər variantlardan fərqli olaraq burada, Novruza buta baharda – təbiətin oyanan vaxtı, tut ağıcının altında yatarkən verilir. Ağac təbiətin, yaşıllığın, baharın və yaşayışın rəmzidir. Xızırın əlinin nuru, şəfası ilə Novruz baharda, təbətin oyandığı vaxtda dünyaya gəlir. Ağ geyimli Xızır Səlim paşanın yuxusuna gəlib deyir: «Bir oğlun olacaxdı, adını Novruz qoyarsız». Təsadüfi deyil ki, prof. M.Seyidov da butanı dünya ağacının, kosmosun yaradıcısı olduğu mifin atributu, əlaməti hesab etmişdir. Qeyd etmişdir ki, «buta gənclərə verilərkən onlar bir-birini sevməlidirlər ki, yeni ailə yaransın. (104,

131). Butasının arxasınca gedərkən qəhrəmanın qarşılaşdığı maneələrə, çətinliklərə böyük inamla sinə gərməsi təbii ki, ərənlərin, müqəddəslərin tövsiyyəsi ilə qoyulan adın mifoloji görüşlərlə bağlılığı və sakral gücü ilə əlaqədardır. Prof. M.H.Təhmasib buta verməni iki gəncin bir-birinə baxmaq, sevişmək, sonra da görüşlərinin qanuniləşdirmə tədbiri, bir yaradıcılıq priyomu hesab etmişdir (118, 5).

Vəzir obrazı mövcud variantlardan fərqli olaraq, mənfidir. Şahın var-dövlətini ələ keçirmək üçün Novruzu Kəlləgözlə savaşa çıxardır. Sonda Novruzun bircə ahı ilə vəzir xəstəlikdən dünyasını dəyişir. Bu xüsusiyyətə digər variantlarda təsadüf etmirik. Göyçə variantında vəziri şahın hərəkətlərinə qarşı çıxan, onu düz yola sövq edən müsbət bir obraz kimi tanıyırıq. Dastanda öz əksini tapan şeir nümunələrində regionla bağlı yer, pir, övliya adları verilir ki, bu da dastanın regional variant mənsubluğundan irəli gəlir. «Novruz anası Züleyxa ilə halal-hümmət eləyib deyir:

Mən qurvanam Yel babanın pirinə,
Qoy bizi yetirsin muradımıza.
Atam bağışlasın gözəl yarıma,
Anacan, izn ver mən gedər oldum (78).

Göründüyü kimi, burada Yel baba piri Zaqatalada mövcud olan bir pirdir. Deyilənlərə görə, bu pir aşiqləri məşuquna yetirən, müqəddəs bir yerdir. Dastanın Zaqatala variantı dilinə, toponimikasına, məzmununa görə tam fərqlidir. Dil, ləhcə xüsusiyyətlərinin gözlənilməsi baxımından bir nümunəyə diqqət edək: «Novruz görüy ki, çovan honun əlinnən qızdarı almax isdiyi, başdıyır dimağa ki, çovan qardaş, gəl çıx görax meydana yimax nə yimaxıydı, gör dimax nə dimaxdı». Bu xüsusiyyət sənətkarın dastana yaradıcı baxımından yanaşmağından irəli gəlir. Təsadüfi deyil ki, Prof. M.H.Təhmasib şifahi xalq ədəbiyyatımızın mühüm janrlarından olan dastanların yaranması və əsrlər boyu yaşamasında ustad aşıqların xidmətinin əvəzsiz olduğunu qeyd etmişdir (118, 3).

Dastan Novruzla Qəndabın toy məclisi ilə sona yetir. Digər iki qızı isə Novruz öz əmisi oğlanlarına verir. Göründüyü kimi, bu variant digər variantlardan tamamilə ayrılır. Göyçə variantında

Novruz hər üç qızı alır. Digər tərəfdən bu variantda hadisələrin axarı müəyyən baxımdan nağıllarda olduğu kimidir. Prof. P.Əfəndiyevə görə olmuş hadisələrin təsvirindən düzələn dastanları nağılla yaxınlaşdıran ümumi cəhət müəyyən tarixi hadisə, əhvalatla bağlıdır (36, 177).

Göyçə variantlarından birində bülbülün cəfasını, qızılgül uğrunda canını fəda etməsi Novruzu qəhərləndirir (112, 864). Maraqlı xüsusiyyətlərdəndir ki, burada bülbül haqqında deyilən hər variantda bir başqa formada verilmişdir. Zaqatala variantında isə Aşıq Mədətin «Bülbül» qoşması qeyd olunmuşdur. Bu çox təbii ki, dastanın regional çalarlarından və dastançının sənətkarlıq xüsusiyyətlərindən irəli gəlir:

Bahar fəsli gəldi, güllər açıldı,
Budaqdan budağa qondu bülbülüm.
Mayıl oldu gülün təravətinə,
Eşqi məhəbəti qandı bülbülüm (78).

Zaqatalada tənburla söylənilən dastanlar içərisində «Novruz-Qəndab»a da təsadüf edirik. Tənburçu Şabanın söylədiyinə görə, dastan variatında Novruz Allahdan bəxş olunan butasına sonuna kimi sadiq qalır. Təbii ki, bu Haqqı-təalanın istəyi, müqəddəslərin xeyir-duası ilə olur. Təsəvvüfün dörd mərhələsindən keçib haqqa qovuşan aşiqlə qəhrəmanın öz butasına yetişməsi paralel bir inkişaf prosesindən keçir. Ruhən Haqqa bağlı olan, ondan gələn buyruğa əməl edən, yalnız butasına sadiq qalan Novruz müqəddəs Xızırın əli ilə eşqin camını içir, nəfəsi ilə güc-qüvvət alır, onun köməyi ilə butasına yetişir. Allah eşqini, Allah gözəlliyini sevdiyi gözəlin camalında görür. Ona yetişmək üçün hər maneədən uğurla keçir. Prof. H.İsmayılov Allaha qovuşmağın bircə yolu olduğunu qeyd etmişdir: «Allahı özündə və özündən keçib dərk etmək. Bunu dərk etmək cəhdi, eşq vasitəsilə üzə çıxırdı» (57, 12). «Novruz və Qəndab» dastanı ənənəvi olaraq duvaqqapma ilə qurtarır. H.İbni, M.Həllac, «Kitab-ət-təvasin» əsərinin, «Ta-sin-Pənzin» babında yazır: «Sübhan olsun bütün dəlillərdən uzaqdır, onun sübutu qüvvətlidir, səltənəti qüdrətlidir, ucadır, əzəmətlidir, uludur. Yolunun başlanğıcı və sonu bilinmir, ondan başqa onu

tanıyan yoxdur. Əzəmətli və şərəflidir. Ruhların və bədənlərin yaradıcısıdır» (119, 48).

Zaqatalalı Cahangir Dalğın yaradıcılığında təsadüf etdiyimiz dastanlardan biri də sənətkarın yaratmış olduğu «Dağıstanlı Cahangirin dastanı»dır. Bu dastanda baş verən hadisələr, əsasən, Dağıstan elində cərəyan edir. Göstərilir ki, Dağıstanlı Əziz şahın oğlu Cahangirə su kənarında yatarkən buta verilir. Butanın arxasınca Misirə gələn Cahangir çox böyük sınaqlardan keçdikdən sonra öz butası Mələksimaya yetişir. Burada baş verən hadisələrin məkanı müxtəlifdir. Dastan tam şəkildə klassik ənənəyə uyğundur və ənənəvi olaraq üç ustadnamə ilə başlayır. Maraqlıdır ki, sənətkar dastana zaqatalalı Aşıq Mədətin ustadnaməsi ilə başlayır. Bu təbii ki, regional çalarlardan irəli gəlir:

Arif olan qədir bilib qanana,
İnci saçar, yayıb gedər nə olsun.
Şeytan əməlinə, xain sözünə,
Qanmayanlar uyub gedər, nə olsun (78).

Dastanda qəhrəmana müqəddəslərin əli ilə buta verilməsi, onun butasına çatınca qarşılaşdığı maneələr, nəhayət, öz butasına yetişməsi ənənəyə uyğundur. Dastanda qəhrəmanın köməyinə çatan, onu çətinlikdən qurtaran ağbirçək nənələrimiz olur. Bu dastanda köməkçi obraz kimi Leyla nənənin özünəməxsus dəyəri vardır. Onun Cahangirə butasına yetişməkdə çox böyük köməyi dəyir. Sonluq klassik ənənədə olduğu kimi müsbətdir və duvaqqapma ilə bitir.

Bu mühitdə bir sıra «Tahir və Zöhrə» «Şah İsmayıl» dastanları da vardır ki, təəssüf ki, onları tam şəkildə əldə edə bilməmişik.

Beləliklə, məlum olur ki, klassik dastanların Zaqatala variantları bir sıra baxımdan maraq doğurur. Bu dastanları söyləyən sənətkarlar dastana yaradıcı baxımdan yanaşmış, dil-ləhcə xüsusiyyətləri əvvəldən sonadək gözlənilmişdir. Nəticədə məlum olur ki, dastanlar nəsildən-nəsilə ötürülür və söyləyənin bacarığından, süjetin təfsilatını, rəngarəng poetik obrazları yaddaşına köçürmək qabiliyyətindən asılı olaraq dəyişikliyə məruz qalır. Şifahi yaradıcılığın qorunub saxlanmasında, onun bədii məziyyətlərinin zən-

ginləşməsində xalqın mənəvi sərvətinin keşiyində duran xalq dastançılarının xidməti böyükdür.

Mühitdə yaranan dastanlarda məkan və ad dəyişikliyinə tez-tez təsadüf edilir. Buta vermə motivi klassik dastanlarımızdan fərqlidir. Bütün bu xüsusiyyətlər onu göstərir ki, Zaqatala aşıq mühitinin az öyrənilməsi səbibindən dastanlarımızın əksəriyyəti tam şəkildə günümüzə çatmamışdır. Topladığımız mövcud dastanlar isə mühit haqqında tam şəkildə təsəvvür oyadır.

## Regional dastanlar

Zaqatala aşıq mühitində ustad aşıqların özlərinin yaratdıqları dastanlara da təsadüf edirik. Bu dastanlarda mühitə məxsus adət-ənənələr, burada yaşayan insanların məişət həyatı yaradıcı boyalarla canlandırılır. Bəzi folklorşünas alimlərimiz Azərbaycan aşıqlarının dastan yükünü onların epik repertuarının əsası hesab etmişlər (24, 34). Aşıq Mədətin dastan yaradıcılığı özünəməxsus xüsusiyyətləri ilə seçilir. Onun «Aşıq Mədət və Gülzar», «Aşıq Mədət və Taleyin dastanı», «Aşıq Mədət və Bəhrinazın dastanı» xüsusi məharətlə yazılmışdır. Dastan ənənəyə uyğun olaraq, ustadnamələrlə başlayır və bu ustadnamələrdə dastanın mövzusu açıqlanır:

Mədət, başın üstə gətir çən, duman,
Haray salıb heç eyləmə ay-aman.
Gecə-gündüz quşlar oxuyan zaman,
Özünü görməmiş ona sar demə (78).

Dastanın süjet xətti belədir: İpək sarıyan qurdun yemi qurtardığından Aşıq Mədət kolxozun yarpaq almağa gedən maşınlarından birinə əyləşib yarpaq üçün səfərə çıxır. Yarpağın tapılmamasından yaranan dilxorçuluq Aşıq Mədəti kədərləndirir. Olduğu Gülöyşə kəndinin küçələrinin birində yoldaşlarından ayrı düşür. Qəfil bir həyətə gözü sataşır. Gər ağaclarını görüb sevinir, ev yiyəsini səsləyir. Qarşısına gözəl bir qız çıxır. Elə hər şey buradan başlayır. Qızın hər sözünə şeirlə cavab verən Aşıq Mədət özünə qarşı qızda bir maraq oyatmış olur. Beləliklə, gərgin süjet xətti davam edir. Gülzar biləndə ki, Aşıq Mədət, haqqında olan bütün məlumatları özündən yaxşı bilir, o zaman haqq aşığı

olduğuna şübhə etmir. Ancaq anasının təkidi ilə onu sınağa çəkir. Aşıqdan təsadüfən gəlib düşdüyü kəndin adını soruşur, özü haqqında tərif etməyi xahiş edir.

Mədət Gülöyşədə gördüyü qızı,
Yada salır doğanda dan ulduzu.
Hansı aşıq sevməz o xumar gözü,
Qələm qaşın, xalın necə gözəldir (78).

Bu dastanda klassik dastanlarımızdan gələn müəyyən ənənə gözlənilir. Müdrik və müqəddəs bir qoca, aşığın dərdini duyur. Onu bir gün əvvəl yuxuda gördüyünü, aşıq olduğunu söyləyir. Aşıq görəndə ki, onu başa düşən, ona təsəlli verən var, sazı sinəsinə alıb belə deyir:

Köçüb gedər belə karvan,
Gəlib haqdan hökmü fərman.
Cana şəfa, dərdə dərman,
Olar dünyada mömündən (78).

Ancaq müdrik qoca bu eşqin sonunda ayrılıq olacağını deyərək, aşığın başına əl çəkmiş və qeybə çəkilmişdir. Bunu görən Aşıq Mədət sazı sinəsinə sıxmış və üzünü Gülzara tutaraq belə müraciət etmişdir:

Aşıq Mədət də bir candı,
Halım yaman pərişandı,
Sənsiz bahar zimistandı,
İnan Gülüzarım, inan (78).

Aşığın kədərli olduğunu görən Gülzar ona təsəlli vermək üçün deyir:

Gülzaram, bir fanaram,
Yar sınsa, mən də sınaram.
Səndən qabaq mən yanaram,
İnan Aşıq Mədət, inan (78).

Gülzar xanım eldə-obada tanınmış Rəmzi bəyin qızı idi. Atası eşidəndə ki, qızı bir aşığı sevir, adamlarını göndərib onu kənddən çıxarmağı əmr edir. Bu vəziyyəti görən Gülzar valideynlərinin üzünə ağ ola bilmir. Gülzarın çıxılmaz vəziyyətə düşdüyünü görən Aşıq Mədət sazı sinəsinə alır.

İnsan dərdə düşməz, sirdaşı gəlsə,
Üz gülər, ağlamaz yar üzü gülsə,
Bizdən Gülöyşəyə gələnlər olsa,
İldə bircə dəfə məni soruş yar (78).

Doqquz bənddən ibarət olan bu qoşma Gülzarı dərin xəyala daldırır. Ah çəkib şamlar başına dolanan pərvanə kimi, gözlərindən süzülən yaşı al-qırmızı yaylığı ilə silərək deyir:

Cavan aşıq, pozma gəl bu sevdanı,
Güldürmə bu yolda dostu-düşmanı,
Tanıdığın, sevdiyin bu Gülzarı,
Bəzi vəfasıza sən tay eyləmə (78).

Atalar yaxşı deyib: «Yola nabələd olanın yanında gərək bələdçisi ola». Bu dastanda Aşıq Mədətlə Gülüzar bir-birinə qovuşmurlar. Amma dastan həm bir sıra məlumatları vermək, həm də daha çox əhvalat xarakterli olmaq baxımından digər dastanlarımızdan fərqlənir. Bədahətən söz deyən müdrik qocanın simasında Aşıq Mədət ən qabaqcıl və el arasında haqq aşığı olan Aşıq Hüseyni xatırladır. Deyilənə görə, bu aşığın əvvəlcədən söz demək qabiliyyəti hadisələri görmək, duymaq bacarığı, onun ata-babalarının övliya, ziyarət yiyələri olması və hər şeydən öncə haqq aşığı olması ilə əlaqədardır. Düzdür, prof. M.H.Təhmasib əsasən, bu tipli dastanların rəvayət xarakteri daşıdığını qeyd etmişdir (118, 21). Dastan, hadisələrin baş verməsi, deyişmə, yuxugörmə, müqəddəs şəxsin aşığın başına əl çəkməsi, valideynlərin mane olması, lazımı mərhələləri aşma, və s. məqamlar baxımdan klassik dastanlarımızdan müəyyən qədər ayrılır. Əsas məsələ budur ki,- dastanın yaradıcısı müəllifin özüdür. Dastançı müəllif öz adını aşıq-qəhrəmanın adında yaşatmaq üsuludan istifadə edir. Bu xüsusiyyət «Abbas-Pəri», «Qurbani», «Abbas və Gülgəz» dastanlarında da öz əksini tapır. Onu da qeyd edim ki, Zaqatala aşıq mühitinin tanınmış ustad aşıqlarından Aşıq Hüseyn haqqında ölümündən sonra yaranmış «Aşıq Hüseyn» dastanı da rəvayət xarakteri daşıyır. «Aşıq Mədət və Gülzar» dastanında yerli-yerində aşıq şeirinin müxtəlif şəkillərindən istifadə etmək bacarığı baxımından yüksək dəyərə malikdir. Aşıq Mədətin yaradıcılığında

daha önəmli yer tutan dastanlardan biri «Aşıq Mədət və Taleyin dastanı»dır. Bu dastanda sənətkar öz həyatında baş vermiş hadisələri müxtəlif yerlərdə nəql edir, deyişdiyi aşıqlar apardığı məclislər, məktublaşdığı el şairləri haqqında geniş məlumat verir. Avtobioqrafik səciyyə daşıyan «Aşıq Mədət və Taleyin dastanı» hadisələrin rəngarəngliyi baxımdan diqqət çəkir. Prof. M.H.Təhmasib dastanları üç qrupa ayırmışdır:

1. Qəhrəmanlıq
2. Məhəbbət
3. Ailə-əxlaq dastanları (116, 41-44).

Amma qeyd etdiyimiz dastanı bu qruplardan heç birinə aid etmək olmur. Dastandakı Tale Aşıq Mədətin kədərini, bütün həyat haqqındakı düşüncələrini dinləyən, yeri gələndə ona məsləhət verən, onu düz yola sövq edən yeganə rəmzi surətdir. Avtobioqrafik səciyyə daşıyan bu dastanın sujet xətti də rəngarəng və çoxşaxəlidir. Əsas xətt Aşıq Mədət və simvolik obraz olan Talenin üzərində cərəyan edir. Dastan, kompozisiya, obrazlar sistemi və dastan poetikası baxımından Azərbaycan dastançılığında orijinal hadisədir. Aşıq Mədətin yaratdığı dastan ənənəvi xalq dastanlarından fərqlənən dastandır. Simvolik obrazlara üstünlük vermək baxmından klassik ənənə ilə səsləşir. Dastan məhz bu xüsusiyyəti baxımından Şah İsmayıl Xətainin «Dəhnamə» əsəri ilə müəyyən baxımdan oxşarlıq təşkil edir. Hər iki dastanda qəhrəmanlar dərdini simvolik obrazlarla bölüşür. «Aşıq Mədət və Talenin dastanı»nda Aşıq Mədət və Tale simvolik obrazları əsas qəhrəmanlardan hesab olunur. Bu dastana fərqli baxımdan yanaşma tələb edir. Aşığın həyatında xoş günlər, ən yadda qalan görüşlər, dostluq, sevgi xatirələri simvolik obraz olan Taleyə nəql olunur. Xüsusilə, Kəlbəcərli şair Bəhmənlə 1974-cü il may ayının 3-də Mingəçevirdəki görüşü və deyişmələri, 1979-cu il may ayının 10-da şair Zöhrə ilə deyişməsi, yüksək sənətkarlıq xüsusiyyətinə malik olduğu üçün maraq kəsb edir. Bədahətən şeirlər deyən Zöhrə ilə bir təsadüf görüşü Aşıq Mədətdə ömrünün sonuna kimi xoş təssürat oyadır. Beləliklə, sənətkar öz maraqlı söhbətləri əsasında yaşadığı ömrün canlı bir portretini yaradır. Ustadın Taleyə

nəql etdiyi əsas söhbətlərindən biri də dostu Zöhrə ilə olan görüş haqdadır. Onların deyişmələrinə diqqət edək:

**Zöhrə**

Mən dili narıncı, yanmışam yaman,
Həqiqət əhliyəm sənin tək inan,
Sənsiz olsa əgər bir gün Varxiyan,
Xəzan dəymiş kimi solaram, qardaş.

**Aşıq Mədət**

Mədət, əhdü-peyman etdi sizinlə,
Şair sayağında gördün gözünlə.
Durram keşiyində telli sazımla,
Ölüncə qədrini bilərəm Zöhrə (78).

İyirmi benddən ibarət olan bu deyişmədə Aşıq Mədətlə Zöhrənin bir-birilərinə qarşı olan tam səmimi, dostluq münasibətləri əks olunur. Bu dastan folklorşünas alimlərimiz üçün gərəkli bir mənbə olacaqdır.

Ustadın «Aşıq Mədətlə Bəhrinazın dastanı» klassik dastançılıq ənənəsinin bütün forma və məzmun xüsusiyyətlərini özündə əks etdirir. Mətn üç ustadnamə ilə başlayır və duvaqqapma ilə bitir. Ustadnamələrin hər üçü («Dilbərim», «Eldir», «Gözəl») dastanın məzmununa uyğun tərzdə olmaqla yanaşı, həm də Zaqatala aşıq mühitinin sənətkarlıq spesifikasından soraq verir. Prof. M.H.Təhmasib məhəbbət dastanlarının struktur vahidləri kimi, ustadnamə, dastanın özünü və sondakı duvaqqapmanı göstərərək qeyd etmişdir ki, ustadnamələrdə deyilmiş hikmətamiz aforizmlər el müdrikliyindən irəli gəlmişdir. İnsanlarda xeyirxahlıq, mərdlik, ləyaqət, halalıq kimi insani keyfiyyətləri yaratmaq məqsədi daşımışdır. (116, 62-63). Bu baxımdan dastanda verilən ustadnamələr maraqlıdır. «Eldir» rədifli ustadnamədən bir parçaya diqqət edək:

Aşıq, uyma sara, ayrılma eldən,
Sənətkarın ata-anası eldir.
Büdrəyib yıxılsan qocalığında,
Qolundan qaldırıb tutası eldir (78).

Amma burada klassik dastanlarımıza nəzərən mifik obrazlar azdır. Bunun səbəbi onun müasir dövrdə yaranması ilə əlaqədardır.

Bu dastanın digər variantında Aşığın Bəhrinazla evliliyi göstərilir. Aşıq bu dastanı gördüyü real faktları əsasında yaratmışdır. Amma Aşıq Mədətin dağıstanlı Bəhrinazla evliliyi həqiqət deyildir. Aşıq Mədətin özünün dediyi kimi, bu evlilik ustadın arzuları, qurduğu xəyalları, uydurmalarıdır. Onun bu arzusu ancaq dastanda gerçəkləşir. Prof. M.H.Təhmasib dastan yaradıcılığı haqqında olan məqaləsində qeyd etmişdir ki, «aşıq tərzində yazan şair özü haqqında dastan qoşur. Burada süjetin doğurdan da baş vermiş real hadisə, yaxud uydurmamı, real sevgimi, yaxud xəyali surətmi olub-olmaması bir o qədər də əhəmiyyətli deyildir. Əsas məsələ budur ki, belə dastanların qəhrəmanı onu yaradan dastançının özüdür» (115, 10-15). Dastan boyu ənənəyə uyğun aşığın yuxugörmə, qız arxasınca getmə, bu yolda qarşılaşdığı maneələri və nəhayət, qazandığı uğurları izləyirik. Hadisələr əsasən, Dağıstan və Azərbaycanda cərəyan edir. Amma burada dastançı aşıq bəzən ənənədən, mövzudan uzaqlaşaraq başqa bir aləmə düşür. Müəyyən qədər avtobioqrafik səciyyə daşıyan bu dastan sənətkarın Dağıstan səfərində yaranmışdır. Yuxuda gördüyü butasının arxasınca gedir, Dağıstan elinə çıxan aşığı bir ağsaqqal evinə qonaq aparır və əsas macəralar da bundan sonra başlayır. Yuxarıda qeyd etdiyimiz kimi, dastanda yuxugörmə motivi başqa dastanlardan fərqlidir. Əgər «Novruz-Qəndab»da, «Abbas-Gülgəz»də qəhrəmanlara butanı ərənlər, dərvişlər müəyyən üsullarla verirsə, burada isə qəhrəman yuxuda dağlarla ünsiyyət qurur və qeybdən səda eşidir. Ona butasının dağıstanlı Bəhrinaz olduğu deyilir. Göründüyü kimi, burada buta verən şəxsin surəti bəlli deyil, onun sadəcə səsi eşidilir. Təbii ki, bunun əsas səbəbi müqəddəs şəxslərə böyük hörmətlə və onlara əlçatmaz bir varlıq kimi baxmasından irəli gəlir. Digər tərəfdən Aşıq Mədət şeirlərində dağları özünə həmişə arxa-dayaq hesab etmiş, bütün sirlərini, acısını, sevgisini, iztirablarını onunla bölmüşdür. Dastanda qəhrəmanlara butanın yuxu vasitəsilə müqəddəslərin verməsi xüsusi bir anlam kəsb edir. Təbiətin rəmzi olan Xızır gənclərə buta verməklə, onlara yeni

həyata hazırlığın, saf, təmiz eşqə başlanğıcın, sadiqliyin, səbrin təməlini qoymaqda yardımçı olur. Bununla qəhrəman bir sıra gizli sirlərdən xəbərdar olur, olub-keçənlərdən xəbərvermə bacarığına da malik olur. Folklorşünas alimlərimizdən olan prof. M.Seyidov doğru olaraq buta almağın, haqq aşığı olmağın mifik inamlarla bağlılığı qənaətinə gəlmişdir (114, 130-135). Prof. H.İsmayılov da aşıq sənətinin mənşəyi ilə bağlı konsepsiyasında butaya ilahi eşqin simvolu kimi yanaşaraq qeyd etmişdir ki, «buta istiliklə, odla, günəşlə, dünya ağacı ilə bağlı mifoloji məna daşıyan sözdür, nurlu, odlu içkidir. Məhz bu baxımdan butanı müqəddəslərin əli ilə alıb içən şəxs ya aşıq olur, ya da aşiq olur» (52, 118). Folklorşünas alim Füzuli Bayat «Məhəbbət (Eşq) dastanları» məqaləsində butanı haqq vergisi adlandırmışdır. «Vergi alan butanın butaya qovuşması aşiqin haqq ilə haqq olmasıdır» (44, 133). «Aşıq Mədət və Bəhrinazın dastanın» da buta verən müqəddəs şəxs əslində görünmür, qəhrəmanın yalnız dağlarla ünsiyyəti verilir. Qeybdən səs gəlir ki, ona səngər bulağının suyundan bir saat ərzində içməyi buyrulur. Deyilir ki, sudan içməzdən öncə qəhrəman sevgilisinin əksini görəcək. Gördüyü gözəl dağıstanlı Zahidxan ağanın qızıdır. Onu qəhrəmana buta verirlər. Göründüyü kimi, butavermə burada klassik dastanlardan fərqlidir. Qəhrəman yalnız qeybdən gələn səsin buyruğu ilə hərəkət edir və sonunda uğur qazanır. Hadisələrin bu cür cərəyan etməsi çox təbii ki, sənətkarın təxəyyülünün məhsuludur. Çünki heç bir klassik dastanda bu üsulla buta verilmir. Prof. İ.Abbaslı "Azərbaycan dastanları" kitabının müqəddimə hissəsində qeyd etmişdir ki, «dastan yaradıcılığı real həyat hadisələrini təcəssüm etdirməklə bərabər, dastançının öz fantaziyasının gücündən də istifadə olunur». Müəllif onu da qeyd edir ki, dastançılar yaratdıqları əsərlərinin mayasını, əsasını həm yaşadıqları, həm də özlərindən çox əvvəlki dövrlərdən alsalar da, bu nümunələri epik boyalarla zənginləşdirmiş, işləmiş və bədiiləşdirmişlər (1, 10). Butanın məhz Xızır Nəbi, Qırxlar pirinin, Əlinin, övliyaların, dərvişlərin verməsi, bu şəxslərin birbaşa Allah dərgahına yaxın olması, Allah elçisi olması ilə əlaqəlidir. Xalq rəvayətlərinin əksəriyyətində Xızır Nəbi müxtəlif funksiyalarda – yol

göstərən, gələcəkdən xəbər verən, xilasedici, yolundan azanı düz yola qaytaran, yazın gəlişindən soraq verən, aşiqi məşuqinə yetirən, Allah dərgahından enən müqəddəs şəxs kimi görürük. Aşıq Mədətə butanı verən də həmin Xızırdır. Burada əsas qəhrəmanlar Mədətlə Bəhrinazdır. Yardımçı obrazlar isə müdriklik çələngi olan Zahidxan baba və Bəhrinazın bacısı Şəhrinazdır. Dastan boyu Aşıq Mədətin qərib eldə keçirdiyi sıxıntıları, iztirabları, vətən həsrəti və s. əks olunur. M.Cəfərli dastanda mənəvi sınaqların ön plana çəkildiyini qeyd etmişdir (28, 87). Burada aşığın bədahətən dediyi qoşmaların, deyişmələrin xüsusi önəmi vardır. Zahidxan babaya özü haqqında məlumat verən qəhrəman belə deyir:

Mən Aşıq Mədətəm, haqqın quluyam,
Al ilə, qumaşla yükü doluyam.
Bu fani dünyadan yaxşı haliyəm,
Yaradandan möhlət, aman istərəm (78).

Dastan boyu sənətkarın böyük çətinliklərlə qarşılaşmasına baxmayaraq, Mədət heç vaxt sarsılmır. Sevgilisini küsüb inciyən görəndə Aşıq Mədət deyir:

At kənara kədər, qəmi
Qoynuna sal gizlə məni,
Nolaydı dağdan arana
Bəhrinazım gələydi (78).

Dastanın regional çalarlarını göstərən əsas xüsusiyyətlərdən biri də burada hadisələrin baş verdiyi məkan ilə əlaqədardır. Dastan boyu aşığın butasının arxasınca dolaşdığı ellər Dağıstan, Gürcüstan, Car, Balakən ellərinin hüdudlarıdır. Burada məşuqə aşiqinə yadigar və tanıtım üçün öz əliylə cehizliyinə toxumuş Dərbənd divarlarının əksi olan əl yaylığını verir.

Dastan boyu qəhrəman gah dünyanın vəfasızlığından, gah da bəxtindən gileylənir. Amma bütün bunlara baxmayaraq, sonda öz butasına yetişir, onunla xoşbəxt bir ailə qurur. Real həyat faktları ilə aşığın təxəyyülünün bəhrəsi olan bu dastan, fikrimizcə, bir sıra baxımdan çox dəyərlidir. Birincisi, dastan müasir məhəbbət mövzusunda yazılmış və avtobioqrafik səciyyə daşıyır. Məhz bu baxımdan çox böyük əhəmiyyətə malikdir. Digər tərəfdən dastanın

əsas qəhrəmanı Aşıq Mədətin özüdür. Əvvəldən sonadək onun simvolik obrazlarla deyişdiyini izləyirik. «Tale» ilə, «gül»lə, «ay»la, «çay»la deyişmələrə təsadüf edirik. Çayla olan deyişməsinin bir parçasına diqqət edək:

**Aşıq Mədət**

Bürünmüşəm dərdə-qəmə,
Qorxuram eşq odum sönə.
Siz Allah, yol verin mənə,
Çaylar, məni incitməyin.

**Çaylar**

Aşıq, bil dərdimiz çoxdur,
Kimi acdır, kimi toxdur.
Başqa cür çarəmiz yoxdur,
Bizim öz axınımız var (78).

Zaqatala aşıqlarından topladığımız regional dastanların hər birinin strukturunda diqqəti çəkən bir xüsusiyyət burada sakral sferanın və əlaqənin mövcudluğudur. Dastanda klassik ənənə qorunsa da, hadisələrin gedişatı, zamanı və toponimikası, məzmunu baxımından müasir hesab olunur. «Aşıq Mədətlə Bəhrinazın dastanı»nı tam şəkildə müasir həyatla səsləşən avtobioqrafik səciyyə daşıyan dastan hesab etsək daha doğru olar. Dastan müasir həyatı əks etdirsə də əsas kökünü, rişəsini klassik dastanlardan götürüb. Prof. İ.Abbaslı bu məsələyə münasibətini bildirərək qeyd etmişdir ki, yeni dastan yaradan müəlliflərin əksəriyyəti klassik dastan irsindən faydalanmış, bu xəzinədən yaradıcı surətdə istifadə etmiş, bu çeşmədən su içmiş, bu qaynaqdan bəhrələnmişlər (1, 7; 2, 11-12).

Fikrimizcə, «Aşıq Mədət və Bəhrinazın» dastanı məzmununa, quruluşuna, regional çalarlarına görə dastançılıq ənənəsində özünəməxsus yer tutacaq.

Klassik dastançılıq ənənəsinə sadiq qalan, onu yaşadanlardan biri də Aşıq Valehdir. O, «Novruz Qəndab», «Şah İsmayıl», «Aşıq Qərib» və s. başqa klassik dastanları yaxşı bilməklə yanaşı, özünün

maraqlı dastanlarını yaratmışdır. Aşıq Valehin yaratdığı «Aşıq Valeh və Afət» dastanını sözün həqiqi mənasında tam şəkildə səmimilik, saflıq və doğruluq, cəsarət mücəssəməsi adlandırmaq olar. Avtobioqrafik səciyyə daşıyan dastanın qəhrəmanı sənətkarın özüdür. Bu dastan Aşıq Valehin yaşadığı ömür yolunu, onun qarşılaşdığı mürəkkəb hadisələri, keçirdiyi sarsıntıları, hiss-həyəcanını, dəyişməz sevgisini əhatə edir. Aşıq Valeh bu dastanında gördüyü, yaşadığı və duyduğu hadisələri əks etdirir. Prof. Erman Artun «Aşıq dastalarının sosial-tarixi mənbəyi kimi» məqaləsində dastan yaradıcılarından söz açarkən qeyd etmişdir ki, «dastanlar aşığın yaşadığı çağdakı hadisələri, gördüyü, qarşılaşdığı qaynar həyat səhnələrini əhatə edir» (129, 35-37). Bu dastan klassik ənənəyə uyğun şəkildə üç ustadnamə ilə başlayır. Sonrakı hadisələrin, obrazların rəngarəngliyi, zaman və məkan əhatəsi və özünəməxsus spesifikası ilə yadda qalır. Dastanda əvvəldən sonadək sənətkarın müxtəlif ölkələrə səfərlərindən keçirdiyi iztirablardan, qarşılaşdığı haqsızlıqlardan, qazandığı dostlardan, sevincindən, dərdindən, qəmindən söz açılır. Dastan zamanın tələbinə uyğun müasir formada yazılsa da, klassik ənənədən gələn bir çox xüsusiyyətlər qorunur. Dastan boyu qəhrəman düşdüyü məclislərdə bir çox sənətkarlarla qarşılaşır, onlarla bədahətən deyişir, tez-tez sınaqlara çəkilir. İstər vətəndə olsun istərsə də yad ellərdə sənətkarı qəm-qüssə, haqsızlıq, xəta-bəla tərk etmir. Həqiqətin carcısı olan qəhrəman hər dəfə düşdüyü çətinlikdən Allahın köməyi ilə qurtarır. Buna görə də sənətkar ona hər zaman duaçıdır. Dastanda baş verən hadisələr əsasən, aşıq Valehlə onun ömür-gün yoldaşı Afət xanımın əhatəsində cərəyan edir. Qəhrəman sevgisinə yetişmək üçün çox böyük sədlər aşır, iztirablar keçirir, sonunda muradına yetişir. Yuxarıda qeyd etdiyimiz kimi, dastan həqiqi yaşanan bir ömrü əhatə etsə də, dövrün, zamanın tələbinə uyğun tərzdə yazılmışdır. Qəhrəman Afət xanıma qovuşana kimi çox ağır sınaqlardan mərdanə çıxır. Sevgisinin sorağı ilə qarda-boranda keçilməz dağlar aşıb, sıldırımlar, qayalar keçib onun vətəninə elçiliyə gedir. Nəhayət, qarşılaşdığı xeyirxah şəxslərin sayəsində sevgilisini tapır. Sonra qəhrəman qazanc dalınca Qazaxıstana getməli olur. Dastanda məkan və za-

man hüdudları genişdir. Baş verən hadisələr müxtəlif məkanlarda cərəyan edir ki, bu da dastanın dəyərini daha da artırır. Dastandakı məkan müxtəlif yerləri əhatə edir ki, bu isə məhz klassik dastanlarda olduğu kimidir. Klassik dastanlardan olan «Abbas və Gülgəz», «Qurbani»də olduğu kimidir. Deməli, sevgilisinə qovuşduqdan sonra dastan sujetinin davam etməsi dastan kompozisiyasında yenilik hesab oluna bilər. (Adı çəkilən bu dastanlar avtobioqrafik səciyyə daşıdığından nümunə çəkirik). Burada qəhrəman müxtəlif məkanlarda görünür, amma fərq yalnız ondadır ki, klassik dastanlarda qəhrəman butasına yetişmək səbəbindən müxtəlif məkanlarda görünür. «Aşıq Valeh və Afət» dastanın da isə vəziyyət tam başqa tərzdə cərəyan edir. Sevgisinə qovuşduqdan sonra, həyat tərzinin ağır keçdiyini görən qəhrəman müxtəlif ölkələrə getməli olur. Bunlar «Aşıq Valeh və Afət» dastanının səciyyəvi xüsusiyyətlərindən hesab oluna bilər. Dastan qəhrəmanı vətəndən kənarda yaşadığı müddətdə pislərlə yanaşı, dar gündə gərək olan gözəl dostlar, xoş müjdəli saatlar və əsrə bərabər günlər qazanır. Amma bununla yanaşı, Afəti heç unutmur. Onun namusunu, arını, özünəməxsus gözəlliyini, əxlaqını dünyanın heç bir gözəlinə dəyişmir. Qürbətdə gözlənilməz məcaralarla keçirdiyi hər gününü Afəti, ailəsini görmək eşqi ilə yaşayır. «Arzular» adlanan qoşmasında sənətkar arzu-istəyini belə ifadə edir:

Dolanıb dünyanı bir qartal kimi,
Dağların başına qonar arzular,
Seçib bir-birindən dostu düşməni,
Həqiqət yolunda yanar arzular (78).

Dastan real həyatı gerçəklərini açıqlamaq baxımından çox dəyərlidir. Burada qazanc dalınca vətəni tərk etmək məcburiyyətində qalan oğullarımızın aqibətini görürük. Bütün bunlar dastana yeni çalar gətirir. Onu da qeyd edək ki, dastanda klassik ənənədən gələn bir sıra xüsusiyyətlər qorunsa da, daha çox aşiqanə bir poeziyaya bənzəyir. Dastan boyu Aşıq Valeh yüksək sənətkarlıq qüdrətilə meydanda heç vaxt təklənmir. Həmişə öz bacarıq və qabiliyyəti ilə qarşısındakı rəqibini məğlub edir. Sənətkar buna baxmayaraq, heç vaxt öyünmür. Əksinə, həmişə yüksək ədəb-ər-

kanı, böyük-kiçik, ustad yolunu gözləməyi ilə yadda qalır. Bu xüsusiyyətə biz istər onun «Dağıstan səfəri» adlanan xatirələrində, istərsə də dastanın özündə təsadüf edirik. Sənətkar nəzakət xatirinə deyişdiyi aşıqların adlarını çəkmək istəmir. Dastan boyu izlənilən hadisələr, mükəmməl şeir nümunələri ustadın dini-ürfani məqamlara necə bələd olmasından xəbər verir. Onun məclislərin birində söylədiyi vücudnaməsi fikrimizi əsaslandırmaq üçün gərəkli nümunə ola bilər:

Qırx gündə bir mələk oldu müqərrər,
Bərkitdi sümüyümü eylədi təyyər,
Ətdən, qandan, sudan mən tapdım qərar,
Sanasan qəvvasdan doldum dəryaya (78).

Dastanda izlədiyimiz digər bir xətt Valeh və Nadya üzərində cərəyan edir. Düzdür, Nadya da öz növbəsində namuslu, cəsarətli, etibarlı və mərd bir qızdır. Amma buna baxmayaraq, bu obraz dastana yeni bir münasibət gətirir. Sənətkar Nadyanın timsalında əslində, zamanın, dövrünün qüsurlarını açıqlamış olur. Burada məcburən vətəndən uzaqlara iş üçün gedən həmyerlilərimizin aqibətini görürük. Aşıq Valeh bütün bu çətinliklərdən mərdanə çıxır. Sənətkara qüdrət verən, ona dar anında həmdəm olan qazandığı yaxşı dostları və elidir. Elə arxalanan və yaxşı dostları olanın inam və ümidi də tükənməz olar.

Afət xanım Aşıq Valehin həqiqi qisməti, daha düzgün desək, Allahdan bəxş olunan buta payıdır. Məhəbbət dastanlarımızda bir qayda olaraq, buta verilənin real həyatı, hiss-həyəcanı əsas qəhrəmana nəzərən az təsvir olunur. «Aşıq Valeh və Afət» dastanında buta motivi olmasa da, real sevgi üzərində aparılan mübarizə xətti ənənəyə uyğun tərzdə qorunmuşdur. Afət xanım dastanda təsvir olunan qadın obrazları içərisində daha cəsarətli, qeyrətli, Azərbaycan qadınına xas bütün gözəl xüsusiyyətləri özündə təcəssüm etdirən bir obraz kimi yadda qalır. Bütün çətinliklərə mərdliklə sinə gərən, heç vaxt Allahın bəxş etdiyi taledən şikayətçi olmayan Afət xanım uzun ayrılıqdan sonra yenidən öz qismətinə qovuşur. Klassik dastanlarımızda olduğu kimi, bu dastanın da sonluğu hər iki qəhrəmanın min bir əziyyətdən sonra öz arzularına hasil olmaqları ilə bitir.

Bu dastan öz poetik xüsusiyyətləri ilə spesifikdir. Zənnimizcə, bu baxımdan folklor araşdırıcıları, bütövlükdə aşıq sənəti üçün, özündən sonra yazıb-yaradan sənətkarlarmız üçün gərəkli örnək ola bilər.

Bu mühitdə xüsusi yeri olan müasir dastanlardan biri də Aşıq Valehin yaradıcılığının Zaqatala dövründə yaratdığı «Mətin və Riyalə»nin dastanıdır. Dastanda real hadisələrdən – 1992-1993-cü illərdə baş verən qanlı faciələrimizdən, Qarabağ uğrunda vuruşmalarımızdan, orada baş verən acı həqiqətlərdən, mərd oğullarımızın şücaətindən, səriştəsiz hakimlərin çirkin əməllərindən bəhs olunur. Prof. Özkul Çobanoğluya görə, bu gün aşıq ədəbiyyatında özünəməxsus yer tutan işğal altında qalan vətən torpaqlarının tərənnümü son dərəcə diqqətçəkən mövzulardandır (128, 91). Bu hadisələrimizin hamısı Mətin adlı qəhrəman bir igidin ətrafında cərəyan edir. Prof. M.Cəfərli «Dastan yaradıcılığı» kitabında qeyd etmişdir ki, dastan kökü tarixə dayanan və ilhamını tarixdən alan xalq ədəbiyyatı məhsuludur (29, 98). Dastanın özünəməxsusluğu da məhz onun real həyat hadisələri ilə əlaqəli olması ilə bağlıdır. «Mətin və Riyalə» dastanı klassik dastanlarımızdan fərqli olaraq üç ustadnamə ilə başlamır. Müraciətlə, arzu istəklə başlayır. Sonra giriş hissəsi ilə davam edir. Ustadnamə əvəzi Allaha müraciətlə başlanan iyirmi bir bəndlik minacatın verilməsi yazılı ədəbiyyatdan gələn bir ənənədir. Bu minacatların ən kamil nümunələrinə Nizaminin, Füzulinin poeziyasında təsadüf edirik. Dastanın minacatla başlamasının əsas səbəbi birinci növbədə sənətkarın mənən Allaha bağlı olması ilə əlaqədardır. Dastanı yazıb sona yetirmək üçün sənətkar Allahdan güc qüvvət istəyir:

Ricam budur, ey Yaradan,
Şeytanı götür aradan.
Sən izin ver yazım dastan,
Mən, Yaradan xatirinə (78).

Zaqatata aşıq mühitinə məxsus dastan yaradıcılığı sənətkarlıq baxımından çox zəngin hadisədir. Bu dastanlar öz orijinallığı ilə Azərbaycan şifahi xalq ədəbiyyatında özünəməxsus yer tutacaqdır.

# NƏTİCƏ

Tədqiqat işi onu göstərir ki, Zaqatala aşıq mühitində bu gün də yaşamaqda olan aşıq sənəti davamlı bir ənənəyə malikdir. Bu araşdırmaya qədər Zaqatala aşıqları həm mühit baxımından, həm də fərdi yaradıcı subyektlər olaraq tədqiq edilməmişdir. Məhz bu səbəbdən idi ki, Zaqatalanı müxtəlif aşıq mühitlərinin tərkib hissəsi kimi göstərirdilər. Tədqiqat göstərdi ki, burada XVIII əsrin sonlarından günümüzə kimi yaşayıb-yaradan yetmişdən çox aşığın, onların özünəməxsus ifa tərzinin və yaradıcılıq üsullarının olduğu Zaqatalanı ayrıca bir aşıq mühiti kimi təqdim etməyimizə əsas verir. Araşdırmada XVIII əsrin II yarsından başlayaraq dövrümüzə qədər yaşayıb-yaratmış bir çox Zaqatala aşıqlarının, el şairlərinin sənət şəcərəsi, həyat və yaradıcılıq yolu tədqiqata cəlb olunmuş və mühitin səciyyəvi xüsusiyyətləri müəyyənləşdirilmişdir.

Araşdırma zamanı məlum oldu ki, Zaqatala aşıq mühitində sazla yanaşı, tənbur musiqi alətinin də özünəməxsus yeri vardır. Məlumdur ki, tənbur musiqi aləti Orta Asiyada, İraqda, Güney Azərbaycanda, Şirvan ərazisində, Zaqatala və Balakəndə və türklərin yaşadığı başqa ərazilərdə mövcuddur. Biz sözügedən mühitdə bu gün də varlığını qoruyub saxlayan tənbur musiqi alətinin düzəlmə üsullarını, quruluşunu, tənbur ifaçılarını, onların yaratdıqları havaları, Zaqatala aşıqlarının tənbur musiqisinin müşayiəti ilə bədahətən söylədikləri haylaları, deyişmələri və dastan gecələrinin təşkil olunmasını və s. müşahidə edirik, bunlara mühiti səciyyələndirən cəhətlər kimi dəyərləndirdik. Tənburla sazın tarixən parelel bir inkişaf prosesi keçirməsi də inandırıcı dəlillərlə öz əksini tapmışdır. Tənburla söylənilən ilahiləri araşdırarkən o da məlum olur ki, Zaqatala tarixən pirlərin, övliyaların, təkkə ocaqlarının məskəni olmuşdur. Hər iki alətin (tənburla sazın) bir-birinə yaxınlığı və oxşarlığı da məhz onların təkkə ocağına bağlılığı ilə əlaqədar olmuşdur.

Bu araşdırmada Zaqatala aşıq mühiti haqqında tam bir fikir formalaşır. Burada folklorumuza, bütövlükdə aşıq sənətimizə məlum olmayan onlarla yeni ustad və ifaçı aşıqların, el şairlərinin,

o cümlədən Kor Vəlinin, Aşıq Könlünün, Aşıq Mədətin, Aşıq Cahangir Dalğının, Muxaxlı Əlinin Muxaxlı Ramazanın və başqalarının həyat və yaradıcılıq irsləri tədqiqata cəlb olunmuşdur.

Araşdırmadan aydın oldu ki, Zaqatala aşıq mühitində bir qrup sənətkarlar (Kor Vəli, Aşıq Könlü, Aşıq Camal) yaradıcılıqlarına bir qayda olaraq tənbur ifaçılığı ilə başlamış, sonradan saz ifaçılığına keçmişlər. Bu xüsusiyyəti də mühiti fərqləndirən cəhət kimi səciyyələndirmək olar.

Aşıq Könlünün bir sənətkar kimi təsdiqi araşdırmada müxtəlif aşıq rəvayətləri, söyləyicilər vasitəsi ilə aşkarlanır.

Araşdırmadan bəlli oldu ki, Zaqatala aşıq mühiti XX əsrin ortalarında inkişafın yüksək pilləsində olmuşdur. Zaqatala aşıq poeziyasına aid nümunələr onu göstərir ki, burada yaşayıb-yaradan sənətkarların şeirləri zəngin mövzu çalarlarına, janr əlvanlığına malikdir.

Zaqatalalı el şairlərinə gəlincə, onların iki qismdə fəaliyyət göstərdkləri məlum olur. Birinci qism el şairləri həm klassik şeir üslubunda, həm də aşıq şeiri üslubunda yazıb-yaradır, yeri gələndə məclislərdə saz da ifa edirlər. Amma ustad aşıqlardan fərqli olaraq ifa zamanı oxumurlar. İkinci qismə aid olan el şarləri isə yalnız aşıq şeiri üslubunda yazan sənətkarlardır ki, onlar ümumiyyətlə, sazda ifa etmirlər.

Araşdırmadan bəlli oldu ki, Zaqatala mühitində qoşmanın, ustadnamənin, təcnisin və aşıq rəvayətlərinin özünəməxsus yeri var. Xüsusən, aşıq rəvayətləri Zaqatala ərazisinin folklor bütövlüyünü özündə yaşatmaq baxımdan dəyərlidir.

Tədqiqat zamanı o da aşkarlanmışdır ki, Zaqatala aşıqları ənənədən gələn dastanlarımızı hafizələrində yaşatmış və xalqa çatdırmaqla yanaşı, həm də yeni dastanlar yaratmışlar. Bu dastanlar həm tarixi keçmişimizdə, həm də bu günümüzdə baş verən ictimai-siyasi və məişət hadisələrilə bağlı yaranmışdır. Məsələn, bu gün el arasında Qaçaq Hüseyn kimi tanınan Aşıq Hüseyin barəsində söylənilən rəvayətlər əsasında sonralar Zaqatala aşıqları arasında «Aşıq Hüseynin dastanı» adı ilə ifa olunan dastana da rast gəlirik. Aşıq Mədətin zaqatalalıların məşğuliyyət tərzini, məi-

şət həyatını, dünyagörüşlərini əks etdirən «Aşıq Mədət və Güleyşə» və həyatı haqqında tam avtobioqrafik məlumat verən «Aşıq Mədət və Tale», «Aşıq Mədət və Bəhrinaz» və s. adlı el arasında sevilən dastanları da mövcuddur. Aşıq Valehin isə Qarabağ uğrunda gedən savaşı əks etdirən məhəbbət və qəhrəmanlıq motivləri üzərində yazdığı «Mətn və Riyalə» dastanı vardır ki, adları çəkilən bu dastanlar buta vermə, regional çalarları əks etdirmə, zaman və məkan xüsusiyyətləri baxımdan maraq doğurur. Aşıq Mədətin «Aşıq Mədət və Tale» dastanında əvvəldən sona kimi simvolik obrazın bir çox funksiyalarda çıxış etməsi dastan kompozisiyası, obrazlar sistemi və dastan poetikası baxımından Azərbaycan dastançılığında orijinal hadisədir.

Beləliklə, aparılan araşdırmadan belə bir nəticəyə gəlmək olar:

– Zaqatalada tarixən də və çağdaş dövrdə də aşıq mühiti mövcud olmuşdur.

– Bir sıra ziyarətlərdə, ocaqlarda vaxtilə dərvişlərin tənburla söylədikləri ilahilər, bu alətin birbaşa təkkə ocaqlarına bağlılığına işarə edir.

– Hazırda Zaqatala aşıq mühitində tənbur ifaçılığı yaşamaqdadır və tənbur ifaçılarının yaradıcılığında haylalar daha geniş yer tutur.

– Sazla dastan söyləmək bütün mühitlərdə vardır. Amma tənburla dastan gecələrinin qurulması ənənəsi yalnız bu mühitə xas olan xüsusiyyətlərdən biridir.

– Müxtəlif mərasimlərdə (Qurban, Mövlud), iməciliklərdə (xüsusən yun yuma, barama təmizləmə, tütün düzümü, tay basma və s. yığınaqlarda) tənburun ifa olunması ilk öncə insanları bir araya gətirmək, onları bir-birlərinə daha sıx bağlamaq, bir-birlərinin qədrini bilmək kimi yüksək əxlaqi keyfiyyətlər aşılamağa xidmət edir. Qurban bayramından bir gün öncə tənburda ilahilərin oxunması, insanları bir araya gətirməklə onların ruhunu təzələməkdə xüsusi əhəmiyyətə malik olmuşdur.

– Qaçaqçılıq hərəkatı Aşıq Hüseynin həyat və yaradıcılığına ciddi təsir göstərmişdir.

– Aşıq Könlünün bir sənətkar kimi özünü təsdiq etməsi sübut edilmişdir.

– Aşıq Mədət yaradıcılığında, xüsusən dastan yaradıcılığında şərti-simvolik ünsürlərdən istifadə etmişdir.

– Zaqatala aşıqlarının poeziyasında vətənpərvərlik, ictimai-siyasi və dini-ürfani şeirlər əsas yer tutur.

– Zaqatalada regional səciyyə daşıyan dastanlar da yaranmış, ancaq buna baxmayaraq, burada klassik ənənə də davam etdirilmişdir.

Beləliklə, tədqiqat işi göstərir ki, Zaqtala aşıq mühiti öz ustad və ifaçı aşıqlarının həyat və yaradıcılıq irsləri ilə müəyyən bir ənənəyə malik olmuşdur. Bu mühitin Azərbaycan aşıq sənətində hər zaman özünəməxsus yeri olmuşdu.

# Ə D Ə B İ Y Y A T

1. Abbaslı İ. Yeni dastanlar adlı müqəddimə. Azərbaycan dastanları. 5 cilddə, V cild. Bakı: Elm, 1972, 447 s.

2. Abbaslı İ. Azərbaycan dastanlarının yayılması və təsiri məsələləri. Bakı: Nurlan, 2007, 272 s.

3. Abbaslı T. Qurbaninin poetik irsi. (Monoqrafiya), Bakı: Təhsil, Elm, 2004, səh. 84-85.

4. Abdullayev M. Musiqi əsl ümumbəşəri dildir. “Xalq qəzeti”., Bakı: 2008, 17 sentyabr, s. 4.

5. Ağalar M. Şirvan Aşıq yaradıcılığı: təşəkkülü və inkişaf tarixindən. Bakı: Elm, 2007, 298 s.

6. Allahmanlı M. Ozan, Aşiq, Aşıq. Bakı: Ağrıdağ, 1997, s.211.

7. Araslı H. Həmişə yaşar sənətkar. «Azərbaycan» jurnalı, Bakı: 1972, №5.

8. Araslı H. Ön söz. Aşıqlar. Bakı: Qızıl Şərq mətbəəsi, 1957, 207 s.

9. Araslı H. Aşıq yaradıcılığı. Bakı: Birləşmiş nəşriyyat, 1960, 136 s.

10. ASE. IX cild, Bakı: 1986, 510 s.

11. Aşıq Qərib dastanı. Azərbaycan dastanları. 5 cilddə, III cild, Bakı: Çıraq, 2005, 440 s.

12. Aşıq Şəmşir. Seçilmiş əsərləri. Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1973, 238 s.

13. Aşıq Ələsgər. Əsərləri. dastan-rəvayətlər, xatirələr. Bakı: Şərq-Qərb, 1999, 577 s.

14. Aşıq Əzim. Aşıqsansa söz deməyə haqlısan. (tərtibçi və ön sözün müəllifi Zümrüd Səmədova). Bakı: Nurlan, 2010, 152 s.

15. Azərbaycan aşıqları və el şairləri. 2 cilddə, I cild, (Tərtibçi Əhliman Axundov), Bakı: Elm, 1983, 373 s.

16. Azərbaycan aşıqları və el şairləri. 2 cilddə, II cild. (tərtib edəni Ə.Axundov). Bakı: Elm, 1984, 544 s.

17. Azərbaycan ədəbiyyatı inciləri: (tərtib edəni, Bəhlul Abdullayev) Bakı: Yazıçı, 1988, 571 s.

18. Azərbaycan tarixi: 7 cilddə, II cild. Bakı: Elm, 2000, 508 s.
19. Azərbaycan folkloru antologiyası. VII kitab (Qaraqoyunlu folkloru) Bakı: Səda, 2002, 464 s.
20. Azərbaycan folkloru antologiyası. IX kitab, (Gəncəbasar folkloru), Bakı: Səda, 2004, 522 s.
21. Azərbaycan folkloru antologiyası, XIII kitab, (Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən folkloru), Bakı: Səda, 2005, 549 s.
22. Azərbaycan folkloru antologiyası. XVI kitab, (Ağdaş folkloru), Bakı: Səda, 2006, 486 s.
23. Azərbaycan xalq dastanları. (tərtib edəni Ə.Axundovdur) V cildə,V cild. Bakı: Elm, 1972, 446 s.
24. Azərbaycan dastanları. (təkrar nəşr), (Redaktor M.Qasımlı, Tərtib edənlər M.H.Təhmasib, Ə.Axundov). Beş cilddə, I cild. Bakı: Lider, 2005, 392 s.
25. Babayev B., Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı: Maarif, 369 s.
26. Baxşəliyev F. «Saz və təsəvvüf. Dədə Qorqud, Elmi-ədəbi toplu. Bakı: Səda, 2003, №1, s. 72-79.
27. Cəfərli M. Dastan və mif. Bakı: Elm, 2001, 186 s.
28. Cəfərli M. Haqqa tapınan aşiqlər. Azərbayacan folkloru. Bakı: Sabah,1994, 227 s.
29. Cəfərli M. Dastan yaradıcılığı. (Metodik vəsait), Bakı: Elm, 2007, 107 s.
30. Dastani Əhməd Hərami, Bakı: Gənclik, 1978, 95 s.
31. Dəmirçizadə Ə. Şair və dil normaları. «Ədəbiyyat» qəzeti, 1936, 20 avqust
32. Dünya Uşaq Ədəbiyyatı kitabxanası. El Çələngi. Bakı: Gənclik, 1983, 386 s.
33. Eltəkin Nəzir. İsmi Pünhan sorağında. Bakı: Şirvannəşir, 1998, 160 s.
34. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. (İkinci nəşr, Ali məktəblər üçün dərslik), Bakı: Maarif, 1992, 478 s.
35. Əfəndiyev P. Molla Cuma əsərləri. Bakı: Şərq-Qərb nəşriyyatı, 2006, 647 s.

36. Əfəndiyev P. Azərbaycan folklorşünaslığının problemləri. Dastanlarımız haqqında (filologiya fakültəsinin tələbələri üçün). ADPU mətbəəsi, Bakı: 2003, 378 s.
37. Əhmədli A. Şirvan folklorunun coğrafi, tarixivə etnoqrafik əsasları. (Folklorşünaslıq: Filologiya, Fəlsəfə,Tarix, İncəsənət və nəzəriyyə aspektləri) XXXIV, Bakı: Nurlan, 2007, 180 s.
38. Ələsgərov İ. Sazlı-sözlü Göyçə. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1999, 288 s.
39. Ələkbərli Ə. Qax: Folklor-etnoqrafik etüdlər. Bakı: Ağrıdağ, 2005, s. 224 s.
40. Əlizadə H. Aşıqlar. 2 cilddə, II cild., Bakı: Azərnəşr, 1936, 437 s.
41. Əsrarül-Quran (Elmi ayələr). (Tərtibçi Əhmədağa Əhmədovdur) II kitab, Bakı: Elm, 1994, 110 s.
42. Faseh R. Seyid İmaməddin Nəsiminin seçilmiş bəzi şeirlərinin şərhi. Bakı: Şərq-Qərb, 2007, 392 s.
43. Füzuli M. «Yeddi Cam» poeması. Seçilmiş Əsərləri. Bakı: ADN, 284 s.
44. Füzuli B. Xoca Əhməd Yəsəvi və Sufizminin bəzi problemləri. Bakı: Ağrıdağ, 1997, 101 s.
45. Hacıbəyov Ü. Şərq musiqisi haqqında Qərb alimlərinin təfsirində. Musiqi dünyası 2005, http://uzeyir.musigi-dunya.az/az/article 28.htm
46. Hacıyev V. Folklorumuzun üfüqləri. Bakı: Yazıçı, 1991, 150 s.
47. Hacılar V. XIX yüzillikdə Borçalıda qaçaqçılıq hərəkatı. Tbilisi Dövlət Universiteti, 2003, 92 s.
48. Həkimov M. Aşıq şeirinin növləri. Bakı: ADU, 1987, 79 s.
49. Həkimov M. Aşıq sənətinin poetikası. Bakı: Səda, 2004, 606 s.
50. Həşimov Ə. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. Bakı: Maarif, 1970, 168 s.
51. İbrahimov M. Aşıq poeziyasında realizm, Bakı: Gənclik, 1966, 121 s.

52. İsmayılıov H. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. Bakı: Elm, 2002, 310 s.

53. İsmayılov H. Aşıq sənətinin inkişaf mərhələləri. «Dədə Qorqud» dərgisi, № 1, Bakı, Səda, 2002, 170 s.

54. İsmayılıov H. Göyçə aşıq mühiti, təşəkkülü və inkişafı yolları. Bakı: Elm, 2002, 404.

55. İsmaylov H. Azərbaycan folklorunun regional xüsusiyyətləri. Bakı: Səda, 2006, 336 s.

56. İsmayılov H. Dədə Ələsgər, Həqiqət və dastanın sənət vəhdəti. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XVI kitab. Bakı: Səda, 2005, 170 s.

57. İsmayılov H. Ön söz. Türk eposunun dastan informasiyası erməni mənbələrində. Abbaslı İ.Azərbaycan dastanlarının yayılması və təsiri məsələləri. Bakı: Nurlan, 2007, 272 s.

58. İsmayılov Həşim. Aşıq yaradıcılığında əxlaqi motivlər. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XV, Bakı: Səda, 180 s.

59. İsmayılov M. Azərbaycan tarixi, Dərslik, Bakı: Azərbaycan Ensiklopediyası, 1997, 338 s.

60. Kərimov M. Qədim musiqi alətlərimiz. «Xalq» qəzeti, 2008, 6 may, s. 6.

61. Kərimov M. Tənbur və onun müxtəlif növləri, «Musiqi Dünyası» jurnalı, № 3-4, 110 s.

62. Kərimov M. Unudulmuş musiqi alətlərimiz. Azərbaycan Milli Musiqisinin Tədqiqi problemləri (I Respubilka Elmi Konfransının Materialları, Bakı: Azərbaycan, 1992, 17-19 dekabr, 236 s.

63. Kərimov Azad Ozan. Qızılvəngli Aşıq Qulunun yetirmələri (Şişqayalı Aşıq Rəhim və Aşıq Əli) Musiqi dünyası, 3-4/9-2001, s. 138.

64. Qafarova Z. Folklorda təsəvvüf elementləri. «El sözü» jurnalı. 2004, №1, 2, s. 27.

65. Qasımzadə F. Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Maarif, 1956, s.127.

66. Qasımlı M. Aşıq sənəti. Bakı: Ozan, 1996, 260 s.

67. Qasımlı M. Aşıq sənətində informativ yük və repertuar problemi. Milli Folklor, Uluslararası Halkların Dergisi. 2002, №54, 144 s.

68. Quliyeva T. Aşıq musiqisi mənəvi dəyərləri tərənnüm edir. «Yeni Azərbaycan» qəzeti. 2009, 2 iyun, s. 4.

69. Qurani-Kərim. Azərbaycan türkcəsində açıqlama. Nəriman Qasımoğlunun qələmi ilə, Bakı: Azərbaycan, 1993, 205 s.

70. Qurbanov T. Ağbaba aşıq mühiti, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyaya, Bakı: 2008, 150 s.

71. Qurbanov O. Azərbaycan revolisyon xalq ədəbiyyatı. «Ədəbiyyat» qəzeti№13, 1938, 17 mart.

72. Marağayi Ə. Məqasidül-əl-əlhan. Qobustan jurnalı, №1, Bakı: 1974, s. 74.

73. Məmmədli E. Təcnis sənətkarlığı. Bakı: Nafta-press, 1998, 161 s.

74. Məmmədli E. Təcnis haqqında bəzi qeydlər. «El sözü» jurnalı, 2004, №2, Bakı: s. 24 .

75. Məmmədli A. Balakən-Zaqatala bölgəsi: tarixi, etnoqrafiyası. Bakı: Adiloğlu, 2001, 175 s.

76. Məmmədli S. Sənət möhürü. «El sözü» jurnalı, 2003 № 2, Bakı: səh.19.

77. Məmmədli Tinatin İsabalı qızı. Borçalı aşıq mühiti. Bakı: Elm, 1999,170 s.

78. Mənbəyi göstərilməyən nümunələr müəllifin şəxsi arxivindədir.

79. Musazadə R. Aşıq sənəti və zərbi muğamlar. Qobustan jurnalı-№1, Bakı: Səda, 2008, s. 88

80. Mümtaz S. El şairləri. Bakı: Səda, 2005, 292 s.

81. Mümtaz S. Aşıqlar haqqında bəzi qeydlər. fon 24, saxlama müddəti – C–V 88, s. 54.

82. Namazov Q. Azərbaycan aşıq sənəti. Bakı: Yazıçı, 1984, 192 s.

83. Namazov Q. Aşığın sazı və sözü. Bakı: Yazıçı, 1980, 189 s.

84. Namazov Q. Aşıqlar. (Bioqrafik məlumat kitabı) I kitab. Bakı: Səda, 2004, 443 s.

85. Nəbiyev A. Azərbaycan aşıq məktəbləri. Bakı: Elm, 2004, 678 s.

86. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. (Orta əsr və yeni dövr folklor yaradıcılığı). II hissə, Bakı: Elm, 2006, 648 s.

87. Nemətova Məşədixanım. Azərbaycan pirləri. Bakı: Azərnəşir, 1992, 104 s.

88. Ormanlı H. Yengiyanlı bir aşıq vardı. «Türküstan» qəzeti. 2009, 7-23 may, s.12

89. Paşayev Mir Cəlal. Pənah Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1972, 280 s,

90. Paşayeva M. Azərbaycanlıların ailə mərasimlərində etnik ənənələr, XIX-XX əsrin əvvəlləri, Şəki-Zaqatala bölgəsinin materialları üzrə) Bakı: Azərnəşr, 2008, 308 s.

91. Paşayev S.P. Azərbaycan folkloru və aşıq yaradıcılığı. (Dərs vəsaiti) Bakı: ADU, 1989, 88 s.

92. Pirsultanlı S.P. Ozan-aşıq sənətinin nəzəri məsələləri. Bakı: Ozan, 2002, 208 s.

93. Pirsultanlı S.P. Tənbur və Tala mahnıları. «Daşkəsən» qəzeti, 1969, 9 sentyabr, s. 3

94. Pirsultanlı S.P. Nəsimi və Folklor. Ozan-aşıq yaradıcılığına dair araşdırmalar. 2 cilddə, II hissə. Gəncə: Pirsultan, 2002, 236 s.

95. Pirsultanlı S.P. El şairləri. Ozan-aşıq yaradıcılığına dair araşdırmalar. 2 cilddə, II hissə, Gəncə: Pirsultan, 2002, 330 s.

96. Pirsultanlı S.P. Aşıq yaradıcılığında təcnisin öyrənilməsinə dair. Ozan-Aşıq sənətinin nəzəri məsələləri. Bakı: Ozan, 2002, 208 s.

97. Pirsultanlı S.P. Nizami və ozan-aşıq sənəti. Ozan-aşıq yaradıcılığına dair araşdırmalar. 2 cilddə, I hissə, Gəncə: Pirsultan, 2002, 203 s.

98. Pirsultanlı S.P. Qopuz, tənbur, setar və saz. «Kommunist əməyi» qəzeti. 1970, 22 avqust, s. 6.

99. Pirsultanlı S.P. Aşıq ifaçılığı xüsusiyyətləri. Ozan-aşıq sənətinin nəzəri məsələləri, Bakı: Ozan, 2002, 208 s.
100. Rüstəmzadə R. Azərbaycan tarixi qəhrəmanlıq dastanları. Gəncə: Poliqrafiya, 1998, 291 s.
101. Rüstəmzadə R. Xalq Ədəbiyyatına Dair Araşdırmalar. Bakı: UniPrint, 2007, 243 s.
102. Rüstəmzadə R. Məhəbbət dastanları. Gəncə: Poliqrafiya, 2008, 502 s.
103. Sayılov Q. Müasir Şirvan aşıqları (1950-1980-ci illər). Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, 10.01.09-Folklorşünaslıq, Bakı: 2008, 150 s.
104. Seyidov M. Mifik təfəkkürün qaynaqları. Bakı: Yazıçı, 1983, 331 s.
105. Səmimi T. Dingəm dinar. Bakı: Nurlan, 2006, 46 s.
106. Səmimi T. Nanaylar. Dədə Qorqud dərgisi. №2, Bakı: Səda, 2004 160 s.
107. Səmədova Z. Zaqatalada tənbur ifaçılığı. Elmi Axtarışlar, XXXV toplu, Bakı: Nurlan, 2007, 170 s.
108. Səmədova Z. Zaqatala folklor mühitində tənburla deyilən haylalar. Xəbərlər jurnalı, (Humanitar elmlər seriyası) Bakı: Elm, 2009, № 3, 192 s.
109. Şabanov Q. İsmayılov H. Varxiyanlı Aşıq Məhəmməd - Zaqatalalı ustad, Bakı: Ağrıdağ, 2000, 110 s.
110. Şabanov Qurban. İsmayılov Həşim. Zaqatala Aşıqları. Bakı: Ağrıdağ, 2004, 170 s.
111. Şabanoğlu M. Talanın yastı yolu. Bakı: A.M.Ensiklopediyası. 2001, 137s.
112. Şamilov Ə. Folklor İnstitutunun arxivi. invertar №-864, 2005.
113. Şamilov Ə. Folklor İnstitutunun arxivi. invertar №-14, 2004.
114. Telli saz ustadları. (tərtib edən Ə.Axundov). Bakı: Azərnəşr, 1964, 159 s.
115. Təhmasib M.H. Məqalələri. Dastan yaradıcılığı haqqında. Bakı: Elm, 2005, 218 s.

116. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər), Bakı: Elm, 1972, 399 s.
117. Təhmasib M.H. Bir Ömür-dörd dövr. «Ədəbiyyat və İncəsənət» qəzeti. 1972, 9 iyun
118. Təhmasib M.H. Ön söz. Azərbaycan məhəbbət dastanları. Bakı: Elm, 1979, 502 s.
119. Təsəvvüf nurunun iki çırağı. Mənsur Həllac və Sərrac Tusi, (ərəb dilinə tərcümə edən Könül Bünyadova). Bakı: Adiloğlu, 2007, s. 4.
120. Vəliyev V. Aşıq poeziyası. Bakı: ADN, 1965, 198 s.
121. Vəliyev V. Qaynar söz çeşməsi. Bakı: Yazıçı, 1981, 160 s.
122. Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985. 351 s.
123. Yaquboğlu A. Aşıqların və şairlərin müqəddəs beşiyi. Daşkənd aşıqları və el şairləri. Bakı: Nurlan, 2008, 416 s.

### *Türk dilində*

124. Abdülkadir İ. Türk kavımlarının halk edebiyatında rus istilasının inikası. Azərbaycan yurt bilgisi, İstanbul: 1990 yıl, 1 saylı, 122 s.
125. Öndər Ali Rza. Halk şiirində «dört durak» kavramı. Folklor və etnoqrafiya, Araşdırmalar, Anadolu Sanat yayınları. İstanbul: 1985, s.228
126. Alptekin Ali Berat. Azərbaycan türkləri, Aşık Edebiyatı Antolojileri hazırlanarken ustadnamelerdən istifadə edebilermiyiz. Aylık İlmi, edebi dergi, 1nisan, 1990 yıl:1 saylı: 47 s.
127. Cəfəroğlu Ahmed. Azeri edebiyyatında is-tiklal mücadiləsi, İstanbul: Burhaeddin Matbaası,1934, 209 s.
128. Çobanoğlu Özkul. Çobanoğlu, İşğal edilən vatan torpaklarında Aşık edebiyatının işlevleri ve Aşık Şenlik, Uluslar Arası Halkbilimi dergisi, yıl-11, №42, 96 s.
129. Artun Erman. Milli folklor. Aşıkların Destanlarının sosyal Tarihe kaynaklık etmeleri. Uluslar Arası Halkbilimi Dergisi №53, 2002, 184 s.

130. Ergin Metin. Hakas hayçıları və hayçılık sanatı. Milli Folklor, 3-9 Cüz, 1993, 100 s.

131. Esma Şimşek. Ercişli Emrah hikayəsi, Azərbaycanda bilinmektemidir. Azərbaycan türkləri, Aylık ilmi, edebi dergi, sayı 1, nisan 1990, İstambul: 48 s.

132. Yılmaz Hasan Kamil Mövlana düşüncəsində insanın dəyəri, Könüllərdən könüllərə Mövlana. Bakı: Xəzər, 20 7, 64 s.

### *Rus dilində*

133. Бадалов Р.Правда и вымысел героического эпоса: Азербайджанский эпос «Китаби-Деде Коркуд». Баку: Елм, 1983, 154 с.

134. Короглы Х.Г. Набиев А.М. Азербайджанский героический эпос. Баку:Язычи, 1996, 305 с.

135. Плотто А. Природа и люди Закаталского окриго сборник сведений Кавказских календарь, выпускник ЫВ, 1870, стр. 3-63

*Əlavə 1*

## ZAQATALA AŞIQ MÜHİTİNƏ MƏNSUB SƏNƏTKARLARIN ELMİ KATALOQU

| № | Adı, soyadı, təxəllüsü | Çağı | Anadan olduğu yer | Sənət statusu | Ustadı |
|---|---|---|---|---|---|
| 1 | Aşıq Məhəmməd | 1770 – XIX əsrin 60-70-ci illəri | Varxiyan (indiki Bəhmədli) kəndi | Ustad Aşıq | |
| 2 | Aşıq Təmaz | XIX əsrin 30-cu illəri – XX əsrin əvvəlləri | Varxiyan kəndi | İfaçı aşıq | Aşıq Məhəmməd |
| 3 | Aşıq Qurban | XIX əsrin 30-cu illəri – 1937 | Varxiyan kəndi | İfaçı aşıq | Aşıq Məhəmməd |
| 4 | Aşıq Sarət | 1880 – XX əsrin 40-cı illəri | Yengiyan kəndi | Ustad aşıq | |
| 5 | Aşıq Vəli Yusif oğlu İbadov (Kor Vəli) | 1923 – 1980 | Cimcimax kəndi | Ustad aşıq | Atası aşıq Yusif |
| 6 | Aşıq Nadir | XIX əsrin 90-cı illəri – XX əsrin əvvəli | Cimcimax kəndi | Ustad aşıq | Kor Vəli |
| 7 | Bəkirov Bəkir (Aşıq Bəkir) | XIX əsrin sonu – XX əsrin 30-cu illəri | Aşağı Tala kəndi | Ustad aşıq | |
| 8 | Aşiq Dibro (Aşıq Kamal) | 1861 – 1947 | Aşağı Tala kəndi | Ustad aşıq | |
| 9 | Əminov Nəzir (Boyaqçı Nəzir, Kor Nəzir, Aşıq Nəzir) | 1880 – 1970 | Suvagil kəndi | Ustad aşıq | |
| 10 | Aşıq Könül | 1880 – XX əsrin 30-cu illəri | Car kəndi | Ustad aşıq | |
| 11 | Aşıq Hüseyn Oruc oğlu Sulxayev | 1890 – XX əsrin 40-cı illəri | Əliabad kəndi | Ustad aşıq | Mişleşli Aşıq Hüseyn |

| | | | | | |
|---|---|---|---|---|---|
| 12 | Aşıq Cəlil | XIX əsrin sonu – XX əsrin 40-cı illəri | Əliabad kəndi | İfaçı aşıq | Aşıq Hüseyn |
| 13 | Aşıq Abdulla | 1880 – 1940 | Əliabad kəndi | İfaçı aşıq | Aşıq Hüseyn |
| 14 | Aşıq Bədir | XX əsrin sonları – XX əsrin ortaları | Əliabad kəndi | İfaçı aşıq | Aşıq Hüseyn |
| 15 | Balayev Camal Uluxun oğlu | 1933-cu il | Əliabad kəndi | Ustad aşıq | Aşıq Herov |
| 16 | Həsənov Murtuzəli Şaban oğlu | 1895 – 1980 | Kəpənəkçi kəndi | Ustad aşıq | |
| 17 | Aşıq Arab Murad oğlu | 1860 – 1937 | Qandax kəndi | Ustad aşıq | Aşıq Əzizxan |
| 18 | Əlixan Murad oğlu Əlixanov (Aşıq Əlixan) | 1898 – 1982 | Yengiyan kəndi | Ustad aşıq | |
| 19 | Aşıq Dibir | XIX əsrin 90-cı illəri – XX əsrin 70-ci illəri | Alaskar kəndi | İfaçı aşıq | |
| 20 | Aşıq Süleyman | 1925 – XX əsrin 90-cı illəri | Kəpənəkçi kəndi | Ustad aşıq | |
| 21 | Aşıq Rüstəm İbad oğlu | 1923 – XX əsrin 70-ci lləri | Kəpənəkçi kəndi | Ustad aşıq | Murtuzəli |
| 22 | Şişqayalı Aşıq Əli Həsən oğlu Rəsulov | 1906 – 1988 | Göyçə mahalının Şişqaya kəndi | Ustad aşıq | Qızılvəngli Aşıq Qulu, Aşıq Rəhim |
| 23 | Aşıq Bayraməli | 1930 – XX əsrin 80-ci illəri | Faldar kəndi | İfaçı aşıq | |
| 24 | Aşıq Süleyman | 1933 – XX əsrin 90-cı illəri | Faldar kəndi | Ustad aşıq | |
| 25 | Aşıq Musa İbrahim oğlu | 1940-cı il | Faldar kəndi | Ustad aşıq | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 27 | Aşıq Əli İbad oğlu | 1937-ci il | Aşağı Tala kəndi | Ustad aşıq | |
| 28 | Aşıq Xozəhməd | 1930 | Qandax kəndi | Ustad aşıq | |
| 29 | Aşıq Abduləzim Şaban oğlu Həşimov | 1907 –1980 | Yengiyan kəndi | Ustad aşıq | Aşıq Sarət |
| 31 | Valeh Rəhim oğlu Həsənov | 1937 | Basarkeçərin Şişqaya kəndi | Ustad aşıq | Aşıq Rəhim |
| 32 | Aşıq Həbibulla | XX əsrin 30-cu illəri | Yengiyan kəndi | İfaçı aşıq | |
| 33 | Aşıq Oruc * | 1920-1950 | Əliabad kəndi | İfaçı aşıq | Aşıq Hüseyn |
| 34 | Aşıq Əli * | 1924 – XX əsrin 60-cı illəri | Əliabad kəndi | İfaçı aşıq | |
| 35 | Aşıq Salam * | XX əsrin 20-ci İlliəri – 1950 | Əliabad kəndi | İfaçı aşıq | Aşıq Hüseyn |
| 36 | Aşıq Herov * | XX əsrin 20-60-cı illəri | Əliabad kəndi | ifaçı aşıq | Aşıq Hüseyn |
| 37 | Aşıq Kazım | 1888 – 1969 | Çobonkol kəndi | İfaçı aşıq | |
| 38 | Aşıq Cuma | XX əsrin əvvəlləri – XX əsrin sonları | Varxiyan kəndi | İfaçı aşıq | |
| 39 | Aşıq Ziyəddin Qəhrəman oğlu Abdurahmanov | 1936 – 1997 | Qımır kəndi | Ustad aşıq | Aşıq Sirac |
| 40 | Aşıq Məhəmməd | 1910 – XX əsrin sonu | İti Tala kəndi | Ustad aşıq | |
| 41 | Mütəllibov Qeyfəddin Əmrullah oğlu (Cahangir, Dalğın, Coşqun, Şəms və s.) | 1932 – 1981 | Bəhmədli kəndi | Ustad aşıq | Aşıq Əli |

| | | | | | |
|---|---|---|---|---|---|
| 42 | Səadəddin Abduləziz oğlu Ramazanov | 1933 – 2006-cı il | Bəhmədli kəndi | İfaçı aşıq | |
| 43 | Ömərov Mədət Ramazan oğlu (Aşıq Mədət) | 1934 – 2013 | Bəhmədli kəndi | Ustad aşıq | |
| 44 | Aşıq Məhəm-məd Kərimov (Molla Kərim) | 1930 – 2004-cü il | Əliabad kəndi | İfaçı aşıq | |
| 45 | Heydərov Əziz Həmzə oğlu | 1928 – 2000 | Suvagil kəndi | Ustad aşıq | Kor Nəzir |
| 46 | Vəliyev Oruc (Aşıq Oruc) | 1934 – 1983 | Suvagil kəndi | İfaçı aşıq | Kor Nəzir |
| 47 | Aşıq Məmmədrəsul Mirzəyev | 1927- | Sumaylı kəndi | İfaçı aşıq | |
| 48 | Aşıq Camal Məhəmməd oğlu Əhmədov | 1928- 2006 | Dağıstanın Rutul rayo-nunun İxrək kəndi | Ustad aşıq | Aşıq Əli Rəsulov |
| 49 | Almazov Məhəmməd (Aşıq Məhəm-məd) | 1930-cu il | Suvagil kəndi | İfaçı aşıq | Kor Nəzir |
| 50 | Məmmədov Seyid Bilal oğlu | 1927-ci il | Suvagil kəndi | Ustad aşıq | |
| 51 | Səmədov Məcid (Aşıq Məcid) | 1920 – 1992 | Qımır kəndi | İfaçı aşıq | |
| 52 | Musayev Məhəmməd Pirməhəmməd oğlu (Koroğlu –təxəllüsü ilə) | 1927 – 1972 | Qımır kəndi | İfaçı aşıq | |
| 53 | Ramazanov Sayaddın Əziz oğlu | 1925 – 1943 | Bəhmədli kəndi | İfaçı aşıq | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 54 | Aşıq Şəmsəd-din (Cəlal) Əli oğlu Şabanov | 1916 – 1943 | Tala kəndi | İfaçı aşıq | |
| 55 | Aşıq Yusif Yunis oğlu Abbasov | 1932 – 1991 | Ordubad rayonunun Biləv kəndi | Ustad aşıq | İtitalalı Aşıq Mə-həmməd |
| 56 | Əli Abdulla oğlu Gəncəliyev | 1950-ci il | Muxax kəndi | İfaçı aşıq | Göyçəli Aşıq Va-leh, Mu-xaxlı el şairi Ramazan |
| 57 | Aşıq Ramazan Şamil oğlu Bayramov | 1960 | Gürcüsta-nın Dma-nisi rayonu-nun Qara-bulaq kəndi | İfaçı aşıq | Aşıq Ədalət |
| 58 | Əmrah Almalı | 1962 | Qax rayo-nunun Al-malı kəndi | Ustad aşıq | |
| 59 | Ramazanov Nəbi Ramazan oğlu | 1964 | Muxax kəndi | İfaçı aşıq | |
| 60 | Əhmədova Sonbahar | 1968-ci il | Bəhmədli kəndi | İfaçı aşıq | Aşıq Cahangir Dalğın |
| 61 | Əhmədova Şövkət | 1963-cü il | Bəhmədli kəndi | İfaçı aşıq | Aşıq Cahangir Dalğın |
| 62 | Qazıyev Sahib Nadir oğlu | 1974 | Bəhmədli kəndi | İfaçı aşıq | |
| 63 | Aşıq Baba * | XX əsrin orta-ları | Gözbarax kəndi | İfaçı aşıq | |
| 64 | Paşayev Balabəy Muradəli oğlu | 1930 – 1993 | Mamrix kəndi | İfaçı aşıq | |
| 65 | Aşıq Murad Həsən * | XX əsrin 30-60-cı illəri | Lahıc kəndi | İfaçı aşıq | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 66 | Aşıq İslam * | XX əsrin ortaları | Mosul kəndi | İfaçı aşıq | |
| 67 | Aşıq Əli * | XX əsrin 60-cı illəri | Mosul kəndi | İfaçı aşıq | |
| 68 | Aşıq Camal * | XX əsrin 40-cı illəri | Cımcımax kəndi | İfaçı aşıq | |
| 69 | Aşıq Bayram * | XX əsrin 40-50-ci illəri | Qandax kəndi | İfaçı aşıq | |
| 73 | Aşıq Abakər | XX əsrin ortaları | Qandax kəndi | İfaçı aşıq | |
| 76 | Aşıq Məmmədrəsul Hacımməd oğlu Mirzəyev | 19271 – 1985 | Sumaylı kəndi | Ustad aşıq | |
| 77 | Süleymanov Süleyman Əhməd oğlu | 1942 | Muğanlı kəndi | Ustad aşıq | |
| 78 | İbrahimov Sabir Abdul oğlu | 1950 | Muğanlı kəndi | İfaçı aşıq | |
| 79 | İbrahimova Aytən Sabir qızı | 1976 | Muğanlı kəndi | İfaçı aşıq | Aşıq Ulduz |
| 80 | İbrahimov Sübhan Sabir oğlu | 1979 | Muğanlı kəndi | İfaçı aşıq | Aşıq Sabir |
| 81 | İbrahimov Tərlan Həsən oğlu | 1972 | Muğanlı kəndi | İfaçı aşıq | Aşıq Sabir |
| 82 | Musayev Səxavət Musa oğlu | 1977 | Muğanlı kəndi | İfaçı aşıq | Aşıq Camal, Aşıq Sirac |
| **El ŞAİRLƏRİ** | | | | | |
| 1 | Muradova Zalxa Mamed qızı | 1920-1998 | Qımır kəndi | El şairi | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2 | Qurban Murtuzəli oğlu Həsənov | 1924-cü il | Kəpənəkçi kəndi | El şairi | |
| 3 | Ramazanov Ramazan Camal oğlu | 1930 – 2011 | Muxax kəndi | El şairi | |
| 4 | Ömərov İsmayıl | 1944-cü il | Bəhmədli kəndi | El şairi | |
| 5 | Ramazanov Mustafa Camal oğlu | 1946 | Muxax kəndi | El şairi | |
| 6 | Muradov Əhməd İsmayıl oğlu (Əhməd Qımırlı) | 1937-1974 | Qımır kəndi | El şairi | |
| 7 | Şakir İbrahimli | 1948-ci il | Çobankol kəndi | El şairi | |
| 8 | Məhərrəm Dağlı | 1954-cü il | Muxax kəndi | El şairi | |
| 9 | İsrafilova Fatma Paşa qızı | 1952 | Zaqatala rayonunun Tala kəndi | El şairi | |
| 10 | Şirin Qəlbunur | 1952 | Zaqatala ra-yonunun Muğanlı kəndi | El şairi | |
| **TƏNBUR İFAÇILARI** | | | | | |
| 1 | Yusif İbadov | XIX əsrin əvvəlləri, XX əsrin ortaları | Cimcimax kəndi | Tənbur ifaçısı | |
| 2 | Muxaxlı Camaloğlu | 1930 –1990 | Muxax kəndi | Tənbur ifaçısı | |
| 3 | Ramazonov Mikayıl | 1939 – 1980 | Muxax kəndi | Tənbur ifaçısı | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 4 | Əli Danıyev | 1947 – 1970 | Muxax kəndi | tənbur-saz ifaçısı | |
| 5 | Məmmədov Səəddin | 1924 – 2006 | Muxax kəndi | Tənbur ifaçısı | |
| 6 | Məmmədov Şaban | 1939 | Muxax kəndi | Tənbur ifaçısı | Məmmə-dov Səəddin |
| 7 | Turacov Musa | 1934 | Suvagil kəndi | Tənbur ifaçısı | |
| 8 | Turacov Turac | 1969 | Suvagil kəndi | Tənbur-saz ifaçısı | Turacov Mussa |
| 9 | Tənburçu Aişə | | | Tənbur ifaçısı | |
| 10 | Məhəmmədov Məhəmməd Mikayıl oğlu | 1966 | Dardoqqaz kəndi | Tənbur ifaçısı | |
| 11 | Ponzolova Zəhra Əsəbəli qızı | 1979 | Danaçı kəndi | Tənbur ifaçısı | |

*Əlavə 2*

# SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

| № | Adı | Söyləyicilər haqqında məlumat |
|---|---|---|
| 1 | **Əliabadlı Aşıq Hüseyn** | 1. Əliabadlı Balayev Uluxan oğlu Aşıq Camal-dan (76 yaşında), yazıya alınmışdır.<br>2. Varxiyanlı Aşıq Cahangir Dalğının Arxiv materiallarından əldə etimişik (Aşıq Hüseyn haq-qında dastana da orada təsadüf etdik. |
| 2 | **Çobankollu Aşıq Kazım** | 3. Oğlu Vəliyev Avdırahman Kazım oğlundan (69 yaşında) və aşığın öz arxiv materiallarından yazıya almışıq. |
| 3 | **Qımırlı el şairi Muradov Əhməd İsmayıl oğlu** | 4. Zaqatalalı Muradov Cavadxandan (74 yaşın-da) yazıya alınmışdır (Xəstə Əhməd təxəllüsü ilə şeirlər yazıb).<br>5. Qımırlı Səmədova Samirə Qurban qızından (30 yaşında) yazıya alınmışdır. |
| 4 | **Varxiyanlı Aşıq Məhəmməd** | 6. Varxiyanlı Aşıq Mədətdən (75 yaşında) ya-zıya alınmışdır<br>7.Varxiyanlı el şairi İsmayıldan (59 yaşında) yazıya alınmışdır.<br>8. Varxiyanlı Aşıq Səaddədindən-Aşıq Mə-həmmədin nəticəsi, 1933-2007, yazıya alınmışdır.<br>9.Varxiyanlı el şairi İsmayıldan (63 yaşında) yazıya alınmışıq.<br>10.Kəpənəkçili Qurban Şabanovdan (80 yaşın-da) yazıya alınmışıq. |
| 5 | **Bəhmədlili aşıq Cahangir** | 11. Oğlu Aydından və şəxsi arxivindən |
| 6 | **Aşıq Əbdülə-zim (Əzim təxəllüsü ilə tanınıb)** | 12. Nəvəsi Teymur Məmmədov (33 yaşında) və arxiv materiallarından yazıya almışıq. |
| 7 | **Aşıq Könül** | 13. Vaxiyanlı aşıq Mədətdən (75 yaşında) ya-zıya almışıq. |
| 8 | **Aşıq Bəkir, Aşıq Arab,** | 14. Zaqatalanın Kəpənəkçi kənd sakini, Qur-ban Şabanovdan (85 yaşında) yazıya almışıq. |

| | | |
|---|---|---|
| | **Aşıq Dibro** | |
| 9 | **«Novruz və Qəndab dastanı»** | 15. Əliabadlı Balayev Uluxan oğlu aşıq Camaldan (76 yaşında), yazıya almışıq. |
| 10 | **Haylalar** | 16. Zaqatala rayonunun Muxax kənd sakini tənburçu Məmmədov Şabandan (70 yaşında) yazıya alınmışdır.<br>17. Suvagil kənd sakini tənburçu Turacov Musadan (78 yaşında) yazıya alınmışdır.<br>18. Suvagil kənd sakini tənburçu Turacov Turac (48 yaşında) yazıya alınmışdır<br>19. Qımırlı Həşimova Adilə İsax qızından (78 yaşında) yazıya alınmışdır.<br>20. Qımırlı Mikayılova Minəxanım Mikayıl qızı (80 yaşında) yazıya alınmışdır.<br>21. Əhmədova Kifayət Musa qızı (55 yaşında) yazıya alınmışdır<br>22. Mamrix kən sakini Əliyeva Pəri Şaban qızı (66 yaşında yazıya alınmışdır) |
| 11 | **Aşıq Mədət və Bəhrinazın dastanı, Aşıq Mədət və Gülüzarın dastanı, Aşıq Mədət və Talenin dastanı** | 23. Bəhmədlili Aşıq Mədətdən özündən (75 yaşında) yazıya almışıq |
| 12 | **Aşıq Valeh və Afət»in, «Mətin və Riyalə»nin dastanı - Aşıq Valeh və Afət»in, «Mətin və Riyalə»nin dastanı** | 24.Zaqatalalı Aşıq Valehdən (72 yaşında) yazıya almışıq. |

**Zümrüd İbrahim qızı Mənsimova.**
**Zaqatala aşıq mühiti,**
Bakı, “Elm və təhsil“, 2014.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Vüsal Abiyev**

Kompyuterdə yığan:
**Ruhəngiz Əlihüseynova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 216 səh
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də hazır deopozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.